# Ədəbiyyat

METODİK VƏSAİT

11



BİLAL HƏSƏNOV, SOLTAN ƏLİYEV, AYNUR MUSTAFAYEVA

# ƏDƏBİYYAT

# 11

Ümumi təhsil müəssisələrinin 11-ci sinifləri üçün Ədəbiyyat fənni üzrə dərsliyin
METODİK VƏSAİTİ

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0
International (CC BY-NC-SA 4.0)

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
bn@bakineshr.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

## BAŞLIQLAR

Fənn kurikulumu tələblərinin "Ədəbiyyat" dərslik komplektində reallaşdırılması mexanizmlərinin şərhi ....4
Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli ....9
XI sinifdə ədəbiyyat dərslərinin illik planlaşdırılması nümunəsi ....13
Fəndaxili və fənlərarası inteqrasiya ....25
Diferensial təlim imkanları ....27
Yeni təlim texnologiyalarından istifadə ....27
Şagirdlərin özünüqiymətləndirmə meyarları ....28
Müasir məktəbdaxili qiymətləndirmə ....29
Formativ qiymətləndirmə nümunələri ....31

**Mövzular üzrə təlim materialları ilə iş texnologiyasının şərhi**

**Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü (XIX əsrin 90-cı illərindən 1920-ci ilədək)**

Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü ....39
Cəlil Məmmədquluzadə. Həyatı, yaradıcılıq yolu ....42
Anamın kitabı ....44
Mirzə Ələkbər Sabir. Həyatı, yaradıcılıq yolu ....55
Neylərdin, ilahi?! ....57
*Kiçik summativ qiymətləndirmə materialı* ....61

Hüseyn Cavid. Həyatı, yaradıcılıq yolu ....65
İblis ....67
Əhməd Cavad. Həyatı, yaradıcılıq yolu ....75
Səsli qız ....77
*Kiçik summativ qiymətləndirmə materialı* ....86

**Cənubi Azərbaycan ədəbiyyatı**

Məhəmmədhüseyn Şəhriyar. Həyatı, yaradıcılıq yolu ....90
Türkün dili ....92

**SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI (1920–1991-ci illər)**

Azərbaycan ədəbiyyatında sosialist realizmi mərhələsi.(1920-60-cı illər) ....98
C.Cabbarlı. Həyatı, yaradıcılıq yolu ....100
Oqtay Eloğlu ....103
*Kiçik summativ qiymətləndirmə materialı* ....111

Səməd Vurğun. Həyatı, yaradıcılıq yolu ....115
Vaqif ....118
Rəsul Rza. Həyatı, yaradıcılıq yolu ....123
Qızılgül olmayaydı ....126

*Kiçik summativ qiymətləndirmə materialı* ........ 130

Mir Cəlal. Həyatı, yaradıcılıq yolu ........ 134
Açıq kitab........ 136

**Milli mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi (1960–1980-ci illər)**
Milli mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi ........ 142
İlyas Əfəndiyev. Həyatı, yaradıcılıq yolu ........ 144
Xurşidbanu Natəvan ........ 146
İsmayıl Şıxlı. Həyatı, yaradıcılıq yolu ........ 151
Dəli Kür ........ 153
*Kiçik summativ qiymətləndirmə materialı* ........ 160

**Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən bu günə qədər)**
Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı........ 164
Bəxtiyar Vahabzadə. Həyatı, yaradıcılıq yolu ........ 166
Şəhidlər........ 168

**Dünya ədəbiyyatından seçmə**
Çingiz Aytmatov. Həyatı, yaradıcılıq yolu ........ 175
Gün var əsrə bərabər........ 177
*Kiçik summativ qiymətləndirmə materialı* ........ 183

Gündəlik planlaşdırmaya aid nümunə........ 187
Mənbələr........ 206

## FƏNN KURİKULUMU TƏLƏBLƏRİNİN "ƏDƏBİYYAT" DƏRSLİK KOMPLEKTİNDƏ REALLAŞDIRILMASI MEXANİZMLƏRİNİN ŞƏRHİ

Ümumtəhsil məktəblərinin XI sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik komplekti "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" əsasında hazırlanmışdır. Ədəbiyyat fənni üzrə dərslik komplektində Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qarşıya qoyulan hədəflər əsas götürülmüşdür.

Dərslik və müəllim üçün metodik vəsaitdən ibarət "Ədəbiyyat" dərslik komplektində ümumi təhsilin milli konsepsiyasına uyğun olaraq, tam orta təhsil pilləsində şagirdin ədəbi nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirməsi, əsərləri mövzu, problem baxımından müqayisə etməsi, onlara əsaslandırılmış rəy bildirməsi, məzmununa və ideyasına yarandığı dövrün ictimai-siyasi və əxlaqi-etik dəyərləri kontekstində qiymət verməsi, fərqli mövzular üzrə müvafiq üslublarda yaradıcı xarakterli yazıları icra etməsi diqqət mərkəzində saxlanılmışdır.

Ədəbiyyat fənn kurikulumunun şagirdlərin mənbələr üzərində işləyərək görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə materiallar toplaması, müxtəlif ədəbi mövzularda təqdimatlar hazırlaması, ədəbi nailiyyətlərə münasibət bildirmək bacarığına yiyələnməsi ilə bağlı tələblərinin reallaşdırılması üçün dərslikdə müvafiq sual və tapşırıqlar sistemi işlənilmiş, müəllimlərə metodik tövsiyələr verilmişdir.

XI sinifdə XX əsrin əvvəllərindən bu günədək ədəbiyyatımızın keçdiyi inkişaf yolu ayrı-ayrı dövrlər üzrə icmallar və sənətkarın həyat və yaradıcılığına, ayrıca öyrənilən əsərinə həsr olunan monoqrafik mövzular şəklində tədris olunur. **Ədəbiyyatımızın inkişaf mərhələləri müəyyənləşdirilərkən Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin təsdiq etdiyi ədəbiyyat tarixinin dövrləşdirilməsi konsepsiyasında (AMEA-nın Rəyasət Heyətinin qərarı. № 14/1.23 sentyabr 2015-ci il) Azərbaycan ədəbiyyatı tarixinə, onun dövrləşdirilməsinə və ədəbi prosesə yeni yanaşma, elmi-metodoloji prinsip və tələblər diqqət mərkəzində saxlanılmışdır.** Ədəbi irsin və müasir ədəbi prosesin tədrisi, öyrənilməsi və mənimsənilməsi üçün əsas götürülən yeni elmi-metodoloji konsepsiyaya uyğun olaraq, müasir ədəbiyyatımızın kurikulumun məqsəd və vəzifələrinə, məzmun standartlarına, şagirdlərin yaş və mənimsəmə səviyyəsinə uyğun şəkildə öyrənilməsi imkanları müəyyənləşdirilmişdir.

Dərslik komplekti kurikulumun tələblərinin reallaşdırılması üçün müəllimin *yaradıcı, təşəbbüskar* fəaliyyətinə imkan yaradır. Müəllim, ilk növbədə, şagirdlərin bilik səviyyəsini nəzərə almalı, dərslikdəki sual və tapşırıqlardan yaradıcı istifadə etməli, təlimin təşkilinin daha səmərəli yolunu müəyyənləşdirməli, zəruri hallarda mürəkkəb problemlər, ədəbiyyatımızın aparıcı nümayəndələrinin bədii irsinin dəyərləndirilməsi ilə bağlı şərhlər vasitəsilə şagirdləri düzgün istiqamətləndirməlidir.

## DƏRSLİK

Ümumtəhsil məktəblərinin 11-ci sinifləri üçün "Ədəbiyyat" dərsliyinə milli və ümumbəşəri mənəvi dəyərləri özündə əks etdirən, həqiqi vətəndaşın tərbiyəsində mühüm rol oynayan əsərlər daxil edilmişdir. Bədii əsərlər seçilərkən demokratiya prinsiplərinə, xalqımızın milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən, milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan şəxsiyyət yetişdirilməsi vəzifəsi əsas götürülmüşdür.

Ədəbiyyat dərslərində öyrənilmək üçün Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı əsasında Azərbaycan dilində latın qrafikası ilə çap olunaraq məktəb və rayon kitabxanalarına yayılmış əsərlər seçilmişdir. Bu, şagirdlərə ixtisarla öyrənilən irihəcmli bədii mətnləri bütöv şəkildə mütaliə etmək və sənətkarın yaradıcılığı, öyrənilən əsəri ilə bağlı məqalələrdən istifadə etmək imkanı verəcəkdir.

"Ədəbiyyat" dərsliyinə daxil edilmiş təlim materialları Azərbaycan ədəbiyyatının XX əsrin əvvəllərindən müasir mərhələyədək dövrünü əhatə edir. Dərsliyə ədəbiyyatın inkişaf dövrlərini əks etdirən icmallar, klassik və müasir sənətkarların həyatı, yaradıcılığı ilə bağlı məlumat, monoqrafik şəkildə öyrənilən bədii nümunələr, müstəqil mütaliə üçün tövsiyə olunan əsərlər, lüğətlər daxil edilmişdir.

Dərslikdəki mövzular icmal və monoqrafik mövzular olmaqla iki qrupa ayrılır. Müəyyən ədəbi dövrə aid icmal mövzuları ədəbiyyat tarixinin bu və ya digər dövrünün ədəbi-mədəni mənzərəsi, qüdrətli sənətkarlarımızın həyat yolu və yaradıcılığı üzrə monoqrafik mövzuların öyrənilməsi üçün zəmin yaratmaq məqsədini güdür. Ədiblərin həyatı, yaradıcılıq yolu, ayrıca öyrənilən əsərləri ilə bağlı zəruri məlumatlar, tövsiyələr şagirdləri dərsdə qazandığı ədəbi bilik və bacarıqları əlavə mənbələrlə iş zamanı dərinləşdirməyə istiqamətləndirir.

Dərslikdə **düzgünlük, əyanilik, tərbiyəedicilik, tamlıq, ardıcıllıq, yaş səviyyəsinə uyğunluq, təlim vaxtına uyğunluq, oxunaqlılıq, inkişafetdiricilik, inklüzivlik, inteqrativlik** pedaqoji prinsipləri gözlənilmişdir.

Ədəbiyyatımızın interaktiv metodlar və informasiya-kommunikasiya texnologiyalarından istifadə ilə öyrədilməsi imkanları, təlimin öyrədici, inkişafetdirici, tərbiyəedici funksiyası diqqət mərkəzində saxlanılmışdır. Ədəbiyyatımızın inkişaf yolu, aparıcı nümayəndələrinin yaradıcılığının öyrənilməsi, ədəbi bilik və bacarıqların inkişaf etdirilməsi məqsədilə şagirdlərin müstəqil tədqiqatçılıq fəaliyyətinin metodik baxımdan təşkili yolları müəyyənləşdirilmişdir. Öyrənilən mövzu, problem üzrə əlavə məlumatların axtarılması, sistemləşdirilməsi, konspektləşdirilməsi, ümumiləşdirilməsinə şagirdin yaradıcı fəaliyyətinin tərkib hissəsi kimi yanaşılmışdır. Müstəqil araşdırmalar zamanı şagirdlərin dərsdə qazandığı biliklər dərinləşdirilməli, onlarda mövzu, problemlə bağlı tədqiqat aparmaq, təqdimat hazırlamaq, gerçəklikdə baş verən hadisələri təhlil etmək və qiymətləndirmək bacarıqları inkişaf etdirilməlidir.

İnteraktiv təlim prosesində mətn, sual və tapşırıqlar üzrə iş fərdi, qrup və ya cütlük şəklində araşdırmanı nəzərdə tutur, əməkdaşlıq, ünsiyyət qurmaq, birlikdə qərar qəbul etmək kimi həyati bacarıqların formalaşdırılmasına imkan yaradır.

Yeni təlim materialının öyrədilməsi üzrə iş aşağıdakı metodik sistem üzrə həyata keçirilir:

- **Motivasiya.** Bu zaman mövzu, problem üzrə əvvəl qazanılmış biliklər öyrəniləcək mövzu ilə əlaqələndirilir, yeni bilik və bacarıqların mənimsənilməsi üçün zəmin yaradılır. Yeni mövzuya maraq oyatmaq üçün şagirdlərin əsərdə qoyulmuş problemə ilkin münasibətini aşkara çıxarmağa, mövzunu həyatla əlaqələndirməyə imkan yaradan müxtəlif suallar, tapşırıqlardan da istifadə olunur, müzakirə aparılır. Motivasiyanın bilavasitə davamı kimi**,** şagirdlərin fəal iştirakı ilə araşdırılacaq problem üzrə **tədqiqat sualı müəyyənləşdirilir.**
- **Tədqiqatın aparılması zamanı** mətnin oxusu, sual və tapşırıqlar üzrə araşdırma fərdi, cütlük və qrup şəklində yerinə yetirilə bilər. Sual və tapşırıqlar mətn üzrə öyrənilənləri tamamlamaq, dərinləşdirməklə yanaşı, əsərin məzmununun mənimsənilməsi və təhlili, şifahi və yazılı nitq üzrə bacarıqları inkişaf etdirmək məqsədi izləyir.

Həm icmal, həm də monoqrafik mövzular üzrə mətnlərdə ədəbi dövr, sənətkarın həyat və yaradıcılığı, əsərin təhlili ilə bağlı şagirdləri araşdırmaya yönləndirən açıqlamalar verilir. Aparılacaq araşdırmanın əsas cizgiləri, mənbələrlə iş, müstəqil fəaliyyət zamanı dərinləşdirilməsi və zənginləşdirilməsinə ehtiyac duyulan məsələlər qeyd edilir.

- **Təqdimatların mübadiləsi və müzakirəsi** diskussiya, müxtəlif mövqelərin aşkara çıxarılması, söylənilən fikirlərin əsaslandırılması zəminində reallaşdırılır.
- **Yaradıcı tətbiqetmə.** Şagirdləri mövzu üzrə öyrənilənləri möhkəmləndirməyə, yeni material üzərində tətbiq etməyə sövq edən sual və tapşırıqlardan istifadə olunur.
- **Nəticə və ümumiləşdirmə.** Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirir.
- **Qiymətləndirmə, refleksiya** mərhələsində müəllimin dərs ərzində apardığı qeydlər əsasında fərdi və qrup üzrə qiymətləndirmə aparılır. Yeni biliyin mənimsənilməsi prosesinə bir daha nəzər salınır. Şagirdlərin təqdimatları, dərs zamanı müzakirədə iştirak səviyyəsi barədə yığcam rəy mübadiləsi aparılır, nailiyyətlər və çatışmazlıqlar nəzərə çatdırılır, tövsiyələr verilir.
- **Evdə iş.** Araşdırma şagirdlərin evdə, kitabxanada mənbələrlə iş, müstəqil tədqiqatçılıq fəaliyyəti ilə davam etdirilir. Bu məqsədlə verilən sual və tapşırıqlar yaradıcı, tətbiqedici xarakter daşıyır, onları yerinə yetirmək üçün hansı mənbələrdən istifadə edilməsinin məqsədəuyğun olması diqqətə çatdırılır.

**Müəllim üçün metodik vəsait**

Müəllim üçün metodik vəsaitdə təlim materiallarının mənimsənilməsi və müvafiq fəaliyyət növlərinin tətbiqi üzrə iş dərsliyə uyğun olaraq, üç əsas metodoloji mərhələyə bölünür: *mövzu ilə bağlı əvvəlki biliklərin aktuallaşdırılması; yeni biliyin mənimsənilməsi; bilik və bacarıqların tətbiqi.*

Klassik və müasir ədəbiyyat nümunələri üzrə dərslərdə, eləcə də şagirdlərin mənbələrlə müstəqil işinin təşkilində müəllimin bələdçilik fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu sinifdə mürəkkəb süjetli və kompozisiyalı, müxtəlif janrlarda irihəcmli əsərlərin, icmal mövzularının qavranılmasında yarana bilən müəyyən çətinliklər təlim prosesində müəllimin yönləndirici şərhlərinə xüsusi diqqət yetirilməsini tələb edir.

**XI sinif üzrə məzmun standartları və təlim nəticələri**

XI sinfin sonunda şagird:

- ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə etməyi bacarır;
- müxtəlif ədəbi növdə olan mürəkkəb kompozisiyalı əsərlərin məzmununu qavrayır, mənəvi dəyərlər, fakt və hadisələrlə, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;
- əsərin mövzusunu, ideyasını, başlıca problemini və konfliktini müəyyənləşdirir, bağlı olduğu dövrün ictimai-siyasi, estetik yanaşmalarından çıxış etməklə əsərə münasibət bildirir;
- çoxsüjetli, mürəkkəb kompozisiyalı epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə təhlil edir;
- şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə müxtəlif üsullardan (nağıletmə, təsvir, nümayiş) istifadə etməklə ümumiləşdirmələr aparır, nəticə çıxarır;
- müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktin həlli yollarına münasibətini tutarlı dəlillərlə, məntiqi ardıcıllığı gözləməklə, ümumiləşdirmələr aparmaqla əsaslandırır.

**Məzmun xətləri üzrə əsas və alt standartlar**

**1. Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

*1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.*

1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (hekayə, povest, roman, dram, komediya, faciə, poema) tanış olmayan sözlərin, ifadələrin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.

1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir.

1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir.

1.1.4. Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir.
1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, mürəkkəb süjetli və kompozisiyalı ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, sinekdoxa, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, kinayə (sarkazm), inversiya) müəyyənləşdirir.
*1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.*
1.2.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir.
1.2.2. Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır.
1.2.3. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir.
1.2.4. Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir.

## 2. Şifahi nitq

**Şagird:**
*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*
2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir.
2.1.2. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır.
*2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.*
2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir.

## 3. Yazılı nitq

**Şagird:**
*3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.*
3.1.1. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir.
3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.
3.1.3. 3,5-4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞDIRILMASI CƏDVƏLİ

| BÖLMƏ VƏ MÖVZULAR | | Məzmun xətti 1 | | | | | | | | | Məzmun xətti 2 | | | Məzmun xətti 3 | | | Saatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M.st. 1.1 | | | | | M.st. 1.2 | | | | M.st. 2.1 | | M. st. 2.2 | M.st. 3.1 | | | |
| | | 1.1.1 | 1.1.2 | 1.1.3 | 1.1.4 | 1.1.5 | 1.2.1 | 1.2.2 | 1.2.3 | 1.2.4 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1 | 3.1.2 | 3.1.3 | |
| Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü | 1. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü | | | | | | | | | | + | | + | | | | 1 |
| | 2. C. Məmmədquluzadə. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | + | + | | | | | | 1 |
| | 3. C. Məmmədquluzadə. “Anamın kitabı”. Məzmun üzrə iş | + | | + | | + | | | | | | | | | | | 1 |
| | 4. C. Məmmədquluzadə. “Anamın kitabı”. Məzmun üzrə iş | + | | + | + | + | | | | | | | | | | | 1 |
| | 5. C. Məmmədquluzadə. “Anamın kitabı”. Təhlil üzrə iş | | | | | | + | | | + | | + | | | | | 1 |
| | 6. C. Məmmədquluzadə. “Anamın kitabı”. Təhlil üzrə iş | | | | | | + | + | + | + | | | | | | | 1 |
| | 7. C. Məmmədquluzadə. “Anamın kitabı”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | | | | | | | | + | + | + | 1 |
| | 8. M.Ə.Sabir. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | | 1 |
| | 9. M.Ə.Sabir. “Neylərdin, ilahi?!”. Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 10. M.Ə.Sabir. “Neylərdin, ilahi?!”. Təhlil üzrə iş | | + | | | | | | + | + | | | | | | | 1 |
| | 11. Kiçik *summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 12. H.Cavid. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | + | 1 |
| | 13. H.Cavid. “İblis”. Məzmun üzrə iş | + | | | + | + | | | | | + | | + | | | | 1 |
| | 14. H.Cavid. “İblis”. Məzmun üzrə iş | + | | | + | + | | | | | + | | + | | | | 1 |
| | 15. H.Cavid. “İblis”. Təhlil üzrə iş | | + | | | | | + | | + | | + | | | | | 1 |

| | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 16. H.Cavid. “İblis”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | | | | | | | | + | + | + | 1 |
| | 17. Ə.Cavad. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | + | | + | | | | | 1 |
| | 18. Ə.Cavad. “Səsli qız”. Məzmun üzrə iş | + | | | + | + | | | | | | + | | | | | 1 |
| | 19. Ə.Cavad. “Səsli qız”. Məzmun üzrə iş | + | | + | | + | | | | | | + | | | | | 1 |
| | 20. Ə.Cavad. “Səsli qız”. Təhlil üzrə iş | | | | | | + | + | | + | | | | | | | 1 |
| | 21. Ə.Cavad. “Səsli qız”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | | | | | | | | + | + | + | 1 |
| | *22.* Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | | | | | | 1 |
| Cənubi Azərbaycan ədəbiyyatı | 23. M.Şəhriyar. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | | | + | + | | | | 1 |
| | 24. M.Şəhriyar. “Türkün dili”. Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 25. M.Şəhriyar. “Türkün dili”. Təhlil üzrə iş | | | | | | | | + | + | | | | | | | 1 |
| | 26. M.Şəhriyar. “Türkün dili”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | | | | | | | | + | + | + | 1 |
| Sovet dövrü Azərbaycan ədəbiyyatı Sosializm realizmi mərhələsi | 27. Sovet dövrü Azərbaycan ədəbiyyatı | | | | | | | | | | + | | + | | | + | 1 |
| | 28. C.Cabbarlı. Həyatı, yaradıcılıq yolu | | | | | | + | | | | + | | | | | | 1 |
| | 29. C.Cabbarlı. “Oqtay Eloğlu”. Məzmun üzrə iş | + | | + | | + | | | | | | | | | | | 1 |
| | 30. C.Cabbarlı. “Oqtay Eloğlu”. Məzmun üzrə iş | + | | + | | + | | | | | | | | | | | 1 |
| | 31. C.Cabbarlı. “Oqtay Eloğlu”. Təhlil üzrə iş | | | | | | + | | | + | | + | | | | | 1 |
| | 32. C.Cabbarlı. “Oqtay Eloğlu”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | | | | | | | | + | + | + | 1 |
| | 33. Kiçik *summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 34. Böyük *summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |

| | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sosializm realizmi mərhələsi | 35. S.Vurğun. Həyatı, yaradıcılıq yolu | | | | | | + | | | | + | | | | | | 1 |
| | 36. S.Vurğun. "Vaqif". Məzmun üzrə iş | + | | + | + | + | | | | | | | | | | | 1 |
| | 37. S.Vurğun. "Vaqif". Məzmun üzrə iş | + | | + | + | + | | | | | | | | | | | 1 |
| | 38. S.Vurğun."Vaqif". Təhlil üzrə iş | | | | | | + | | + | + | | | | | | | 1 |
| | 39. R.Rza. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | | | + | + | | | | 1 |
| | 40. R.Rza. "Qızılgül olmayaydı". Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 41. R.Rza. "Qızılgül olmayaydı". Təhlil üzrə iş | | + | | | | | + | | + | | | | | | | 1 |
| | 42. Kiçik *summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 43. Mir Cəlal. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | | 1 |
| | 44. Mir Cəlal. "Açıq kitab". Məzmun üzrə iş | + | | | + | + | | | | | + | | + | | | | 1 |
| | 45. Mir Cəlal. "Açıq kitab". Məzmun üzrə iş | + | | | + | + | | | | | + | | + | | | | 1 |
| | 46. Mir Cəlal. "Açıq kitab". Təhlil üzrə iş | | | | | | | + | | + | | + | | | | | 1 |
| Milli -mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi | 47. Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi | | | | | | | | | | + | | + | | | | 1 |
| | 48. İ.Əfəndiyev. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | | 1 |
| | 49. İ. Əfəndiyev. "Xurşidbanu Natəvan." Məzmun üzrə iş | + | | + | | + | | | | | + | | + | | | | 1 |
| | 50. İ. Əfəndiyev."Xurşidbanu Natəvan". Məzmun üzrə iş | + | | | | + | | | | | + | | + | | | | 1 |
| | 51. İ.Əfəndiyev "Xurşidbanu Natəvan". Təhlil üzrə iş | | | | | | | + | | + | | + | | | | | 1 |
| | 52. İ.Şıxlı. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | | 1 |
| | 53. İ.Şıxlı."Dəli Kür". Məzmun üzrə iş | + | | | + | + | | | | | + | | + | | | | 1 |
| | 54. 54.Şıxlı. "Dəli Kür". Məzmun üzrə iş | + | | | + | + | | | | | + | | + | | | | 1 |
| | 55. İ.Şıxlı. "Dəli Kür". Təhlil üzrə iş | | | | | | | + | + | + | | + | | | | | 1 |
| | 56. Şıxlı."Dəli Kür". Təhlil üzrə iş | | | | | | | + | + | + | | + | | | | | 1 |
| | 57. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı | 58. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı | | | | | | | | | | + | | + | | | | 1 |
| | 59. B.Vahabzadə. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | | 1 |
| | 60. B.Vahabzadə. “Şəhidlər”. Məzmun üzrə iş | + | | | + | + | | | | | + | | | | | | 1 |
| | 61. B.Vahabzadə. “Şəhidlər.” Məzmun üzrə iş | + | + | | + | + | | | | | | | | | | | 1 |
| | 62. B.Vahabzadə. “Şəhidlər”. Təhlil üzrə iş | | + | | | | | + | | + | | + | | | | | 1 |
| Dünya ədəbiyyatından seçmə | 63. Ç.Aytmatov. Həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | | 1 |
| | 64. Ç.Aytmatov. “Gün var əsrə bərabər”. Məzmun üzrə iş | + | | + | + | + | | | | | | | | | | | 1 |
| | 65. Ç.Aytmatov. “Gün var əsrə bərabər”. Məzmun üzrə iş | + | | + | + | + | | | | | + | | | | | | 1 |
| | 66. Ç.Aytmatov. “Gün var əsrə bərabər”. Təhlil üzrə iş | | + | | | | | + | | + | | + | | | | | 1 |
| | 67. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 68. *Böyük summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |

Qeyd. Ədəbiyyat fənn kurikulumunun tələbinə görə 1.1.1 və 1.1.5 standartları əsərin məzmunu üzrə dərslərdə reallaşdırılır. Metodik vəsaitdə bu standartlar üzrə işin aparılması ilə bağlı tövsiyələr verilmişdir. Gündəlik dərs planı hazırlayarkən müəllimin həmin standartları və müvafiq təlim nəticələrini qeyd etməsi məqsədəuyğundur.

## XI sinifdə ədəbiyyat dərslərinin illik planlaşdırılması nümunəsi

Tövsiyə xarakterli illik iş planı nümunəsi həftədə 2 saat olmaqla ildə 34 həftə və ya 68 saat üçün nəzərdə tutulmuşdur. Müəllim mövzuların tədrisi zamanı qarşıya qoyduğu təlim məqsədlərindən və şəraitdən asılı olaraq, tövsiyə olunan illik planlaşdırma nümunəsində müvafiq dəyişiklik edə bilər.

| Həftələr | Mövzular | Reallaşdırılan standartlar | Fənlərarası inteqrasiya | Strategiyalar: metodlar, iş formaları | Resurslar | Qiymətləndirmə üsul və vasitələri |
|---|---|---|---|---|---|---|
| **AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏNQİDİ REALİZM VƏ ROMANTİZM DÖVRÜ. (XIX ƏSRİN 90-CI İLLƏRINDƏN 1920-Cİ İLƏDƏK)** | | | | | | |
| 1-ci həftə | Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü | 2.1.1.<br>2.2.1. | Az.d.<br>2.1.2.<br>X.d.<br>2.1.2.<br>3.1.3.<br>Az.tar.<br>5.1.1. | Müsahibə, müzakirə, BİBÖ, problemin həlli, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri, lüğətlər. Qarayev Y. Seçilmiş əsərləri. 5 clddə. III cild. Bakı:Elm, 2015. | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | C. Məmmədquluzadə. Həyatı, yaradıcılıq yolu | 1.2.4.<br>2.1.1. | Az.d.<br>1.2.2.<br>X.d.<br>2.1.2. | Müzakirə, təqdimat, diskussiya, fərdi iş, kiçik qruplarda iş | Dərslik, şəkillər, iş vərəqləri,lüğətlər, Məmmədquluzadə C. Əsərləri. Dörd clddə. I cild, Bakı: Öndər, 2004. | Təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| 2-ci həftə | C.Məmmədquluzadə. “Anamın kitabı”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>1.2.2.<br>X.d.<br>1.1.1.<br>3.1.3. | Oxu, müsahibə, müzakirə, təqdimat, diskussiya, cütlüklə iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, iş vərəqləri, şəkillər, Məmmədquluzadə C. Əsərləri. Dörd clddə. I cild, Bakı: Öndər, 2004. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə vərəqləri, tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| | C. Məmmədquluzadə. “Anamın kitabı”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>1.1.4.<br>1.1.5. | Az.d.<br>1.2.2.<br>2.1.1.<br>X.d.<br>1.1.1.<br>3.1.1. | Oxu, müzakirə, təqdimat, cütlüklə, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri. Məmmədquluzadə C. Əsərləri. Dörd clddə. I cild, Bakı: Öndər, 2004. | Təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə və- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | rəqləri), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 3-cü həftə | C. Məmmədquluzadə. “Anamın kitabı”. Təhlil üzrə iş | 1.2.1.<br>1.2.4.<br>2.1.2. | Az.d.<br>1.2.2.<br>1.2.4.<br>X.d.<br>2.1.1.<br>2.1.2.<br>3.1.4. | Oxu, müsahibə, müzakirə, problemin həlli, cütlüklə, kiçik və böyük qruplarda iş, təqdimat | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə. I cild, Bakı: Öndər, 2004. | Oxu (mətn), təqdimat (meyar cədvəli), müşahidə (müəllimin qeydiyyat vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | C. Məmmədquluzadə. “Anamın kitabı”. Təhlil üzrə iş | 1.2.1.<br>1.2.2.<br>1.2.3.<br>1.2.4 | Az.d.<br>1.2.2.<br>1.2.4.<br>X.d.<br>2.1.1.<br>2.1.2.<br>3.1.4. | Oxu, müsahibə, diskussiya, Venn diaqramı, təqdimat, müzakirə, kiçik qruplarda iş. | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə. I cild, Bakı: Öndər, 2004. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 4-cü həftə | C. Məmmədquluzadə. “Anamın kitabı”. Tətbiq. Müzakirə. Yaradıcı iş | 3.1.1..<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3.<br>X.d.<br>4.1.1.<br>4.1.2.<br>4.1.3.<br>4.1.4. | Müsahibə, tədqiqat, yazı, problemin həlli, bütün siniflə iş | Dərslik, Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə. I cild, Bakı: Öndər, 2004. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |
| | M.Ə.Sabir. Həyatı, yaradıcılıq yolu | 2.1.1.<br>2.2.1.. | Az.d.<br>1.2.2.<br>X.d.<br>2.1.2. | Müsahibə, təqdimat, müzakirə, fərdi iş, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, Mirzə Ələkbər Sabir. Hophopnamə. İki ilddə. I cild.Bakı, Şərq-Qərb”, 2004. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |
| 5-ci həftə | M.Ə.Sabir.” Neylərdin, ilahi?!”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5. | Az.d.<br>1.2.2.<br>2.1.1.<br>X.d.<br>1.1.1.<br>3.1.1. | Oxu, müsahibə, müzakirə, təqdimat, diskussiya, cütlüklə iş, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, lüğətlər. Mirzə Ələkbər Sabir. Hophopnamə. İki cilddə. I cild. Bakı, “Şərq-Qərb”, 2004. . | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | M.Ə.Sabir. ”Neylərdin, ilahi?!”. Təhlil üzrə iş | 1.1.2.<br>1.2.3.<br>1.2.4. | Az.d.<br>1.2.2.<br>1.2.4.<br>X.d.<br>2.1.1.<br>2.1.2.<br>3.1.4. | Müsahibə, ikihissəli gündəlik, müzakirə, təqdimat, kiçik qruplarda iş, Venn diaqramı, müqayisə cədvəli | Dərslik, iş vərəqləri. Mirzə Ələkbər Sabir. Hophopnamə. İki cilddə. I cild. Bakı, “Şərq-Qərb”, 2004. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |
| 6-cı həftə | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | H.Cavid. Həyatı, yaradıcılıq yolu | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.2.<br>X.d.<br>2.1.2.<br>Az.tar.<br>5.1.1. | Təqdimat, müzakirə, BİBÖ, diskussiya, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri H.Cavid. Əsərləri. Beş cilddə. I cild, Bakı: Lider Nəşriyyat, 2005. | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 7-ci həftə | H.Cavid. “İblis”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5.<br>2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.2.<br>2.1.1.<br>X.d.<br>1.1.1.<br>3.1.1<br>Az.tar.<br>5.1.2. | Oxu, müsahibə, müzakirə, təqdimat, diskussiya, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, H.Cavid. Əsərləri. Beş cilddə. III cild, Bakı: Lider Nəşriyyat, 2005. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |
| | H.Cavid. “İblis”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5.<br>2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.2.<br>2.1.1.<br>X.d.<br>1.1.1.<br>3.1.1<br>Az.tar.<br>5.1.2. | Müsahibə, təqdimatlar, müzakirə, diskussiya, problemin həlli, fərdi iş, kiçik qruplarda iş, ikihissəli gündəlik | Dərslik, iş vərəqləri, H.Cavid Əsərləri. Beş cilddə. III cild, Bakı: Lider Nəşriyyat, 2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| 8-ci həftə | H.Cavid. “İblis”. Təhlil üzrə iş | 1.1.2.<br>1.2.2.<br>1.2.4.<br>2.1.2. | Az.d.<br>1.2.2.<br>1.2.4.<br>X.d.<br>2.1.1.<br>2.1.2.<br>3.1.4<br>Az.tar.<br>5.1.3. | Təqdimat, müzakirə, problemin həlli, kiçik qruplarda iş, diskussiya | Dərslik, iş vərəqləri, .Cavid..Əsərləri. Beş cilddə. III cild, Bakı: Lider Nəşriyyat, 2005. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |
| | H.Cavid. “İblis”. Tətbiq.Müzakirə. Yaradıcı iş | 3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3.<br>X.d.<br>4.1.1.<br>4.1.2.<br>4.1.3.<br>4.1.4. | Müsahibə, müzakirə, kiçik və böyük qrupda (bütün siniflə) iş | Dərslik, iş vərəqləri, H.Cavid. Əsərləri. Beş cilddə. III cild, Bakı:Lider Nəşriyyat, 2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | Az.tar.<br>5.1.3. | | | |
| 9-cu həftə | Ə.Cavad. Həyatı, yaradıcılıq yolu | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.2.<br>X.d.<br>2.1.2.<br>Az.tar.<br>5.1.1. | Əqli hücum, müsahibə, müzakirə, təqdimat, ikihissəli gündəlik, problemin həlli fərdi iş, cütlük şəklində iş | Dərslik, lüğətlər, iş vərəqləri, Ə. Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), tapşırıq-vermə (tapşırıq) |
| | Ə.Cavad. “Səsli qız”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5.<br>2.1.2. | Az.d.<br>1.2.2.<br>2.1.1.<br>X.d.<br>1.1.1.<br>3.1.1. | Müsahibə, təq-dimat, müzakirə, əqli hücum, problemin həlli, cütlüklə, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, lüğətlər, Ə.Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), tapşırıqvermə (tap-şırıq) |
| 10-cu həftə | Ə.Cavad. “Səsli qız”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>1.1.5.<br>2.1.2. | Az.d.<br>1.2.2.<br>2.1.1.<br>X.d.<br>1.1.1.<br>3.1.1. | Müsahibə, təqdimat, müza-kirə, problemin həlli, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab, tapşırıqvermə (tapşırıq), layihə (şa-girdin təqdimatı) |
| | Ə.Cavad. “Səsli qız”. Təhlil üzrə iş | 1.2.1.<br>1.2.2.<br>1.2.4. | Az.d.<br>1.2.2.<br>1.2.4.<br>X.d.<br>2.1.1.<br>2.1.2.<br>3.1.4. | Oxu, obrazlar xəritəsi, ikihissəli gündəlik, təqdi-mat, müzakirə, kiçik qruplarda iş | Dərslik, iş vərəq-ləri, Ə. Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005. | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tap-şırıq), layihə (şa-girdin təqdimatı) |
| 11-ci həftə | Ə.Cavad. “Səsli qız”. Tətbiq. Müzakirə. Yaradıcı iş | 3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3.<br>X.d.<br>4.1.1.<br>4.1.2.<br>4.1.3.<br>4.1.4. | Müsahibə, yazı, problemin araşdırılması, tədqiqat, fərdi iş, böyük qrupda iş | Ə.Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 12-ci həftə | **CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI** | | | | | |
| | M.Şəhriyar. Həyatı, yaradıcılıq yolu | 2.1.2. 2.2.1. | Az.d. 1.2.2. X.d. 2.1.1. | Oxu, müsahibə, tədqiqat, problemin həlli, təqdimat, müzakirə, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, M. Şəhriyar. Seçilmiş əsərləri. Bakı:Avrasiya Press,2005. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), tapşırıq-vermə (tapşırıq) |
| | M.Şəhriyar. “Türkün dili”. Məzmun üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. | Az.d. 1.2.2. 2.1.1. X.d. 1.1.1. 3.1.1. | Əqli hücum, oxu, təqdimat, cütlüklə, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəq-ləri, M. Şəhriyar. Seçilmiş əsərləri. Bakı:Avrasiya Press,,2005. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), tapşırıqver-mə (tapşırıq) |
| 13-cü həftə | M.Şəhriyar. “Türkün dili”. Təhlil üzrə iş | 1.2.3. 1.2.4. | Az.d. 1.2.2. 1.2.4. X.d. 2.1.1. 2.1.2. 3.1.4. | Müsahibə, təqdimat, müza-kirə, problemin həlli, Venn diaqramı, kiçik qruplarda iş | Dərslik, lüğətlər, iş vərəqləri, M. Şəhriyar. Seçilmiş əsərləri. Bakı:Avrasiya Press, 2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab, tapşırıqvermə (tapşırıq) |
| | M.Şəhriyar. “Türkün dili”. Tətbiq. Müzakirə. Yardıcı iş | 3.1.1. 3.1.2. 3.1.3. | Az.d. 3.1.1. 3.1.2. 3.1.3. X.d. 4.1.1. 4.1.2. 4.1.3. 4.1.4. | Müsahibə, yazı, tədqiqat, problemin həlli, fərdi iş | M. Şəhriyar. Seçilmiş əsərləri. Bakı:Avrasiya Press,,2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi), müşahidə. |
| | **SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI (1920-1991-Cİ İLLƏR)** | | | | | |
| 14-cü həftə | Azərbaycan ədəbiyyatın da sosialist realizmi mərhələsi (1920–1960-cı illər) | 2.1.1. 2.2.1. 3.1.3. | Az.d. 1.2.2. 1.2.4. X.d. 2.1.1. 3.1.3. Az.tar. 31.3. | Müsahibə, oxu, müzakirə, diskussiya, BİBÖ, problemin həlli, kiçik və böyük qruplarda iş | Dərlik, iş vərəqləri, | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), tapşırıqvermə (tap-şırıq) |
| | C.Cabbarlı. Həyatı, yaradıcılıq yolu | 1.2.1. 2.1.1. | Az.d. 1.2.2. X.d. 2.1.1. 2.1.3. 2.1.2. | Oxu, müsahibə, müzakirə, İNSERT, tədqi-qat, problemin həlli, cütlüklə, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri,. C.Cabbarlı. Əsərləri. Dörd cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), tapşırıq-vermə (tapşırıq) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 15-ci həftə | C.Cabbarlı. "Oqtay Eloğlu."Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>1.1.5. | Az.d.<br>1.2.2.<br>2.1.1.<br>X.d.<br>2.1.3.<br>3.1.1. | Əqli hücum, oxu, təqdimat, müzakirə, ikihissəli gündəlik, cütlüklə, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, lüğətlər, C.Cabbarlı. Əsərləri. Dörd cilddə. I I cild, Bakı: Şərq-Qərb, 2005. | Oxu (mətn), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | C.Cabbarlı. "Oqtay Eloğlu". Məzmun üzrə iş | 1.1.1<br>1.1.3.<br>1.1.5. | Az.d.<br>1.2.1.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>1.1.1.<br>2.1.3. | Oxu, müsahibə, problemin həlli, təqdimat, müzakirə, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, lüğətlər, C.Cabbarlı. Əsərləri. Dörd cilddə. II cild, Bakı: Şərq-Qərb, 2005. | Oxu (mətn), təqdimat (meyar cədəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 16 -cı həftə | C.Cabbarlı. "Oqtay Eloğlu".Təhlil üzrə iş | 1.2.1.<br>1.2.4.<br>2.1.2. | Az.d.<br>1.2.2.<br>1.2.4.<br>X.d.<br>2.1.1.<br>2.1.2.<br>3.1.4. | Oxu, debat, problemin həlli, təqdimat, müzakirə, diskussiya, cütlüklə, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, C.Cabbarlı. Əsərləri. Dörd cilddə. II cild, Bakı: Şərq-Qərb, 2005. | Oxu (mətn), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | C.Cabbarlı. "Oqtay Eloğlu." Tətbiq. Müzakirə. Yaradıcı iş | 3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3.<br>X.d.<br>4.1.1.<br>4.1.2.<br>4.1.3.<br>4.1.4. | Müsahibə, müzakirə, yazı, fərdi iş, problemin həlli | C.Cabbarlı. Əsərləri. Dörd cilddə. II cild, Bakı: Şərq-Qərb, 2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |
| 17-ci həftə | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | *Böyük summativ qiymətləndirmə* | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 18-ci həftə | S.Vurğun. Həyatı, yaradıcılıq yolu | 1.2.1.<br>2.1.1. | Az.d.<br>1.2.2.<br>X.d.<br>2.1.1.<br>2.1.2. | Müsahibə, BİBÖ, təqdimat, müzakirə, diskussiya, cütlüklə iş, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, S.Vurğun. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | S.Vurğun. “Vaqif”. Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 1.1.4. 1.1.5. | Az.d. 1.2.2. 2.1.1. X.d. 2.1.3. 3.1.1. Az.tar. 3.1.1. 4.11. | Oxu, əqli hücum, müsahibə, təqdimat, müzakirə, problemin həlli, cütlük, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, lüğətlər, S.Vurğun. Seçilmiş əsərləri. Beş clddə. IV cild. Bakı: Şərq-Qərb, 2005. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| 19-cu həftə | S.Vurğun. “Vaqif”. Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 1.1.4. 1.1.5. | Az.d. 2.1.1. 2.1.2. X.d. 1.1.1. 2.1.3. Az.tar. 2.1.1. 3.1.1. 4.1.1. | Oxu, müsahibə, təqdimat, müzakirə, kiçik qruplarda iş | Dərslik, lüğətlər, iş vərəqləri, S.Vurğun. Seçilmiş əsərləri. Beş clddə. IV cild. Bakı: Şərq-Qərb, 2005. | Oxu (mətn), müsahibə (müəllimin diaqnostik qeydiyyat vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | S.Vurğun.“ Vaqif”. Təhlil üzrə iş | 1.2.1. 1.2.3. 1.2.4. | Az.d. 1.2.2. 1.2.4. X.d. 2.1.1. 2.1.2. 3.1.4. Az.tar. 1.4.1. | Oxu, müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, iş vərəqləri, S.Vurğun. Seçilmiş əsərləri. Beş clddə. IV cild. Bakı: Şərq-Qərb, 2005. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 20-ci həftə | R.Rza. Həyatı, yaradıcılıq yolu | 2.1.2. 2.2.1. | Az.d. 1.2.2. X.d. 2.1.1. 2.1.2. | Oxu, müsahibə, təqdimat, müzakirə, problemin həlli, cütlüklə, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, R.Rza. Seçilmiş əsərləri. 5 clddə. I cild. Bakı: Öndər,2005, R.Rza. Seçilmiş əsərləri. 5 clddə. V cild. Bakı: Öndər,2005, . | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | R.Rza. “Qızılgül olmayaydı”. Məzmun üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. | Az.d. 1.2.2. 2.1.1. X.d. 2.1.3. 3.1.1. Az.tar. 1.2.1. | Oxu, müsahibə, tədqiqat, müzakirə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, R.Rza. Seçilmiş əsərləri. 5 clddə. I cild. Bakı: Öndər,2005, R.Rza. Seçilmiş əsərləri. 5 clddə. V cild. Bakı: Öndər, 2005, | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 21-ci həftə | R.Rza. “Qızılgül olmayaydı”. Təhlil üzrə iş | 1.1.2. 1.2.2. 1.2.4. | Az.d. 1.2.2. 1.2.4. X.d. 2.1.1. 2.1.2. 3.1.4. Az.tar. 1.2.1. | Oxu, müsahibə, təqdimat, ikihissəli gündəlik, müzakirə, problemin həlli, fərdi iş, cütlüklə, kiçik və böyük qrupda iş | Dərslik, lüğətlər, iş vərəqləri. R.Rza. Seçilmiş əsərləri. 5 cilddə. I cild. Bakı: Öndər, 2005, R.Rza. Seçilmiş əsərləri. 5 cilddə. V cild. Bakı : Öndər,2005, | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| 22-ci həftə | Mir Cəlal. Həyatı, yaradıcılıq yolu | 2.1.1. 2.2.1. | Az.d. 1.2.2. X.d. 2.1.1. 2.1.2. | Müsahibə, təqdimat, BİBÖ, müzakirə, diskussiya, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| | Mir Cəlal. “Açıq kitab”. Məzmun üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. 2.1.1. 2.2.1. | Az.d. 1.2.2. 2.1.1. X.d. 2.1.3. 3.1.1. | Oxu, müsahibə, tədqiqat, ikihissəli gündəlik, müzakirə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, lüğətlər, Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 23-cü həftə | Mir Cəlal. “Açıq kitab”. Məzmun üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. 2.1.1. 2.2.1. | Az.d. 1.2.2. 2.1.1. X.d. 2.1.3. 3.1.1. | Oxu, müsahibə, ikihissəli gündəlik, tədqiqat, müzakirə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, iş vərəqləri, Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | Mir Cəlal. “Açıq kitab”. Təhlil üzrə iş | 1.2.2. 1.2.4. 2.1.2. | Az.d. 1.2.2. 1.2.4. X.d. 2.1.1. 2.1.2. 3.1.4. | Oxu, təqdimat, müzakirə, xarakterlər xəritəsi, problemin həlli, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005. | Təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 24-cü həftə | **MİLLİ-MƏNƏVİ ÖZÜNÜDƏRK VƏ İSTİQLAL ƏDƏBİYYATI MƏRHƏLƏSİ (1960-80-Cİ İLLƏR)** | | | | | |
| | Milli -mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi | 2.1.1. 2.2.1. | Az.d. 2.1.1. X.d. 2.1.2. 3.1.3 | Oxu, müsahibə, tədqiqat, BİBÖ, debat, dikussiya, müzakirə, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, lüğətlər, Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2007. Azərbaycan nəsri antologiyası. 5 cilddə. V cild. Bakı: Şərq-Qərb, 2006. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), tədqiqat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | İ.Əfəndiyev. Həyatı, yaradıcılıq yolu | 2.1.1. 2.2.1. | Az.d 1.2.2. 4.1.1. X.d. 2.1.1. 2.1.2. | Oxu, müsahibə, təqdimat, BİBÖ, müzakirə, diskussiya, problemin həlli, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, İ.Əfəndiyev. Seçilmiş əsərləri. 3 cilddə. I cild. Bakı: Avrasiya Press, 2005, | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 25-ci həftə | İ. Əfəndiyev. “Xurşidbanu Natəvan”. Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 1.1.5. 2.1.1. 2.2.1. | Az.d. 2.1.1. 1.2.2. X.d. 2.1.3. 3.1.1. Üm.tar. 1.1.3. | Oxu, təqdimat, müzakirə, müsahibə, problemin həlli, cütlüklə, fərdi iş, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, İ.Əfəndiyev. Seçilmiş əsərləri. 3 cilddə. II cild. Bakı: Avrasiya Press, 2005, | Təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | İ. Əfəndiyev.“Xurşidbanu Natəvan”. Məzmun üzrə iş | 1.1.1. 1.1.5. 2.1.1. 2.2.1. | Az.d. 1.2.2. 2.1.1. X.d. 2.1.3. 3.1.1. Üm.tar. 1.1.3. | Oxu, müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri, İ.Əfəndiyev. Seçilmiş əsərləri. 3 cilddə. II cild. Bakı: Avrasiya Press, 2005, | Yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 26-cı həftə | İ.Əfəndiyev “Xurşidbanu Natəvan”. Təhlil üzrə iş | 1.2.2. 1.2.4. 2.1.2. | Az.d. 1.2.2. 1.2.4. X.d. 2.1.1. 2.1.2. 3.1.4. Üm.tar. 1.1.3. | Oxu, təqdimat, müzakirə, xarakterlər xəritəsi, müsahibə, kiçik və böyük qrupda iş | Dərslik, iş vərəqləri, İ.Əfəndiyev. Seçilmiş əsərləri. 3 cilddə. II cild. Bakı: Avrasiya Press, 2005, | Oxu (mətn), təqdimat (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 26-cı həftə | İ.Şıxlı. Həyatı, yaradıcılıq yolu | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.2.<br>1.2.4.<br>X.d.<br>2.1.1.<br>2.1.2. | Oxu, təqdimat, müzakirə, İNSERT, müsahibə, problemin həlli, müqayisə, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, lüğətlər, İ.Şıxlı. Seçilmiş əsarləri. İki cilddə. II cild. Bakı, Şərq-Qərb, 2004, | Təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 27-ci həftə | İ.Şıxlı. "Dəli Kür". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5.<br>2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.2.<br>2.1.1.<br>X.d.<br>2.1.3.<br>3.1.1.<br>Üm.tar.<br>1.1.4. | Oxu, müsahibə, ikihissəli gündəlik, təqdimat, müzakirə, problemin həlli, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, İ.Şıxlı. Seçilmiş əsarləri. İki cilddə. I cild. Bakı:Şərq-Qərb, 2004. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| | İ.Şıxlı. "Dəli Kür". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5.<br>2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.2.<br>2.1.1.<br>X.d.<br>2.1.3.<br>3.1.1.<br>Üm.tar.<br>1.1.4. | Oxu, müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, İ. Şıxlı. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı:Şərq-Qərb, 2004, | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi) |
| 28-ci həftə | İ.Şıxlı. "Dəli Kür". Təhlil üzrə iş | 1.2.2.<br>1.2.3.<br>1.2.4.<br>2.1.2. | Az.d.<br>1.2.2.<br>1.2.4.<br>X.d.<br>2.1.1.<br>2.1.2.<br>3.1.4.<br>Üm.tar.<br>1.1.4. | Oxu, təqdimat, müzakirə, xarakterlər xəritəsi, müsahibə, cütlüklə, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, İ. Şıxlı. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı:Şərq-Qərb, 2004, | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi) |
| | İ.Şıxlı. "Dəli Kür". Təhlil üzrə iş | 1.2.2.<br>1.2.3.<br>1.2.4.<br>2.1.2. | Az.d.<br>1.2.2.<br>1.2.4.<br>X.d.<br>2.1.1.<br>2.1.2.<br>3.1.4<br>Üm.tar.<br>1.1.4. | Təqdimat, müzakirə, problemin həlli, cütlüklə, kiçik qruplarda iş. | Dərslik, iş vərəqləri, İ. Şıxlı. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı:Şərq-Qərb, 2004, | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 29-cu həftə | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | **MÜSTƏQILLIK DÖVRÜ ÇOXMETODLU AZƏRBAYCAN ƏDƏBİYYATI. (1991-Cİ İLDƏN BU GÜNƏ QƏDƏR)** | | | | | |
| | Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı. | 2.1.1. 2.2.1. | Az.d. 1.2.2. 1.2.4. X.d. 2.1.2. 3.1.3. Üm.tar 1.1.3. | Müsahibə, oxu, təqdimat, mü-zakirə, BİBÖ, Venn diaqramı, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, iş vərəqləri, Azərbaycan ədəbiyyatı. 2 cilddə. I -II cild. Bakı: Elm və təhsil, 2016. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), şi-fahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| 30-cu həftə | B.Vahabzadə Həyatı, yaradıcılıq yolu | 2.1.1. 2.2.1. | Az.d. 1.2.2. 1.2.4. X.d. 2.1.1. 2.1.3. | Müsahibə, oxu, müzakirə, təqdimat, prob-lemin həlli, cütlüklə, kiçik qruplarda iş | Dərslik, lüğətlər, iş vərəqləri, B.Vahabzadə. Əsərləri. İki cilddə. I cild. Bakı: Öndər, 2004, | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | B.Vahabzadə. ”Şəhidlər.” Məzmun üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. 2.1.1. | Az.d. 2.1.1. 1.2.2. X.d. 2.1.1.2 .1.3. Az.tar. 1.2.2. | Müsahibə, oxu, təqdimat, mü-zakirə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, iş vərəqləri, B.Vahabzadə. Əsərləri. İki cilddə. II cild. Bakı: Öndər, 2004, | Müsahibə (müəllimin qeydiyyat vərəqi), şi-fahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| 31-ci həftə | B.Vahabzadə. ”Şəhidlər.” Məzmun üzrə iş | 1.1.1. 1.1.2. 1.1.4. 1.1.5. | Az.d. 2.1.1. 1.2.2. X.d. 2.1.1.2 .1.3. Az.tar. 1.2.2. | Müsahibə, oxu, təqdimatlar, ikihissəli gündəlik, müzakirə, kiçik və böyük qruplarda iş | Dərslik, lüğətlər, iş vərəqləri, B.Vahabzadə. Əsərləri. İki cilddə. II cild. Bakı: Öndər, 2004, | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (mü-şahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | B.Vahabzadə. ”Şəhidlər.” Təhlil üzrə iş | 1.1.2. 1.2.2. 1.2.4. 2.1.2. | Az.d. 1.2.2. 1.2.4. X.d. 2.1.1. 2.1.2. 3.1.4. Az.tar. 1.2.2. | Oxu, müsahibə, müzakirə, təqdi-mat, problemin həlli, kiçik və böyük qruplarda iş | Dərslik, lüğətlər, iş vərəqləri, B.Vahabzadə. Əsərləri. İki cilddə. II cild. Bakı: Öndər, 2004 . | Təqdimat (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (mü-şahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |

| DÜNYA ƏDƏBİYYATINDAN SEÇMƏ | | | | | | |
|---|---|---|---|---|---|---|
| 32-ci həftə | Ç.Aytmatov. Həyatı, yaradıcılıq yolu | 2.1.1. 2.2.1. | Az.d. 1.2.2. 4.1.1. X.d. 2.1.1. 2.1.2. | Müsahibə, BİBÖ, oxu, müzakirə, təqdimat, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | Dərslik, iş vərəqləri, Ç. Aytmatov. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Öndər nəşriyyat, 2004. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | Ç.Aytmatov. "Gün var əsrə bərabər." Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 1.1.4 1.1.5. | Az.d. 2.1.1. 1.2.2. X.d. 2.1.1. 2.1.3. | Müsahibə, oxu, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri, Ç. Aytmatov. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Öndər nəşriyyat, 2004 . | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi) |
| 33-cü həftə | Ç.Aytmatov. "Gün var əsrə bərabər." Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 1.1.4. 1.1.5. 2.1.1. | Az.d. 2.1.1. 1.2.2. X.d. 2.1.1. 2.1.3. | Müsahibə, oxu, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri, Ç. Aytmatov. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Öndər nəşriyyat, 2004. | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi) |
| | Ç.Aytmatov. "Gün var əsrə bərabər." Təhlil üzrə iş | 1.1.2. 1.2.2. 1.2.4. 2.1.2. | Az.d. 1.2.2. 1.2.4. X.d. 2.1.1. 2.1.2. 3.1.4. | Oxu, müsahibə, müzakirə, təqdimat, problemin həlli, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, Ç. Aytmatov. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Öndər nəşriyyat, 2004. | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi) |
| 34-cü həftə | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | *Böyük summativ qiymətləndirmə* | | | | | |

Az.d. – Azərbaycan dili; X.d. – Xarici dil; Az.tar. – Azərbaycan tarixi, Üm.tar. – Ümumi tarix.

## FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYA

Fəndaxili inteqrasiyanın zəruriliyi kurikulumun məzmun xətlərinin mahiyyətindən irəli gəlir. Belə ki, fənn kurikulumunun məzmun xətləri mahiyyət etibarilə bir-biri ilə sıx əlaqəlidir, biri digərini tamamlayır və zənginləşdirir. Ədəbiyyat inteqrativ səciyyə daşıyan həyatı obrazlı şəkildə əks etdirdiyi üçün təlim prosesində fəndaxili, fənlərarası, fənlərüstü (kino, rəssamlıq, musiqi, teatr və s.) inteqrasiya imkanları genişdir. Təlim prosesində ədəbiyyatın Azərbaycan dili, tarix və digər fənlərlə, incəsənətin musiqi, rəssamlıq, kino və s. növləri ilə inteqrasiyası reallaşdırılmalıdır. Şagirdlərin əvvəlki siniflərdə, xüsusən IX sinifdə mənimsədiyi biliklər XI sinfin tədris materialları ilə sıx əlaqəlidir. Təlim prosesində mövzu, problem, janr baxımından səsləşən əsərlərin, ədəbiyyat nəzəriyyəsi materiallarının inteqrativ öyrənilməsi zəruridir.

Fəndaxili inteqrasiyanın əsas yolu fənn üzrə məzmun standartlarının inteqrativ şəkildə reallaşdırılmasıdır. Belə ki, ədəbiyyat kurikulumunda bütün məzmun xətləri və standartları arasında təbii əlaqə vardır. Aşağıdakı cədvəldə verilən nümunələrdən göründüyü kimi, kurikulumdakı məzmun xətti üzrə bir-birini tamamlayan alt standartların inteqrativ reallaşdırılması imkanları genişdir:

| **1. Ədəbiyyat və həyat həqiqətləri** | | **2. Şifahi nitq**<br>**3. Yazılı nitq** |
|---|---|---|
| 1.1.4. Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | 1.2.2. Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır.<br>1.2.4. Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca problemina, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | 2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir.<br>3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| 1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, mürəkkəb süjetli və kompozisiyalı ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, sinekdoxa, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, kinayə (sarkazm), inversiya) müəyyənləşdirir. | 1.2.3. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir. | 2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir.<br>2.1.2. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

| | | |
|---|---|---|
| 1.2.4. Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | 2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | 3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |

**Fənlərarası inteqrasiya** XI sinifdə tədris olunan müxtəlif fənlər üzrə alt standartların əlaqələndirilməsi, təlim prosesində digər fənlər üzrə qazanılmış müvafiq bilik və bacarıqlara, o cümlədən fənlərüstü inteqrasiya yaradılması, rəssamlıq, heykəltəraşlıq, kino, teatr və s. istinad edilməsi ilə reallaşdırılır. Ədəbiyyat dərslərinin illik planlaşdırılmasında standartlar səviyyəsində fənlərarası inteqrasiya imkanları ana dili, xarici dil, Azərbaycan tarixi, ümumi tarix fənlərinin nümunəsində şərh edilmişdir. Əsas və alt standartların inteqrasiyası təlim prosesində müxtəlif tipli sual və tapşırıqlar vasitəsilə reallaşdırılır.

**Fənlərarası inteqrasiya nümunəsi**

| **Mövzular** | **Reallaşdırılan standartlar** | **Fənlərarası inteqrasiya, alt standartlar** |
|---|---|---|
| Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü | 2.1.1.<br>2.2.1. | Az.d. 2.1.2. X.d. 2.1.2.<br>3.1.3. Az.tar. 5.1.1. |
| C. Məmmədquluzadə. Həyatı, yaradıcılıq yolu | 1.2.4.<br>2.1.1. | Az.d. 1.2.2. X.d. 2.1.2. |
| C. Məmmədquluzadə. “Anamın kitabı”. Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 1.1.5. | Az.d. 2.1.1. 1.2.2. X.d.<br>1.1.1. 3.1.3. |
| C. Məmmədquluzadə. “Anamın kitabı”. Məzmun üzrə iş | 1.1.1. 1.1.3.<br>1.1.4. 1.1.5. | Az.d. 2.1.1. 1.2.2.<br>X.d. 1.1.1. 3.1.1. |
| C. Məmmədquluzadə. “Anamın kitabı”. Təhlili üzrə iş | 1.2.1. 1.2.4.<br>2.1.2. | Az.d. 1.2.2. 1.2.4. X.d.<br>2.1.1. 2.1.2. 3.1.4. |
| C. Məmmədquluzadə. “Anamın kitabı”. Təhlili üzrə iş | 1.2.1. 1.2.2. 1.2.3.<br>1.2.4 | Az.d. 1.2.2. 1.2.4.<br>X.d. 2.1.1. 2.1.2. 3.1.4 |
| C. Məmmədquluzadə. “Anamın kitabı”. Tətbiq.Müzakirə.Yaradıcı iş. | 3.1.1. 3.1.2. 3.1.3. | Az.d. 3.1.1. 3.1.2.<br>3.1.3. X.d. 4.1.1. 4.1.2.<br>4.1.3. 4.1.4. |
| M.Ə.Sabir.Həyatı, yaradıcılıq yolu | 2.1.1. 2.2.1. | Az.d.<br>1.2.2. X.d. 2.1.2. |
| M.Ə.Sabir.”Neylərdin, ilahi?!”. Məzmun üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. | Az.d. 2.1.1. 1.2.2.<br>X.d. 1.1.1. 3.1.1. |
| M.Ə.Sabir.”Neylərdin, ilahi?!”. Təhlili üzrə iş. | 1.1.2. 1.2.3.<br>1.2.4. 3.1.3. | Az.d. 1.2.2. 1.2.4. X.d.<br>2.1.1. 2.1.2. 3.1.4. |
| H.Cavid. Həyatı, yaradıcılıq yolu | 2.1.1. 2.2.1. 31.3. | Az.d. 1.2.2. X.d. 2.1.2.<br>Az.tar. 5.1.1. |
| H.Cavid. “İblis”.Məzmun üzrə iş | 1.1.1. 1. 1.4.1.1.5.<br>2.1.1. 2.2.1. | Az.d1.2.2. . 2.1.1.<br>X.d. 1.1.1. 3.1.1<br>Az.tar. 5.1.2. |

| | | |
|---|---|---|
| H.Cavid. "İblis".Məzmun üzrə iş | 1.1.1. 1.1.5. 2.1.1. 2.2.1. | Az.d. 1.2.2 2.1.1.<br>X.d. 1.1.1. 3.1.1.<br>Az.tar. 5.1.2. |
| H.Cavid. "İblis". Təhlil üzrə iş | 1.1.2. 1.2.2. 1.2.4. 2.1.2. | Az.d. 1.2.2. 1.2.4.<br>X.d. 2.1.1. 2.1.2. 3.1.4<br>Az.tar. 5.1.3. |
| H.Cavid. "İblis". Tətbiq.Müzakirə. Yaradıcı iş | 3.1.1. 3.1.2. 3.1.3. | Az.d. 3.1.1. 3.1.2. 3.1.3.<br>X.d. 4.1.1. 4.1.2. 4.1.3. 4.1.4. |

## DİFERENSİAL TƏLİM İMKANLARI

Diferensial təlim bilik və bacarıqların mənimsənilməsini təmin etmək üçün müxtəlif öyrənmə və düşüncə tərzinə malik olan şagirdlərin fərdi xüsusiyyətləri və imkanlarının nəzərə alınmasını nəzərdə tutur. Diferensial təlimin alt komponenti olan *inklüziv təlimin* əsasını hər bir şagirdə fərdi yanaşma ideyası təşkil edir.

*İnklüzivlik* – sağlamlıq imkanları məhdud olan uşaqlarda özünə inam yaratmaqla yanaşı, onlara digər yaşıdları ilə eyni məktəbdə təhsil almaq şəraitinin yaradılmasıdır. Xüsusi yanaşmaya ehtiyacı olan şagirdlərə diqqət göstərilməsi, onların qabiliyyətlərinin inkişaf etdirilməsi çox vacib amildir.

Fərqli həyat tərzi sürən, təhsilə müxtəlif maraq və qavrama qabiliyyəti göstərən uşaqlarla da işləyərkən müəllim bilik və bacarıqların müxtəlif forma və variantlarda inkişaf etdirilməsinə çalışmalıdır.

Dərsliyə daxil edilmiş sual və tapşırıqlar çətinlik, mürəkkəblik səviyyəsi baxımından çoxvariantlı olub şagirdlərə seçim imkanları yaratmaqla diferensial təlimin reallaşdırılmasına geniş imkan yaradır.

### Yeni təlim texnologiyalarından istifadə

Metodik vəsaitdə ədəbiyyat dərslərinin icmal və planları (texnologiyalar) **fəal/interaktiv təlim texnologiyası əsasında işlənilmişdir.** Müəllim və şagirdlərin ədəbiyyat dərslərində qarşıya qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsinə yönələn birgə fəaliyyəti aşağıdakı interaktiv metodların tətbiqi əsasında həyata keçirilir.

| № | METOD | TEXNİKALAR |
|---|---|---|
| 1. | Beyin həmləsi | o Əqli hücum<br>o BİBÖ<br>o Auksion<br>o Şaxələndirmə<br>o Suallar<br>o Anlayışın müəyyənləşdirilməsi<br>o Söz assosiasiyaları |

| | | |
|---|---|---|
| 2. | Müzakirələr | o Diskussiya<br>o Müzakirə<br>o Klassik dialoq |
| 3. | Rollu oyunlar | o Rollu oyun<br>o Səhnələşdirmə |
| 4. | Təqdimatlar | o Təqdimatlar<br>o Esse, inşa, məqalə, məruzə |
| 5. | Tədqiqatın aparılması | o Problemin həlli<br>o Venn diaqramı<br>o Layihələrin hazırlanması<br>o Müsahibə<br>o Qərarlar ağacı<br>o İdeyalar xalısı |
| 6. | Tənqidi təfəkkürün inkişafına yönəldilmiş metodlar | o Meyar üzrə qiymətləndirmə<br>o Əsərdə qoyulan problemə, təsvir olunan hadisəyə müxtəlif nöqteyi-nəzərdən baxılması |
| 7. | Yaradıcılığa yönəldilmiş metodlar | o Proqnozlaşdırma<br>o Atalar sözləri üzrə iş |
| 8. | Təşkilati metodlar | o Ziqzaq və ya mozaika |

## Şagirdlərin özünüqiymətləndirmə meyarları

**Şifahi nitq bacarıqları üzrə özünüqiymətləndirmə meyarları**

| № | Meyarlar | Nail oldum | Nail olmadım |
|---|---|---|---|
| 1 | Fikrin aydın çatdırılması | | |
| 2 | Fikrin əsərdən nümunələrlə şərh edilməsi | | |
| 3 | Çıxışın inandırıcı olması | | |
| 4 | Nitqdə cümlələrin düzgünlüyü | | |
| 5 | Yersiz söz və ifadələrin işlədilməməsi | | |
| 6 | Əsərin ideya-bədii xüsusiyyətləri ilə bağlı çıxışda müxtəlif mənbələrdən istifadə | | |
| 7 | Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirilməsi | | |
| 8 | Fərqli fikirlərə dözümlü yanaşma | | |
| 9 | Öyrənilmiş yeni sözlərdən istifadə | | |
| 10 | Mövzuya, problemə tənqidi münasibətin əsaslandırılması | | |

**Yazılı nitq bacarıqları üzrə özünüqiymətləndirmə meyarları**

| № | Meyarlar | Bəli | Xeyr |
|---|---|---|---|
| 1 | Yazı işinə uyğun ifadələrlə başladım. | | |
| 2 | Cümlələri dil qaydalarına uyğun qurdum. | | |
| 3 | Sözləri düzgün yazdım, durğu işarələrinə, abzaslara əməl etdim. | | |

| | | | |
|---|---|---|---|
| 4 | Təkrarlara yol vermədim. | | |
| 5 | Bədii təsvir vasitələrindən istifadə etdim. | | |
| 6 | Oxşar cəhətləri tapdım. | | |
| 7 | Fərqli cəhətləri müəyyənləşdirdim. | | |
| 8 | Əhvalat və hadisələrə münasibət bildirdim. | | |
| 9 | Fikirlərimi aydın, yığcam ifadə etdim. | | |
| 10 | Yazımda məntiqi ardıcıllığı gözlədim, ümumiləşdirmə apardım, nəticə çıxardım. | | |
| 11 | Fikirlərimi əsərdən nümunələrlə əsaslandırdım. | | |
| 12 | Faktlardan, sitatlardan yerində istifadə etdim, müqayisələr apardım. | | |
| 13 | Mövzu ilə əlaqədar müstəqil fikir söylədim. | | |
| 14 | Müxtəlif mənbələrə dair biliklərimdən istifadə etdim. | | |
| 15 | Tələb olunan həcmdə yazdım. | | |
| 16 | Ümumiləşdirmə apardım, nəticə çıxardım. | | |
| 17 | Mövzunu əhatə etdim. | | |

## Müasir məktəbdaxili qiymətləndirmə

Azərbaycan Respublikası Təhsil nazirinin 2 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə 1-7-ci siniflərdə məktəbdaxili qiymətləndirmə qaydalarında bir sıra dəyişiklik edilmişdir (bax: http://www.muallim.edu.az/arxiv/2013/34/26.htm).

Müasir qiymətləndirmə diaqnostik, formativ və summativ kimi növlərə bölünür.

*Diaqnostik* qiymətləndirmə fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir. Diaqnostik qiymətləndirmə şəraitə görə təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparmağa, şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat almağa imkan verir. Diaqnostik qiymətləndirmə rəsmi xarakter daşımır, rəqəmdən istifadə olunmur, nəticələr müəllimin şəxsi qeyd dəftərində əks olunur.

Diaqnostik qiymətləndirmənin nəticələrindən aşağıdakı məqsədlərlə istifadə olunur:

- təlim prosesində fərdi yanaşmanı təmin etmək üçün;
- təlim prosesində qrup və cütlük şəklində işin təşkilində;
- tədris olunacaq fənn və ya mövzu ilə bağlı maraq və ehtiyacların müəyyənləşdirilməsində.

*Formativ* qiymətləndirmə təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir. Bu qiymətləndirmə tədris prosesinin düzgün istiqamətləndirilməsini, səmərəliliyini, şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənilməsini təmin edir, şagirdlərin təlim ehtiyaclarının öyrənilməsinə imkan yaradır. Formativ qiymətləndirmə dərsdə reallaşdırılması nəzərdə tutulmuş alt standartlardan çıxarılmış təlim nəticələrinə görə müəyyən edilmiş meyarlara əsasən aparılır.

Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil, nəticələr müəllimin şəxsi qeyd dəftərində və məktəbli kitabçasında şagirdin idraki və hərəki fəaliyyətinin səviyyələrinə uyğun sözlərlə ifadə olunur. Heç bir rəqəm və simvollardan, "mənimsəyir", "mənimsəmir", "bilir", "bilmir", "yaxşı", "orta", "zəif" və digər bu kimi ifadələrdən istifadə olunmur. Müəllim formativ qiymətləndirmədə şagirdin fəaliyyətini bütün dərs boyu izləyir, nəticələri yazmaq üçün dərsin sonunda vaxt ayırır. Eyni bir standart bir neçə dərsdə reallaşdığına görə formativ qiymətləndirmə zamanı jurnalda şagirdin adının qarşısında hər dərsdə qeydlərin olması mütləq deyil.

Formativ qiymətləndirmənin nəticələrindən aşağıdakı məqsədlərdə istifadə olunur:

- cari və perspektiv (illik) planlaşdırmanın təkmilləşdirilməsində;
- təlim tapşırıqlarının seçilməsində;
- ev tapşırıqlarının verilməsində;
- sinifdəki təlimin istiqamətləndirilməsində;
- təlim prosesində qrup və cütlərin təşkilində;
- şagirdlərin irəliləyiş və geriləmələrinin müəyyənləşdirilməsində.

*Summativ qiymətləndirmə* təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirməsidir. Summativ qiymətləndirmə məzmun standartlarının mənimsəmə səviyyəsinin etibarlı göstəricisidir. Bu qiymətləndirmə kiçik (KSQ) və böyük (BSQ) summativ qiymətləndirmə olaraq iki növdən ibarətdir. KSQ tədris vahidlərinin sonunda, BSQ isə ildə iki dəfə, yarımillərin sonunda aparılır. Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təqdim etdiyi qiymətləndirmə vasitələrindən istifadə edilməklə fənni tədris edən müəllim tərəfindən aparılır. Summativ qiymətləndirmənin nəticələrindən aşağıdakı məqsədlərlə istifadə olunur:

- şagirdlərin təlim problemlərini müəyyənləşdirmək;
- şagirdlə əks-əlaqə qurmaq və onu stimullaşdırmaq;
- planlaşdırma aparmaq və təkliflər vermək;

Kiçik və böyük summativ qiymətləndirmə rəsmidir və 1,2,3,4,5 rəqəmlərindən istifadə olunaraq rəsmi jurnalda qeyd olunur.

Şagirdə yarımillik qiymət çıxarmaq üçün bu düsturdan istifadə olunur:

$$Y_{1,2} = \frac{ksq_1 + ksq_2 + ... + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ_{1,2} \cdot \frac{60}{100}.$$

Burada $Y_1$ və $Y_2$ – şagirdin I və II yarımil üzrə qiymətini, $ksq_1, ksq_2, ..., ksq_n$ – şagirdin müvafiq yarımil ərzində kiçik summativ qiymətləndirmələrinin nəticələrini, *n* – müvafiq yarımildə keçirilən kiçik summativ qiymətləndirmələrin sayını, $BSQ_1$

və $BSQ_2$ isə I və ya II yarımildə keçirilən böyük summativ qiymətləndirmənin nəticəsini bildirir.

Yarımillik qiymətlərə görə illik qiymət çıxarılır. Aşağıdakı cədvəldə şagirdin yarımilliklərdə aldığı qiymətlərə görə illik qiymətin müəyyənləşdirilməsi qaydası göstərilmişdir.

| $Y_1$ | $Y_2$ | İllik |
|---|---|---|
| 2 | 2 | 2 |
| 2 | 3 | 3 |
| 2 | 4 | 3 |
| 2 | 5 | 4 |

| $Y_1$ | $Y_2$ | İllik |
|---|---|---|
| 3 | 2 | 2 |
| 3 | 3 | 3 |
| 3 | 4 | 4 |
| 3 | 5 | 4 |

| $Y_1$ | $Y_2$ | İllik |
|---|---|---|
| 4 | 2 | 3 |
| 4 | 3 | 3 |
| 4 | 4 | 4 |
| 4 | 5 | 5 |

| $Y_1$ | $Y_2$ | İllik |
|---|---|---|
| 5 | 2 | 3 |
| 5 | 3 | 4 |
| 5 | 4 | 4 |
| 5 | 5 | 5 |

## Formativ qiymətləndirmə nümunələri

*Müəllim ədəbiyyat dərslərində şagird nailiyyətlərinin formativ qiymətləndirilməsi zamanı təqdim edilən nümunələrdən istifadə edə bilər.*

**Bədii əsərin məzmunu üzrə standartlar, təlim nəticələri, bacarıqların qiymətləndirilmə meyarları və səviyyələri**

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **1.1.1.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (hekayə, povest, roman, dram, komediya, faciə, poema) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | Poemada (şeir, hekayə, povest, roman, dastan, komediya, faciə, dramda) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | İzahetmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını dəqiq izah edir. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir. | İfadəli oxudan poemanı (şeir, hekayə, povest, roman, komediya, faciə, dramı) emosional-obrazlı qavramaq, təhlil etmək və qiymətləndirmək məqsədilə istifadə edir. | İstifadəetmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İfadəli oxudan poemanı (şeir, hekayə, povest, roman, komediya, faciə, dramı) emosional-obrazlı qavramaq, təhlil etmək və qiymətləndirmək məqsədilə istifadə etməkdə çətinlik çəkir. | İfadəli oxudan suallar verməklə və müəllimin köməyi ilə poemanı (şeir, hekayə, povest, roman, komediya, faciə, dramı) emosional-obrazlı qavramaq, təhlil etmək və qiymətləndirmək məqsədilə istifadə edir. | İfadəli oxudan poemanı (şeir, hekayə, povest, roman, komediya, faciə, dramı), əsasən, emosional-obrazlı qavramaq, təhlil etmək və qiymətləndirmək məqsədilə istifadə edir. | İfadəli oxudan poemanı (şeir, hekayə, povest, roman, komediya, faciə, dramı) emosional-obrazlı qavramaq, təhlil etmək və qiymətləndirmək məqsədilə istifadə edir. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Romanı (povesti, romanı,...) hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam (geniş, yaradıcı) nağıl edir. | Müəyyənləşdirmə, hissələrəayırma, plan tərtibetmə, nağıletmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Romanda (povestdə,...) əhvalat və hadisələr arasındakı səbəb- nəticə əlaqələrini müəyyənləşdirməkdə, mətni hissələrə ayırmaqda, seçdiyi hissənin planını | Romanda (povestdə,...) əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəllimin köməyi ilə müəyyənləşdirir, mətni hissələrə ayırır, seçdiyi | Romanda (povestdə,...) əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, seçdiyi hissənin planını | Romanda (povestdə,...) əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini əhatəli müəyyənləşdirir, mətni məntiqi ardıcıllıqla hissələrə ayırır, seçdiyi |

| | | | |
|---|---|---|---|
| tərtib etməkdə, məzmununu yığcam (geniş, yaradıcı) nağıl etməkdə çətinlik çəkir. | hissənin planını tərtib edir, məzmununu qismən yığcam (geniş, yaradıcı) nağıl edir. | tərtib edir, məzmununu, əsasən, yığcam (geniş, yaradıcı) nağıl edir. | hissənin planını tərtib edir, məzmununu yığcam (geniş, yaradıcı) nağıl edir. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Poemada (dramda...) əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. | Müəyyənləşdirmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poemada (dastan-da,...) əksini tapmış mühüm milli-mənəvi, bəşəri də-yərləri müəyyənləş-dirməkdə çətinlik çəkir. | Poemada (dastanda, dramda,...) əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Poemada (dastanda, dramda,...) əksini tapmış mühüm milli- mənəvi, bəşəri dəyərləri, əsasən, müəyyənləşdirir. | Poemada (dastanda, dramda,...) əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri əhatəli müəyyənləşdirir. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli və kompozisiyalı ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, sinekdoxa simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, kinayə (sarkazm), inversiya) müəyyənləşdirir. | Şeirdə (poemada, dastanda...) məcazları müəyyənləşdirir. | Müəyyənləşdirmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə (poemada,...) məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə (poemada,...) məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə (poemada,...) məcazları, əsasən, müəyyənləşdirir. | Şeirdə (poemada,...) məcazları dəqiqliklə müəyyənləşdirir. |

**Bədii əsərin təhlili üzrə standartlar, təlim nəticələri, bacarıqların qiymətləndirilmə meyarları və səviyyələri**

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **1.2.1.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir. | Şeiri (romanı,...) kompozisiya, dil, üslub baxımından təhlil edir. | Təhliletmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeiri (romanı,...) kompozisiya,dil, üslub baxımından təhlil etməkdə çətinlik çəkir. | Şeiri (romanı,...) kompozisiya,dil, üslub baxımından müəllimin köməyi ilə təhlil edir. | Şeiri (romanı,...) kompozisiya,dil, üslub baxımından, əsasən, təhlil edir. | Şeiri (romanı,...) kompozisiya,dil, üslub baxımından əhatəli təhlil edir. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Romandakı (poemadakı,...) obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Səciyyələndirmə, müqayisəetmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirməkdə, müqayisələr aparmaqda çətinlik çəkir. | Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə qismən əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə, əsasən, əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir. | Şeirdə (poemada, romanda,...) məcazların obrazlılığın yaradılmasındakı roluna əsaslandırılmış münasibət bildirir. | Münasibətbildirmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə (poemada, dastanda,...) məcaz-ların obrazlılığın yaradılmasındakı roluna əsaslan-dırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdə (poemada,...) məcazların obrazlı-lığın yaradılmasındakı roluna müəllimin köməyi ilə əsaslandırılmış münasibət bildirir. | Şeirdə (poemada,...) məcazların obrazlı-lığın yaradılmasındakı roluna əksər hallarda əsaslandırılmış münasibət bildirir. | Şeirdə (poemada,...) məcazların obrazlı-lığın yaradılmasındakı roluna əsaslandırıl-mış münasibət bildirir. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Poemanın (dramın,...) mövzusunua, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Münasibətbildirmə, qiymətləndirmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poemanın (dramın,...) mövzu-suna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirməkdə və qiymətləndirməkdə çətinlik çəkir. | Poemanın (dramın,...) mövzu-suna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə qismən mü-nasibət bildirir və qiymətləndirir. | Poemanın ((dramın,...) mövzu-suna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, mü-nasibət bildirir və qiymətləndirir. | Poemanın (dramın,...) mövzu-suna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə hərtərəfli münasibət bildirir və qiymətləndirir. |

**Şifahi nitq üzrə standartlar, təlim nəticələri, bacarıqların qiymətləndirilmə meyarları və səviyyələri**

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materialları müqayisə etməklə, onlara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | İstifadəetmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən qismən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən, əsasən, istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən geniş istifadə edir. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Poemanın (povestin, romanın,...) dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Əsaslandırma |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poemanın (povestin, romanın,...) dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırmaqda çətinlik çəkir. | Poemanın (povestin, romanın,...) dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla qismən əsaslandırır. | Poemanın (povestin, romanın,...) dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əksər hallarda əsaslandırır. | Poemanın (povestin, romanın...,) dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla dolğun şəkildə əsaslandırır. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Poema ilə (dramla,...) bağlı müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Əsaslandırma, nəzərəalma, istifadəetmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mövzuya, problemə münasibətini dinləyicilərin rəyini nəzərə almaqla əsaslandırmaqda, mimika və jestlərdən istifadə etməkdə çətinlik çəkir. | Mövzuya, problemə münasibətini qismən dinləyicilərin rəyini nəzərə almaqla əsaslandırır, mimika və jestlərdən istifadə edir. | Mövzuya, problemə münasibətini, əsasən, dinləyicilərin rəyini nəzərə almaqla əsaslandırır, mimika və jestlərdən istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Yazılı nitq bacarıqları üzrə standartlar, təlim nəticələri, bacarıqların qiymətləndirilmə meyarları və səviyyələri**

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir. | İnşanın (essenin, məqalənin, məruzənin) məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratından istifadə edir. | Müəyyənləşdirmə, istifadəetmə |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İnşanın (essenin, məqalənin, məruzənin) məzmununa uyğun üslub müəyyənləşdirməkdə, müxtəlif mənbələrdən seçdiyi faktlardan, şəxsi təəssüratından istifadə etməkdə çətinlik çəkir. | İnşanın (essenin, məqalənin, məruzənin) məzmununa uyğun üslubu müəllimin köməyi ilə müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi faktlardan, şəxsi təəssüratından qismən istifadə edir. | İnşanın (essenin, məqalənin, məruzənin) məzmununa uyğun üslubu əksər hallarda müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi faktlardan, şəxsi təəssüratından, əsasən, istifadə edir. | İnşanın (essenin, məqalənin, məruzənin) məzmununa uyğun üslubu uğurla müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi faktlardan, şəxsi təəssüratından əhatəli istifadə edir. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla poemanın (dramın,...) ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Münasibətbildirmə, ümumiləşdirməaparma, nəticəçıxarma |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müşahidələrinə,əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirməkdə, ümumiləşdirmələr aparmaqda, nəticə çıxarmaqda çətinlik çəkir. | Müşahidələrinə,əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə qismən münasibət bildirir, müəllimin köməyi ilə ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə,əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə, əsasən, münasibət bildirir, əksər hallarda ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə,əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə, məntiqli münasibət bildirir, tutarlı ümumiləşdirmələr aparır, nəticə çıxarır. |

| Standart | Təlim nəticəsi | Qiymətləndirmə meyarı |
|---|---|---|
| **3.1.3.** 3,5-4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | Nəqli (təsvir, təhlil) xarakterli inşa (esse, məqalə, məruzə) yazır. | İnşayazma (esseyazma, məqaləyazma, məruzəyazma) |

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Nəqli (təsvir, təhlil) xarakterli inşa (esse, məqalə, məruzə) yazmaqda çətinlik çəkir. | Nəqli (təsvir, təhlil) xarakterli inşanı (esseni, məqaləni, məruzəni) qismən yazır. | Nəqli (təsvir, təhlil) xarakterli inşanı (esseni, məqaləni, məruzəni), əsasən, yazır. | Nəqli (təsvir, təhlil) xarakterli inşanı (esseni, məqaləni, məruzəni) məntiqi ardıcıllıqla yazır. |

## MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

## AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏNQİDİ REALİZM VƏ ROMANTİZM DÖVRÜ (XIX əsrin 90-cı illərindən 1920-ci ilədək)

*Mövzu*: **Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

### Dərsin gedişi

**Motivasiya mərhələsində** yeni mövzunun öyrənilməsinə zəmin yaratmaq məqsədilə təşkil edilən müsahibədə şagirdlərin ədəbiyyat tarixinin bu dövrü barədəki biliklərinin aşkara çıxarılması ön plana çəkilir. Romantizm və realizm haqqında biliklərin əvvəlki siniflərdə hansı səviyyədə mənimsənildiyi müsahibə, müzakirə əsasında müəyyənləşdirilir. Cavabların ümumiləşdirilərək qeyd edilməsi üçün BİBÖ-dən istifadə edilir.

Şagirdlər realist metodla bağlı öyrəndiklərini xatırlayır, sənətkarın bədii əsər yazarkən istifadə etdiyi yaradıcılıq metodlarından biri olmasını, həyat hadisələrinin olduğu kimi təsvirinin realist metodun əsas tələbi kimi götürüldüyünü, real hadisələrin təsvirinin başlıca yer tutduğunu qeyd edirlər. Realizmin müəyyən dövrdə realist metodla yazıb-yaradan sənətkarları birləşdirən ədəbi cərəyan olduğunu qeyd edən şagirdlər XX əsrin əvvəllərində tənqidi realizm bədii metodunun nümayəndələrinin (C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev və başqaları) “Molla Nəsrəddin” jurnalının ətrafında birləşdiyini bildirirlər. Romantizm yaradıcılıq metodu ilə yazılan əsərlərdə sənətkarın həyatda mövcud olanı deyil, arzu olunanı təsvir etməsi, xəyalında yaratdığı həyatı, müstəsna şəraitdə fəaliyyət göstərən xəyali surətləri təsvir etməklə həyatı dəyişdirib yeniləşdirməyə can atması qeyd edilir. Azərbaycan ədəbiyyatında Nizaminin “Xəmsə”sinə daxil olan mənzum

romanlar romantizm metodu ilə yazılmış əsərlərə nümunə kimi göstərilir.

Müzakirə nəticəsində **tədqiqat sualı** müəyyənləşdirilir: *XX əsrin əvvəllərinin ədəbiyyatımızda tənqidi realizm və romantizm dövrü adlanması nə ilə əlaqədardır?*

**Tədqiqatın aparılması** mərhələsində dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların – mətnlərin oxusu üzrə iş təşkil edilir.

Şagirdlər kiçik qruplara ayrılır, hər qrupa iş vərəqlərində suallar verilir. Kiçik qruplar dərslikdəki mətn üzrə sualların *(XX əsrin əvvəllərində yaranmış tənqidi realizm hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir? Ədəbiyyatımızın inkişafı, azadlıq, demokratiya uğrunda mübarizədə "Molla Nəsrəddin"in rolu nədən ibarətdir? Romantizm ədəbi cərəyanının nümayəndələrinin yaradıcılığında önəm verilən başlıca ideyalar hansılar idi? )* aydınlaşdırılmasına istiqamət verən cavablarla tanış olurlar.

Şagirdlərin istifadəsində əlavə məlumat mənbələrinin (dərslikdə göstərilənlərdən bəziləri, ədəbiyyatşünaslıq lüğətləri, müəllimin məqsədəuyğun saydıqları və s.) olması vacibdir. Araşdırma zamanı kiçik qruplar mətnkənarı suallara cavabları ümumiləşdirib yazır, müzakirə üçün bir neçə sual müəyyənləşdirirlər.

Venn diaqramından istifadə ilə aparılan müqayisə nəticəsində aydın olur ki, XX əsrin əvvəllərində ədəbiyyatımızda tənqidi realizm və romantizm ədəbi cərəyanları həyatı bədii idrak və inikas üsullarına görə fərqlənmişdir. Realist sənətkarlar həyatı tipik surətlərlə təsvir edir, ictimai bəlaların tənqid və ifşasına geniş yer verirdilər.

Müəllim təqdimatlarda aşağıdakı fikirlərə də münasibət bildirilməsini diqqətdə saxlayır.

a) "Yeni dövrün Azərbaycan ədəbiyyatını böyük ədibin adı ilə "Molla Nəsrəddin" dövrü adlandırırlar. Molla Nəsrəddin – Cəlil Məmmədquluzadə – bu adın özü... ədəbiyyatımıza sima və sifət verən simvol olmuşdur. Bu ad çəkildimi, ədəbiyyatda siyasi ideyaların çarpışması dövrü, müasir, mübariz, həqiqi həyat ədəbiyyatının güclü və cəsarətli bir axınla hücuma keçməsi dövrü təsəvvürdə canlanmış olur". *(Mir Cəlal)*

b) Romantiklər realistlərdən fərqli olaraq sənəti, ədəbiyyatı birinci növbədə canlı, real həyatla deyil, ideyalar və "işıqlı" fikirlərlə əlaqələndirirdilər...Vətənpərvərlik, müstəmləkə zülmü əvəzinə milli - azadlıq ideyalarının tərənnümü, bəşəriyyətin və eləcə də mənsub olduqları xalqın azad gələcəyinə, ağıl və kamalın qüdrətinə inam, elmin, maarifin təbliği romantiklərin əsərlərinin əsas mövzusunu təşkil edir. Onların ilham mənbələrindən biri də vətən, millət sevgisidir.

(Məmməd Cəfər Cəfərov)

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müzakirə diskussiya şəklində həyata keçirilir. Diskussiya zamanı XX əsrin əvvəllərində ədəbiyyatımızda realizm və romantizmin ədəbi cərəyana çevrilməsini şərtləndirən amillər, bu cərəyanların oxşar və fərqli cəhətləri, istər tənqidi realizm, istərsə də romantizm metodu ilə yazan aparıcı sənətkarların yaradıcılığını səciyyələndirən əsas cəhətlər, "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəblərinin ədəbiyyatımızın inkişafında rolu və s. məsələlər üzrə mülahizələr dinlənilir və onlara əsaslandırılmış münasibət bildirilir.

Qeyd edilir ki, «Molla Nəsrəddin» ədəbi cəbhəsinin konsepsiyasındakı azərbaycançılıq və müstəqil dövlətçilik ideyaları milli istiqlala doğru mübarizənin meydanını daha da genişləndirmişdir. Bu dövrdə Azərbaycan ədəbiyyatında mövcud ictimai sistemin tənqidi ciddi şəkildə qüvvətlənmiş, milli istiqlal axtarışları dönməz xarakter almışdır. Realist-satirik ədəbiyyatın nümayəndələri öz əsərlərində milli istiqlala çatmaq yollarındakı maneələri, müstəmləkə sistemi və despotizmin bütün təzahürlərini kəskin tənqid etmişlər. Milli istiqlal uğrunda mübarizə, azadlıq və müstəqillik ideyaları ədəbi fikrin və mətbuatın baş mövzusuna çevrilmişdir.

XX əsrin əvvəllərində meydana çıxmış romantizm ədəbi cərəyanı isə Azərbaycan ədəbiyyatına vətən və xalq ideallarını, insan mənəviyyatının romantik zənginliyini gətirmişdir. Ə.Hüseynzadənin redaktorluğu ilə nəşr olunan «Füyuzat» jurnalı romantikləri öz ətrafında birləşdirərək ədəbi məktəb yaratmışdır. Romantizm ədəbi cərəyanının nümayəndələri öz əsərlərində həyatı tipik bədii vasitələrlə deyil, xəyala və arzuya uyğun şəkildə ifadə etməyə üstünlük verirdilər. Turançılıq ideyaları, ortaq ünsiyyət dili və vahid ümumtürk əlifbası yaratmaq, ümummilli ideyalar və maarifçi-demokratik baxışlar füyuzatçıların əsərlərində əsas yer tuturdu. Füyuzatçılar bolşevizmi "qırmızı qaranlıq" hesab edir, türk-islam birliyinə "yaşıl işıq" kimi böyük ümidlər bəsləyirdilər.

Müzakirədə sərbəst fikir mübadiləsinə, söylənilən mülahizələrin diqqətlə dinlənilməsinə şərait yaradılır, hər bir tənqidi fikrin, fərqli mülahizənin əsaslandırılmasına nail olunur.

**Nəticə və ümumiləşdirmənin aparılması** məqsədilə müəllimin yekunlaşdırıcı sualları üzrə müsahibə aparılır. Müxtəlif mülahizələrin ortaq məxrəcə gətirilməsi nəticəsində şagirdlərdə *"XX əsrin əvvəllərinin ədəbiyyatımızda tənqidi realizm və romantizm dövrü adlanması nə ilə əlaqədardır?"* sualı ilə bağlı dolğun qənaət hasil olur.

Şagirdlərdə icmal mövzusu üzrə sinifdə öyrəndiklərinə müstəqil tədqiqat zamanı nələri əlavə edəcəkləri barədə aydın təsəvvür yaradılmalıdır. Mətndəki suallarla bağlı mənbələrdən daha çox aşağıdakı

istiqamətlərdə məlumatların mənimsənilməsi və dəyərləndirilməsi məqsədəuyğundur:

– romantizm və realizmin məhz XX əsrin əvvəllərində ədəbi cərəyana çevrilməsini şərtləndirən başlıca amillər;

– "Molla Nəsrəddin" jurnalının müəllifləri, gülüş-tənqid hədəfləri, ilk nömrəsində ifadə olunan məramın şərhi;

– "Füyuzat" jurnalının ana xəttini təşkil edən ideyaların şərhi;

– "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndələri Ömər Faiq Nemanzadə, Əliqulu Qəmküsar, Mirzəli Möcüz, Əbdürrəhimbəy Haqverdiyev və b. yaradıcılığı;

– "Füyuzat" ədəbi məktəbinin nümayəndələri Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq və b. yaradıcılığı.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Cəlil Məmmədquluzadənin həyatı, yaradıcılıq yolu** – **1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Povestin, komediyanın mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrdən topladığı materialları müqayisə etməklə və onlara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. |

### Dərsin gedişi

Ev tapşırığının *(1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. 2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:*

*a) Hansı sənətkarların əsərləri tənqidi realizm ədəbi cərəyanının formalaşmasında mühüm rol oynayıb?*

*b) Romantizm ədəbi cərəyanının nümayəndələrinin yaradıcılığında hansı məsələlər daha qabarıq əks olunub?*

*"Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın")* yerinə yetirilmə səviyyəsi yoxlanılır. Bu zaman mənbələrdən əldə edilmiş məlumata istinadən hazırlanmış təqdimatların dinlənilməsi əsasında müzakirənin aparılması məqsədəuyğundur. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

Şagirdlərin diqqəti dərslikdəki *"C.Məmmədquluzadə barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın"* tapşırığına cəlb edilir. Yazıçının həyatı, yaradıcılığı, "Qurbanəli bəy" hekayəsi ilə bağlı VIII sinifdə öyrənilmiş məlumat suallar əsasında yada salınır. Bu, müzakirənin təşkilinə imkan yaradır. Yazıçının həyatı, yaradıcılığı ilə bağlı şagirdləri maraqlandıran suallar, onların öyrənmək istədikləri məsələlər ortaya çıxır. Müzakirənin sonunda araşdırılacaq problem **tədqiqat sualı** şəklində müəyyənləşir: *Ədibin Azərbaycan tarixində şərəfli yer tutmasının səbəbini nə ilə izah etmək olar?*

Araşdırmaya dərslikdəki mətnin oxusu ilə başlanılır. Mətnin oxusunu fərqli şəkillərdə təşkil etmək olar. Dərslikdə təklif edilmiş yol vaxta qənaət və şagirdlərin fəallığının təmin edilməsi baxımından faydalıdır. Onun reallaşdırılması üçün mətnkənarı sualların sayı qədər kiçik qruplar (az sayda da olar, iki qrup bir sualın üzərində işləyə bilər) yaradılır. Birinci qrupdan bir şagird ilk mətnkənarı sualın *(C.Məmmədquluzadənin həyat yolunun başlanğıcı hansı cəhətləri ilə diqqəti cəlb edir?)* cavabını dərslikdən tələsmədən, aydın və uca səslə oxuyur. O, mətndə ifadə olunmuş əsas fikirləri (yazıçının təhsili, müəllimlik fəaliyyəti, bədii yaradıcılığa həvəsi) ümumiləşdirərək bir-iki cümlə ilə söyləyir. Bu məqamda ehtiyac yaranarsa, müəllim istiqamətləndirici suallardan istifadə etməklə şagirdə yardım edir. Oxuduğu parça ilə bağlı yoldaşlarına sual vermək şagird üçün çətinlik törətmir. Lakin sualların tələblərinin (mətndəki məlumatın yada salınması, müəyyən nəticə çıxarmaq və s.) fərqli olmasına müəllimin istiqamət verməsi məqsədəuyğundur. Yoldaşlarının cavablarındakı birtərəfli, səthi məqamlara aydınlıq gətirməyə çalışan şagirdə müəllim yeri gəldikcə istiqamətləndirici suallarla kömək edir. Bu mərhələdə tərəflərin hər biri haqlı olduğunu əsaslandırmağa çalışdığı üçün müzakirəyə əlverişli imkan yaranır. Bundan səmərəli istifadə olunması oxunmuş parçanın dərindən və hərtərəfli mənimsənilməsinə şərait yaradır.

Mətni oxuyan şagird mənbələrdən istifadə etməklə ondakı hansı məqamlara əlavə edilməsinin vacib olduğu barədəki qənaətlərini bildirir. Bu məsələyə bütün şagirdlərin münasibət bildirmələri təmin edilməlidir. Əlavə edilməli olan məlumatların bəndlər şəklində yazılması faydalıdır. Bu, mənbələr üzrə işin aydın təsəvvür edilməsinə, konkretləşməsinə səbəb olur.

Yazıçının nəsr və dramaturji yaradıcılığı ilə bağlı mətnkənarı sualların *(Yazıçının nəsr əsərlərində hansı problemlər diqqət mərkəzinə çəkilmişdir? Bu problemlərin yaranmasının səbəbini o nədə görürdü?; Yazıçının dramatik əsərlərinin mövzu, problem, konflikt özəlliyi hansılardır? )* oxusunda diqqətin daha çox "Danabaş kəndinin əhvalatları" və "Ölülər" əsərləri ilə bağlı deyilənlərə yönəldilməsi məqsədəuyğundur. Mənbələr üzrə araşdırma aparan şagirdlərin bu nümunələrlə əlaqədar məlumatlarla ciddi maraqlanması, əsərlərlə tanış olmaları faydalıdır. Bununla bağlı nəzərdə tutulmuş standartın (1.2.4) reallaşma səviyyəsi növbəti dərsdə müəyyənləşdirilir.

Digər mətnkənarı sualların cavabları da ayrı-ayrı qrupların üzvləri tərəfindən yuxarıdakı qaydada oxunur. Sonda kiçik qrupların təqdimatları əsasında **fikir mübadiləsi və müzakirə** aparılır. Bu mərhələ mətnlə bağlı qazanılmış məlumatın bütöv, tam halında mənimsənilməsində əhəmiyyətli rol oynayır.

**Nəticə və ümumiləşdirmə** mərhələsində müəllimin istiqamətləndirici suallarına ehtiyac olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, C.Məmmədquluzadə xalqına, vətəninə misilsiz xidməti ilə seçilən şəxslərdəndir. O, kamil bədii əsərləri, kəsərli publisistikası, faydalı ictimai fəaliyyəti ilə ölkəmizin tarixində ləyaqətli yer tutmuşdur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **C.Məmmədquluzadə. Anamın kitabı – 5** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Tragikomediyanı hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə, müzakirə, təqdimatların dinlənilməsi və s. tətbiqi ilə müəyyənləşdirilə bilər. Şagirdlərin hansı mənbələrdən və necə bəhrələndikləri aydınlaşdırılır, müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələyə dərslikdəki "Oxuya hazırlaşın" tapşırığı üzrə işlə başlamaq olar. Şagirdlər müəllimin təklifi ilə həmin sualların *(Milli birlik nə deməkdir? Sizcə, milli birlik hansı hallarda daha önəmli olur? Milli birliyə necə nail olmaq mümkündür?)* üzərində düşünürlər. Təklif edilmiş cədvəldə qeydlər edən şagirdlər kiçik qruplarda qənaətlərini bölüşdükdən sonra təqdimatlar əsasında müzakirə aparırlar. Bu iş motivasiyanın yaradılması, tədqiqat sualının müəyyənləşdirilməsi üçün zəmin ola bilər. Yaxud əsərin səhnə variantından kiçik bir parçanın nümayiş etdirilməsi, mətndən seçilmiş yığcam hissənin (məsələn, senzor Mirzə Cəfərin sonuncu monoloqunun) oxusu, komediya haqqında tanınmış alimin sözlərinin xatırladılması və s. motivasiyanın yaradılması üçün vasitə ola bilər. Bütün hallarda yığcam müsahibənin aparılmasına ehtiyac duyulur və sonda tədqiqat sualı müəyyənləşdirilmiş olur.

**Tədqiqat sualı:** *Doğma xalqa, ana dilinə yadlaşmaya səbəb nə ola bilər?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Tədqiqata əsərin oxusu ilə başlanılır. O, fərqli şəkillərdə həyata keçirilə bilər. Bütün hallarda oxuya başlamazdan əvvəl tanış olmayan sözlərin mənasının, məcazların müəyyənləşdirilməsinin vacib olduğu şagirdlərə xatırladılır.

Oxu üçün dərslikdə təklif edilmiş qayda şagirdlərin diqqətli və fəal olmaları, eləcə də vaxta qənaət baxımından faydalıdır. Əsərdən dərslikdə verilmiş parçanın birinci səhifəsi rollar üzrə oxunur. Müəyyənləşdirilmiş cütlər mətni oxuyanlara suallar verir. Sualların fərqli məzmunda olmasına diqqət yetirilir. Suallar şagirdlərin mətndəki məlumatlara hansı səviyyədə diqqət yetirdiklərini müəyyənləşdirməyə *(məsələn, Rüstəm bəy hansı işlə məşğul idi?)*, nəticələr çıxarmağa *(məsələn, Qardaşların analarına münasibəti hansı cümlələrdə əksini tapıb?)*, mühüm fikirləri anlamağa *(məsələn, Rüstəm bəy Mirzə Məhəmmədəlinin lüğətlə bağlı təkliflərini necə qəbul etdi?)* xidmət etməlidir. Mətni oxuyanların cavabları cütləri qane etməsə, digər şagirdlərin cavabları dinlənilir. Müzakirə ortaq məxrəcə gəlincəyə qədər davam etdirilir.

Mətni oxuyanlar və cütlər əvəzlənməklə əsərin növbəti səhifələri oxunur və iş əvvəlki qayda gözlənilməklə davam etdirilir.

Bu, əslində, **məlumat mübadiləsi** və **müzakirə** mərhələsinin tələblərinə uyğun gəlir.

Dərslikdə verilmiş parçanın oxusu tamamlandıqdan sonra seçilmiş kiçik bir hissənin məzmununun yığcam nağıl edilməsinə hazırlıq işi

aparılır. Seçilmiş hissənin özündən əvvəlki hissə ilə əlaqəsi müəyyənləşdirilir, plan tərtibinə diqqət yetirilir. Bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi məqsədəuyğundur. Şagirdlərin qənaətləri yekunlaşdırılır, (nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması məzmun üzrə iş tamamlandıqdan sonra həyata keçirilir), qiymətləndirmə aparılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **C.Məmmədquluzadə. Anamın kitabı – 5** saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Tragikomediyanı hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Tragikomediyada əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi aşkara çıxarılarkən, ilk növbədə, şagirdlərə fərdi olaraq aşağıdakı sualların üzərində düşünmək və onlara cavab hazırlamaq təklif edilir:

a) Mənasını aydınlaşdırdığınız sözlər hansılardır?
b) Bu sözlərdən hansılar alınma, hansılar öz sözlərimizdir?
c) Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?

Bir-iki dəqiqədən sonra ayrı-ayrı şagirdlərin təqdimatlarının dinlənilməsi əsasında müzakirəyə başlanılır. Sualların hər birinin həqiqi cavabını şagirdlərin müstəqil müəyyənləşdirmələrinə səy göstərilir. Müəllim müvafiq qiymətləndirmə meyarlarına müraciət edə bilər.

Sonrakı tapşırıqlar cütlük şəklində yerinə yetirilir:

a) Cəmiyyəti-xeyriyyənin iclasında ilk mübahisəyə səbəb nə olur? Bu mübahisədə hansı tərəfin mövqeyini müdafiə edərdiniz?
b) İclasın gündəliyinə daxil edilmiş məsələlər hansılardır, onları əhəmiyyətli saymaq olarmı?
c) Cəmiyyətin illik hesabatı barədə nə danışılır, icra olunmuş işlər, sizcə, faydalıdırmı?
d) Məktəb proqramı ilə bağlı məsələdə diqqətinizi çəkən nə oldu, onun necə həll olunmasını istərdiniz?
e) Ehtiyacı olan, aclıq çəkən insanların ərizəsi ilə bağlı məsələnin müzakirəsi nə ilə nəticələndi, siz problemin necə həll olunmasını ədalətli sayardınız?
f) Senzorun qardaşlarla bağlı ittihamları və gəldiyi nəticə sizdə hansı qənaətin yaranmasına səbəb oldu?
g) Oxuduğunuz məclislər hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

Göründüyü kimi, suallar yalnız məlumatın xatırladılmasına xidmət etmir, şagirdləri həmçinin səbəb-nəticə əlaqələrini aydınlaşdırmağa, nəticə çıxarmağa, qiymət verməyə istiqamətləndirir.

Qənaətləri yaxın cütlər birləşib kiçik qruplar yaradırlar. Fikir mübadiləsi onlara cavablarını dəqiqləşdirmək və ümumiləşdirmək imkanı yaradır. Yalnız bundan sonra təqdimatlar əsasında qruplararası **fikir mübadiləsi və müzakirə** aparılır. Şagirdlər Əbdüləzimovların ailə münasibətlərində mənəvi dəyərlərdən üz çevrildiyini göstərir və bunun səbəblərini aydınlaşdırmağa səy göstərirlər. Şagirdlərin qənaətləri ümumiləşdirildikdən sonra sonuncu tapşırığın *(Məclislərin birindən seçdiyiniz hissənin məzmununu iki formada – yığcam və yaradıcı danışmağı öyrənin, nümunələri dinləyib, onlara münasibət bildirin)* yerinə yetirilməsinə vaxt ayrılır. Təqdimatların müzakirəsində bütün şagirdlərin fəal iştirakına, sərbəst fikir söyləmələrinə imkan yaradılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **C.Məmmədquluzadə. Anamın kitabı – 5** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir. | Tragikomediyanı kompozisiya, dil, üslub baxımından təhlil edir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Tragikomediyanın mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Tragikomediyanın dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsinə bu dərsdə xeyli vaxt ayırmaq lazım gəlir. Buna səbəb "Anamın kitabı" əsərinin məzmunu üzrə işin həmin mərhələdə yekunlaşdırılmasıdır. İlk növbədə, komediyanın dördüncü məclisinin məzmununun necə qavranıldığı yığcam müsahibə ilə aşkara çıxarılır. Əsərin məzmunu üzərində aparılan əhatəli iş qardaşların hər biri haqqında aydın təsəvvürün qazanılmasına səbəb olur. Bu, qardaşlar barədə "obrazlar xəritəsi"ndə zəruri qeydlərin aparılmasına imkan verir. Bu işin müstəqil olaraq necə icra olunduğu müəyyənləşdirilərkən əsərdən seçilmiş nümunələrin müvafiqliyinə xüsusi diqqət yetirilir. Ayrı-ayrı şagirdlərin təqdimatlarının dinlənilməsi əsasında mənası aydın olmayan sözlər və məcazlarla bağlı icra edilmiş işlərin səviyyəsi barədə təsəvvür qazanılır. Diqqət yetirilən mühüm məsələlərdən biri də milli birlik, bütövlük kimi dəyərlərə etinasız münasibətlə barışmazlığın bu məclisdə qabarıq ifadə edilməsidir. Müəllimin istiqamətləndirici sualları əsasında nəticə çıxaran şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, keçmişin unudulması, doğma olanlara laqeydlik, yad təsirə uymaq xalqdan ayrı düşməyə, ana dilinə xor baxmağa, vətənin taleyinə biganəliyə gətirib çıxara bilər.

Müvafiq qiymətləndirmə meyarlarına müraciət etməklə formativ qiymətləndirməni həyata keçirmək məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bunun reallaşdırılması fərqli yollarla həyata keçirilə bilər. Vaxta qənaət baxımından suallardan istifadə yolunun seçilməsi məqsədəuyğundur. Müəllimin "*Qardaşlar haqqında hər şeyi bilirikmi? Onlar barədə daha nələri bilmək istərdiniz?*" kimi sualları əsasında yığcam müsahibə aparılır. Sonda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Qardaşların durumunu necə dəyərləndirmək doğru olar: komik, yoxsa faciəvi?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Araşdırmaya dərslikdəki təhlil materialının öyrənilməsi ilə başlanılır. Bu, müəllimin məqsədindən, sinfin səviyyəsindən asılı olaraq fərqli şəkillərdə həyata keçirilə bilər. Şagirdlərin müstəqilliyinin daha yüksək səviyyədə təmin olunması baxımından dərslikdə təklif edilmiş aşağıdakı tapşırıq daha məqsədəuyğundur:

1. Birinci mətnkənarı sualı və onun cavabı ilə bağlı hissənin ilk cümlələrini oxuyun. Düşünün: Mətn sizin üçün güccatandırmı?
2. Mətndəki başlıca fikirləri oxuda anlamağa çalışın. Bunun üçün mətnkənarı sualların məqsədini, onlardan irəli gələn fərziyyələri müəyyənləşdirin.
3. Hər bir sualla bağlı hissənin oxusu başa çatdıqdan sonra onu necə anladığınız barədə düşünün.
4. Oxu başa çatdıqdan sonra bütövlükdə mətndə əks olunmuş başlıca fikirləri necə anladığınızı yoxlayın. Öyrəndiklərinizi fərziyyələrlə müqayisə etməklə bunu aydınlaşdıra bilərsiniz. Lazım gələrsə, mətni yenidən nəzərdən keçirin.
5. Vacib saydığınız fikirləri silinə bilən işarə ilə mətndə oxu zamanı qeyd edin və gəldiyiniz nəticələri qısaca yazın.
6. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, təqdimatlar etməklə müzakirə aparın. Qardaşların səciyyəvi xüsusiyyətlərini "xarakterlər xəritəsi"ndə əks etdirin.

Müəllimin təklifi ilə şagirdlər öncə tapşırıqla tanış olur, özləri üçün aydın olmayan mətləblərlə bağlı suallar verirlər. Fərdi səssiz oxuya ayrılan vaxt elan olunur. Oxuda şagirdlərin daha çox ikinci bəndlə bağlı fəaliyyətlərinə diqqət yetirilir; fərziyyələrin məntiqli olması bu məqamda əhəmiyyətlidir. Əsərin məzmununun öyrənilməsində obrazların nitqi üzərində aparılan müşahidələr müəllifin mövqeyi barədə əsaslandırılmış fikir söyləməyə imkan verir. İkinci bəndin üzərində işləyən şagirdlərin diqqəti bu cəhətə də yönləndirilir.

Şagirdlər kiçik qruplarda birləşməzdən əvvəl cütlük şəklində fikir mübadiləsi apara bilərlər. Yalnız bundan sonra fikirləri oxşar, yaxın olanlar kiçik qruplarda birləşərək qənaətlərini bölüşürlər. Bunun ardınca qruplararası **məlumat mübadiləsi və müzakirə** aparılır. Bu

mərhələdə *mətnkənarı sualların* hər biri ilə bağlı dərketmənin hansı səviyyədə olduğunun aşkara çıxarılmasına əlverişli imkan yaranır. Əlbəttə, dərslikdəki mətn həmin sualların cavabını əhatə etmir, bu, mənbələrin araşdırılması sayəsində mümkün olur. Lakin dərslikdəki cavablar mənbələr üzrə araşdırmalarda şagirdləri doğru olan məlumatları öyrənməyə istiqamətləndirir. Məsələn, birinci sualla bağlı dərslikdəki yığcam məlumata əsaslanmaqla mənbələr üzrə araşdırma yazıçının bu mövzuya müraciət etməsinin səbəbini əhatəli aydınlaşdırmağa imkan verir. Eləcə də ikinci sualın *(Əsərdə qaldırılmış problemlər və konflikt üçün özəl olan cəhətlər hansılardır?)* dərslikdəki cavabı müəyyən təsəvvür yaratsa da, əlavə məlumata ehtiyac duyulur. Deyilənlərdən aydınlaşır ki, müzakirədə hər bir sualın cavabı ilə bağlı mühüm cəhətlərin üzərində dayanmaqla onların başa düşülməsinə nail olunmalıdır. Bu, şagirdlərin sonrakı fəaliyyətinin səmərəliliyi üçün vacibdir. Müzakirədə müəllimin istiqamətləndirici suallardan yerli-yerində istifadə etməsi bu ciddi vəzifələrin həyata keçirilməsinə əhəmiyyətli dərəcədə təsir edir.

Mənbələr üzrə iş zamanı əldə olunacaq məlumatların bu mərhələdə bəndlər şəklində qeyd olunması məqsədəuyğundur. Şagirdlərin qənaətləri ümumiləşdirildikdən sonra (nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması təhlil başa çatdırıldıqda – növbəti dərsdə reallaşdırılır) qiymətləndirmə aparılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **C.Məmmədquluzadə. Anamın kitabı – 5** saat

*Dördüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir. | Tragikomediyanı kompozisiya, dil, üslub baxımından təhlil edir. |
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Tragikomediyada obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir. | Tragikomediyada məcazların obrazlılığın yaradılmasındakı roluna əsaslandırılmış münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Tragikomediyanın mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə, təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Mətnkənarı sualların hər biri ilə bağlı mənbələrdən hansı məlumatların əldə olunduğu, onlardan istifadə ilə dərslikdəki mətnin necə zənginləşdirildiyi və tamamlandığı aşkara çıxarılır. Şagirdlər qeyd edirlər ki, XX yüzilliyin əvvəllərində Azərbaycan ziyalısının qarşısında duran taleyüklü vəzifələr yazıçının diqqətini xüsusilə cəlb edirdi. Bu vəzifələri həll etməli olan ziyalıların arasında konfliktlərin yaranması, bəzilərində milli-mənəvi dəyərlərə laqeydliyin güclənməsi C.Məmmədquluzadəni ciddi düşündürən problemlərdən idi. Bütün bunlar yazıçını bu mövzuda əsər yazmağa sövq edən mühüm səbəblər olmuşdur.

Şagirdlər müəllimin istiqamətləndirici suallarına əsasən Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd Vahid obrazları ilə bağlı gəldikləri nəticələri şərh edirlər. Təqdimat zamanı bu obrazların oxşar və fərqli

xüsusiyyətlərinin müqayisə cədvəli, yaxud Venn diaqramı ilə nümayiş etdirilməsi məqsədəuyğundur.

Ev tapşırığındakı iki sual *(Əsərdə təsvir olunanlarla səsləşən real hadisələri yazıçı harada və hansı illərdə müşahidə edə bilərdi? Tragikomediyada diqqət mərkəzinə çəkilmiş problemlərdən hansılar bu gün də aktual sayıla bilər?)* şagirdlərdən axtarışlar aparmaqla yanaşı, müstəqil düşüncə də tələb edir. Bu suallarla bağlı diskussiyaya vaxt ayrılması faydalıdır.

Bu mərhələdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Dərsdə növbəti addım dərslikdəki təhlil materialının oxusunun təşkili olur. Dərslikdə təklif edilmiş tapşırıq şagirdləri diqqətli olmağa, məzmunu anlayaraq qavramağa istiqamətləndirir. Mətnkənarı sualların sayı qədər kiçik qruplar (sinifdə şagirdlərin sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər) yaradılır. Qruplardan birinin üzvü ilk mətnkənarı sualın cavabını ucadan və aydın şəkildə oxuyur. Oxunu başa çatdıran şagird mətndəki əsas fikirləri (narahat ömür yaşayan ananın arzusu, doğma xalqını, dilini sevən Gülbaharın qardaşlarına qarşı çıxması) ümumiləşdirərək bir-iki cümlə ilə ifadə edir. Onun dedikləri şagirdlərə tam aydın olmalıdır. Bunun ardınca mətnə aid verdiyi sualları cavablandırmağı şagirdlərə təklif edir. Suallar təkcə məzmunun necə qavranıldığını müəyyənləşdirmək məqsədini güdməməlidir. Suallar müəyyən nəticə çıxarmağa *(məsələn, Ana narahat olmaqda haqlı idimi?)*, əsərdəki başlıca fikri anlamağa *(məsələn, Qardaşlarının kitabını yandırmaqda Gülbaharın məqsədi nə idi?)* istiqamətləndirməlidir. Cavablar sinifdə müzakirəyə səbəb ola bilər. Ortaq məxrəcə gəlincəyə qədər müzakirəni davam etdirmək mümkündür. Müzakirədə səthi qavranılmış mətləblər də aşkara çıxır. Mətni oxuyan şagird onlara aydınlıq gətirir, o, çətinlik çəkərsə, müəllim digər şagirdlərin işə qoşulmasını təmin edir. Həmin şagirdin sonuncu vəzifəsi oxuduğu mətni – birinci mətnkənarı sualın cavabını hansı əlavələrlə zənginləşdirməyin lazım olması barədə fikrini bildirməsidir. Bu fikrə şagirdlərin münasibət bildirmələrinə imkan yaradılır.

Ayrı-ayrı qrupların şagirdləri növbə ilə digər mətnkənarı sualların cavablarını da bu qayda ilə oxuyurlar. İkinci mətnkənarı sualın oxusunda əsərin kompozisiyası, obrazların nitqi – danışığı barədə deyilənlərin əsərdən nümunələr göstərilməklə izahına xüsusi diqqət yetirilir.

Kiçik qrupların təqdimatları əsasında aparılan **məlumat mübadiləsi və müzakirədə** obrazlar, əsərin bədiiliyini artıran vasitələr və ideyası ilə bağlı öyrənilənlərin dərinləşdirilməsinə, möhkəmləndirilməsinə nail olunur.

Müəllimin istiqamətləndirici sualları **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsinin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir.

Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, qardaşların həyata baxış, davranış və danışıqlarında gülüş doğuran cəhətlər çox olsa da, ailədə və cəmiyyətdə mövqeləri faciəvi, kədərli və təəssüfləndiricidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **C.Məmmədquluzadə. Anamın kitabı – 5** saat

*Beşinci saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratından istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla faciənin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3,5-4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | Təhlil xarakterli inşa, esse yazır. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən mənbələrdən əldə edilmiş məlumatın məzmunu, dərslikdəki mətnlərlə necə səsləşməsi üzərində dayanılır. Ana obrazının digər bir ədəbi qəhrəmanla müqayisə edilməsi üzrə tapşırığın necə yerinə yetirilməsi müəyyənləşdirilərkən seçimin nə dərəcədə uğurlu olduğuna, müqayisənin necə aparıldığına diqqət yetirilir.

İlk dəfə olaraq məqalə yazmaq üzrə tapşırıq alan şagirdlərin məqalənin xüsusiyyətləri ilə bağlı məlumatları aşkara çıxarılır və zəruri əlavələr edilir. Məqalə üçün təklif olunmuş mövzular ("C.Məmmədquluzadənin "kiçik" qəhrəmanlarının böyük faciəsi"; C.Məmmədquluzadənin publisistikasında ana dili məsələsi) asan deyil, ciddi araşdırma tələb edir. Lakin hər iki mövzu ilə bağlı dərslikdəki məlumat şagirdlərə istiqamət

verir. Təqdimatlar dinlənilərkən şagirdlərin hansı qəhrəmanları seçdikləri, onların əsl faciəsini nədə gördükləri diqqət mərkəzində saxlanılır.

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərin təhlil xarakterli inşa və esse ilə bağlı bilik və bacarıqlarını xatırlamağa yönəlmiş yığcam müzakirə aparılır. Müzakirənin sonunda tədqiqat sualı müəyyənləşdirilir.

**Tədqiqat sualı:** *Tragikomediya üzrə təhlil xarakterli inşa və essedə daha çox önəm verilən məsələlər hansılardır?*

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Mövzular elan olunur: "Qardaşların müqayisəli təhlili" mövzusunda inşa; "Ana" obrazı məndə hansı təəssürat yaratdı?" mövzusunda esse.

Seçilmiş mövzular üzrə fikir mübadiləsi aparılır. Şagirdlər mənbələr üzrə apardıqları araşdırmaların nəticələrini nəzərdən keçirir, onlardan necə istifadə edəcəklərini müəyyənləşdirirlər. Ümumi hazırlıq başa çatdıqdan sonra yığcam müsahibənin aparılması məqsədəuyğundur. Yazı prosesini müşahidə edən müəllim ehtiyac yaranan məqamlarda istiqamətləndirici suallarla şagirdlərə kömək edir.

Şagirdlər mənbələrdən əldə etdikləri məlumatlarla məhdudlaşmır, tragikomediyanın səhnə həyatının onlarda yaratdığı təəssüratdan bəhrələnirlər.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlərin bir-birinin yazısını oxumalarına imkan yaradılır. Onlar oxuduqları yazının uğurlu cəhətlərini göstərməklə yanaşı, öz arzularını da (yazıya nə əlavə etmək, nələri dəyişmək, yaxud təkmilləşdirmək və s. ilə bağlı) ifadə edirlər.

Sinfin səviyyəsindən asılı olaraq, meyarlar daha sadə məzmunda hazırlana bilər.

Yazılardan nümunələrin oxunmasına və müzakirəsinə vaxt ayrılır. İnşada və essedə müşahidə olunan üslub fərqinə, ayrı-ayrı şagirdlərin fikirlərini ifadə tərzinə diqqət yetirilir. Şagirdlərə öz yazıları barədə yoldaşlarının arzu şəklində bildirdiklərinin üzərində evdə düşünmək, deyilənləri nəzərə almaq və təkmilləşdirmə aparmaq təklif edilir.

Müəllimin istiqamətləndirici sualları şagirdlərin əsaslandırılmış nəticə çıxarmalarına imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təhlil xarakterli inşada başlıca olaraq, əsərin mövzusu, ideyası, onda qaldırılmış mühüm problem ön plana çəkilir. Essedə isə şəxsi təəssüratın ifadəsi önəmli yer tutur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mirzə Ələkbər Sabirin həyatı, yaradıcılıq yolu** – **1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən yazıçının Cənub mövzusunda yazdığı əsərlərlə şagirdlərin tanışlıq səviyyəsi məruzələrin dinlənilməsi və müzakirə edilməsi yolu ilə aşkara çıxarılır.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə işi fərqli məzmunda təşkil etmək mümkündür. Tapşırıqlardan istifadə yolu ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim dərslikdəki tapşırıq üzrə işi *(M.Ə.Sabir haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* bu məqsədə yönəldə bilər. Müzakirənin sonunda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *M.Ə.Sabirin şəxsiyyətinə və yaradıcılığına bütün zamanlarda böyük maraq göstərilməsinə səbəb nədir?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Araşdırmaya dərslikdəki materialın oxusu ilə başlanılır. Oxunun təşkili ilə bağlı dərslikdə təklif edilmiş tapşırıq şagirdlərin fərdi işləmələrinə və diqqətli olmalarına imkan yaradır. Oxuya başlamazdan əvvəl müəllim *nişanlama ilə oxu* barədə şagirdlərin bildiklərini bir neçə sualla yada salır. Çıxarılan nəticələrin cədvəldə çox yığcam şəkildə qeyd edilməsinin vacib olduğu nümunə əsasında izah olunur. Oxu prosesi diqqətlə izlənilir, ehtiyac yaranan hallarda şagirdlərə istiqamətləndirici suallarla kömək göstərilir. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlərin cütlük şəklində fikir mübadiləsi aparmalarına şərait yaratmaq olar. Nəticələri oxşar olan cütlər kiçik qruplar yaradır və qənaətlərini bölüşürlər. Yalnız bundan sonra kiçik qruplar təqdimat əsasında

**məlumat mübadiləsi və müzakirə** aparır. Müzakirədə hər bir mətnkənarı sualla bağlı məlumatın necə qavranıldığı və ziddiyyətli məqamların ortaya çıxma səbəbləri dəqiqliklə müəyyənləşdirilir. Müxtəlif mənbələrdən əldə edilmiş məlumatların hansı məzmunda olduğu, onların oxşar və fərqli cəhətlərinin necə müəyyənləşdirildiyi təqdimatların dinlənilməsində aşkara çıxarılır və dəyərləndirilir. Araşdırılan problemə və dərsin mövzusu ilə bağlı mühüm məsələlərə şagirdlərin sərbəst münasibət bildirmələrinə, tənqidi düşüncələrini ifadə etmələrinə imkan yaradılır.

Bu mərhələnin əsasını qarşılıqlı öyrənmə və öyrətmə təşkil edir.

Müəllimin istiqamətləndirici sualları əsaslandırılmış **nəticənin çıxarılmasına, ümumiləşdirmənin aparılmasına** səmərəli təsir edir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, M.Ə.Sabiri doğma xalqından ayrı təsəvvür etmək mümkün deyildir. Xalqın dərdini, problemlərini dərindən bilən və əsərlərində böyük ustalıqla əks etdirən şairin ömrü boyu "bir gözü ağlamış, bir gözü gülmüşdür". Oxucular onun əsərlərini həmişə sevə-sevə mütaliə etmiş, onlarda gerçəkliyin heyrətamiz ustalıqla əks olunduğunu görmüş, müəllifi özlərinə yaxın, doğma saymışlar.

Müzakirənin sonunda mətnə hansı məzmunda əlavələr etməyin lazım olması barədə ümumi rəyə gəlinir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **M.Ə.Sabir. Neylərdin, ilahi?! – 2** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.4. Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Şeirdə əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə, təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilə bilər. Mətnkənarı sualların cavabları ilə bağlı mənbələrdən hansı məlumatların öyrənildiyi, ümumiləşdirmənin necə aparıldığı, çıxarılmış nəticələrin nə cür əsaslandırıldığı ön plana çəkilir. Dərslikdə cavabları açıqlanmayan, mahiyyətləri ilə bağlı yalnız istiqamət verilən sualların *(Sabirin lirikasında hansı ictimai-siyai hadisələrə münasibət bildirilmişdir? Sabirin satirik şair kimi formalaşmasına təsir edən amillər hansılardır? Şairin satirik şeirlərini hansı mövzular üzrə qruplaşdırmaq olar?)* mənbələr əsasında necə araşdırıldığına xüsusi diqqət yetirilir.

Məruzə üçün təklif edilmiş mövzularla *(Sabir və "Molla Nəsrəddin" jurnalı; Sabir və İranda baş vermiş milli - azadlıq hərəkatı)* bağlı dərslikdə konkret istiqamətlə tanış olan, mənbələrdən isə kifayət qədər məlumat öyrənən şagirdlərin çıxışları dinlənilir və onlara münasibət bildirilir.

Ev tapşırığı ilə bağlı bütün məqamlarda müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələnin əvvəlində dərslikdə təklif edilmiş "Oxuya hazırlaşın" başlıqlı sualların üzərində işin təşkili faydalıdır. Bu, motivasiyanın yaradılması üçün zəmin rolunu oynayır. "Laqeydlik", "biganəlik" anlayışlarının mahiyyətinin açıqlanması, fikir mübadiləsi və müzakirənin aparılması tədqiqat sualının formalaşdırılması ilə yekunlaşır.

**Tədqiqat sualı:** *Laqeydliyə, ədalətsizliyə etirazın əks olunduğu satirik əsərdə, sizcə, hansı məsələlərə önəm verilər?*

**Tədqiqatın aparılmasına** şeirin oxusu ilə başlanılır. Oxunu, ümumiyyətlə, məzmun üzrə işi fərqli yollarla həyata keçirmək mümkündür. Dərslikdə təklif olunmuş yol şagirdlərin müstəqilliyinin daha çox təmin edilməsi və əməkdaşlıq baxımından faydalıdır. Əsərin fərdi oxusu üçün vaxt müəyyənləşdirilir. Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, məcazların müəyyənləşdirilməsi ilə müşayiət olunan oxuda

şagirdlərə məzmunla bağlı özlərini düşündürən sualları dəftərlərində, yaxud iş vərəqlərində yazmaq təklif edilir. Oxu tamamlandıqdan sonra şagirdlərin cütlük şəklində fikir mübadiləsi aparmalarına vaxt ayırmaq mümkündür. Ardınca kiçik qruplarda birləşən şagirdlər təkrar olunan suallar çıxılmaqla digərlərinə cavab hazırlayırlar. Kiçik qruplarda iş zamanı sualların təkmilləşdirilməsinə də xüsusi diqqət yetirilir. Müəllim çalışır ki, suallar rəngarəng olsun, yalnız məzmunun qavranılmasına deyil, müəyyən nəticələrin çıxarılmasına, əsas fikirlərin başa düşülməsinə xidmət etsin.

Hər qrupdan bir nəfər cavabları artıq məlum olan öz sualları ilə digər qruplara müraciət edir. Suallara cavab prosesinin müzakirə səciyyəli olması məqsədəuyğundur. Bu, dərsin **məlumat mübadiləsi və müzakirə** mərhələsi kimi qəbul edilə bilər. Şairi düşündürən, narahat edən problemlərin (insan taleyinə laqeydlik, haqsızlığın, ədalətsizliyin günbəgün artması, zəmanənin – dövranın yaxşılıqların üstündən qələm çəkməsi və s.) açıqlanması, xeyirxahlıq, yaxşılıq, cəhalətin aradan qaldırılması, dəstək olmaq kimi milli-mənəvi və bəşəri dəyərlərdən uzaqlaşma hallarının kəskin tənqidi bu mərhələdə ön plana çəkilir. Müəllimin istiqamətləndirici sualları əsaslandırılmış **nəticənin çıxarılmasına, ümumiləşdirmənin aparılmasına** səbəb olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, insana laqeyd münasibətin və ədalətsizliyin hökm sürdüyü dövrana – zəmanəyə etirazın əks olunduğu satirik əsərdə bu bəlaları törədən səbəblər – soyuqqanlılıq, həyasızlıq, istismar, cəhalət və s. kəskin tənqidinə geniş yer verilir.

Nəticələrin fərziyyələrlə müqayisəsinə vaxt ayrılır.

Bu məzmunda aparılan iş “Əsərdə əksini tapmış milli-mənəvi və bəşəri dəyərlər” mövzusunda təqdimata hazırlaşan şagirdlərin səmərəli fəaliyyətinə geniş imkan yaradır. Təqdimatlardan nümunələrin dinlənilməsinə və müzakirəsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **M.Ə.Sabir. Neylərdin, ilahi?! – 2** saat

*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir. | İfadəli oxudan şeiri emosional-obrazlı qavramaq, təhlil etmək və qiymətləndirmək məqsədilə istifadə edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir. | Şeirdə məcazların obrazlılığın yaradılmasındakı roluna əsaslandırılmış münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Şeirin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsinə hazırlanmış ikihissəli gündəliklərlə bağlı təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə başlanılır. Çıxış edənlərə sualların verilməsi, müzakirədə daha çox şagirdin iştirak etməsi təmin olunur. İkinci tapşırıqla *(Sabirin satiralarını nəzərdən keçirin. Bu şeiri hansı satira ilə müqayisə etmək olar? Fikrinizi nümunələrlə əsaslandırın)* bağlı təqdimatlarda seçilmiş nümunənin nə dərəcədə müvafiq olduğu, müqayisənin necə aparıldığı diqqət mərkəzində saxlanılır.

Bütün hallarda müəllimin qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli məzmunda təşkil etmək olar. Suallardan istifadə yolunu seçən müəllim şeirin yazıldığı dövrdə Azərbaycanda mövcud olan siyasi-iqtisadi duruma diqqəti cəlb edir, şagirdləri tarix fənnindən qazandıqları bilikləri xatırlamağa yönəldir. Yığcam müsahibənin sonunda tədqiqat sualı müəyyənləşdirilir.

**Tədqiqat sualı:** *Bu şeiri yazmağa şairi sövq edən səbəblər, sizcə, nə olmuşdur?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Araşdırmaya dərslikdəki təhlil materialının oxusu ilə başlanılır. Bunun üçün dərslikdə təklif olunmuş tapşırıq şagirdlərdən diqqət və

yaradıcılıq tələb edir. İlk növbədə, kiçik qruplar yaradılır, mətnkənarı suallar onların arasında bölünür. Qrupların sayı çox olarsa, iki qrup bir sualın üzərində işləyə bilər. Şeirin məzmunu ilə bağlı öyrənilənlər mətnkənarı sualların hər birinin cavabı barədə şagirdlərdə müəyyən təsəvvürün olmasına imkan yaradır. Qrup halında işləmək isə daha ətraflı cavabların hazırlanmasına səbəb olur. Yazdıqları ilə bağlı qrup daxilində ortaq məxrəcə gələn şagirdlər üzərində işlədikləri sualın cavabını dərslikdən oxuyurlar. Müstəqil hazırladıqları cavabı dərslikdəki müvafiq mətnlə müqayisə edən şagirdlərə obyektiv nəticə çıxarmaq çətin olmur. Təqdimata hazırlaşan qruplar gəldikləri nəticələri müqayisə cədvəlində, yaxud Venn diaqramında əks etdirirlər. Sonrakı mərhələlərdə – **məlumat mübadiləsi və müzakirədə** qrupların digər mətnkənarı sualların cavabları ilə bağlı aydın təsəvvür qazanmalarına nail olunur. Bu hər bir suala hansı məzmunda əlavələrin edilməsinin lazım olduğu barədə ortaq məxrəcə gəlinməsinə də müsbət təsir edir.

Əruz vəznli şeirlərin ifadəli oxusu ilə bağlı əvvəlki sinifdə mənimsənilənlər xatırladılır. Şeirin ilk iki beyti təfilə bölgüsünə uyğun olaraq cədvəldə əks etdirilir. İfaçılıq vəzifəsi müəyyənləşdirildikdən sonra ifalardan nümunələr dinlənilir və fikir mübadiləsi aparılır.

Müəllimin istiqamətləndirici sualları əsaslandırılmış **nəticənin çıxarılmasına, ümumiləşdirmənin aparılmasına** imkan yaradır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanından parça üzrə aparıla bilər.*

### Şərəfli ailə
*(ixtisarla)*

Məhsəti xanım xəstəlik yatağında idi. Neçə gündü ki, süfrə başına gələ bilmirdi. Nahar vaxtı idi, Rəna süfrəni açıb Nizamini nahar yeməyinə çağırdı. Nizami qələm və kağızını səliqə ilə yığışdırıb yanındakı heybəyə qoydu və pilləkənlərdən qalxıb süfrə başına gəldi. Süfrə olduqca yoxsul idi. Nizami oturdu, nahar yeməyinə başlarkən Rəna ona sual verdi:

– Mən çoxdandır ki, bır şeyi səndən soruşmaq istəyirdim, amma cəsarət etmirdim, bilmirəm sən o suala cavab vermək istəyəcəksənmi?!

– Nə üçün cəsarət etmirdin?! Mənim səndən başqa özgə bir sirr yoldaşım vardırmı?! Danış, utanma, bilmədiyin şeylərin hamısını məndən soruş.

Rəna Nizaminin sözlərindən cəsarət alaraq sözə başladı:

– Mən hər yerdə eşidirəm ki, Nizami Gəncə şairlərinin hamısından qüvvətlidir və sənətkar şairdir. Lakin nədənsə sən onların hamısından yoxsul bir həyat keçirməkdəsən. Mən ancaq bunların səbəbini bilmək istərdim. Elə düşünmə ki, mən bu yoxsul həyatımızdan şikayətlənirəm. Çünki mən bu evə gəlməmişdən əvvəl də bu evi və bu evin sahibini çox yaxşı tanıyırdım. Yuxarıda saydıqlarımın heç birisi mənə lazım deyil, mən atamın evində də belə bır həyat keçirirdim.

Nizami yeməyə başlamamışdı, Rənanın danışıqlarını diqqətlə dinləyirdi. Çünki Rəna onun evinə gəldiyi gündən bəri onunla bu qədər ciddi danışmamışdı. O dedi:

– Mənim ruhum və mənim şadlığım Rəna! Verdiyin sualların cavabı çox sadədir. Sən hökmdarın hüzurunda durub başını əyməsən, çiyninə xələt salmazlar. İndi mənə cavab ver görüm, Rəna, sən mənim başımın hər hökmdarın qabağında əyilməsinə razı ola bilərsənmi? Ağıllı və şərəfli başlar əyilməz. O başlar yalnız xalqın əməl və arzuları, iradəsi qarşısında əyilə bilər. Saraydan xalqın içərisinə ağ bir üzlə qayıtmaq çox çətindir. Sarayın bır qapısı da zindana və həbsxanaya açılır.

Nizami bu son sözləri dediyi zaman Rəna hönkür-hönkür ağladı və:

– Mənə inan, İlyas! Mən heç vaxt sənin alçalmağına razı deyiləm, - dedikdə Məhsəti xanım da öz otağından çıxıb nahar süfrəsi başına gəlirdi. O, Rənanın ağladığını gördüyü zaman təəccübləndi. Nizami Rənanın ağlamasının səbəblərini əvvəldən axıra qədər Məhsəti xanıma danışdı.

Məhsəti xanım Nizamiyə dedi:

- Sən yoxsul deyilsən. Çünki vicdanca yoxsul olmaqdansa, məişətcə yoxsul olmaq daha yaxşıdır.

Fəxrəddin qapını açıb otağa daxil oldu. Salam verdikdən sonra Məhsəti xanımın əlini öpüb oturdu. Rəna qalxıb onun üçün də yemək

gətirdi. Lakin Fəxrəddin yeməyə etina etmədi. Rəna onun bu etinasızlığından narazı qalaraq:

– Nə üçün yemirsən? Etinasızlığına səbəb süfrəmizin yoxsulluğudurmu? – dedikdə Fəxrəddin də:

– Rəna xanım, öz vicdanıma and içirəm ki, etinasızlığım süfrənizin yoxsulluğundan deyil, çünki bu süfrənin başında iki böyük dünya oturmuşdur. Fəxrəddin kimdir ki, bu süfrəyə etinasız baxsın?! Sizin hamınızın şərəfinə and içirəm, dünən nahardan bəri boğazımdan bir qətrə su da getməmişdir.

Nizami ona sual verdi:

– Dilşaddanmı xəbər aldın?

Fəxrəddin qəmgin bir halda:

– Bəli, Dilşaddan xəbər aldım. Lakin o artıq yoxdur, ancaq onun adı dilimdə qalmışdır. Bilmirəm, onu unuda biləcəyəmmi?! Bu da mənim üçün bir kədər oldu.

Nizami təəccüblə onun üzünə baxıb soruşdu:

– Əcəba, sən onun buradan gec-tez aparılacağını bilmirdinmi?!

– Lakin hara aparıldığını bilmirəm.

– Bağdaddan başqa hara apara bilərlər? Xəlifəyə göndərilən məktub öz əlində deyildirmi?

Rəna və Məhsəti xanım bu xəbərdən kədərləndilər. Nizami isə ona təsəlli verdi:

– Səbir etməlisən. Görürsən ki, vəziyyət tez-tez dəyişir. Xüsusən bizim vətənimiz heç bir zaman hadisəsiz yaşamayıb, yenə də yaşaya bilməyəcəkdir. Çünki mövqeyimiz belədir. Mənə qulaq as! Özünü ələ al. Bu hadisə sənin mətanətini artırmalıdır. Dilşadın buradan aparılmasına onu tamamilə itirmiş kimi məna vermə. Dilşadın qurtuluşu barəsində dərin düşünmək, faydalı tədbirlər görmək lazımdır. İndi isə Rəna xanımın qəlbini sındırma, buyur, bizimlə nahar elə.

Fəxrəddin süfrəyə əlini uzadırkən:

– Nə qədər şərəfli bır ailədir, – dedi.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın, alınma, yaxud öz sözlərimiz olduğunu əsaslandırın.

______________________________________________________________

______________________________________________________________

2. Bədii ifadə vasitələrini müəyyənləşdirin, növünü qeyd edin.

| Bədii ifadə vasitələrinə aid nümunələr | Bədii ifadə vasitələrinin növü |
|---|---|
| | |

3. Əsərin mövzusunu, qoyulmuş problemi müəyyənləşdirin.

| Mövzu | Problem |
|---|---|
| | |

4. Xarakter və əməllərinə əsaslanmaqla Nizami və Fəxrəddin surətlərini səciyyələndirin.

| Obrazın adı | Xarakteri | Əməlləri | Onlara münasibətiniz |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |

5. Əsəri hissələrə ayırın, plan tərtib edin.

______________________________________________________________

______________________________________________________________

6. Əsərdə hansı mənəvi dəyərlər öz əksini tapmışdır? Fikrinizi əsaslandırın.

______________________________________________________________

______________________________________________________________

7. Fikrin təsir gücünün artmasında bədii ifadə vasitələrinin rolunu aydınlaşdırın.

| Bədii ifadə vasitələrinə aid nümunələr | Fikrin təsir gücünün artırılmasında rolu |
|---|---|
| | |

8. Şərti işarələrdən istifadə etməklə cümlələrdə fasilələrin yerini, məntiqi vurğulu sözləri göstərin.

Məhsəti xanım xəstəlik yatağında idi. Neçə gündü ki, süfrə başına gələ bilmirdi. Nahar vaxtı idi, Rəna süfrəni açıb Nizamini nahar yeməyinə çağırdı. Nizami qələm və kağızını səliqə ilə yığışdırıb yanındakı heybəyə qoydu və pilləkənlərdən qalxıb süfrə başına gəldi. Süfrə olduqca yoxsul idi.

9. Əsərin məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazın.

______________________________________________________________

______________________________________________________________

10. Oxuduğunuz parçada başlıca fikir – ideya nədir?

______________________________________________________________

______________________________________________________________

*Mövzu:* **Hüseyn Cavidin həyatı, yaradıcılıq yolu – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |
| **3.1.3.** 3,5-4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | Təhlil xarakterli məqalə, məruzə yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının *(“Sabir satiralarının tənqid hədəfləri” mövzusunda yığcam məqalə yazın. “Sabirin yaradıcılığında qadın əsarətinin tənqidi” mövzusunda məruzə mətni hazırlayın)* yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Məqalə və məruzə mətni ilə bağlı təqdimatlarda mövzuya müstəqil münasibətin hansı səviyyədə olmasına, əsaslandırılmasına xüsusi diqqət yetirilir. Eyni zamanda mətnlərin dil, üslub xüsusiyyətləri baxımından nə dərəcədə uğurlu olması ön plana çəkilir.

**Motivasiya** yaratmaq məqsədilə şagirdlərin mövzu ilə bağlı mövcud bilikləri aşkara çıxarılır. Bunun üçün, ilk növbədə, dərslikdəki tapşırığın *(H.Cavidin həyatı, yaradıcılığı və yaşadığı dövrlə bağlı nə bilirsiniz? Ədəbiyyat, tarix, coğrafiya dərslərində qazandığınız bilikləri xatırlayın, yığcam müzakirə aparın)* yerinə yetirilməsinə vaxt ayrılır. BİBÖ üzrə cədvəl çəkilir. Müsahibə əsasında “Bilirik” və “Bilmək istəyirik” sütunlarında müvafiq qeydlər aparılır.

Motivasiyanın digər variantı You Tubdan istifadə etməklə “Cavid ömrü” filmindən bir epizoda baxış keçirilməsidir

Müzakirə zamanı şagirdlər H.Cavidin V sinifdə oxuduqları “Qız məktəbində” şeiri, IX sinifdə öyrəndikləri “Ana” mənzum dramı ilə bağlı mülahizələr söyləyir, fəallıq göstərirlər. Əvvəlki biliklərin təkrarı əsasında araşdırılacaq problem müəyyənləşdirilir: *Hüseyn Cavidin həyatı, yaradıcılığı üçün daha önəmli olanlar hansılardır?*

Dərsdə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı əsasında H.Cavidin məktəb və rayon kitabxanalarına paylanmış 5 cildlik əsərləri nümayiş etdirilir. Şagirdlərə həmin kitablardan əlavə mənbə kimi necə istifadə edəcəkləri ilə bağlı tövsiyələr verilir.

Dərslikdəki sualların *(1.Yazıçının həyat və yaradıcılığında İstanbul, Tiflis və Naxçıvan ədəbi mühitlərinin hansı rolu olmuşdur? 2. Hüseyn Cavidin sovet dövründəki fəaliyyəti hansı cəhətləri ilə səciyyələnir? 3. Sənətkarın poeziyasını səciyyələndirən başlıca xüsusiyyətlər hansılardır? 4. Sənətkarın dramatik əsərlərinin mövzu, problem, konflikt özəlliyi hansılardır?)* və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə araşdırmaya başlanılır. Mətnin oxusunu fərqli formalarda (fərdi, cütlük şəklində) həyata keçirmək mümkündür. Kiçik qruplar yaratmaq, hər qrupa bir sual həvalə etmək vaxta qənaət baxımından məqsədəuyğundur. Kiçik qruplara təqdimat zamanı tədqiqatçıların dərslikdə verilmiş fikirlərinə də münasibət bildirmək, fikirlərini əsaslandırmaq tapşırılır.

Araşdırmaya ayrılan vaxt başa çatdıqdan sonra **məlumat mübadiləsi və müzakirə** aparılır. Bu mərhələdə müəllimin üzərinə ciddi vəzifə düşür; o, hər sualla bağlı mənbələrdən hansı məlumatların əldə edilməsinin əhəmiyyətli olması barədə şagirdlərdə aydın təsəvvür yaratmağa çalışır. Məsələn, birinci sualla (*Yazıçının həyat və yaradıcılığında İstanbul, Tiflis və Naxçıvan ədəbi mühitlərinin hansı rolu olmuşdur?*) bağlı mənbələrdən istifadə edən şagirdlər H.Cavidin bir şəxsiyyət, sənətkar kimi formalaşmasında üç fərqli mühitin əhəmiyyətini qeyd edirlər. Aydınlaşdırılır ki, müxtəlif ədəbi mühitlər ədibdə mürəkkəb həyat hadisələrinə özünəməxsus baxışın formalaşmasına, onun çoxcəhətli yaradıcılığına, süni tələblərlə yox, öz qəlbinin səsinə qulaq asan filosof sənətkar kimi yetişməsinə öz töhfəsini vermişdi.

İkinci sual *(Hüseyn Cavidin sovet dövründəki fəaliyyəti hansı cəhətləri ilə səciyyələnir?)* üzrə araşdırma şagirdlərdə bu qənaəti yaratmalıdır ki, sovet dövründə öz yaradıcılıq amalına, qəlbinin səsinə sadiq qaldığına görə, şairə qarşı burjua yazıçısı, əsərlərində idealist qəhrəmanlar yaradan sənətkar kimi qondarma ittihamlar irəli sürülmüş, o, xalq düşməni kimi repressiyaya məruz qalmışdır. Bütün təzyiq və təqiblərə baxmayaraq, həmin dövrdə ədib ədəbiyyatımızı yeni əsərlərlə zənginləşdirmişdir.

Üçüncü sual *(Sənətkarın poeziyasını səciyyələndirən başlıca xüsusiyyətlər hansılardır?)* üzrə araşdırma zamanı H.Cavidin yaradıcılığının ilk mərhələsindən başlayaraq yazdığı şeirlərin ideya-mövzu istiqamətləri, həmin əsərlərdə ictimai motivlərin mühüm yer tutması ilə bağlı mülahizələr faktlarla, nümunələrlə əsaslandırılmalıdır.

Dördüncü sualla *(Sənətkarın dramatik əsərlərinin mövzu, problem, konflikt özəlliyi hansılardır?)* bağlı cavab hazırlanarkən şagirdlərin diqqəti daha əhəmiyyətli, ən zəruri fakt və nümunələrə yönəldilməlidir. Cavidin dramaturgiyası üçün kəskin həyati konfliktlərin, dövrün çağırışlarından doğan, bu gün də öz aktuallığını saxlayan mövzuların, maraqlı insan surətlərinin səciyyəvi olduğu aydınlaşdırılmalıdır.

Müəllimin istiqamətləndirici sualları əsasında ilkin **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılmasına** vaxt ayrılır. Ədibin lirik və epik poeziyasında, mənzum dramaturgiyasında milli və ümumbəşəri mənəvi dəyərlərin yüksək sənətkarlıqla canlandırıldığı barədə ümumi qənaət yaradılır. BİBÖ cədvəlində "Öyrəndik" sütununda qeydlər aparılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **H.Cavid. İblis *(ixtisarla)* – 4** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Faciədə əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Təqdimatların seçmə yolla dinlənilməsi və müzakirəsi daha məqsədəuyğundur. Bütün hallarda şagirdlərin mənbələrdən necə bəhrələndiyi, yeni öyrəndiklərini dərslikdəki məlumatlarla necə əlaqələndirdikləri üzə çıxarılır. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür. "Allah şeytana lənət eləsin", "Tamahkar öz nəfsinin quludur" kimi ifadələrdən, atalar sözlərindən istifadə yolu ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim şagirdlərə öz fikirlərini söyləməyi təklif edir. Müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır.

Motivasiya yaradılmasının bir yolu da You Tub-dan istifadə etməklə sütununda qeydlər"Cavid ömrü" filmindən "İblis" faciəsi ilə bağlı epizodun səsləndirilməsi və yığcam müzakirəsi ola bilər.

Müzakirə nəticəsində tədqiqat sualı müəyyənləşdirilir.

**Tədqiqat sualı:** *İnsanlar uğursuzluğun, şər əməllərin səbəbini daha çox nə ilə izah edirlər?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Faciədən dərslikdə verilmiş birinci pərdədən parçaların oxusu ilə **tədqiqata** başlanılır.

Oxunu fərqli formalarda həyata keçirmək mümkündür. Şagirdlərin marağı nəzərə alınaraq rollar üzrə oxunun tətbiqi faydalıdır. Oxuda tanış olmayan sözlərin mənası və məcazlar müəyyənləşdirilir.

Təcrübə göstərir ki, əsərin məzmununun mənimsədilməsi zamanı müəllimin istiqamətləndirici suallarına ehtiyac vardır. Müəllim, ilk növbədə, şagirdlərin diqqətini əsərin əvvəlində İblisin dili ilə müharibə dəhşətlərinin təsvirinə yönəltməlidir.

Bu parçanın üzərində xüsusi dayanılması şagirdlərdə dramaturqun əsəri müharibə səhnələrinin təsviri ilə başlamasının təsadüfi olmadığı fikrini yaradır. Pərdənin məzmununu mənimsəyən şagirdlər İblisin, Arifin səciyyəsi barədə məlumat qazanırlar. Onlarda həmçinin digər obrazlar: İxtiyar, Xavər, Rəna, İbn Yəmin barədə müəyyən təsəvvür yaranır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda parçaların məzmunu ilə bağlı fikir mübadiləsi aparır, sual və tapşırıqlar əsasında təqdimat hazırlayırlar.

Tədqiqata ayrılmış vaxt bitdikdən sonra təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə təqdimatların fəal dinlənilməsinə, müzakirənin səmərəli keçməsinə nail olur.

Müzakirə zamanı aşağıdakı məsələlərə diqqət yetirilir:

– hadisələrin Bağdad civarında baş verməsi;

– müharibə dəhşətlərinin təsviri;

– müharibənin törətdiyi faciələrə İblisin sevinməsi, Mələyin kədərlənməsi;

– Arifin Allaha müraciəti;

– İxtiyar şeyxin Arifə qəlbindəki qəzəbi, nifrəti unutmağı məsləhət görməsi;

– İblisin Ariflə dialoqunun məzmunu və s.

Növbəti dərsdə əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **H. Cavid. İblis *(ixtisarla)*** – 4 saat
*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Faciədə əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Müzakirələrdə mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi yığcam müsahibə ilə aşkara çıxarılır. Faciədən ixtisarla verilmiş pərdələrin məzmununun hansı səviyyədə qavranıldığı, tanış olmayan sözlərin, məcazların necə müəyyənləşdirildiyi aydınlaşdırılır.

Şagirdlər kiçik qruplarda oxuduqları pərdələrdəki mühüm fikirlər, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərini bölüşür, fikir mübadiləsi aparırlar. Bu, mənimsənilənlərin dəqiqləşdirilməsinə imkan yaradır. Qruplar daha sonra dərslikdə təklif edilmiş suallara cavab hazırlayırlar.

Qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi, müzakirədə daha çox şagirdin iştirakı diqqətdə saxlanılır. Əsərin məzmunu üzrə müzakirə zamanı ikinci pərdədə İblislə Arifin söhbətinin mahiyyətinin düzgün qavranılması təmin edilir.

Şagirdlərə aydın olur ki, bu pərdədə Arifin İblisin fitnəsinə uyması, insanın öz arzusuna çatmaq üçün altun, silah əldə etməsinin zəruriliyinə inanması, şərab içməsi gələcək faciələrin əsasını qoyur.

Üçüncü pərdədə Arifin günahsız Xavəri qətlə yetirməsi onun artıq iblisə çevrilməsi kimi mənalandırılır. Digər pərdələrin məzmunu üzərində iş bu qayda ilə davam etdirilir.

Şagirdlərin diqqəti son pərdədə İblislə Arifin dialoquna yönəldilir. İblisin monoloqunun məzmunu barədə şagirdlərin fikirləri öyrənilir.

**Nəticənin çıxarılması və ümumiləşdirmənin aparılmasında** müəllim istiqamətləndirici suallardan istifadə edir. Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **H. Cavid. İblis (ixtisarla) – 4** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir. | İfadəli oxudan faciənin emosional-obrazlı qavranılması məqsədilə istifadə edir. |
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Faciədəki obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Faciənin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Faciənin dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsini müsahibə və ya bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi yolu ilə aydınlaşdırmaq, real vəziyyəti müəyyənləşdirmək olar. Hər iki halda əsərdən İblisin son monoloqunun ifadəli oxusu ilə bağlı şagirdlərin rəyi dinlənilməli, ifaçılıq vəzifəsi, nitq texnikası, ifaçının qarşıya qoyduğu məqsədə necə nail olduğu aydınlaşdırılmalıdır.

Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya** suallardan istifadə ilə yaradıla bilər. Şagirdlərə həyatda kimə iblis, şeytan deyildiyini müəyyənləşdirməyi təklif edən müəllim yığcam müsahibənin sonunda tədqiqat sualını formalaşdırır.

**Tədqiqat sualı:** *Faciəli hadisələrdən bəhs edən əsər yazması dramaturqa hansı niyyətini ifadə etməyə imkan yaratmışdır?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Dərslikdəki suallar *(1. Əsərin mövzusu nədir? Faciədə diqqətə çatdırılan mənəvi dəyərlər hansılardır? 2. Əsərdəki obrazların xarakter və əməlləri üçün səciyyəvi olanlar nədir? 3. Əsərdə qaldırılmış problemlər və konflikt üçün özəl olan cəhətlər hansılardır? Əsərin başlıca ideyası nədir? 4. Əsər hansı bədii cəhətləri ilə diqqəti daha çox cəlb edir?)* və onların araşdırılmasına istiqamət verən cavabların oxusu ilə **tədqiqata** başlanılır. Həcmi böyük olmayan mətnin fərdi və ya cütlük şəklində oxusunu təşkil etmək məqsədəuyğundur. Faciədən oxunmuş pərdələrin məzmunu üzrə qazanılmış biliklər əsərin mövzusu, ideyası barədə fikir yürütməyə imkan verir.

Şagirdlər kiçik qruplarda fikir mübadiləsi aparır, öyrəndiklərini dəqiqləşdirir, təqdimata hazırlaşırlar. Tədqiqata ayrılmış vaxt bitdikdən sonra təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müəllim təqdimatların fəal dinlənilməsinə, müzakirənin diskussiya səciyyəli olmasına nail olur.

Təqdimatların müzakirəsi zamanı qeyd edilir ki, dünya ədəbiyyatında iblis obrazları yaradılsa da, H.Cavidin bu faciədə yaratdığı obraz XX əsrin qüvvətli İblisidir. Bu İblis dünyaya o vaxtadək görünməmiş müharibələr, kütləvi qırğınlar gətirən, zülm üzərində qurulmuş hakimiyyətin, nəfsin, mənfi ehtirasların quluna çevrilmiş şər xislətli insanın rəmzidir.

Ədib rəmzi İblis obrazı vasitəsilə dünyada ən böyük şər olan ədalətsiz müharibələr, Arif kimi səbatsız insanların nəfsin quluna çevrilməsi, mühitin, qızılın, şərabın, silahın təsiri ilə törətdiyi faciələr barədə öz düşüncələrini ifadə etmişdir. Cəbhədəki dəhşətli partlayışlar, yanğınlar, atəş səsləri, ölüm meydanından baş götürüb qaçan günahsız insanlar, bu səhnələri görüb dəhşətə gələn Mələyin fəryadları, qəhqəhə çəkən İblisin

sevincini əks etdirən bədii müqəddimə şərə etirazın güclü bədii ifadəsi kimi diqqəti cəlb edir. Əsərdəki konflikt də bu qarşılaşmadan doğur. Arifin təbiətində, taleyində özünü büruzə verən qarşılaşmada kim qalib gələcək: Mələk, yoxsa İblis? Humanizm, məhəbbət, mədəniyyət, yoxsa nəfs, mənfi ehtiraslar? Faciənin zəngin ideya-məzmunu bu suallarla bağlı müxtəlif yozumlara yol açır. Yer üzündəki vəhşiliyi, zülmü görən Arif sarsıntı içindədir. O, Allaha yalvarır ki, onu göylərə qaldırsın, xilas etsin. Lakin insanların səadəti haqqında düşünən, Allahdan kömək diləyən Arif sevdiyi Xavəri, illərlə həsrətini çəkdiyi qardaşı Vasifi şərab, altun, silahın təsiri ilə öldürən qatilə çevrilir.

Əsərin sonunda İblisin monoloqu faciənin ideyasının müəyyənləşdirilməsi baxımından çox əhəmiyyətlidir. Müzakirə zamanı qeyd edilir ki, İblis rəmzi, simvolik surətdir. Təsadüfi deyil ki, müəllif əsərdə bu obraza canlı varlıq kimi yanaşmır, "İblis kimdir yox, nədir?" deyir.

Şagirdlərdə belə qənaət yaradılır ki, baş verən faciələrdə, ədalətsiz müharibələrdə, insanların törətdikləri saysız-hesabsız cinayətlərdə mifik obraz olan İblis deyil, nəfsə uyan, iblislik edən insanların özü günahkardır.

**Nəticə və ümumiləşdirmə mərhələsində** qazanılmış bilik və bacarıqlar əsasında tədqiqat sualı üzrə araşdırma və müzakirələr yekunlaşdırılır. Müzakirədə belə bir nəticə çıxarılır ki, müəllifin niyyəti bəşəriyyətə faciələr gətirən müharibə quzğunlarını ifşa etməklə yanaşı, bəd əməllərin, xəyanətlərin, rəzalətlərin, ədalətsizliklərin mənbəyinin insanların şərə uymasında, altun və rəyasət düşkünlüyündə, öz ehtiraslarının quluna çevrilməsində olduğunu açıb göstərməkdir. Əsər müharibə əleyhinə yazılsa da, hərbin dəhşətlərinə, insanlara gətirdiyi faciələrə münasibət bildirilsə də, sənətkarın fikrincə, müharibə səbəb deyil, nəticədir. Yaşanan faciələrdə günahkar mifik, ənənəvi-rəmzi surət olan İblis deyil, əsl iblis insanın içindəki şər xislətdir, boğa bilmədiyi mənfur ehtiraslardır.

Aparılan işlər yekunlaşdırıldıqdan sonra qiymətləndirmə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **H.Cavid. İblis *(ixtisarla)*** – 4 saat

*Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş.**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir. | İnşanın (essenin) məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratından istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla faciənin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3,5–4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | Təhlil xarakterli inşa, esse yazır. |

**Dərsin gedişi**

**Motivasiya, problemin qoyuluşu.** Dərsdə vaxtın çoxu yazı işinin yerinə yetirilməsinə ayrılır. Şagirdlərin diqqəti dərslikdə təklif olunmuş mövzulara yönəldilir: *a) "Arifin faciəsinin səbəbini nədə görürəm" mövzusunda inşa yazın. b )"Çağdaş şər qüvvələr haqqında düşüncələrim" mövzusunda esse yazın.*

Şagirdlərin inşa və esse ilə bağlı bilik və bacarıqlarının yada salınması məqsədilə yığcam müsahibə aparılır. Bu, tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

**Tədqiqat sualı:** *Faciə üzrə təhlil xarakterli inşa və essenin başlıca xüsusiyyətləri hansılardır?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Yazı işlərinin yerinə yetirilməsi **tədqiqatın aparılması** mərhələsi kimi qəbul olunur.

İşə başlamazdan əvvəl yığcam müsahibə aparılır. Müxtəlif mənbələrdən seçilmiş faktlardan inşada necə istifadə ediləcəyinə aydınlıq gətirilir. Eləcə də faciədə ifadə edilmiş ideyalara, problemlərə, obrazlara münasibət bildirərkən şəxsi təəssürat və əlavə məlumatlara əsaslanmağın, müasir dövrlə əlaqələndirmənin yolları müəyyənləşdirilir. Şagirdlərə inşa, essenin yazılmasında fikrin ifadə tərzinin, üslubun müəyyənləşdirilməsi ilə bağlı tövsiyələr verilir. Şəxsi hisslərin, düşüncələrin, müstəqil dəyərləndirmənin yer aldığı essedən fərqli olaraq, inşada elmi üslubun aparıcı olduğu xatırladılır. Müxtəlif mənbələrdən əldə olunmuş məlumatların saf-çürük edilməsi, daha tutarlı, inandırıcı

olanlardan istifadə edilməsi inşada elmi üslubun çalarlarını xeyli zənginləşdirir. Essedə obrazlılığa, məcazlardan gen-bol istifadəyə, fikrin sərbəst ifadəsinə, şəxsi hiss və təəssüratın çatdırılmasına daha geniş yer verilməsi isə üslubda bədii çalarların güclənməsinə səbəb olur.

Müsahibədə faciədə qaldırılmış problemlərin müasir dövrlə əlaqələndirilməsinin zəruriliyi diqqətə çatdırılır. Yığcam müsahibədə şagirdlər qeyd edir ki, əsərin yazıldığı dövrdən yüz ilə yaxın bir vaxt keçir. Dramaturqun qaldırdığı problemlər müasir dövrdə öz aktuallığını saxlayır. Yaşadığımız dövrdə də insanın qarşısında xeyirə tapınmaq, öz təbiətindəki şərdən xilas olmaq vəzifəsi durur. Şər qüvvələrin törətdiyi, bəşəriyyətin sağalmaz xəstəliyinə çevrilmiş ədalətsiz müharibələr, torpaqların işğalı, "altun və qurşuna" güvənmək bu gün də dünyanın acı reallığıdır. Yaşadığımız dövrdə şəri təmsil edən erməni işğalçılarının öz havadarlarının köməyi ilə torpaqlarımızı işğal etməsi ilə barışmayan xalqımız bu ədalətsizliyi tezliklə aradan qaldıracaq, vətənimizi düşməndən azad edəcəkdir.

İnsanın "nuri-həqiqət" axtarışları hələ də davam edir. Öz idrakının gücü ilə kosmosu fəth edən, ən yeni texnologiyaları kəşf edən insan xislətindəki şərlə bir çox hallarda bacarmır, ondan xilas olmaqda hələ də acizdir.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra yazıdan nümunələrin təqdimatlar əsasında müzakirə edilməsi faydalıdır. Bu, dolğun **nəticənin çıxarılmasına, ümumiləşdirmənin aparılmasına** imkan verir.

Yazı işinin və müzakirənin hansı formada təşkilindən asılı olmayaraq, şagirdlərin fərdi qiymətləndirilməsi həyata keçirilə bilər. Bu, dərsdə reallaşdırılmış məzmun standartlarına müvafiq olaraq müəyyənləşdirilən meyarlar əsasında həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Əhməd Cavadın həyatı, yaradıcılıq yolu** – **1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini dinləyicilərin rəyini nəzərə almaqla əsaslandırır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının *(Mövzulardan birini seçib işləyin: 1. "Hüseyn Cavid romantik şair kimi" mövzusunda məruzə hazırlayın. 2. "Hüseyn Cavidin tarixi dramları" mövzusunda məqalə yazın)* yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən mənbələrdən toplanmış məlumatın nə dərəcədə məqsədyönlü olmasına diqqət yetirilir.

**Motivasiya, problemin qoyuluşu.** Dərslikdəki tapşırıq *(Ə.Cavad haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* əsasında müzakirə təşkil etməklə motivasiya yaratmaq mümkündür. Şairin şəxsiyyətinə və yaradıcılığına maraq müsahibənin canlı, maraqlı keçməsinə səbəb olur. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşdırılır.

**Tədqiqat sualı:** *Ə.Cavadın ardıcıl və amansız təqiblərə, təzyiqlərə məruz qalmasının əsl səbəbi, sizcə, nədir?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Dərslikdəki materialın oxusu ilə araşdırmaya başlanılır. Şagirdlər, ilk növbədə, dərslikdə təklif edilmiş tapşırıqla tanış olur, yaranan suallara aydınlıq gətirilir. Müəyyənləşdirilmiş cütlüyə daxil olan şagirdlərdən biri ilk mətnkənarı sualı və onun cavabını ucadan oxuyur. Hər iki şagird oxunmuş parça ilə bağlı açar sözlər müəyyənləşdirir. Həmin parça üçün açar sözlər, məsələn, bu qəbildən ola bilər: *ruhani ailəsi, ruhani seminariyası, "mədrəsə şeirləri", müəllimlik, müharibə, xeyriyyəçilik, ilk kitab, "Əhməd Cavad kədəri"*. Bu açar sözlərdən istifadə ilə aşağıdakı qəbildən suallar hazırlamaq mümkündür: *Ruhani ailəsində dünyaya gələn Əhmədin doğmalarının elmə, təhsilə münasibəti necə idi? Ruhani seminariyasında təhsil Əhmədin inkişafında hansı rol oynadı? Onun ilk qələm təcrübələrinin "mədrəsə şeirləri" adlanmasına səbəb nə idi? Ə.Cavad müəllimlik fəaliyyətinə nə vaxt başladı, o hansı bölgələrdə*

*işlədi? Müharibə Ə.Cavadın həyatında və yaradıcılığında hansı dəyişikliyə səbəb oldu?* və s. İkinci şagird (mətni oxumayan) açar sözlərdən istifadə etməklə (yuxarıdakı nümunələrə bənzər) suallar hazırlayır və onlara cavab verməyi birinci şagirdə təklif edir. Birinci şagirdin (mətni oxuyanın) cavabı qənaətləndirici olmasa, müzakirədə bütün sinif iştirak edir. Cavabla bağlı ortaq məxrəcə gələnə qədər müzakirə davam edir. Cütlüklər bir-birini əvəz etməklə digər mətnkənarı sualları və onların cavabını bu qayda ilə oxuyub başa çatdırırlar. Açar sözlərin məzmunu, hazırlanmış sualların tələbləri, ehtiyac duyulan hallarda, müəllimin yönləndirməsi ilə dərinləşdirilir və təkmilləşdirilir.

Müxtəlif mənbələrdən əldə edilmiş məlumatlara, ayrı-ayrı problemlərə şagirdlərin münasibəti, məzmuna uyğun emosional-obrazlı ifadələrdən istifadə bacarıqları müzakirədə aşkara çıxarılır və nəzərə alınır.

Müzakirənin gedişində, eləcə də sonda mətnə hansı məzmunda əlavələr etməyin lazım olduğu müəyyənləşdirilir və bəndlər şəklində qeyd edilir.

**Nəticələrin çıxarılması, ümumiləşdirmənin** aparılmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Ə.Cavad üçün ən böyük istək Vətənini müstəqil, xalqını azad görmək idi. O, türk xalqlarının birliyini, həmrəyliyini ürəkdən arzulayan, bu yolda əzmlə çarpışan sənətkar və mücahid olmuş, "cümhuriyyət nəğməkarı" kimi tanınmışdı. Bolşevik hakimiyyəti Ə.Cavadı qatı düşmən sayır, milli - azadlıq ideyalarından onun heç vaxt uzaqlaşmayacağını bilirdi. Şairin xüsusi amansızlıqla təqib edilməsinin əsl səbəbi də elə bu idi.

Çıxarılmış nəticələr fərziyyələrlə müqayisə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Ə. Cavad. Səsli qız *(ixtisarla)* – 4** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. | Poemada əksini tapmış milli-mənəvi və bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Poemanın dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

**Dərsin gedişi**

Ev tapşırığının birinci tələbinin *(Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın)* yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Mətnkənarı, eləcə də digər iki sualın hər biri ilə bağlı mənbələrdən öyrənilmiş məlumatlar dəqiqliklə aşkara çıxarılır və onların nə dərəcədə əhəmiyyətli olduğuna münasibət bildirilir. Bütün məqamlarda müəllimin qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərslikdə təklif edilmiş “Oxuya hazırlaşın” tapşırığı həm mövzunun öyrənilməsi, həm də motivasiyanın yaradılması üçün zəmin rolunu oynaya bilər. Şagirdlərin həyati məlumatları və digər fənlərdən öyrəndikləri həmin tapşırığın suallarına cavab verməyə imkan yaradır.

Sualların *(Müharibə hansı faciələrə səbəb olur? Kimlər müharibə qurbanları sayılır? Müharibə dövründə mülki əhalinin hansı hüquqları qorunmalıdır?)* üzərində düşünən, təklif olunmuş cədvəldə qeydlər edən şagirdlər müzakirədə fəallıq göstərirlər. Qarabağ müharibəsində düşmənlərimizin qeyri-insani əməlləri həyati misallarla xatırladılır, həlak olmuş həmvətənlərimiz, məhv edilmiş abidələrimiz, şəhər və kəndlərimiz haqqında tarix fənnindən qazanılmış biliklər əsasında dəqiq rəqəm və faktlar yada salınır. Müzakirənin sonunda tədqiqat sualı formalaşdırılmış olur.

**Tədqiqat sualı:** *“Müharibə dinc, silahsız insanlara və insanlığa qarşı çevrilməməlidir” fikrini doğru saymaq olarmı?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılmasına** poemadan dərslikdə verilmiş hissənin oxusu ilə başlanılır. Müəyyənləşdirilmiş cütlərdən biri poemadan ilk parçanı ucadan və aydın səslə oxuyur. Cütlüyün ikinci üzvü oxunmuş parça ilə

bağlı yoldaşına – mətni oxuyana suallar verir. Sualların məzmununa, tələblərinin nədən ibarət olmasına xüsusi diqqət yetirilir. Müəllim çalışır ki, suallar mətndəki həm sadə, həm də mühüm məlumatların qavranılmasına, müəyyən nəticələrin çıxarılmasına, əsas fikirlərin başa düşülməsinə imkan yaratsın. Bir sözlə, suallar fərqli məqsədlərin reallaşdırılmasına xidmət etməlidir. Məsələn, poemadan dərslikdə verilmiş ilk parça ilə bağlı aşağıdakı qəbildən suallar hazırlamaq olar: *Doğma yurdlarını müdafiə edənlər hansı aqibətlə qarşılaşır?; Məğlub ölkənin və onun dinc əhalisinin taleyi necə olur?; Qalib ordunun insanlığa qarşı yönəlmiş cinayətlərini təsdiq edən hansı nümunələri göstərə bilərsiniz?* Göründüyü kimi, suallar məzmunun (mətndəki adi məlumatın) qavranılması üçün diqqətli olmağa, müəyyən nəticələr çıxarmağa, əsas fikri – ideyanı və daha mühüm məlumatları anlamağa istiqamətləndirir.

Poemadan növbəti parçanın oxusunda cütlər rollarını dəyişir: Sual verən şagird ikinci parçanı ucadan oxuyur, ilk parçanı oxuyan isə suallar verir. Cütlər ortaq məxrəcə gələnə qədər sualların cavabı ilə bağlı müzakirə davam edir. Poemadan dərslikdə verilmiş və oxunması nəzərdə tutulmuş bütün parçalar bu qayda ilə oxunub başa çatdırıldıqdan sonra kiçik qruplar yaradılır. Hər parça üzrə səsləndirilmiş suallar və onların cavabları ilə bağlı fikir mübadiləsi aparılır, çıxarılmış nəticələr müzakirə edilir.

Məzmunu əhatəli və anlayaraq qavrayan şagirdlər növbəti tapşırığı *(Əsərdə əksini tapmış milli-mənəvi və bəşəri dəyərləri müəyyənləşdirin. Fikrinizi nümunələrlə əsaslandırın)* icra etməkdə ciddi çətinlik çəkmirlər. İnsana, insanlığa hörmət, zəif, yaxud məğlub tərəfin heysiyyətinə toxunmamaq, haqqını, hüququnu tapdalamamaq xalqımızın əsrlər boyu qoruyub saxladığı dəyərlərdir. Bunlar dostluq, insani münasibətlərdə humanist ideyaların rəhbər götürülməsi kimi bəşəri dəyərlərlə qovuşur.

Aparılmış iş yekunlaşdırıldıqdan sonra (nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması, məzmunun öyrənilməsinə həsr edilmiş sonuncu – ikinci dərsdə həyata keçirilir) qiymətləndirmə mərhələsinə keçilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Ə.Cavad. Səsli qız (ixtisarla) – 4** saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Poemanı hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında iki formada – geniş və yaradıcı nağıl edir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Poemanın dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

**Dərsin gedişi**

Dərsin əvvəlində yaradılan kiçik qrupların üzvləri poemadan evdə oxuduqları parçalardakı əsas fikir, tanış olmayan söz və məcazlarla bağlı qənaətlərini bölüşürlər. Çıxarılan nəticələr barədə hazırlanmış təqdimatlar əsasında qruplararası fikir mübadiləsi və müzakirə aparılır. Müzakirədə aşağıdakı sualların geniş əhatə olunmasına səy göstərilir:

– *Məğlub ölkənin varlı adamları, din xadimləri qalib şahı necə qarşılayır? Şairin bu adamlara, qarşılanma mərasiminə, ümumiyyətlə, təsvir olunanlara münasibəti əsərdə öz əksini necə tapıb?*
– *Saranın oxuduğu mahnıda hansı fikir daha qabarıq ifadə olunub?*
– *Sara intiqam barədə düşünməyə bilərdimi?*
– *Saranın yaşadığı ölkəni şair nə üçün "köhnə mənada azad" hesab edir?*

Suallarda, göründüyü kimi, yalnız deklarativ biliyə istinad edilmir; onlarda hadisələrin mahiyyətinin başa düşülməsi, yazıçının mövqeyinin, səbəb-nəticə əlaqələrinin dərk edilməsi, ideya ilə bağlı ilkin qənaətlərin yaranması kimi məsələlər diqqət mərkəzində saxlanılmışdır. Obrazlara, təsvir olunanlara müəllifin münasibətinin aydınlaşdırılmasını tələb edən sual əsərin dilinə, yazıçının fərdi üslubuna xüsusi diqqət tələb edir. Əsərin məzmununun öyrənilməsində poemanın dil xüsusiyyətləri ilə tanış olan şagirdlər bu sualın cavabının aydınlaşdırılmasında çətinlik çəkmirlər. Ümumiyyətlə, əsərdə müəllif obrazı özünü qabarıq göstərir. Bu onun söz və ifadələrində, təsvirlərində aydın şəkildə müşahidə olunur. Aşağıdakı qəbildən seçilmiş nümunələr müəllifin mövqeyinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir.

İşlənməmiş qalmadı
Bir cinayət, bir günah.
Əzmişdi insanlığı
Ordusuyla padişah.
Haqsızlıq oldu qanun,

Yıxıldı xanimanlar…
…Müshəfilə şeyxana;
Çıxdılar istiqbala
Xaçla məshəf yan-yana…
Qarnı tox tacirbaşı
Dingildəyib gedirdi
Şeyxlərlə yanaşı…
…Nədənsə, qatilləri
Boğmayırmış göz yaşı…

Digər bir sual *(Saranın oxuduğu mahnıda hansı fikir daha qabarıq ifadə olunub?)* şagirdləri əsərin ideyasını başa düşməyə istiqamətləndirməsi baxımından əhəmiyyətlidir.

…Darğınam mən belə baxta,
Ürəyim qan laxta-laxta.
Bax ki, kimlər çıxdı taxta,
Küsdü kimin baxtı, bağlar!

Çıxmamış gün, atmamış dan,
Qanlı bir toz qalxdı yoldan.
Qoç igidlər oldu qoldan,
Qanlı kəfən taxdı, bağlar!

Cənnət kimi ölkənin məzarlığa döndərilməsi, təkcə müdafiəçilərin deyil, dinc əhalinin də qılıncdan keçirilməsi, ölkənin yadellilərin əlinə keçməsi mahnıda əksini tapan başlıca məsələlərdir. Ümumiyyətlə, poemada müharibə insanlığa qarşı çevrilmiş qanlı olay kimi pislənilir. Məğlub ölkənin dinc əhalisinin qarşılaşdığı fəlakət, yas içində olan insanların şənlik etməyə təhrik olunması əsərdə təsirli lövhələrlə əks olunmuş və yazıçı bütün olanlara nifrətini gizlətməmişdir. Bunların aydınlaşdırılması tədqiqat sualının cavablandırılmasına, poemanın ideyasının əhatəli şərhinə imkan yaradır.

Sualların hər birinin cavabının izahında bədii əsərin özündən nümunələrin göstərilməsinə diqqət yetirilir.

Növbəti tapşırığın *(Oxuduğunuz hissədən seçdiyiniz parçanın məzmununu hazırladığınız plan əsasında iki formada – geniş və yaradıcı nağıl etməyə hazırlaşın)* yerinə yetirilməsi üçün ayrılan vaxt başa çatdıqdan sonra nümunələrin dinlənilməsi və müzakirəsi həyata keçirilir. Aparılmış işin yekununda şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, müharibə, ümumiyyətlə, insanlara fəlakət gətirir, lakin onun insanlığa, silahsız, dinc əhaliyə qarşı çevrilməsi yolverilməzdir.
Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Ə.Cavad. Səsli qız** ***(ixtisarla)*** – **4** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.2.1.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir. | Poemanı kompozisiya, dil, üslub baxımından təhlil edir. |
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Poemadakı obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Poemanın mövzusuna, ideyasına, başlıca probleminə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |

**Dərsin gedişi**

Ev tapşırığının birinci tələbi *(İlkin təəssüratınıza əsasən poemadakı obrazlardan birinin xarakter və əməllərindəki başlıca cəhətləri müəyyənləşdirin)* təhlilə hazırlıq baxımından əhəmiyyətli tapşırıqdır. Onun hansı səviyyədə yerinə yetirildiyini şagirdlərin fərdi təqdimatlarının dinlənilməsi və müzakirə edilməsi yolu ilə aşkara çıxarmaq məqsədəuyğundur. "Obrazlar xəritəsi" bədii mətndən nümunələr göstərilməsini tələb edir, təqdimatlarda bu nümunələrin seçiminin əsaslandırılmasına diqqət yetirilir.

Tapşırığın ikinci tələbinin də (ikihissəli gündəliyin hazırlanması) yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilir. Bu tapşırıqda başlıca məqsəd şagirdlərin bütövlükdə əsər barədəki mövqelərinin aşkara çıxarılmasıdır. Buna görə də təqdimatların dinlənilməsi və müzakirəsində şagirdlərin əsərin mövzusu, süjeti, bədii xüsusiyyətləri və s. barədəki təəssüratlarının açıqlanmasına istiqamət verilir.

Tapşırığın üçüncü tələbinin (mənası aydınlaşdırılmış sözlərinin mənşəyinin müəyyənləşdirilməsi ilə bağlı) yerinə yetirilməsi səviyyəsi müsahibənin təşkili ilə müəyyənləşdirilir, şagirdlərə öz mövqelərini sərbəst açıqlamaq imkanı və diskussiya şəraiti yaradılır.

Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarından istifadə olunur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini suallardan istifadə ilə təşkil etməyi planlaşdıran müəllim aşağıdakı suallara cavab verməyi

şagirdlərə təklif edir: *Poemanın mövzusu və ideyası haqqında nə bilirik? Əsərdəki obrazlar barədə hər şeyi bilirikmi? Poema hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir?* Göründüyü kimi, suallar şagirdlərin təhlilə nə dərəcədə hazır olduqları barədə də təsəvvür qazanmağa imkan verir. Müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Poemanı yazmaqda müəllifin əsas niyyəti, sizcə, nə olmuşdur?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılmasına** dərslikdəki təhlil materialının oxusu ilə başlanılır. Oxunun həyata keçirilməsi üçün dərslikdə təklif edilmiş tapşırıq mətnin başa düşülərək mənimsənilməsinə və şagirdlərdə müstəqilliyin, fəallığın təmin edilməsinə imkan yaradır. Müəllimin təklifi ilə şagirdlərdən biri ilk mətnkənarı sualı və onun cavabını aramla oxuyur. O oxuduğu kiçik parçada ifadə olunmuş əsas fikri ümumiləşdirərək bir neçə cümlə ilə söyləyir. Sonra oxuduğu mətnlə bağlı şagirdlərə suallar verir. Həmin mətnin məzmunu aşağıdakı qəbildən suallar verməyə imkan yaradır: *Əsər hansı mövzuda yazılıb? Şairin bu mövzuda əsər yazmasının səbəbini necə izah edərsiniz? Poemada daha çox önəm verilən məsələlər hansılardır?*

Suallara cavab prosesinin diskussiya xarakterli olmasına diqqət yetirilir. Oxunmuş parçaya nələrin əlavə edilməsinin lazım olması barədə fikir mübadiləsinin aparılmasına da vaxt ayrılır. Əlavə edilməsi məqbul sayılan məsələlər bəndlər şəklində yazılır. Çox vaxt bu əlavələr dərslikdə işarə edilmiş fikrin genişləndirilməsi məqsədini güdür. Məsələn, əsərin mövzusu ilə bağlı daha geniş məlumatın öyrənilməsi vəzifə kimi qeyd olunur.

Şagirdlər əvəzlənməklə digər mətnkənarı sualların cavabları da bu qayda ilə oxunur. Başlıca diqqət hər sualla bağlı cavabın məğzinin başa düşülməsi, ona yaradıcı münasibətin bildirilməsidir. İkinci önəmli məsələ oxunmuş parçalarla bağlı verilən sualların fərqli məqsədlərə xidmət etməsidir. İkinci mətnkənarı sualın *(Poemadakı obrazlar hansı səciyyəvi xüsusiyyətləri ilə seçilirlər?)* cavabı da digər cavablar kimi yığcamdır və araşdırma aparılmasını, digər mənbələrdən məlumatların toplanmasını tələb edir. Bu sualla bağlı dərslikdəki məlumat daha çox iki obrazı – Sara və işğalçı hökmdarı əhatə edir. Həmin məlumat aşağıdakı qəbildən sualların verilməsinə imkan yaradır: *Sara cəsarətlidirmi? Fikrinizi necə sübut edərsiniz? Vətənində baş verən hadisələrə Saranın münasibəti necədir? O, düşmənə münasibətini necə ifadə edir? Qalib hökmdarın hansı əməlləri ona nifrət oyadır?*

Bu sualların cavabı müzakirənin, xüsusən diskussiyanın təşkili ilə aydınlaşdırılır və əlavə edilməli olan məlumatların müəyyənləşdirilməsinə, bəndlərlə yazılmasına vaxt ayrılır.

Üçüncü mətnkənarı sual *(Əsər hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir? )* daha ciddi yanaşma tələb edir. Bu sualla bağlı cavabı – dərslikdəki mətni oxuyan şagirdə müəllimin istiqamətləndirici suallarla kömək etməsi məqsədəuyğundur. Şagird poemanın süjeti, mərhələləri, kompozisiyası haqqındakı fikirlərini ümumiləşdirib yığcam ifadə etməlidir. Bunun səmərəliliyi isə müəllimin istiqamətləndirmələrindən xeyli dərəcədə asılıdır.

Dərslikdəki təhlil materialının bütövlükdə oxusu başa çatdırıldıqdan sonra öyrənilmiş məlumatlarla bağlı qənaətlərin ümumiləşdirilməsinə, nəticənin çıxarılmasına vaxt ayrılır. Bunun üçün təqdimatların dinlənilməsi və müzakirə edilməsi faydalıdır. Bu mərhələdə şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, milli azadlığa, müstəqilliyə qənim kəsilənlərə nifrət edən Ə.Cavad bu poemada öz mövqeyini gizlətməmiş, obrazlara, hadisələrə münasibətdə fikirlərini qabarıq ifadə etmişdir. Şair güclü dövlətin zəif ölkələri işğal etməsini, onun əhalisinə divan tutmasını "insanlığın əzilməsi" hesab edir, bununla barışa bilmirdi. Şairdə bu qənaətin möhkəmlənməsinin mühüm səbəbi, şübhəsiz, "qırmızı rus ordusunun" ölkəmizi işğal etməsi idi.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Ə.Cavad. Səsli qız *(ixtisarla)* – 4** saat

*Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratından istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla faciənin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3,5–4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | Təhlil xarakterli inşa, esse yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən, ilk növbədə, sinifdə öyrənilmiş materiala mənbələrdən hansı əlavələrin edildiyi aşkara çıxarılır. Mənbələrdən əldə olunmuş bu əlavələrin müvafiqliyi, dərslikdəki məlumatla uzlaşması, ümumiləşdirilməsi təqdimatların dinlənilməsində və müzakirəsində diqqət mərkəzində saxlanılır. Aşağıdakı suallar ətraflı fikir mübadiləsi və ciddi müzakirə tələb edir:

– Əsərin ideya-məzmunu hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?
– Əsərin dili üçün səciyyəvi olan cəhətlər hansılardır?
– Obrazların nitqinə əsasən müəllifin mövqeyini müəyyənləşdirmək mümkündürmü? Fikrinizi nümunələrlə əsaslandırın.

Dərslikdəki təhlil materialında bu suallarla bağlı yalnız istiqamət verilmiş, mənbələri araşdırmaqla sinifdə yığcam öyrənilənlərin zənginləşdirilməsi və tamamlanması nəzərdə tutulmuşdur. Müzakirə zamanı bütün şagirdlərin mövqeyinin aşkara çıxarılmasına, fəal olmalarına səy göstərilir. Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərin təhlil xarakterli inşa və esse ilə bağlı bilik və bacarıqlarını xatırlamağa yönəlmiş yığcam müzakirə aparılır. Müzakirənin sonunda tədqiqat sualı müəyyənləşdirilir.

**Tədqiqat sualı:** *Poema üzrə təhlil xarakterli inşa və essedə hansı məsələlər öz əksini tapmalıdır?*

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Mövzular elan olunur: *"Ə.Cavadın yaradıcılığında milli - azadlıq və müstəqillik ideyalarının tərənnümü" mövzusunda inşa; "Poemada təsvir olunanlara və obrazlara müəllifin münasibəti" mövzusunda esse.*

Seçilmiş mövzular üzrə fikir mübadiləsi aparılır. Şagirdlər mənbələr üzrə apardıqları araşdırmaların nəticələrini nəzərdən keçirir, onlardan necə istifadə edəcəklərini müəyyənləşdirirlər. Ümumi hazırlıq başa çatdıqdan sonra yığcam müsahibənin aparılması məqsədəuyğundur. Yazı prosesini müşahidə edən müəllim ehtiyac yaranan məqamlarda istiqamətləndirici suallarla şagirdlərə kömək edir.

Şagirdlər mənbələrdən əldə etdikləri məlumatlarla məhdudlaşmır, faciənin səhnə həyatının onlarda yaratdığı təəssüratdan bəhrələnirlər.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlərin bir-birinin yazısını oxumalarına imkan yaradılır. Onlar oxuduqları yazının uğurlu cəhətlərini göstərməklə yanaşı, öz arzularını da (yazıya nə əlavə etmək, nələri dəyişmək, yaxud təkmilləşdirmək və s. ilə bağlı) ifadə edirlər. Şagirdlərə konkret meyarlara istinad etmələri üçün istiqamət verilir. Meyarları müəyyənləşdirməkdə müəllim sərbəstdir.

Yazılardan nümunələrin oxunmasına və müzakirəsinə vaxt ayrılır. İnşada və essedə müşahidə olunan üslub fərqinə, ayrı-ayrı şagirdlərin fikirlərini ifadə tərzinə diqqət yetirilir. Şagirdlərə öz yazıları barədə yoldaşlarının arzu şəklində bildirdiklərinin üzərində evdə düşünmək, deyilənləri nəzərə almaq və təkmilləşdirmə aparmaq təklif edilir.

Müəllimin istiqamətləndirici sualları şagirdlərin əsaslandırılmış nəticə çıxarmalarına imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təhlil xarakterli inşada, əsasən, əsərin mövzusu, ideyası, onda qaldırılmış mühüm problem ön plana çəkilir. Essedə isə şəxsi təəssüratın ifadəsi önəmli yer tutur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Əbdürrəhim bəy Haqverdiyevin "Qoca tarzən" hekayəsi üzrə aparıla bilər.*

### Qoca tarzən

*(ixtisarla)*

Bahar fəsli təzəcə daxil olmuşdu. Qoca tarzən Cavadın arvadı müztərib halda tez-tez qapını açıb küçəyə baxırdı və ah çəkərək otağa qayıdırdı. Əri Cavad tamam qışı xəstə yatıb, indi isə qıçlarında bir qədər qüvvə hiss edib dedi:

– Ay arvad, dörd aydır ki, mən xəstə yatıram və evin qapısından başımı dışarı çıxarmamışam. İndi bahardır, pəncərədən baxıram, görürəm bahar günəşinin işığı hər yeri tutubdur, ürəyim bərk darıxır, mənim paltarımı ver geyinim, gedim şəhər bağında bir az nəfəs alım, qayıdım evə. Bəlkə baharın istisi məni halətə gətirə.

Arvad ərini geyindirib qolundan yapışıb, pilləkəndən endirib qayıtdı. İndi neçə saat idi ki, əri getmişdi. Gec gəldiyindən arvad iztiraba düşüb vurnuxurdu. Bir də qapıdan baxıb ərini gendən gələn görüb cəld pilləkənin ayağına enib qolundan yapışıb otağa gətirdi. Arvad Cavadı çarpayının üstünə əyləşdirdi.

– A kişi, niyə belə gec gəldin? Yorulmadın ki?

– Yox, arvad, yorulmamışam, hətta özümdə bir cavanlıq qüvvəsi də hiss edirəm.

– İnşallah, tezliklə sağalarsan.

Cavad bir ah çəkib dedi: – Arvad, qalx o tarı mənə gətir, görüm çala biləcəyəmmi?

Arvad qalxıb divardan asılmış tarı endirib torbasından çıxardıb verdi ərinə. Cavad tarı əlində tutub, neçə dəqiqə sakit tamaşa edəndən sonra, dərin bir ah çəkib, tarı sinəsinə basdı. Bir neçə mizrab vurandan sonra əli boşalıb tarı yerə qoydu. Arvad tarı alıb, torbaya qoyub yenə divardan asdı. Bu halda qapı döyüldü. Cavad dedi:

– Arvad, get qapını aç, gələn bizim uşaqlardır. Bağda gördüm, dedim gəlsinlər bir az söhbət eləyək.

Arvad qapını açdı. Cavadın şagirdlərindən bir nəfər tarzən və bir kamançaçı daxil olub salam verdilər. Cavad cavanlara yer göstərdi:

– Əyləşin, balalarım. Nə yaxşı olub çalğılarınızı da gətiribsiniz.

Cavanlardan biri cavab verdi: – Sən bizi evinə təklif edəndə biz fikir etdik ki, əliboş getməyin mənası yoxdur; gedib evdən tar və kamançanı götürüb gəldik.

– Çox gözəl iş görübsünüz; bağışlayın, oturmağa taqətim yoxdur. Mən uzanım, siz də bir qədər çalın, sonra da çay içib söhbət edərik. Arvad, gəl məni soyundur.

Cavan tarzən cəld qalxıb Cavadı soyundurub uzandırdı. Cavad dedi:

– Mən cavanlıqda hər havadan artıq "Rast"ı sevirdimsə, həvəslə də onu çalardım. Bir "Rast" çalın, mən də qulaq asıb cavanlığımı xəyalıma gətirim.

Cavad gözlərini yumdu, cavanlar tarı və kamançanı götürüb "Rast" dəstgahını başladılar. Bir qədər çalmışdılar, gördülər Cavadın dodaqları tərpənir. Cavad deyirdi: – Yay fəsli idi. Şamaxı cavanları iki dəstə çalğıçı götürüb neçə günün müddətinə yaylağa səyahətə getmişdilər. Aydınlıq gecədə, gözəl bir çeşmənin kənarında cavanlar halə qurub əyləşib, növbə ilə oxuyub çalanlara qulaq verirdilər. Meşənin tamam bülbülləri tarların səsinə cəm olmuşdular. Tar çalındıqca onlar da ağız-ağıza verib oxuşurdular. Birdən cavanlardan birisi qalxıb dedi:

– Mən təklif edirəm ki, buraya cəm olan tarzənlər növbə ilə tək tar çalsınlar. Hər kəsin tarına bülbül gəlib özünü toxusa, mən ona yüz manat bağışlayacağam və onun adını da burada tarzənlər şahı qoyacağam.

Hamı cavanın təklifini xoşlayıb tarzənlərə buyurdular ki, növbə ilə tar çalsınlar. Heç kəsin çalğısı bülbülü gətirə bilmədi. Axır növbə mənə gəldi. Tarı sinəmə basıb həmin bu "Rast"ı başladım. Bir də gördülər, bir dənə bülbül gəlib mənim qarşımda bitmiş ağacın budağında əyləşib başladı cəh-cəh vurmağa. Dedim:

– "Ay zalımın quşu, ölsən də, səni özümə tərəf çəkəcəyəm".

Bir az keçmişdi, onda gördüm bülbül ağacdan sürətlə enib özünü tara çırpıb uçub getdi. O vaxt Şirvanda Mahmud ağa adında bir muğamatşünas var idi. Mahmud ağa bu haləti gördükdə yerindən sıçrayıb gəlib mənim alnımdan öpüb dedi:

– Ölmə, yaşa!

– Budur, ölməyib, yaşayıram... Budur, ölməyib yaşayıram! İndi mən kimə lazımam?

Çalğıçılar şikəstəyə keçəndə Cavad hövlnak yerindən qalxıb qışqırdı:

– Dayanın! Bunu siz çalmırsınız. O şikəstəni mən çalıram. O barmaq mənim barmağımdır. Afərin, Cavad! Mərhəba sənə! Ölmə, yaşa, ölmə, yaşa! Baxın, baxın, göylər aralandılar, orada mənə əl eləyirlər. Daha mən bundan sonra yerlərə lazım olmayacağam! Gəlirəm! Gəlirəm!

Bu yerdə Cavadın səsi birdən kəsildi. Arvadın ucadan qışqırtısı çalğıçıları diksindirdi. Hər ikisi hacatlarını kənara qoyub durdular ayağa. Bir az sonra iki şagird müəllimlərinin yumulmuş gözlərinə, rəngi qaçmış sifətinə baxaraq gözlərindən yaş axıdırdı.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Hekayədə tanış olmayan sözlərin mənasını aydınlaşdırın, alınma, yaxud öz sözlərimiz olduğunu əsaslandırın.

______________________________________________________________

______________________________________________________________

2. Əsəri hissələrə ayırın, məzmununa aid plan tərtib edin.

______________________________________________________________

______________________________________________________________

3. Əsərdə hansı mənəvi dəyərlər öz əksini tapmışdır?

______________________________________________________________

______________________________________________________________

4. Əsərin mövzusunu, orada qoyulmuş problemi müəyyənləşdirin.

| Əsərin mövzusu | Əsərdə qoyulmuş problem |
|---|---|
| | |

5. Xarakter və əməllərinə əsaslanmaqla tarzən Cavad surətini səciyyələndirin.

| Xarakteri | Əməlləri | Ona münasibətiniz |
|---|---|---|
| | | |

6. Əsərdəki bədii ifadə vasitələrinin növünü müəyyənləşdirib cədvəldə qeyd edin.

| Bədii ifadə vasitələrinə aid nümunələr | Bədii ifadə vasitələrinin növü |
|---|---|
| | |

7. Fikrin təsir gücünün artmasında bədii ifadə vasitələrinin rolunu əsaslandırıb yazın.

| Bədii ifadə vasitələrinə aid nümunələr | Fikrin təsir gücünün artmasında rolu |
|---|---|
| | |

8. Əsərin məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazın.

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

9. Şərti işarələrdən istifadə etməklə cümlələrdə fasilələrin yerini, məntiqi vurğulu sözləri göstərin.

Tarı sinəmə basıb həmin bu “Rast”ı başladım. Bir də gördülər, bir dənə bülbül gəlib mənim qarşımda bitmiş ağacın budağında əyləşib başladı cəh-cəh vurmağa. Dedim:

“Ay zalımın quşu, ölsən də, səni özümə tərəf çəkəcəyəm”. Bir az keçmişdi, onda gördüm bülbül ağacdan sürətlə enib özünü tara çırpıb uçub getdi.

10. Hekayənin başlıca ideyası nədir?

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

## CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI

*Mövzu:* **Məhəmmədhüseyn Şəhriyarın həyatı, yaradıcılıq yolu – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Şeirin dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini dinləyicilərin rəyini nəzərə almaqla əsaslandırır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən təqdimatların dinlənilməsinə, müzakirəsinə üstünlük verilir. Ə.Cavadın milli azadlığı, müstəqilliyi tərənnüm edən əsərlərinə necə, hansı səviyyədə qiymət verildiyi aşkara çıxarılır. Müəllim müvafiq qiymətləndirmə meyarlarına müraciət edir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Şairin ifasında yığcam bir şeirin dinlənilməsi, sənədli filmdən fraqmentin nümayiş etdirilməsi, bədii, yaxud elmi əsərdən seçilmiş parçanın oxusu və s. motivasiyanın yaradılması üçün vasitə ola bilər. Dərslikdəki tapşırıq *(M. Şəhriyar haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* əsasında aparılan yığcam müzakirə sonda tədqiqat sualının müəyyənləşdirilməsinə imkan yaradır.

**Tədqiqat sualı:** *Quzeyli, güneyli Azərbaycanda şairin şəxsiyyətinə, yaradıcılığına böyük marağa səbəb, sizcə, nədir?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Araşdırmaya dərslikdəki materialın oxusu ilə başlanılır. Oxunun təşkili ilə bağlı dərslikdə təklif edilmiş qaydalar məzmunu əhatəli və anlayaraq mənimsəməyə imkan yaradır. Mətnkənarı sualların cavabının oxusundan sonra məzmunun ümumiləşdirilməsi tələbi oxunmuş parça barədə dolğun təsəvvür olmadan reallaşdırıla bilməz. Bu, şagirdlərdə həmçinin ümumiləşdirmə bacarığının olması ilə də şərtlənir. Ümumiləşdirmənin yazılı şəklə salınması isə müstəqil düşüncənin inkişafına, yazı bacarığının formalaşmasına az təsir etmir. Hər qrupun apardığı ümumiləşdirmənin təqdimat əsasında dinlənilməsi, müzakirə edilməsi də mətnin dərindən qavranılmasına öz töhfəsini verir.

Şairin həyatı, yaradıcılığı ilə bağlı materialın oxusu başa çatdırıldıqdan sonra məzmunun bütöv, tam şəkildə təsəvvürdə canlandırılması qayğısına qalmaq faydalıdır. Buna nail olmaq üçün hər qrup gəldiyi nəticələrlə bağlı təqdimat edir. Daha dəqiq deyilsə, öyrənilənlərin əsasında çıxarılmış nəticələr dərslikdəki materialın ardıcıllığı gözlənilməklə təqdim olunur. Bu, müəllimin istiqamətləndirici sualları əsasında həyata keçirilir.

Mənbələrdən hansı məzmunda əlavə məlumatların öyrənilməsinin vacib olduğu müəyyənləşdirilərək bəndlərlə qeyd olunur.

Vaxtdan qənaətlə istifadə edilməsi bu iş tamamlandıqdan sonra digər standartın (2.1.2) reallaşdırılmasına diqqət yetirməyə imkan verir. Şairin "Azadlıq quşu "Varlıq" adlı şeirinin ixtisar olunmuş mətni qruplara təqdim edilir.

Hərçənd qurtulmaq hələ yox darlığımızdan,
Amma bir azadlıq doğulub varlığımızdan.

"Varlıq" nə bizim təkcə azadlıq quşumuzdur,
Bir müjdə də vermiş bizə həmkarlığımızdan.

Bəh-bəh, nə şirin dilli bu cənnət quşu tuti,
Qəndin alıb ilham ilə dindarlığımızdan.

Dil açmada karlıq da gedər, korluğumuz da,
Çün lallığımız doğmuş idi karlığımızdan.

Düşmən bizi əlbir görə, təslim olur naçar,
Təslim oluruq düşmənə naçarlığımızdan.

Huşyar olasız, düşməni məğlub edəcəksiz,
Düşmənlərimiz qorxur huşyarlığımızdan.

Birlik yaradın, söz bir ola biz kişilərdə,
Yoxluqlarımız bitdirəcək varlığımızdan.

Şagirdlərə təklif edilir ki, şeirin üzərində işləməklə müəllifin əsas niyyətini, mövqeyini müəyyənləşdirməyə çalışsınlar. Bunun üçün əsərin dil və üslub özəlliyinə (seçilmiş söz və ifadələrə, müəllifin öz fikrini necə, hansı tərzdə təqdim etməsinə) daha çox istinad etməyin vacib olduğu xatırladılır. Şairin ən maraqlı şeirlərindən olan bu nümunə dilinin şirinliyi, ifadə tərzinin orijinallığı, məzmun zənginliyi, siyasi kəsərliliyi ilə seçilir. Əsərdə güclü, qüdrətli olmağın yolları göstərilir. Müəllifin fikrincə, əlbir olmaq, huşyarlıq düşməni qorxudan ən güclü silahdır.

Şairə görə, "Varlıq" dərgisi həmvətənlərinin gözünün açılmasına, onların arasında birliyin yaranmasına güclü təsir edəcəkdir.

Səslənmə baxımından yaxın sözlərin bir misrada qoşa işlənməsi *(korluq, karlıq; lallıq, karlıq və s.),* uğurlu qafiyələr *(memarlığımızdan, huşyarlığımızdan, varlığımızdan və s.)* şeirdə güclü ahəngin yaranmasına az təsir etmir.

Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, M.Şəhriyarın quzeyli, güneyli bütöv Azərbaycanda sevilməsinin, şəxsiyyətinə və yaradıcılığına böyük maraq göstərilməsinin başlıca səbəbi xalqına bəslədiyi dərin və səmimi məhəbbətdir. Bu məhəbbəti o, doğma türkcəmizdə yazdığı əsərlərdə elə böyük sənətkarlıqla ifadə etmişdir ki, bu əsərləri sevməmək mümkün deyildir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **M.Şəhriyar. Türkün dili – 3** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.4. Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir və qiymətləndirir. | Şeirdə əksini tapmış mühüm milli-mənəvi, dəyərləri müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi, eləcə də müsahibənin tətbiqi ilə müəyyənləşdirilə bilər. İlk növbədə, sinifdə öyrənilənlərlə bağlı toplanmış əlavə məlumatların məqsədəmüvafiqliyi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında aşkara çıxarılır. Əlavə suallarla *(Şimalda yaşayan şair və ziyalılara mənzum məktublarında Şəhriyar daha çox hansı məsələlərə diqqət yetirmişdir? Şair Azərbaycan türkcəsində yazdığı şeirlərdə hansı ictimai məsələlərə önəm vermişdir?)* bağlı aparılmış araşdırmaların nəticəsini isə müsahibə ilə aşkara çıxarmaq və münasibət bildirilməsini təmin etmək məqsədəuyğundur. Əgər şagirdlərin yazılı qeydləri varsa, hər iki halda təqdimatların dinlənilməsi və müzakirəsini təşkil etməklə kifayətlənmək mümkündür.

Məruzələrin dinlənilməsinə və müzakirəsinə vaxt ayrılır. Bir neçə səciyyəvi məruzə ilə kifayətlənmək mümkündür.

Bütün hallarda qiymətləndirmə meyarlarına müraciət edilməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərslikdəki "Oxuya hazırlaşın" tapşırığı motivasiyanın yaradılması üçün zəmin ola bilər. Şagirdlərə sualın *(Ana dilinə həsr edilmiş şeir hansı milli-mənəvi dəyərlər barədə danışmağa imkan verər?)* üzərində düşünmək və cədvəldə qeyd etmək üçün vaxt verilir. İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra sualla bağlı fikir mübadiləsi və müzakirə aparılır. Müzakirə tədqiqat sualının müəyyənləşdirilməsi ilə tamamlanır. Yaxud rəmzi materialların (tanınmış alimlərin, yazıçıların ana dili haqqındakı fikirlərinin xatırladılması, bədii, yaxud elmi əsərdən seçilmiş parçanın oxusu və s.) əsasında aparılan müsahibə motivasiyanın yaradılması üçün vasitə ola bilər. Eləcə də suallardan istifadə yolunun seçilməsi mümkündür. Bütün bunların məntiqi ardıcıllıqla tətbiqi sonda tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

**Tədqiqat sualı:** *Ana dilinə həsr olunmuş şeirdə, sizcə, hansı önəmli fikirlər əksini tapa bilər?*

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən yazılır.

Araşdırmaya şeirin oxusu ilə başlanılır. Dərslikdə təklif edilmiş qaydaların əsasında oxunun təşkili (digər yollardan da istifadə etmək olar) şagirdləri daha diqqətli olmağa sövq edir. Şagirdlər müəllimin təklifi ilə şeiri fərdi olaraq oxuyurlar. Onlara izah edilir ki, oxu zamanı

fikirlərində yaranan sualları dəftər, yaxud iş vərəqlərində yazsınlar. Bu suallar fərqli məzmunda ola bilər: başa düşülməyən ifadə, bütövlükdə misra, beyt, mətnaltı məna, qavranılması asan olmayan fikir və s. sual şəklində yazıla bilər. Əsərin məzmunu, şairin mövqeyi ilə bağlı suallara önəm verilməsi daha məqsədəuyğundur. Məsələn, aşağıdakı qəbildən sualların yazılması məqsədəuyğundur: *M.Şəhriyar "öz ləfzini farsa, ərəbə qatan" şairlərə nə üçün etiraz edir? Şair "ötməz, oxumaz bülbülü salsan qəfəs içrə" sözləri ilə hansı fikri ifadə etmişdir? M. Şəhriyar sönük, mənasız əsərlərin yaranmasının səbəbini nədə görürdü? və s.*

Oxu prosesini izləyən müəllim şagirdlərin hazırladıqları suallara nəzər salır, zəruri hallarda onlara istiqamət verir. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra kiçik qruplar yaradılır. Qrup üzvləri bir-birinin sualları ilə tanış olur, təkrarlar aradan qaldırılır, təkmilləşmə istiqamətində iş aparılır. Bunun ardınca hər bir suala qrup üzvlərinin əməkdaşlığı şəraitində cavab hazırlanır. Hər qrup hazırladığı sualları digər qruplara ünvanlayır. Dinlənilən cavablarla bağlı geniş fikir mübadiləsi və müzakirə aparılır.

Dərsdə işin səmərəli təşkili "*Şeirdə əksini tapmış milli-mənəvi dəyərlər*" mövzusunda təqdimatların hazırlanmasına, dinlənilməsinə və müzakirəsinə vaxt ayırmağa imkan verir. Qiymətli mənəvi dəyər olmaqla dilimizə məhəbbət, onun zənginliyinin doğurduğu qürur hissi şeirdə parlaq ifadəsini tapmışdır. Eləcə də humanist ideyalar, xeyirxahlıq, yüksək insani keyfiyyətlər aşılayan mənəvi sərvətimiz – ədəbiyyatımız şeirdə misli-bərabəri olmayan dəyər kimi diqqətə çatdırılır.

Şagirdlərin sərbəst olmalarına, şeirdən digər nəticələr çıxarmalarına və səsləndirmələrinə imkan yaradılır.

Müəllimin istiqamətləndirici sualları görülmüş bütün işlərin əsasında ümumiləşdirmənin aparılmasına, nəticənin çıxarılmasına imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, ana dilinə həsr olunan əsərdə dilə məhəbbət, onun zənginliyinə, ifadə imkanlarının genişliyinə heyranlıq, ona qayğı göstərməyin vacib olması, saflığının qorunması diqqət mərkəzinə çəkilir.

Nəticələrin fərziyyələrlə müqayisəsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **M.Şəhriyar. Türkün dili – 3** saat

*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir. | Şeirdə məcazların obrazlılığın yaradılmasındakı roluna əsaslandırılmış münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Şeirin mövzusuna, ideyasına, başlıca probleminə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi əsasında müəyyənləşdirilə bilər. İlk növbədə, "Türkün dili" şeiri ilə müqayisə üçün hansı əsərin müəyyənləşdirildiyi və nə dərəcədə uğurlu seçim olduğu aydınlaşdırılır. Sonrakı addım əsərlərin necə müqayisə edilməsinin aşkara çıxarılması olur.

Hazırlanmış ikihissəli gündəliklərlə bağlı təqdimatların fəal dinlənilməsinə və müzakirədə daha çox şagirdin iştirakını təmin etməyə səy göstərilir. Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət edilməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması fərqli yollarla həyata keçirilə bilər. Suallardan istifadə yolunu seçən müəllim şeirlə bağlı suallar *(Şeirdə diqqətinizi daha çox çəkən nə oldu? Şeirlə bağlı bizim üçün qaranlıq qalan mətləblər varmı? Onunla bağlı daha nələri öyrənmək maraqlı olardı? və s.)* əsasında yığcam müzakirə apara bilər. Müzakirə tədqiqat sualının müəyyənləşdirilməsi ilə başa çatdırılır.

**Tədqiqat sualı:** *Bu şeiri yazmaqda şairin başlıca məqsədi, sizcə, nə olmuşdur?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Tədqiqata dərslikdəki təhlil materialının oxusu ilə başlanılır. Həmin materialdakı mətnkənarı sualların sayına uyğun olaraq sinifdə dörd kiçik qrup (şagirdlərin sayı çox olarsa, iki qrup bir sualın üzərində işləyə bilər) yaradılır. Qruplar dərsliyə baxmadan özləri üçün ayrılmış suala cavab yazır. Şeirin məzmunu ilə bağlı öyrəndiklərindən istifadə edən şagirdlər suallara cavab yazmaqda ciddi çətinlik çəkmirlər. Qrup üzvləri hazırladıqları ümumi cavabı təkmilləşdirdikdən sonra müəllimin təklifi ilə üzərində işlədikləri sualın cavabını dərslikdən oxuyurlar. Hazırladıqları cavabı dərslikdəki müvafiq mətnlə müqayisə edən qrup üzvləri gəldikləri nəticəni müqayisə cədvəlində, yaxud Venn diaq-

ramında əks etdirirlər. Çıxarılmış nəticələr barədə kiçik qrupların təqdimatları əsasında məlumat mübadiləsi və müzakirə aparılır. Mənbələrdən öyrənilməli olan əlavə məlumatlar bəndlər şəklində yazılır.

Dərsdə reallaşdırılması nəzərdə tutulan standartların tələblərinə qrupların müstəqil hazırladıqları cavablarda xüsusi diqqət yetirilir. Məsələn, məzmunun öyrənilməsində müəyyənləşdirilmiş məcazların bədiiliyin, obrazlılığın artmasındakı rolu nümunələr əsasında izah edilir və cavablara əlavə olunur.

İkinci standartın (1.2.4.) tələblərinin reallaşdırılmasına yardım edən izahlara dərslikdə, yığcam da olsa, yer verilmişdir. Bu məlumat, eləcə də əsərin məzmununun ətraflı öyrənilməsi müstəqil cavablarda bu standartın tələblərini xeyli dərəcədə əhatə etməyə imkan verir. Bu, eləcə də tədqiqat sualının aydınlaşdırılmasına əhəmiyyətli dərəcədə təsir edir.

Müəllimin istiqamətləndirici sualları dolğun nəticələrin çıxarılmasına imkan yaradır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, İran hakim dairələrinin tutduqları mürtəce mövqe şairin bu əsəri yazmasına səbəb olmuşdur. Diqqəti dilimizin zənginliyinə, bu dildə yazıb-yaradan qüdrətli sənətkarlara cəlb edən şair İranda həll edilməsi vacib olan problemləri də xatırladır. Hakimiyyətin bunları həll etmək əvəzinə xalqların arasına nifaq salmasını tənqid edir. Bu əsərində şair xalqımızın dəyərlərinin müdafiəçisi, milli təəssübkeş kimi ucada dayandığını bir daha təsdiq edir.

Çıxarılmış nəticələr fərziyyələrlə müqayisə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **M.Şəhriyar. Türkün dili – 3** saat
*Üçüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratından istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla problemə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3,5–4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | Təhlil xarakterli inşa, esse yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən, ilk növbədə, "Türkün dili" şeiri üzrə sinifdə öyrənilmiş materiala mənbələrdən hansı əlavələrin edildiyi aşkara çıxarılır. Mənbələrdən əldə olunmuş əlavələrin müvafiqliyi, dərslikdəki məlumatla müqayisəsi, ümumiləşdirilməsi təqdimatların dinlənilməsində və müzakirəsində diqqət mərkəzində saxlanılır. Tapşırığa daxil edilmiş aşağıdakı suallar ətraflı fikir mübadiləsi və ciddi müzakirə tələb edir:

- Şeirdə əksini tapmış məsələlər şairin hansı əsərlərindəki fikirlərlə səsləşir?
- "Türkün dili" şeirinin ideya-məzmunu haqqında mənbələrdəki fikirlərdən hansını daha dolğun hesab edirsiniz?

Dərslikdəki təhlil materialında bu suallarla bağlı yalnız istiqamət verilmiş, mənbələri araşdırmaqla sinifdə yığcam öyrənilənlərin zənginləşdirilməsi və tamamlanması nəzərdə tutulmuşdur. Bu suallarla bağlı bütün şagirdlərin mövqeyinin aşkara çıxarılmasına, müzakirədə fəal olmalarına səy göstərilir. Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərin təhlil xarakterli inşa və esse ilə bağlı bilik və bacarıqlarını xatırlamağa yönəlmiş yığcam müzakirə aparılır. Müzakirənin sonunda tədqiqat sualı müəyyənləşdirilir.

**Tədqiqat sualı:** *Təhlil xarakterli inşa və essedə daha çox önəm verilən məsələlər nə olur?*

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Mövzular elan olunur: "M.Şəhriyarın yaradıcılığında Güney Azərbaycan" mövzusunda inşa; "M.Şəhriyarın lirik şeirlərində diqqətimi daha çox cəlb edənlər" mövzusunda esse.

Seçilmiş mövzular üzrə fikir mübadiləsi aparılır. Şagirdlər mənbələr üzrə apardıqları araşdırmaların nəticələrini nəzərdən keçirir, onlardan necə istifadə edəcəklərini müəyyənləşdirirlər. Ümumi hazırlıq başa çatdıqdan sonra yığcam müsahibənin aparılması məqsədəuyğundur. Yazı prosesini müşahidə edən müəllim ehtiyac yaranan məqamlarda istiqamətləndirici suallarla şagirdlərə kömək edir.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlərin bir-birinin yazısını oxumalarına imkan yaradılır. Onlar oxuduqları yazının uğurlu cəhətlərini göstərməklə yanaşı, öz arzularını da (yazıya nə əlavə etmək, nələri dəyişmək, yaxud təkmilləşdirmək və s. ilə bağlı) ifadə edirlər.

Yazılardan nümunələrin oxunmasına və müzakirəsinə vaxt ayrılır. İnşada və essedə müşahidə olunan üslub fərqinə, ayrı-ayrı şagirdlərin fikirlərini ifadə tərzinə diqqət yetirilir. Şagirdlərə öz yazıları barədə yoldaşlarının arzu şəklində bildirdiklərinin üzərində evdə düşünmək, deyilənləri nəzərə almaq və təkmilləşdirmə aparmaq təklif edilir.

Müəllimin istiqamətləndirici sualları şagirdlərin əsaslandırılmış nəticə çıxarmalarına imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təhlil xarakterli inşada, əsasən, əsərin mövzusu, ideyası, onda qaldırılmış mühüm problem ön plana çəkilir. Essedə isə şəxsi təəssüratın ifadəsi önəmli yer tutur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

# SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI (1920–1991-ci İLLƏR)

## Azərbaycan ədəbiyyatında sosializm realizmi mərhələsi (1929-60-cı illər))

*Mövzu*: **Sovet dövrü Azərbaycan ədəbiyyatı – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini dinləyicilərin rəyini nəzərə almaqla əsaslandırır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |
| **3.1.3.** 3,5-4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | Təhlil xarakterli məqalə, məruzə yazır. |

### Dərsin gedişi

Ev tapşırığının (“Güney Azərbaycanda “Heydərbabaya salam” əsərinə yazılan nəzirələr” mövzusunda yığcam məqalə yazın) yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Məqalə ilə bağlı seçmə yolla təqdimatların dinlənilməsində mövzuya müstəqil münasibətin hansı səviyyədə olmasına, əsaslandırılmasına xüsusi diqqət yetirilir.

Yeni mövzunun öyrənilməsinə dərslikdəki tapşırıq *(Sovet dövrü Azərbaycan ədəbiyyatı haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın. Tarix, coğrafiya dərslərində bu dövrlə bağlı qazandığınız biliklərdən istifadə edin)* əsasında təşkil edilən müzakirə ilə başlanılır. Müsahibə, müzakirə əsasında şagirdlərin sovet dövrü haqqında bilikləri aşkara çıxarılır. Cavabların ümumiləşdirilərək qeyd edilməsi üçün BİBÖ-dən istifadə edilir.

Müzakirə nəticəsində **tədqiqat sualı** müəyyənləşdirilir: *Sərt siyasi-ideoloji qəliblər, təzyiq şəraitində yaranan sovet dövrü ədəbiyyatı hansı özəllikləri ilə diqqəti cəlb edir?*

Təlim məqsədi, şagirdlərin hazırlıq səviyyəsi əsas götürülərək dərs debat metodundan istifadə ilə təşkil edilə bilər. Bu zaman şagirdlər tətbiq ediləcək təlim metodları, priyom və iş üsulları ilə bağlı təlimatlandırılmalıdır.

Araşdırma dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların – mətnlərin oxusu ilə davam etdirilir.

Şagirdlər kiçik qruplara ayrılır, hər qrupa iş vərəqlərində suallar təqdim edilir. Kiçik qruplara əlavə mənbə kimi ədəbiyyatşünaslıq lüğəti, ədəbiyyat ensiklopediyaları, məktəb kitabxanasındakı latın qrafikası ilə çap olunmuş müvafiq əsərlərdən və s. istifadə imkanı yaradılır.

Kiçik qruplar dərslikdəki mətn üzrə sualların aydınlaşdırılmasına *(Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ədəbi həyatda, ilk növbədə, hansı dəyişikliklər baş verdi? Ədəbiyyatda sinfilik, tarixilik, xəlqilik prinsipləri sovet reallığında hansı mahiyyəti daşıyırdı? Sovet dövrü ədəbiyyatımızda Azərbaycan gerçəkliyi necə əks olunurdu? Şəxsiyyətə pərəstişin tənqidi ədəbiyyata necə təsir etdi? )* istiqamət verən cavablarla tanış olurlar. Kiçik qruplara mülahizələrini əsaslandırmaq üçün əvvəlki siniflərdə sovet dövründə yazıb-yaratmış sənətkarların yaradıcılığı üzrə qazandıqları biliklərdən bəhrələnmək tövsiyə edilir. Qruplar mətn üzrə suallara cavab hazırlamaqla yanaşı, dərslikdəki digər tapşırıqları da yerinə yetirirlər. Tədqiqatçıların fikirlərinə münasibət bildirilməsini tələb edən tapşırıqla bağlı tövsiyələr verilir.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müzakirə diskussiya şəklində həyata keçirilir. Diskussiya zamanı sovet dövrü ədəbiyyatımızın hansı siyasi basqılar şəraitində yarandığı, bədii əsərlərdə ifrat şüarçılıq meyillərinin meydana gəlməsi, sənətkarlıq məsələlərinin arxa plana keçməsi, süni şəkildə siyasi məqsədlərə xidmət edən yeni ədəbiyyat yaratmaq ideyasının ortaya atılması, müxtəlif ədəbi nəsilləri, ədəbi qruplaşmaları üz-üzə qoymaqla klassiklərin sıxışdırılması və s. məsələlər üzrə fərqli mülahizələr dinlənilir və onlara əsaslandırılmış münasibət bildirilir.

Müzakirədə fərqli mülahizələrin dinlənilməsinə şərait yaradılır, söylənilən hər mülahizənin əsaslandırılması diqqətdə saxlanılır.

Diskussiya zamanı söylənilən mülahizələr **nəticə** və **ümumiləşdirmə** mərhələsində müəllimin istiqamətləndirici sualları ilə ümumiləşdirilir, qoyulmuş problemlə bağlı müəyyən qənaət hasil edilir. Şagirdlərdə belə

bir qənaət yaradılır ki, ədəbiyyatımızın inkişafında sovet dövrü mürəkkəb bir mərhələ olmuş, sənətkarlarımız gerçəkliyin yaratdığı şəraitə, yeni hakimiyyətin ideya və məqsədlərinə uyğun fəaliyyət göstərməyə sövq edilmişlər. Eyni zamanda əsrin əvvəllərində realizm və romantizm metodu ilə yazıb-yaratmış sənətkarlar yeni dövrün ədəbi-mədəni həyatında iştirak edərək öz yaradıcılıq yolunu davam etdirmiş, əsərlərində həyat həqiqətlərini əks etdirməyə üstünlük vermişlər.

Müzakirənin sonunda BİBÖ cədvəlində "Öyrəndik" sütununda qeydlər aparılır.

Şagirdlərdə icmal mövzusu üzrə sinifdə öyrəndiklərinə müstəqil tədqiqat zamanı nələri əlavə edəcəkləri ilə bağlı tövsiyələr verilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Cəfər Cabbarlının həyatı, yaradıcılıq yolu – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir. | Şeiri dil, üslub baxımından təhlil edir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. |

## Dərsin gedişi

Ev tapşırığının *(1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. 2. Araşdırma apararkən aşağıdakı sual və tapşırıqların cavablarını da əhatə etməyə çalışın: Sovet dövründə yaranan ədəbiyyatın səciyyəvi xüsusiyyətləri hansılardır? Sovet dövründə bədii yaradıcılıq sahəsində hansı ideoloji tələblər irəli sürülürdü? Bu dövrdə hansı sənətkarların yaradıcılığında gerçək həyat və milli ideallar, mənəvi dəyərlər öz əksini tapmışdır? Nümunələr göstərin.*

*3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın)* yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən mənbələrdən əldə edilmiş məlumata istinadən hazırlanmış təqdimatların dinlənilməsi əsasında müzakirənin aparılması məqsədəuyğundur. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə həyata keçirilən işi fərqli məzmunda təşkil etmək olar. Suallardan istifadə etməklə motivasiya yaratmağı planlaşdıran müəllim şagirdlərin diqqətini dərslikdəki tapşırığa *(C.Cabbarlı haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* cəlb edir. Onun əsasında aparılan yığcam müzakirə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

**Tədqiqat sualı:** *C.Cabbarlının həyatı, yaradıcılığı üçün daha səciyyəvi olanlar hansılardır?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Araşdırmaya dərslikdəki materialın oxusu ilə başlanılır. Oxu fərqli şəkillərdə reallaşdırıla bilər. Dərslikdə təklif edilmiş *nişanlama ilə oxu* (bu, İNSERT də adlandırılır) şagirdlərin fərdi müstəqil fəaliyyətlərinə üstünlük verir. Nəticədə hər bir şagirdin işinin məzmunu barədə müəllimin aydın təsəvvürü olur. Oxu prosesini müşahidə edən müəllim şagirdlərin fəaliyyətinin səmərəli olmasına müxtəlif yollarla (sualvermə, yadasalma, nümunəgöstərmə və s.) səy göstərir. O, şagirdlərin diqqətini mətndəki mühüm məlumatlara istiqamətləndirir: *C.Cabbarlının təhsili, yaradıcılığa lirik şeirlərlə başlaması, lirikasında əhatə olunan başlıca məsələlər, ilk hekayələrində və pyeslərində həyat hadisələrinə münasibət, ölkəmizdə kapitalist münasibətlərinin dərinləşməsi və bunun dramaturqun əsərlərində əksi, Demokratik Cümhuriyyət və sənətkar, sovet hakimiyyəti illərində ədibin yaradıcılığının başlıca istiqamətləri.*

Şagirdlər mətnin oxusu zamanı apardıqları qeydlərdə bu göstərilənlərlə bağlı mövqelərini daha qabarıq ifadə edirlər.

Gəldikləri nəticələri cədvəldə qısaca qeyd edən şagirdlər kiçik qruplarda birləşərək fikir mübadiləsi aparırlar. Bu mərhələnin "bir-birini öyrətmə"yə əsaslanması onun səmərəli keçməsi üçün zəmin olur. Bu, qruplararası müzakirənin də uğurlu olmasına təsir edir. Bu mərhələdə həmçinin mənbələrdən əlavə olaraq nələrin öyrənilməsi barədə ortaq məxrəcə gəlmək mümkündür. Lakin bu, ayrı-ayrı şagirdlərin ehtiyac duyduqları məlumatları öyrənmələrinin üstünə xətt çəkmək kimi başa düşülməməlidir. Şagirdlər mənbələrə həm də öz qeydləri əsasında müraciət edirlər.

Vaxtdan qənaətlə istifadə reallaşdırılması nəzərdə tutulan standartla (1.2.1) bağlı işin aparılmasına imkan verir. C.Cabbarlının "Dilənçi" adlı şeirindən dərslikdə verilmiş parça (bir neçə misra əlavə edilən həmin mətn aşağıda verilmişdir) kiçik qruplara təqdim olunur. Şagirdlər tapşırıqla tanış olurlar:

Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin.

1. Mətni parta yoldaşınızla birlikdə oxuyun. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.
2. Məzmunla bağlı aydın təsəvvür qazandığınıza əmin olduqdan sonra aşağıdakı suallara cavab hazırlayın:
   a) *Qış gecəsinin sərtliyi şeirdə necə təsvir edilmişdir? Bunun üçün şair hansı sözlərdən istifadə etmişdir?*
   b) *Xəstə, ac uşağın vəziyyəti şeirdə necə təsvir olunmuşdur? Onun acınacaqlı vəziyyəti hansı sözlərlə ifadə edilmişdir?*
   c) *Fərqli vəziyyətlərin təsviri üçün seçilmiş sözləri, deyim tərzini uğurlu saymaq olarmı? Fikrinizi nümunələrlə əsaslandırın.*

Qışın boranlı, məşəqqətli bir soyuq gecəsi,
Cahanə lərzə salır yellərin cəfalı səsi...
Xərabə içrə qaranlıqda sanki var bir kəs,
İnildəyor, yayılır, titrəyor çəkincə nəfəs.
Bu bir zəif cocuqdur ki, xəstə, bidərman,
Soyuq xərabədə yatmış, inildəyor hər an...
Bu xəstə beş gün olar dəyməyib çörək dilinə,
Qoca ata bu sovuqda nə cür gedib dilənə,
Nəhayət, oğlunu görcək ölüm yatağında,
Gedib, yox isə də taqət zəif ayağında...
Uşaq baxır qapıya, gözlüyor çörək, heyhat.
Baxır o xəstə çocuğa qərq olub zülmətdə,
Budur, görür atasın olduğu qiyafətdə.
Əlin açıb uzadır, madərinə ol nalan,
Ana! Ana, hara çoxdandı olmusan pünhan.
Həmişə sən məni saxladın öz qucağında,
Nə vəqtlərdi sənin ağlaram fərağında.

Tapşırığın yerinə yetirilmə səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər.

Ümumiləşdirmənin aparılması, nəticənin çıxarılması müəllimin istiqamətləndirici sualları əsasında həyata keçirilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, C.Cabbarlının həyatı və yaradıcılığı nəsillərə örnək olmağa layiqdir. Ömrünü xalqının maariflənməsinə, inkişafına həsr edən böyük sənətkar yaradıcılığının bütün dövrlərində yazdığı əsərlərdə bu mövqedən çıxış etmişdir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **C.Cabbarlı. Oqtay Eloğlu – 4** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Əsəri hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam və geniş nağıl edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə, müzakirə, təqdimatların dinlənilməsi və s. tətbiqi ilə müəyyənləşdirilə bilər. İlk növbədə, şagirdlərin hansı mənbələrdən və necə bəhrələndikləri aşkara çıxarılır. Ev tapşırığına əlavə edilmiş birinci tapşırıq *(C.Cabbarlının satirik şeirləri hansı xüsusiyyətlərinə görə M.Ə. Sabirin əsərlərinə bənzəyir? )* barədə dərslikdə şagirdlərə istiqamət verilməmişdir. Bu sualla bağlı şagirdlərin müstəqil araşdırmalarının nəticəsi yazılı qeydlər əsasında hazırladıqları təqdimatların dinlənilməsi ilə müzakirə edilir. İkinci sualla *(C.Cabbarlının yaradıcılığının müxtəlif dövrlərinə aid dramatik əsərlərindəki qəhrəmanların oxşar və fərqli cəhətlərini müəyyənləşdirin)* bağlı dərslikdəki yığcam məlumat şagirdlərin mənbələrlə işini asanlaşdırır. Bu sualın cavablarda necə əhatə edildiyini təqdimatların dinlənilməsi, yaxud müsahibənin tətbiqi ilə müəyyənləşdirmək mümkündür.

Şifahi məruzə üçün təklif edilmiş mövzulara *(C.Cabbarlı və Azərbaycan Demokratik Cümhuriyyəti; C.Cabbarlının tərcüməçilik fəaliyyəti)* hazırlığa dərslikdəki yığcam məlumatın öyrənilməsi ilə başlanılır. Mənbələrdən mövzularla bağlı kifayət qədər məlumat əldə edən şagirdlərin onlardan necə bəhrələndikləri, faktları nə cür qruplaşdırdıqları,

təhlil etdikləri və ümumiləşdirmə apardıqları təqdimatlardan nümunələrin dinlənilməsi, yaxud müsahibə yolu ilə aşkara çıxarıla bilər.

Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

**Motivasiya, problemin qoyuluşu.** Dərslikdə təklif edilmiş “Oxuya hazırlaşın” tapşırığı dərsə, eləcə də öyrəniləcək əsərə marağı artırmaqla yanaşı, motivasiyanın yaradılması üçün də vasitə rolunu oynaya bilər. Sualların (*Özünün və ailəsinin rahatlığını, səadətini xalqın mənafeyinə qurban verən insanlar haqqında eşitmisinizmi? Bu əqidədə olan hansı ədəbi qəhrəmanları tanıyırsınız?*) üzərində düşünmək, cavab hazırlamaq üçün vaxt elan edilir. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlərin kiçik qruplarda birləşib fikir mübadiləsi aparmalarına imkan yaradılır. Bunun ardınca həyata keçirilən müzakirə tədqiqat sualının müəyyənləşdirilməsi ilə başa çatdırılır.

**Tədqiqat sualı:** *Milli mənafeyin uca tutulmasına səbəb nə ola bilər?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Tədqiqatın aparılmasına əsərdən dərslikdə verilmiş parçanın oxusu ilə başlanılır. Dərslikdə təklif edilmiş tapşırıq üzrə işin təşkili məqsədəuyğundur. Əsərin əvvəlindən bir səhifə həcmində mətn rollar üzrə oxunur. Müəyyənləşdirilmiş cütlər oxuyanlara həmin mətnin (oxunmuş parçanın) məzmunu ilə bağlı suallar verir. Sualların hazırlanmasına müəllimin nəzarət etməsi, istiqamət verməsi faydalıdır. Sualların hər birinin konkret məqsədi olmalıdır. Məsələn, *məzmunun qavranılmasına diqqətli olmağa* istiqamətləndirən suallar: *Tamara nədə çətinlik çəkir? Dursun nə üçün həyəcanlanır? O, Oqtayı nə barədə xəbərdar edir?*

*Nəticə çıxarmağa* yönəldən suallar: *Tamaşaya hazırlıq zamanı Oqtay hansı çətinliklərlə qarşılaşır? Tamaşanın başlanmasında Oqtayın israrlı olmasına səbəb nədir?*

Cütlərin suallarına rollar üzrə oxuyanlar qənaətləndirici cavab verməsələr, digər şagirdlərin cavabları dinlənilir. Bu proses məzmunun dərindən qavranılmasına, ideyanın açılmasında əhəmiyyətli olan incəliklərin mənimsənilməsinə şərait yaratmalıdır.

Nəzərdə tutulan parçanın oxusundan sonra seçilmiş hissənin məzmununun iki formada – yığcam və geniş nağıl edilməsinə hazırlıq üçün vaxt ayrılır. Şagirdlərin bu məqsədlə plan tərtib etmələri məqsədəuyğundur. Nağıletmələrə şagirdlərin münasibət bildirmələrinə, yığcam diskussiyaya imkan yaradılır.

Aparılan işə *(nəticənin çıxarılması məzmunun öyrənilməsi başa çatdıqdan sonra həyata keçirilir)* müəllimin istiqamətləndirici sualları əsasında yekun vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **C.Cabbarlı. Oqtay Eloğlu –** 4 saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Faciədəki mühüm əhvalat və hadisələrin arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yaradıcı nağıl edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi məzmun üzrə işin davamı kimi özünü göstərir. Kiçik qruplarda birləşən şagirdlər, ilk növbədə, faciənin ikinci, üçüncü və dördüncü pərdələrinin məzmunu, onlarda əksini tapmış mühüm fikirlərlə bağlı qənaətlərini bölüşürlər. Təqdimata hazırlaşan qrup üzvləri aşağıdakı sualların cavablarını dəqiqləşdirirlər.

– *Tamaşa ilə bağlı məqalə aktyorlar haqqındakı təsəvvürünüzə nə əlavə etdi?*
– *Səhnə yoldaşlarının Oqtay barədəki fikirləri düşüncələrinizdə hansı dəyişiklik yaratdı?*
– *Səmədlə Oqtayın dialoqu bildiklərinizə yeni nə əlavə etdi?*
– *Firəngizin Oqtaya münasibətini və bu qızın ailəsindəki vəziyyəti necə təsvir edərsiniz?*
– *Firəngizin "xəyanəti" barədə Oqtayda hansı düşüncələr yaranır? Qardaşı sürgün edilən Sevər hansı taleyi yaşayır, onun taleyi fərqli ola bilərdimi?*

– *Oqtay "dostları" ilə – Səməd və Xaspolatla, eləcə də Muxanla söhbətində daha çox hansı niyyətini vurğulayır, buna səbəb nə idi?*

Göründüyü kimi, suallar sadə məlumatları – əsərin məzmununu xatırlatmağa xidmət etmir. Onlara əhatəli cavabların hazırlanması əhvalat və hadisələrin arasındakı səbəb-nəticə əlaqələrini, obrazların xarakterindəki başlıca cəhətləri başa düşməyə əlverişli imkan yardır.

Növbəti tapşırıqla bağlı *(Üzərində işlədiyiniz pərdələrin birindən seçdiyiniz hissənin məzmununu hazırladığınız plan əsasında yaradıcı nağıl edin)* təqdimatların dinlənilməsinə və müzakirəsinə dərsdə xüsusi diqqət yetirilir. Müxtəlif pərdələrdən seçilmiş hissələrin üzərində təşkil edilən iş, onların yaradıcı – əlavələr edilməklə nağıl edilməsi, müzakirələrin aparılması əsərin dərindən qavranılmasına imkan yaratmaqla bərabər, ideyanın başa düşülməsini də xeyli asanlaşdırır.

Aparılan işə (nəticənin çıxarılması məzmunun öyrənilməsi başa çatdıqdan sonra həyata keçirilir) müəllimin istiqamətləndirici sualları əsasında yekun vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **C.Cabbarlı.Oqtay Eloğlu – 4** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir. | Faciəni kompozisiya, dil, üslub baxımından təhlil edir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Faciənin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır | Faciənin dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsinə oxunmuş pərdələrin məzmununun necə qavranıldığının aşkara çıxarılması ilə başlanılır. Bunun üçün müsahibənin tətbiqi faydalıdır. Digər tapşırıqlarla (*tanış olmayan sözlərin mənasının və məcazların müəyyənləşdirilməsi, yaradıcı nağıletmə və s.)* bağlı təqdimatlar dinlənilir və müzakirə edilir.

Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

**Motivasiya, problemin qoyuluşu.** Bunun reallaşdırılması fərqli yollarla həyata keçirilə bilər. Vaxta qənaət baxımından suallardan istifadə yolunun seçilməsi məqsədəuyğundur. Oqtayla bağlı müəllimin sualları bu obrazın ciddi təhlilinə ehtiyac olduğunu təsdiq edir. Əsərin oxusu, məzmun üzrə aparılan işlər şagirdlərin bu qəhrəmanla bağlı fikirlərinin natamam olduğunu deməyə əsas verir. Bu obrazla bağlı müzakirə müəllimin növbəti sualı ilə *(Oqtayın əsas idealı nə idi və onun uğrunda necə çarpışırdı?* davam etdirilir. Yığcam müzakirənin sonunda tədqiqat sualı müəyyənləşdirilir.

**Tədqiqat sualı:** *Oqtayı öz idealına xəyanətdə günahlandırmaq olarmı?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Araşdırmaya dərslikdəki təhlil materialının oxusu ilə başlanılır. Dərslikdə təklif olunmuş tapşırıq həm oxunun səmərəliliyinə, həm də şagirdlərdə diskussiya bacarığının inkişafına əhəmiyyətli təsir edir. Oxunun fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur. Hər mətnkənarı sualın cavabının oxusundan sonra şagirdlər cütlük şəklində fikir mübadiləsi aparırlar. Bu onlara oxuduqları parçadakı fikirləri ümumiləşdirmək və qısaca yazmaq imkanı yaradır.

Şagirdlər diskussiya üçün təklif edilmiş sualla (*Oqtayın əsl faciəsi nədir?*) tanış olur və mövqelərini müəyyənləşdirirlər. İki böyük qrupa ayrılan tərəflərə fikirlərini sərbəst ifadə etmələri üçün imkan yaradılır.

Debatın (*Müəllif Oqtay obrazı ilə oxuculara nə təlqin edir? Oqtay örnək ola bilərmi?*) təşkilində də şagirdlərə sualın üzərində düşünmək, mövqelərini müəyyənləşdirmək imkanı yaradılır

Müəllimin istiqamətləndirici sualları əsaslandırılmış nəticənin çıxarılmasına imkan yaradır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Qərb mədəniyyətinin son nailiyyətlərini mənimsəyərək vətənlərinə dönən Oqtay kimi gəncləri qaranlıq mühit əzir, boğur. Həqiqət axtarışı və həqiqətsizliyə nifrət bu gəncliyin faciəsinin əsasını təşkil edir. Oqtay iki tərəfin zərbəsini öz üzərində hiss edir: aşağılar "oyunbaz" olduğu üçün onu ələ salır, anası "yasxanalara" buraxılmır, yuxarılar "it dəftərində adı olmayan", "alçaq yerlərdə" çalışan adam kimi təhqir edir. Bütün bunlar nəzərə alındıqda Oqtayı öz idealına xəyanət etməkdə günahlandırmaq mümkün deyildir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **C.Cabbarlı. Oqtay Eloğlu – 4** saat

*Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratından istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla faciənin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3,5 - 4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | Təhlil xarakterli inşa, esse yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən, ilk növbədə, sinifdə öyrənilmiş materiala mənbələrdən hansı əlavələrin edildiyi aşkara çıxarılır. Mənbələrdən əldə olunmuş bu əlavələrin müvafiqliyi, dərslikdəki məlumatla uzlaşması, ümumiləşdirilməsi təqdimatların dinlənilməsində və müzakirəsində diqqət mərkəzində saxlanılır. Tapşırığa daxil edilmiş aşağıdakı suallar ətraflı fikir mübadiləsi və ciddi müzakirə tələb edir:

– Əsərin ideya-məzmunu hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?
– Əsərin dili üçün səciyyəvi olan cəhətlər hansılardır?
– Obrazların nitqinə əsasən müəllifin mövqeyini müəyyənləşdirmək mümkündürmü? Fikrinizi nümunələrlə əsaslandırın.
– Faciənin kompozisiya mükəmməlliyini necə əsaslandırarsınız?

Dərslikdəki təhlil materialında bu suallarla bağlı yalnız istiqamət verilmiş, mənbələri araşdırmaqla sinifdə yığcam öyrənilənlərin zənginləşdirilməsi və tamamlanması nəzərdə tutulmuşdur. Bu suallarla bağlı bütün şagirdlərin mövqeyinin aşkara çıxarılmasına, müzakirədə fəal olmalarına səy göstərilir. Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərin təhlil xarakterli inşa və esse ilə bağlı bilik və bacarıqlarını xatırlamağa yönəlmiş yığcam müzakirə aparılır. Müzakirənin sonunda tədqiqat sualı müəyyənləşdirilir.

**Tədqiqat sualı:** *Təhlil xarakterli inşa və essedə daha çox önəm verilən məsələlər hansılardır?*

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Mövzular elan olunur: *"Oqtay Eloğlu" əsərinin təhlili"* mövzusunda *inşa; "Oqtayın Firəngizi qətlə yetirməsinə haqq qazandırmaq olarmı?" mövzusunda esse.*

Seçilmiş mövzular üzrə fikir mübadiləsi aparılır. Şagirdlər mənbələr üzrə apardıqları araşdırmaların nəticələrini nəzərdən keçirir, onlardan necə istifadə edəcəklərini müəyyənləşdirirlər. Ümumi hazırlıq başa çatdıqdan sonra yığcam müsahibənin aparılması məqsədəuyğundur. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlərin bir-birinin yazısını oxumalarına imkan yaradılır. Onlar oxuduqları yazının uğurlu cəhətlərini göstərməklə yanaşı, öz arzularını da (yazıya nə əlavə etmək, nələri dəyişmək, yaxud təkmilləşdirmək və s. ilə bağlı) ifadə edirlər. Şagirdlərə konkret meyarlara istinad etmələri üçün istiqamət verilir. Meyarları müəyyənləşdirməkdə müəllim sərbəstdir. Onların bir variantı aşağıdakı məzmunda ola bilər:

- Mövzu (inşa və essedə) əhatə olunubmu?
- İnşa üçün müxtəlif mənbələrdən faktlar seçilibmi?
- Essedə şəxsi təəssüratlar necə ifadə edilib?
- İnşada faciənin ideyasına, probleminə münasibət bildirilibmi?

Sinfin səviyyəsindən asılı olaraq, meyarlar daha sadə məzmunda hazırlana bilər.

Yazılardan nümunələrin oxunmasına və müzakirəsinə vaxt ayrılır. Şagirdlərə öz yazıları barədə yoldaşlarının arzu şəklində bildirdiklərinin üzərində evdə düşünmək, deyilənləri nəzərə almaq və təkmilləşdirmə aparmaq təklif edilir.

Müəllimin istiqamətləndirici sualları şagirdlərin əsaslandırılmış nəticə çıxarmalarına imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təhlil xarakterli inşada, əsasən, əsərin mövzusu, ideyası, onda qaldırılmış mühüm problem ön plana çəkilir. Essedə isə şəxsi təəssüratın ifadəsi önəmli yer tutur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Süleyman Rüstəmin "Ana və poçtalyon" şeiri üzrə aparıla bilər.*

### Ana və poçtalyon
*(ixtisarla)*

Dörd ay vardı, ananın gözləri yol çəkirdi,
Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi.
Sorurdu: "Balam hanı?" – Hər cəbhədən gələndən
Ondan xəbər gəlməyir, xəbər gəlir öləndən.
Yerəmi batdı oğlum, göyəmi çıxdı oğlum?
Bəlkə… mən yanılmışam, əzəldən yoxdu oğlum?!
El bilir, uşaqlıqdan o naxələf olmayıb.
Ürəyimə damıb ki, oğlum tələf olmayıb…
Səbəb nədir ki, yazmır anaya bircə kağız,
Oğul, oğul, – deməkdən qabar oldu dil, ağız!
Qalxırdı yatağından dan yeri söküləndə…
Hər qapı açılanda, hər qapı döyüləndə,
Dikilirdi ananın gözləri bir nöqtəyə,
Sevinirdi: "Oğlumdan, bəlkə, məktub var!" – deyə.

Tanımayan tapılmaz məhlədə poçtalyonu,
Hamı istərdi onu, hamı sevərdi onu.
Onu tanıyırdılar adamlar addımından,
Bir bayramda çantası dolu gəldiyi zaman.
Anaya şad xəbərlər gətirmişdi vaxtilə,
İndi kağız almayan ana gələrək dilə,
Söylədi poçtalyona bir neçə acı kəlmə:
"Məktub olmasa, bir də sən bu həyətə gəlmə!"
Poçtalyon söz demədi, dilsiz dayanıb durdu,
Elə bil dağ başında onu ildırım vurdu…

Ananın gözlərində sual gördü bir yığın,
Başını yerə dikib dayandı xeyli dalğın.
Sinəsini ötürüb sonra küçəyə çıxdı,
Fikirlər, düşüncələr həssas qəlbini sıxdı.
Deyirdi öz-özünə: "Ananın haqqı vardır,
Geniş dünya oğulsuz onun qəlbinə dardır…"

Günlər keçdi… poçtalyon bu həyətə girmədi,
Ana, gözüylə onu çox aradı, görmədi.
Bütün həyətdəkilər öyrənmişdilər ona,

Hamı dedi: "Görəsən, nə oldu poçtalyona?!"
Bu qoca poçtalyon da anaya bir dərd oldu;
Yolunu gözləməkdən hər gün gözü dörd oldu.
Heç olmasa, poçtalyon bu həyətə gələndə,
Məktub alan qonşular sevinəndə, güləndə,
Oğlunu xatırlayıb sevinirdi ana da –
Sevincindən hamının pay düşürdü ona da.
Ana düşündü: "Bəlkə, qəlbini qırdım onun,
Kim bilir nə gəlibdir başına poçtalyonun...
Bəlkə, onun da oğlu qanlı döyüşlərdədir,
Kim bilir, bəlkə o da mənimlə bir dərddədir...
Xəstədir, baxan yoxdur bəlkə də poçtalyona,
Evlərini bilsəydim, bir baş çəkərdim ona.
Bundan artıq nə gələr, nə gələr ki, əlimdən?!
Kaş ki o sözlər mənim çıxmayaydı dilimdən!
Məktub gətirməsə də, qoy gəlsin, görək onu,
Sevir bir ana kimi bu dərdli ürək onu..."

Dərdli ananın artdı indi birə on dərdi,
Bir doğma oğul dərdi, bir də poçtalyon dərdi...
Bir gün küçə qapısı açıldı çox sürətlə,
Qonşular çıxdı evdən təəccüblə, heyrətlə.
Gördülər ki, poçtalyon əlində məktub gəlir,
Elə bil caynağında qartal ov tutub gəlir.
Aldılar bir qırpımda poçtalyonu dövrəyə,
- Məktub kimədir? Söylə, niyə dinmirsən, niyə?
Zilləyib gözlərini ananın gözlərinə,
Poçtalyon qanad taxdı öz şirin sözlərinə:
- Bundan neçə gün əvvəl məndən küsən, inciyən,
"Məktub olmasa, bir də bu evə gəlmə!" – deyən
Mərhəmətli, möhtərəm anayadır bu kağız!
Hamı bir səslə dedi: "Gözlərin aydın, ay qız!"

Ana, gözləri yaşlı, ətir saçdı dilindən,
Tez öpdü poçtalyonun məktub verən əlindən...

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Şeirdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirib cədvəldə qeyd edin.

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misralar | Onların növü |
|---|---|
| | |

2. Əsəri hissələrə ayırın, plan tərtib edin.

________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________

3. Şeirdən bir parçanı nəsrə çevirib yazın.

________________________________________________
________________________________________________
________________________________________________

4. Şeirdə hansı mənəvi dəyərlərdən söz açılır? Fikrinizi əsaslandırın.

________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________

5. Şeirin mövzusunu, qoyulmuş problemi müəyyənləşdirin.

| Şeirin mövzusu | Qoyulmuş problem |
|---|---|
| | |

6. Əsərdəki ana və poçtalyon obrazlarını xarakter və əməllərinə görə səciyyələndirin.

| Obrazlar | Xarakteri | Əməlləri |
|---|---|---|
| Ana | | |
| Poçtalyon | | |

7. Bəndin ifadəli oxusunda səsdə hansı çalar duyulmalıdır?

Poçtalyon qanad taxdı öz şirin sözlərinə:
- Bundan neçə gün əvvəl məndən küsən, inciyən,
“Məktub olmasa, bir də bu evə gəlmə!” – deyən
Mərhəmətli, möhtərəm anayadır bu kağız!
Hamı bir səslə dedi: “Gözlərin aydın, ay qız!”

Ana, gözləri yaşlı, ətir saçdı dilindən,
Tez öpdü poçtalyonun məktub verən əlindən...

A) kədər, nisgil
B) sevinc, fərəh
C) heyrət, təəccüb
D) laqeydlik, soyuqqanlılıq
E) qəzəb, nifrət

8. Şərti işarələrdən istifadə etməklə misralarda fasilələrin yerini, məntiqi vurğulu sözləri göstərin.

Dörd ay vardı, ananın gözləri yol çəkirdi,
Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi.
Sorurdu: – “Balam hanı?” – Hər cəbhədən gələndən
Ondan xəbər gəlməyir, xəbər gəlir öləndən.

9. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir? Fikrinizi qısaca yazın.
_______________________________________________________________
_______________________________________________________________
_________

10. Əsər sizdə hansı düşüncələr doğurdu?
_______________________________________________________________
_______________________________________________________________
_________

*Mövzu:* **Səməd Vurğunun həyatı, yaradıcılıq yolu – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir. | Şeiri dil, üslub baxımından təhlil edir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının *(1.Yazı işlərinizi təkmilləşdirib təqdimata hazırlaşın. 2. "C.Cabbarlının hekayə yaradıcılığı" mövzusunda yığcam məqalə yazın)* yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən mənbələrdən əldə edilmiş məlumat əsasında hazırlanmış təqdimatların dinlənilməsi, müzakirənin aparılması məqsədəuyğundur. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə iş fərqli məzmunda təşkil oluna bilər. Suallardan istifadəni seçən müəllim şagirdlərin diqqətini dərslikdəki tapşırığa *(S.Vurğun haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın.)* cəlb edir. Bu sualın əsasında müzakirə aparan müəllim (o, şagirdlərin şair haqqında bildiklərinin BİBÖ cədvəlinin birinci sütununda – "*Bilirik*" qeyd olunmasını təmin edir) sonda tədqiqat sualının formalaşmasına nail olur.

**Tədqiqat sualı:** *S.Vurğunun həyat və yaradıcılığının müxtəlif dönəmləri üçün daha önəmli olanlar hansılardır?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Araşdırmanı** dərslikdə təklif edilmiş qaydaya uyğun aparan müəllim dərslikdəki materialın oxusunu təşkil edir. Bunun üçün kiçik qruplar yaradılır, hər qrupa bir mətnkənarı sualın (qrupların sayı çox olarsa, iki qrup eyni bir sualın üzərində işləyə bilər) cavabını oxumaq təklif olunur. Şagirdlər şairin yaradıcılığı barədə özlərini maraqlandıran sualları, öyrənmək istədiklərini cədvəlin ikinci sütununda *(Bilmək istəyirik)* qeyd edirlər.

Mətnkənarı suallar şairin həyatı, yaradıcılığı barədə yığcam bilik əldə etməyə imkan yaradır. Birinci sual *(S.Vurğunun uşaqlığı, gəncliyi və yaradıcılığının ilk dövrü üçün önəmli olanlar nədir?)* şairin fərəhli olmayan uşaqlıq illəri, ana nəvazişindən çox erkən məhrum olması,

Qazax Müəllimlər Seminariyasının onun həyatında mühüm rol oynaması, ilk qələm təcrübələri barədə şagirdlərin təsəvvür qazanmalarına imkan yaradır.

İkinci sual *(Şairin həyatının və yaradıcılığının sonrakı dönəmi üçün daha mühüm olanlar nədir?)* şairin 1928–1932-ci illərdəki sənət axtarışları barədə məlumatları öyrənməyə, 1932–1941-ci illərin isə onun yaradıcılığının ən məhsuldar dövrü olduğunu aydınlaşdırmağa istiqamət verir.

Üçüncü sual *(II Dünya müharibəsi şairin həyat və yaradıcılığında hansı izlər buraxmışdır?)* şairin II dünya müharibəsi illərindəki yaradıcılığı barədə təsəvvürün qazanılmasına imkan yaradır. Vətənə məhəbbət, düşmənə nifrət mövzusunda yazılan onlarla lirik şeir həmin dövrdə əl-əl gəzmiş, insanları qələbəyə ruhlandırmışdır.

Növbəti sual *(Müharibədən sonrakı dövr şairin həyat və yaradıcılığı üçün hansı cəhətləri ilə əlamətdar olmuşdur?)* şairin coşqun ictimai və ədəbi fəaliyyəti barədə ən zəruri məlumatların öyrənilməsinə istiqamət verir.

**Məlumat mübadiləsi və müzakirə** zamanı öyrənilənlərlə yanaşı, öyrənilməsinə ehtiyac duyulan məsələlərə də diqqət yetirilir, BİBÖ cədvəlinin üçüncü sütununda *(Öyrəndik)* qeydlər edilir.

Vaxtdan səmərəli istifadə etməklə S.Vurğunun “Mən tələsmirəm” şeirinin oxusu üzrə iş təşkil edilir. Əsərin mətni ixtisar olunmuş şəkildə şagirdlərə təqdim olunur.

Dostlar, badələri qaldırın içək!
Gecə ulduzludur, hava da sərin.
Demirəm, məst olub dünyadan köçək...
Deyirəm, mehriban düşüncələrin
İsti qucağında qızınaq bir az.
Qoy uzansın gecə, geciksin səhər,
Yuxuya getməsin məclisdəkilər –
Mənim söhbətimdən yorulmaq olmaz.
Hələ yer üstündə, insan yanında
Deyib-danışmaqdan doymamışam mən...

Sən də, ovçu dostum, tələsmə sən də,
Bu qəlbi dağları qoy asta aşaq.
O çay yanındakı yaşıl çəməndə
Asta addımlayıb, ağır dolaşaq.
Hər gülə, çiçəyə salam verməsəm,
Xoş üz göstərməsəm, xoş üz görməsəm,
Nanələr, reyhanlar inciyər məndən,
Güllərin yarpağı tökülər dən-dən...

Odur ki yel olub çöldə əsmirəm,
Heç yana, heç yerə mən tələsmirəm!..
... Qoy dünya böyüsün, zaman uzansın,
Bir günün içində aylarla yansın
Al günəş gözündən nur yağa-yağa...
Ömrün kitabını tamamlamağa
Çox da can atmasın əlimdə qələm,
Mən tələsmirəm,
Mən tələsmirəm!

Kiçik qrupların hamısına şeiri dil-üslub baxımından təhlil etmək üçün "Mən tələsmirəm" şeiri üzrə tapşırıq təklif edilir. İşin nəticəsi təqdimatlar, yaxud müsahibənin tətbiqi ilə yoxlanıla bilər.

**Nəticənin çıxarılması və ümumiləşdirmənin aparılması** mərhələsinin səmərəliliyi müəllimin istiqamətləndirici suallarından xeyli dərəcədə asılıdır. Bu mərhələdə şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, hakim partiyanın, onun rəhbərlərinin, sovet hakimiyyətinin mədhinə həsr etdiyi əsərlərdə də xalqın, vətənin taleyi şairin diqqətindən kənarda qalmamışdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **S.Vurğun. Vaqif – 3** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Əsəri hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Dramda əksini tapmış mühüm milli-mənəvi dəyərləri müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə, müzakirə, təqdimatların dinlənilməsi və s. tətbiqi ilə müəyyənləşdirilə bilər. İlk növbədə, şagirdlərin hansı mənbələr üzərində işlədikləri, onlardan necə bəhrələndikləri aşkara çıxarılır. Ev tapşırığı kimi verilmiş suallarla bağlı *(S.Vurğunun lirik şeirlərini mövzu baxımından qruplaşdırın. Hər qrupun özəlliyini müəyyənləşdirin. Şairin poemalarını mövzu baxımından qruplaşdırın. Hər qrupun özəlliyini müəyyənləşdirin)* dərslikdə şagirdlərə istiqamət verilməmişdir. Şagirdlərin bu suallar üzrə müstəqil araşdırmalarının nəticəsi təqdimatlar əsasında müzakirə edilir.

Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

**Motivasiya, problemin qoyuluşu.** Mərhələnin əvvəlində dərslikdəki "Oxuya hazırlaşın" başlıqlı tapşırığın icrasına vaxt ayrılır. Şagirdlər fərdi olaraq işləyirlər. Cütlük şəklində fikir mübadiləsi aparmağa imkan yaradıla bilər. Nəticəni müsahibə ilə aşkara çıxarmaq və onun əsasında tədqiqat sualını müəyyənləşdirmək mümkündür.

**Tədqiqat sualı:** *"Milli mənafe həqiqi xalq sənətkarı üçün hər şeydən ucadır" fikrini doğru saymaq olarmı?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Əsərdən dərslikdə verilmiş parçanın oxusu ilə tədqiqata başlamaq məqsədəuyğundur. Oxu üçün dərslikdə təklif edilmiş tapşırıq vaxta qənaət və şagirdlərin fəallaşdırılması baxımından faydalıdır:

– *əsərdən bir səhifə həcmində rollar üzrə oxunur;*

– *müəyyənləşdirilmiş cütlər oxuyanlara mətnlə bağlı suallar verir. Cavablar cütləri qane etməsə, digər şagirdlərin cavabları dinlənilir, bu, ortaq məxrəcə gəlincəyə qədər davam edir;*
– *cütlər və mətni oxuyanlar əvəzlənməklə sonrakı səhifələrin oxusu da bu qayda ilə davam etdirilir;*
– *nəzərdə tutulan parçanın oxusu başa çatdıqdan sonra seçilmiş hissələrin məzmununu bir neçə şagird yığcam nağıl edir.*

Rollar üzrə oxunun səmərəli keçməsi, tanış olmayan söz və ifadələrin aydınlaşdırılması, cütlərin verdiyi sualların məzmunu və s. məsələlərə diqqət yetirilir. Unudulmamalıdır ki, mətnaltı mənaların açıqlanması, məzmunun əhatəli qavranılması, obrazların xarakteri barədə ilkin təsəvvürün qazanılması oxu prosesində həyata keçirilməli olan vəzifələrdir.

Oxunun səmərəli keçirilməsi şagirdlərə təklif olunmuş digər tapşırığın *(Əsərdən oxuduğunuz parça hansı milli-mənəvi dəyərlər barədə danışmağa imkan verir?)* yerinə yetirilməsinə imkan yaradır. Əsər ailə münasibətləri, xeyirxahlıq, yaxşılıq, övlad borcu və s. milli-mənəvi dəyərlər barədə geniş danışmağa əsas verir. İstər oxu zamanı, istərsə də sonrakı mərhələlərdə istiqamətləndirici suallardan istifadə etməklə diqqətin bu cəhətə yönləndirilməsi vacibdir.

Əsərdən parçanın oxusu başa çatdırıldıqdan sonra ondan seçilmiş hissənin məzmununun yığcam nağıl edilməsinə hazırlıq üçün vaxt ayrılır. Şagirdlərin bu məqsədlə plan tərtib etmələri məqsədəuyğundur. Nağıletmələrə şagirdlərin münasibət bildirmələrinə, yığcam diskussiyaya imkan yaradılır.

Aparılan işə (nəticənin çıxarılması məzmunun öyrənilməsi başa çatdıqdan sonra – ikinci dərsdə həyata keçirilir) müəllimin istiqamətləndirici sualları əsasında yekun vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **S.Vurğun. Vaqif – 3** saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Dramda mühüm əhvalat və hadisələrin arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam və geniş nağıl edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Dramda əksini tapmış mühüm milli-mənəvi dəyərləri müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi məzmun üzrə işin davamı kimi özünü göstərir. Kiçik qruplarda birləşən şagirdlər əsərin yeddinci və səkkizinci şəkillərində əksini tapmış mühüm məsələlər, tanış olmayan söz və məcazlarla bağlı qənaətlərini bölüşür və ümumiləşdirmə aparırlar. Bu şəkillərin məzmununun hərtərəfli qavranılması müzakirədə əhatə edilməsi nəzərdə tutulmuş aşağıdakı suallara dolğun cavabların verilməsinə səbəb olur:

- Qacarın Qarabağa münasibəti barədə sizdə hansı təsəvvür yarandı?
- Qacar haqqında ilkin təəssüratınız nə oldu?
- Qarabağda ona münasibət necədir? Fikrinizi təsdiq edən nümunələr göstərin.
- Vaqif – Qacar qarşılaşması sizdə hansı təəssürat yaratdı?
- Bu qarşılaşma hansı milli-mənəvi dəyərlər barədə danışmağa imkan verir?

Qarabağa və qarabağlılara divan tutan, şəhər və kəndləri odlara yaxan Qacar haqqında şagirdlərdə aydın təsəvvürün yaranmasına imkan yaradılır. Elini-obasını sevən, vətənini müdafiə etməyə çalışan sadə insanlarda bu işğalçı hökmdara dərin nifrət var. Lakin onu qarşılamağa çıxan şeyx kimi satqınlar da yox deyildir.

Əsərin ən gərgin səhnələrindən olan Vaqif – Qacar qarşılaşması isə vətənə, doğma xalqa, ana dilinə sonsuz məhəbbət, xeyirxahlıq, sədaqət, birlik kimi milli-mənəvi dəyərləri nümayiş etdirir.

Müəllimin istiqamətləndirici sualları bütün bunların mahiyyətinin əhatəli açıqlanmasına əhəmiyyətli təsir edir.

Dərsdə vaxtdan qənaətlə istifadə edilməsi növbəti tapşırığın *(Oxuduğunuz hissədən seçdiyiniz parçanın məzmununu hazırladığınız plan əsasında yığcam nağıl etməyə hazırlaşın)* icrasına imkan yaradır. Seçilmiş hissənin ideyanın aydınlaşdırılması, obrazların xarakter və əməllərinin başa düşülməsi, hadisələrin səbəb-naticə əlaqələrinin müəyyənləşdirilməsi üçün səciyyəvi olmasına səy göstərilir. Təqdimatların dinlənilməsində bu məsələlərə xüsusi diqqət yetirilir.

**Nəticənin çıxarılması və ümumiləşdirmənin aparılması** müəllimin istiqamətləndirici sualları əsasında həyata keçirilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, vətənini, xalqını dərin məhəbbətlə sevən həqiqi sənətkar qarşılaşdığı çətinliklərə, məhrumiyyətlərə baxmayaraq, mənsub olduğu xalqın milli-mənəvi dəyərlərinin daşıyıcısı və müdafiəçisi olur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır

*Mövzu:* **S.Vurğun. Vaqif – 3** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir. | Dramı kompozisiya, dil, üslub baxımından təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir. | Dramda məcazların obrazlılığın yaradılmasındakı roluna əsaslandırılmış münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Dramın mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi şifahi təqdimatların dinlənilib müzakirə edilməsi və ya müsahibənin tətbiqi ilə müəyyənləşdirilə bilər. Müəyyənləşdirilmiş sözlərin mənşəyi, maraqlı hesab olunmuş məcazlarla bağlı müsahibədə bütün sinfin iştirakı təmin olunur. Evdə oxunmuş parçalarda daha mühüm olan fikirlərin aydınlaşdırılması üzərində dayanılır. Tapşırığa daxil edilmiş aşağıdakı sualların əsasında yığcam müzakirə aparılır:

– Doqquzuncu şəklin məzmunu obrazlar (Vaqif, Vidadi, Xuraman) haqqındakı təsəvvürünüzü nə ilə zənginləşdirdi?
– On birinci şəkildə oxuduqlarınız Vaqif–xalq münasibətləri barədə təəssüratınıza yeni nə əlavə etdi?
– Obrazların (Vaqif, Vidadi, Qacar) nitqi onların xarakteri barədə aydın təsəvvür yaradırmı? Seçdiyiniz nümunələrə əsaslanmaqla müəllifin onlara münasibətini müəyyənləşdirməyə çalışın.

Göründüyü kimi, suallar obrazlar haqqında qazanılmış təsəvvürün dərinləşməsinə və zənginləşməsinə əhəmiyyətli təsir edir.

Müəllim bütün hallarda qiymətləndirmə meyarlarına müraciət edir.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür. “Vaqif” pyesinin səhnə həyatından kiçik parçanın nümayiş etdirilməsi, əsər haqqında tutarlı bir fikri əks etdirən sitatın oxusu, dramın özündən bir parçanın səsləndirilməsi və s. bu məqsəd üçün vasitə ola bilər. Suallardan istifadə yolunu seçən müəllim diqqəti Vaqif obrazına yönəldir: *Vaqif obrazı haqqında hər şeyi bilirikmi? Bu ədəbi qəhrəmanda diqqətinizi daha çox çəkən nə oldu? O hansı çətinliklərlə üzləşir? Sizcə, Vaqif üçün ən ciddi maneə nədir?*

Bu sualların əsasında aparılan yığcam müsahibənin sonunda tədqiqat sualı müəyyənləşdirilir.

**Tədqiqat sualı:** *Vaqifin qüdrətli, yenilməz olmasının əsl səbəbi, sizcə, nədir?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Araşdırmaya dərslikdəki təhlil materialının oxusu ilə başlanılır. Oxunu fərqli formalarda aparmaq olar. Dərslikdə təklif edilmiş qaydalar şagirdlərin daha diqqətli və fəal olmasına, müstəqillik nümayiş etdirməsinə, mətnin ətraflı öyrənilməsinə imkan yaradır.

– Aranızdan bir nəfər ilk mətnkənarı sualla bağlı cavabı aramla ucadan oxuyub tamamlayır və ondakı əsas fikri ümumiləşdirib bir neçə cümlə ilə ifadə edir.
– Sonra şagirdlərə mətnlə bağlı suallar verir. Suallar əsasında aparılan müzakirədə izahına ehtiyac duyulan məsələlərə aydınlıq gətirilir, əsərdən nümunələr göstərilir.
– Oxuyanlar əvəzlənməklə digər mətnkənarı sualların cavabları da bu qayda ilə oxunur.

Oxunun bu qaydalara əməl edilməklə yerinə yetirilməsi müəllimdən diqqət, həssaslıq və çeviklik tələb edir. Mətni oxuyan şagirdin dinləyicilərə – digər şagirdlərə ünvanladığı sualların hansı məzmunda olması da vacibdir. Bu suallar əksər hallarda məzmunun xatırladılmasını tələb edir. Suallara verilən cavabların müzakirə edilməsi, daha dolğun cavabın formalaşdırılması ön plana çəkilir.

Vaqif obrazının təhlili üzərində ayrıca dayanılır. Vaqif – İbrahim xan, Vaqif – Vidadi, Vaqif – Qacar, Vaqif – Eldar, Vaqif – Xuraman və digər xətlərin aydınlaşdırılması bu obraz barədə təsəvvürün dolğun şəkil almasına əhəmiyyətli təsir edir. Bu qayda üzrə aparılan iş prosesində dərslikdəki mətni hansı məzmunda əlavələrlə zənginləşdirməyin və tamamlamağın lazım olduğu müəyyənləşdirilir və bəndlər şəklində qeyd edilir.

**Nəticənin çıxarılması və ümumiləşdirmənin aparılması** mərhələsinin səmərəliliyi müəllimin istiqamətləndirici suallarından əhəmiyyətli dərəcədə asılıdır. Bu mərhələdə şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Vaqifə güc, qüdrət, yenilməzlik verən xalqla bağlılığı, ona arxalanmasıdır. O, kəndliləri, çoban Eldarı özünə doğma, yaxın insanlar bilir, elin-obanın abadlaşmasına, firavanlığına səy göstərir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Rəsul Rzanın həyatı, yaradıcılıq yolu – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Şeirin dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən, ilk növbədə, mənbələrdən necə istifadə olunduğu, hansı məzmunda məlumatın əldə edildiyi aşkara çıxarılır. Bu, bütün mətnkənarı suallar üzrə izlənilir və zəruri düzəlişlərin aparılmasına vaxt ayrılır.

Ev tapşırığına daxil edilmiş sualların *(İbrahim xan və Ağa Məhəmməd şah Qacarla bağlı tarixi faktlar pyesdəki təsvirlərlə səsləşirmi? Fərqin səbəbini necə izah edərsiniz? Pyesdə qoyulmuş başlıca problemlər hansılardır? Onların bədii həlli necə verilmişdir? və s.)* nümunələr əsasında izahına diqqət yetirilir.

Müəllimin bütün hallarda qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərin R.Rza haqqında bildiklərini xatırlatmaqla müzakirə təşkil edən müəllim rəmzi materiallardan istifadə yolunu seçə bilər. R.Rza haqqında görkəmli şəxsiyyətlərin sözlərindən nümunələr söyləməklə şagirdlərdə şairin həyat və yaradıcılığına maraq oyadan müəllim sonda tədqiqat sualını formalaşdırır.

**Tədqiqat sualı:** *R.Rzanın həyatı və yaradıcılığı üçün önəmli məqamlar hansılardır?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Araşdırmaya dərslikdəki materialın oxusu ilə başlanılır. Bu, fərqli yollarla həyata keçirilə bilər. Dərslikdə təklif edilmiş aşağıdakı qayda şagirdlərin daha diqqətli olmasını, mətnə tənqidi yanaşmalarını təmin edir.

– *Mətni fərdi olaraq bütövlükdə nəzərdən keçirin. Abzasların başlanğıcına və sonuna, fərqləndirilmiş söz və cümlələrə xüsusi diqqət yetirin.*
– *Mətnin məzmunu ilə bağlı fikrinizdə yaranan sualları dəftərinizdə, yaxud iş vərəqində yazın. Sual tərtib etməkdə çətinlik çəksəniz, yenidən mətnə müraciət edin*
– *Yazdığınız suallara cavab hazırlayın, bu zaman qısa qeydlər etməyiniz faydalıdır. Mətndə birbaşa sualla bağlı yerləri (söz, cümlə, abzas) silinməsi mümkün olan işarə ilə fərqləndirin.*
– *Suallara hazırladığınız cavabları mətnə baxmadan parta yoldaşınıza danışın. Unutduğunuz yerləri danışdığınız məqamda təkrar edə bilərsiniz.*

– *Gəldiyiniz nəticələri və öyrəndiklərinizə daha nələri əlavə etməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edib bəndlər şəklində yazın.*

Dərsdə ən mühüm məqam oxunun nəticələrinin müzakirə edilməsidir. Hər bir şagirdin mənimsədiyi məlumata, gəldiyi müstəqil nəticəyə müzakirədə münasibət bildirilir. Vaxtdan qənaətlə istifadə edilməsi R.Rzanın lirikası üçün səciyyəvi olan "Mən torpağam" şeirinin ixtisar olunmuş mətninin (dərsə bir neçə gün qalmış şagirdlərə çatdırılması məqsədəuyğundur) üzərində işin təşkilinə (bu, dərsdə reallaşdırılması nəzərdə tutulan 2.1.2. standartının tələbinə əsasən həyata keçirilir) imkan verir.

Mən torpağam, məni atəş yandırmaz;
tərkibimdə kömürüm var,
külüm var.
Mən baharam, çəmən-çəmən
Çiçəyim var, gülüm var.
Mən küləyəm, əsməsəm,
kim bilər ki, mən varam.
Mən buludam, səhraları susuz görüb
ağlaram.
Mən ürəyəm, döyünməsəm,
ölərəm.
Mən insanam,
sadə insan əlinin
yaratdığı nemətlərlə öyünməsəm,
ölərəm.
... Mən insanam,
vətənim var, elim var.
Ən böyük həqiqəti,
azadlığı, məhəbbəti, nifrəti –
söyləməyə qadir olan
dilim var.
... Mən bulağam,
tapşırıqla axmıram.
Mən həyatam,
Həmişə yoldayam;
nəfəsdəyəm, arzudayam,
baxışdayam, ürəkdəyəm, qoldayam.
Mən torpağam, nemətimi, varımı
zəhmət sevən insanlarla bölərəm.
Mən ürəyəm, döyünməsəm,
ölərəm.

Şeirdə müəllifin insanın qüdrətinə, gücünə, yenilməzliyinə inamı ifadə edilmişdir. Şair insanın həyat eşqini, yaşayıb-yaratmaq əzmini uca tutur, yüksək qiymətləndirir. İnsanın daim fəaliyyətdə olmasına üstünlük verən sənətkar onun başqaları ilə ülfətsiz yaşamasının qeyri-mümkünlüyünü də vurğulayır. Bütün bunların aydınlaşdırılmasında şeirin dil faktlarından çıxış edilməsinin əhəmiyyəti böyükdür. Əsərdəki təkrirlər, bədii sual, səslənmə baxımından yaxın olan sözlərin

(kömürüm–külüm; çiçəyim-gülüm; vətənim–elim; nəfəsdəyəm–arzudayam və s.) ardıcıl işlənilməsi və s. güclü ahəng yaratmaqla yanaşı, müəllif niyyətinin, mövqeyinin başa düşülməsinə də az təsir etmir.

**Nəticənin çıxarılması və ümumiləşdirmənin aparılması** mərhələsində şagirdlər qeyd edirlər ki, Bakı mühiti şairin həyatında mühüm rol oynamışdır; o, ədəbi mühitlə, şair və yazıçılarla yaxından tanış olmaq imkanı qazanmış və onda bədii yaradıcılığa meyil daha da güclənmişdir. II Dünya müharibəsi zamanı könüllü olaraq cəbhəyə getməsi, müharibə mövzusunda yaratdığı əsərlərlə oxucuların rəğbətini qazanması, müharibədən sonrakı illərdə coşqun ictimai fəaliyyəti, məzmun və forma baxımından yeni fəlsəfi şeirlərini yazması onun həyatının və yaradıcılığının önəmli məqamları kimi dəyərləndirilməlidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **R.Rza. Qızılgül olmayaydı – 2** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmlş münasibət bildirir. | Poemada əksini tapmış mühüm milli-mənəvi dəyərləri müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən mənbələrdən necə istifadə edildiyi, toplanmış məlumatın nə dərəcədə səmərəli olması üzərində dayanılır. Tapşırıqdakı hər iki sualla *(Şairin ictimai məzmunlu şeirlərində, əsasən, hansı məsələlərə diqqət yetirilmişdir? 1960-cı illərdə cəmiyyətdə müşahidə olunan yeniləşmə şairin yaradıcılığında öz əksini necə tapmışdır?)* bağlı yığcam müsahibənin aparılması, dərslikdə təklif olunmuş məruzələrin isə təqdimatlar əsasında dinlənilib müzakirə edilməsi məqsədəuyğundur.

Bütün hallarda müəllim müvafiq qiymətləndirmə meyarlarına müraciət edir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələnin əvvəlində dərslikdə "Oxuya hazırlaşın" başlığı altında verilmiş suallar *(Sovet hakimiyyəti*

*illərində həyata keçirilən repressiya haqqında nə bilirsiniz? Repressiya qurbanlarından kimləri tanıyırsınız?)* üzrə işin təşkili faydalıdır. Sualların üzərində fərdi işləyərək cədvəllərdə qeydlər edən şagirdlərə fikir mübadiləsi aparmaq üçün imkan yaradılır. Suallar əsasında təşkil edilən yığcam müzakirə tədqiqat sualının formalaşdırılması ilə tamamlanır.

**Tədqiqat sualı:** *Ürəyi xalqla döyünən, xalqını sevən sənətkar ona dönük çıxa bilərmi?*

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən yazılır.

**Araşdırmaya** əsərdən dərslikdə verilmiş parçanın oxusu ilə başlanılır. Onu fərqli formalarda (səssiz fərdi oxu, səsli oxunun dinlənilməsi və s.) reallaşdırmaq olar. Sonrakı addım müxtəlif məqsədli sualların (məzmunun necə mənimsənildiyini aşkara çıxarmağa xidmət edənlər, məzmunu şərh etməyə istiqamətləndirənlər, dəyərləndirməyə yönəldənlər və s.) tərtibi və onlara cavabların hazırlanması ola bilər. Bu işin kiçik qruplarda yerinə yetirilməsi məqsədəuyğundur. İşin icrası zamanı sualların necə tərtib edilməsi, cavabların hansı məzmunda olması, şagirdlərin əməkdaşlıq səviyyəsi və s. diqqət mərkəzində saxlanılır.

Tapşırıqdakı mühüm sualın *(Əsərdən oxuduğunuz parça hansı milli-mənəvi dəyərlər barədə danışmağa imkan verir?)* cavabının aydınlaşdırılmasına və müzakirəsinə xüsusi diqqət yetirilir. Ailə münasibətləri, dostluq, xeyirxahlıq, xalq və vətən qarşısında borc və s. bağlı əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlər barədə poemada diqqətəlayiq fikirlər vardır. Bu fikirlərin müəyyənləşdirilməsi, onlara ilkin münasibətin bildirilməsi həyata keçirilir.

Oxuda və müzakirə prosesində Müşfiq obrazı ilə bağlı şagirdlərdə dolğun təsəvvürün yaranmasına ayrıca diqqət yetirilir. O, xalqına, vətəninə sonsuz məhəbbəti ilə seçilən sənətkar, ailə münasibətlərində nümunəvi insan, dostluqda sədaqəti, səmimiliyi ilə fərqlənən bir adam kimi diqqəti çəkir.

Sonda şagirdlərin qənaətləri (əsərin bütövlükdə oxusu başa çatmadığından nəticənin çıxarılması ikinci dərsdə həyata keçirilir) müəllimin istiqamətləndirici sualları əsasında ümumiləşdirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **R.Rza. Qızılgül olmayaydı – 2** saat

*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir. | İfadəli oxudan poemanı emosional-obrazlı qavramaq, təhlil etmək və qiymətləndirmək məqsədilə istifadə edir. |
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Poemadakı obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Poemanın mövzusuna, ideyasına, başlıca probleminə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə, təqdimatların dinlənilməsi və müzakirə edilməsi əsasında müəyyənləşdirilə bilər. Əsərdən müstəqil oxunmuş parçanın məzmununun necə qavranıldığı müsahibə ilə aşkara çıxarılır. Şagirdlərin tərtib etdikləri suallar və onlara hazırladıqları ilkin cavablar yığcam müzakirə edilir. Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət edilməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə təşkil edilən işi fərqli formada qurmaq olar. Suallardan istifadə etməyə üstünlük verən müəllim şagirdlərin diqqətini poemada müəllif obrazına cəlb edir. Müxtəlif epizodlarda Müşfiq obrazına, fakt və hadisələrə münasibətini açıq ifadə edən müəllif obrazını anlamaq şagird üçün ciddi çətinlik törətmir. Müsahibənin sonunda tədqiqat sualı müəyyənləşdirilir.

**Tədqiqat sualı:** *Bu poemanı yazmaqda müəllifin başlıca niyyəti nə olmuşdur?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın** aparılmasına dərslikdəki materialın oxusu ilə başlanılır. Dərslikdə təklif edilmiş qaydanın əsas götürülməsi şagirdlərin fəallığının təmin edilməsi, müstəqil düşüncələrinin inkişafı baxımından faydalıdır. Təklif olunan tapşırıq cütlük şəklinə işə üstünlük verir. Hər bir cütlük aşağıdakı qaydaya əməl etməklə mətn üzərində işləyir. Cütlərdən biri mətni (birinci mətnkənarı sualın cavabını) başqalarına

mane olmadan ucadan oxuyur, cütlərdən ikincisi onu dinləyir. Mətnin oxusu başa çatdıqdan sonra hər iki şagird oxunmuş parça ilə bağlı bir neçə açar söz, yaxud termin müəyyənləşdirib qeyd edir. İkinci şagird (oxunu dinləyən) açar sözlərdən, yaxud terminlərdən istifadə etməklə bir neçə sual hazırlayır. Birinci şagird (mətni oxuyan) suallara cavab verir. O, suallara cavab üzərində düşünərkən mətnə nəzər sala bilər. İkinci şagird cavabla razılaşarsa, onu qeyd edir.

Növbəti – ikinci mətnkənarı sualın cavabı oxunarkən şagirdlər rollarını dəyişir və yuxarıdakı qaydaya uyğun fəaliyyətlərini davam etdirirlər. Digər mətnkənarı sualların cavabları da bu qayda ilə oxunur. Oxu prosesini müşahidə edən müəllim şagirdlərin tərtib etdikləri sualların məzmunca dolğun olmasına da səy göstərir. Bunun üçün o, şagirdlərin diqqətini əsərin mövzusuna, dövrün ictimai-siyasi və mənəvi dəyərləri ilə bağlı müəllif mövqeyinə, müəllif obrazına, Müşfiq obrazı və ona müəllifin münasibətinə istiqamətləndirir.

Kiçik qruplarda birləşən cütlər tərtib etdikləri suallar və hazırladıqları cavablarla bağlı **məlumat mübadiləsi** aparırlar. Bunun ardınca əsərin mövzusu, ideyası, obrazları, bədii xüsusiyyətləri diqqət mərkəzində saxlanılmaqla geniş **müzakirə** təşkil edilir. Müəllimin istiqamətləndirici sualları **nəticənin çıxarılmasına, ümumiləşdirmənin aparılmasına** əhəmiyyətli təsir edir. Bu mərhələdə şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, R.Rzanın başlıca niyyəti əsərdə M.Müşfiq obrazının timsalında repressiya qurbanı olmuş minlərlə sənətkarın, ziyalının günahsız olduğunu, bu dəhşətli hadisəyə seyrçi qalanların çıxılmaz vəziyyətini əks etdirmək olmuşdur.

Bu məzmunda aparılan iş əsərin ifadəli oxusunun səmərəli təşkilinə də imkan verir. Müəyyənləşdirilmiş parça üzərində işləyən şagirdlərə, ilk növbədə, ifaçılıq vəzifəsini qeyd etmək, şərti işarələri tətbiq etmək tövsiyə olunur. İfaların dinlənilməsi və müzakirəsi çox vaxt aparmamalıdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Mehdi Hüseynin "Çinar" hekayəsi üzrə aparıla bilər.*

### ÇİNAR

*(ixtisarla)*

Arada söz gəzirdi ki, bizim küçəmizdəki çinarları kökündən qoparıb, yerində söyüd ağacları əkəcəklər. Başqalarını deyə bilmərəm, amma mən bunu eşidəndə qulaqlarıma inanmadım. Düşündüm ki, yüz illərdən bəri şəhərimizə gözəllik verən xan çinarı yerindən tərpətməyə heç kimin əli gəlməz. Buna inanmaq mümkün deyildi. Lakin mən arada gəzən şayiənin tez-gec həqiqətə çevrildiyini az görməmişdim. Anam mənim nə üçün qəmgin olduğumu soruşdu. Mən əvvəlcə onun qanını qaraltmaq istəmədim. "Heç, yorğunam," – dedim.

O mənim üzümə şübhəli-şübhəli baxdı: "Yox, qızım, dərdini məndən gizlətmə," – dedi.

Mən eşitdiyim təzə xəbəri ona söyləyəndə arvadın gözləri doldu. Bir xeyli sükut eləyib dinmədi. Atamın ölüm xəbəri gələndə də beləcə hərəkətsiz ayaq üstündə quruyub qalmışdı. Nə dinib-danışır, nə də ağlaya bilirdi. Sonradan-sonraya nə isə daxili bir qüvvətlə iradəsini ələ alıb soruşdu:

– Axı niyə, qızım? Çinar kimin yerini dar eləyir?

– Nə bilim, ana? – dedim. – Guya hamısı qocalıb, daha işə yaramır...

Anam gözünün yaşını sildi, yəqin ki, nahaq kövrəldiyini duyub, sərt bir görkəm aldı:

– Yox, – dedi. – Düşmən də bu çinarlara qıymaz. Əgər qocalmaq ayıbdısa, onda gərək məni də diri-diri tabuta qoyub aparalar.

O gündən sonra anamın qaşqabağı açılmırdı. Durub-oturub deyirdi ki, mən bu gün-sabahlığam. Bir halda ki çinar olmayacaq, daha ondan sonra bu ev nəyə gərəkdir?

Günlər sürətlə gəlib-keçirdi. Yenə çinarlar barədə şayiələr gəzməyə başladı. Doğrusu, bu dəfə fikrim alt-üst oldu. Elə bil içimdən bir səs mənə deyirdi: "Niyə dayanmısan? Get şəhər sovetinə, dürüst bir xəbər bil, əgər deyilənlər doğrudursa, etiraz elə, şəhərdə görüləsi ayrı iş yoxdurmu?" Şəhər sovetinin təzə sədri Asəf Kərimovu pisləmək üçün əlimdə heç bir əsasım yoxdur. O, iş başına gələli xeyli təzə bina tikdirib, küçələri abadlaşdırıb. Ancaq mən o vaxt heç başa düşə bilmirdim ki, bu çinarlardan nə istəyirdi? Mən kitablarımı qoltuğuma vurub, düz onun idarəsinə getdim. Dedilər ki, kabinetdə oturmaqla arası yoxdur, yəqin haradasa işə nəzarət yetirir. Nişan verdikləri yerə getdim. Şəhər bağının köhnə hasarlarını sökdürüb təzəsini

saldırırdı. Özü də fəhlələrə qoşulub daş daşıyır, hamını həvəsləndirirdi. Mən kənarda, skamyada oturub, bir xeyli onlara tamaşa elədim.

Asəf Kərimov əlinin palçığını təmizləyəndə mən fürsətdən istifadə eləyib ona yanaşdım, salam verdim. Onun düşüncəli baxan sakit ala gözlərində mehriban bir ata nəvazişi vardı. Mən çinar əhvalatını soruşdum. O dedi:

– Qızım, həmin çinarlar yavaş-yavaş quruyur... Yaxşı olmazmı ki, şəhərimizin yaraşığı pozulmasın, hər tərəf yaşıllıq olsun.

Mən ondan ayrılıb evə gəldim. Əhvalatı anama danışdım. Anam mənim etirazımın faydasız olduğunu söylədi. Bir neçə gündən sonra fəhlələr bizim də küçəmizdə göründülər. Çinarlardan birini qazdılar. Budaqlarını doğrayıb maşınlara doldurdular, hara isə apardılar. Yerində söyüd ağacı əkdilər. Küçənin bir yanı sanki xarabaya döndü. Anamın da, mənim də ürəyimdən qara qanlar gedirdi. Sabah da, biri gündə bizim də çinara növbə yetişəcəkdi. Xan çinarımızın yıxılmağı mənə böyük dərd oldu. Dörd evin üstünə kölgə salan bir nəhəngin yerində söyüd çubuğu... Bundan da ağır bir dərd olardımı? Aylar keçdi. Yaz açıldı. Söyüd ağaclarından bir neçəsi göyərdi, amma çox keçməmiş hamısı quruyub sıradan çıxdı.

O günün sabahısı Fazil əmi bizə təzə bir xəbər söylədi:

– Qızım, Zərifə, bu il küçənizdə yenə çinar əkəcəklər.

Doğrudan da, əkdilər. Tamaşaya çıxan çox idi. Asəf Kərimov özü də fəhlələrin arasında dayanıb hər şeyə diqqət yetirir, təzəcə gətirilmiş ağacların kökünü bircə-bircə yoxlayırdı... Yazın oğlan çağında, səhər işə gedəndə, axşam evə qayıdanda cavan çinara gözümü zilləyib baxır, ilk yarpaqların açılmağını səbirsizliklə gözləyirdim. Nəhayət, bir səhər evimizin qabağında, xan çinarımızın yerində əkilmiş ağaclarda açıq-yaşıla çalan zərif yarpaqlar gördüm. Gözlərim doldu. Yolda Fazil əmiyə rast gəldim. O, az qala məndən muştuluq istəyəcəkdi.

– Görmüşəm, – dedim. – Ancaq o böyüyənə kimi bizimki bizə dəyəcək. Gözləməkdən gözümün kökü saralacaq.

Fazil əmi dedi:

– Qəm yemə, qızım. Ata-babalarımız da belə cavanını əkiblər, yüz il, iki yüz il keçib, böyüyə-böyüyə axırda o boyda olub... Qoy bizdən sonra gələn nəsillər də bizə rəhmət oxusunlar.

Artıq mən inanırdım ki, bir zaman çinarlar hər yana qol-budaq atıb, əvvəlkindən də gözəl olacaq, bizdən sonra gələn nəsillər onun kölgəsində rahat nəfəs aldıqca, bizi anacaqlar...

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Əsəri hissələrə ayırın, birinin məzmununa aid plan tərtib edin.
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

2. Əsərdə hansı mənəvi dəyərlər öz əksini tapmışdır?
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

3. Mətndə işlədilmiş bədii təsvir və ifadə vasitələrini və onların növünü müəyyənləşdirib cədvəldə qeyd edin.

| Bədii təsvir və ifadə vasitələrinə aid nümunələr | Onların növü |
|---|---|
| | |

4. Əsərin mövzusunu, orada qoyulmuş problemi müəyyənləşdirin.

| Əsərin mövzusu | Əsərdə qoyulmuş problem |
|---|---|
| | |

5. Xarakter və əməllərinə əsaslanmaqla əsərin qəhrəmanını – Zərifə surətini səciyyələndirin.

| Xarakteri | Əməlləri | Ona münasibətiniz |
|---|---|---|
| | | |

6. Xarakter və əməllərinə əsaslanmaqla Asəf Kərimov surətini səciyyələndirin.

| Xarakteri | Əməlləri | Ona münasibətiniz |
|---|---|---|
| | | |

7. Fikrin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu izah edin.

| Bədii təsvir və ifadə vasitələri | Fikrin təsir gücünün artmasında rolu |
|---|---|
| | |

8. Əsərin sonuncu abzasının məzmununu əlavələrlə genişləndirib yazın.
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

**9.** Əsərin mövzusunu, ideyasını, qoyulmuş problemi müəyyənləşdirib qısaca yazın.

Mövzu________________________________________________________
______________________________________________________________

İdeya

______________________________________________________________
______________________________________________________________

Problem_______________________________________________________
______________________________________________________________

**10.** Əsər sizdə hansı hislər, düşüncələr yaratdı?

______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

*Mövzu:* **Mir Cəlalın həyatı, yaradıcılıq yolu – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

## Dərsin gedişi

Ev tapşırığının *(1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın. 2. Mövzulardan birini seçib işləyin: a) "Mikayıl Müşfiq obrazının təhlili" mövzusunda yığcam inşa yazın); b) "Poemadan hansı təəssüratla ayrıldım" mövzusunda yığcam esse yazın.)* yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər.

**Motivasiya** yaradılarkən, ilk növbədə, şagirdlərin mövzu ilə bağlı mövcud bilikləri aşkara çıxarılır. Bunun üçün, ilk növbədə, dərslikdəki tapşırığın *(Mir Cəlalın həyat və yaradıcılığı ilə bağlı nə bilirsiniz? Ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın. BİBÖ cədvəlinin "Bilirik" və "Bilmək istəyirik" sütunlarında müvafiq qeydlər edin)* yerinə yetirilməsinə vaxt ayrılır. Motivasiyanın digər variantı Mir Cəlal haqqında "Üç zirvənin fatehi" filmindən *(https://www.youtube. com/watch?v =u9DC5AF2sxg)* bir epizodun nümayiş etdirilməsi və fikir mübadiləsi aparılmasıdır.

Müzakirə zamanı şagirdlərin Mir Cəlalın əvvəlki siniflərdə öyrəndikləri "Bahar" ("Bir gəncin manifesti"ndən), "Vətən yaraları" əsərləri ilə bağlı mülahizələri dinlənilir, müzakirə aparılır. Qazanılmış biliklərin təkrarı əsasında, şagirdlərin fəal iştirakı ilə **tədqiqat sualı** müəyyənləşdirilir: *Mir Cəlalın həyatı, yaradıcılıq yolunda hansı məqamlar diqqəti daha çox cəlb edir?*

Dərslikdəki mətnkənarı sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə araşdırmaya başlanılır. Mətnin oxusunu fərqli formalarda (fərdi, cütlük şəklində) həyata keçirmək mümkündür. Kiçik qruplar yaratmaq, hər qrupa bir sual həvalə etmək

vaxta qənaət baxımından məqsədəuyğundur. Kiçik qruplara dərslikdəki digər tapşırıqların yerinə yetirilməsi ilə bağlı tövsiyələr verilir.

Təqdimat zamanı tədqiqatçıların dərslikdəki fikirlərinə əsaslandırılmış münasibət bildirilməsinin zəruriliyi şagirdlərə xatırladılır

Kiçik qrupların araşdırmasına ayrılan vaxt başa çatdıqdan sonra təqdimatların **mübadiləsi** və **müzakirəsi** aparılır. Bu mərhələdə müəllimin üzərinə ciddi vəzifə düşür. O hər sualla bağlı mənbələrdən hansı məlumatların əldə edilməsinin əhəmiyyətli olması barədə şagirdlərdə aydın təsəvvür yaratmağa çalışır. Birinci sualla *(Mir Cəlalın yaradıcılığında aldığı təhsilin və Gəncə ədəbi mühitinin hansı rolu olmuşdur?)* bağlı mənbələrdən istifadə edən şagirdlər ədibin Gəncə Darülmüəlliminə daxil olmasını, orada tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri kimi fəaliyyətini, Gədəbəydə, Gəncədə müəllimlik etməsini onun dünyagörüşünün formalaşmasında mühüm amil kimi dəyərləndirirlər. "Sağlam yollarda" adlı ilk kitabının meydana gəlməsində həmin dövrdə topladığı həyat təcrübəsinin, ədəbi axtarışların böyük rolu olduğu qeyd edilir. Bildirilir ki, bu dövrdə o, şifahi ədəbiyyatı, klassik və müasir bədii nəsri dərindən öyrənmiş, bunlar, eləcə də həyati müşahidələri gələcək hekayə və romanları üçün təməl olmuşdur.

Mir Cəlalın hekayə və roman yaradıcılığı ilə bağlı sualların müzakirəsi zamanı diqqət mətndəki mülahizələrə münasibətlə bərabər, əlavə mənbələrdən istifadə yolu ilə əldə edilən biliklərin müzakirəsinə yönəldilir. Müzakirə zamanı qeyd edilir ki, Mir Cəlalın bədii yaradıcılığında hekayə və roman janrlarında əsərlər mühüm yer tutur. Onun hekayələr üçün gerçəkliyə obyektiv münasibət, həyat həqiqətlərinin bədii əksi, tənqidi ruh, cəmiyyətdə, insan mənəviyyatı və davranışındakı nöqsanların tənqidi, yumorlu və satirik bədii gülüş, komizm, yığcamlıq, təbiilik səciyyəvidir. Mir Cəlal yüksək sənətkarlıq nümunəsi olan romanlarında da insanları düşündürən həyati problemləri, mənəvi-əxlaqi və ictimai-sosial məsələləri əks etdirmişdir.

Ədibin elmi yaradıcılığına dair üçüncü sualla bağlı qeyd edilir ki, o, sovet dövrü ədəbiyyatımızın inkişaf yoluna, bədii axtarışlarına, realizm, xəlqilik və s. ədəbi-nəzəri problemlərinə həsr olunmuş dəyərli elmi əsərlərin müəllifidir.

Müəllimin sualları əsasında fikir mübadiləsində **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** üçün zəmin yaradılır. Şagirdlərdə belə qənaət yaradılır ki, böyük sənətkar, alim Mir Cəlalın bədii, elmi irsi zəngin və çoxcəhətlidir. Ədibin yüksək sənətkarlıq nümunəsi olan hekayə və romanları öz ideya-bədii dəyərini, mövzu-problem aktuallığını, sosial kəsərini bu gün də qoruyub saxlamaqdadır.

Klassik və müasir ədəbiyyatımızın tədqiqi ilə o, ədəbiyyatşünaslıq elmimizi zənginləşdirmiş, inkişaf etdirmişdir.

BİBÖ cədvəlində "Öyrəndik" sütununda qeydlər aparılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mir Cəlal. Açıq kitab *(ixtisarla)* – 3** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Romanda əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Təqdimatların seçmə yolla dinlənilməsi və müzakirəsi daha məqsədəuyğundur. Bütün hallarda şagirdlərin mənbələrdən necə bəhrələndikləri, dərslikdəki məlumatlarla necə əlaqələndirdikləri diqqət mərkəzində saxlanılır. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür. "Haqq nazilər, üzülməz", "Haqq əli bikar qalmaz, gec kəsər, karlı kəsər" kimi atalar sözlərindən istifadə yolu ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim şagirdlərə öz fikirlərini söyləməyi təklif edir. "Oxuya hazırlaşın" başlığı altında verilmiş sual üzrə *("Qarşısına çıxan çətinliklərə baxmayaraq, tutduğu*

*düz yoldan geri çəkilməyən, haqsızlığa qarşı mübarizədə qalib gələn insanlar haqqında eşitmisinizmi? )* müzakirə aparılır.

Motivasiyanın digər variantı Mir Cəlal haqqında "Üç zirvənin fatehi" filmindən *(https://www.youtube. com/watch?v =u9DC5AF2sxg)* bir epizodun nümayiş etdirilməsi və fikir mübadiləsi aparılmasıdır.

Müzakirənin sonunda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *İnsanın öz xoşbəxtliyini başqasının bədbəxtliyi üzərində qurmaq istəyi nə ilə nəticələnər?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Romanın ixtisarla verilmiş birinci hissəsinin oxusu ilə **tədqiqata** başlanılır. Oxunu fərqli formalarda həyata keçirmək mümkündür. Şagirdlərin marağı nəzərə alınaraq fərdi oxunun tətbiqi faydalıdır. Oxuda tanış olmayan sözlərin mənası və məcazlar müəyyənləşdirilir.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda parçaların məzmunu ilə bağlı fikir mübadiləsi aparır, sual və tapşırıqlar əsasında təqdimat hazırlayırlar.

Əsərdən verilmiş birinci hissəni oxuyan şagirdlər kiçik qruplarda mənasını aydınlaşdırdıqları sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırır, seçdikləri məcazların növünü dəqiqləşdirirlər. Oxunmuş hissədə diqqəti daha çox cəlb edən məsələlər ikihissəli gündəlikdə qeyd edilir. Təqdimatlarda aşağıdakı suallara cavabların əks olunmasına diqqət yetirilir:

*a) Ata ilə oğulun gözlənilməz görüşü sizdə necə təəssürat yaratdı?*

*b) Sadıq kişi oğlunun institutdan qovulması xəbərini necə qarşıladı?*

*c) Vahidin institutdan çıxarılmasına Gəldiyev necə nail oldu? Onun nitqində, davranışında diqqətinizi daha çox çəkən nədir?*

*d) Vahidin bayram nümayişində iştirakı Gəldiyevə hansı imkanı yaratdı?*

*e) Vahidin instituta bərpa olunması necə mümkün oldu?*

*f) Oxuduğunuz hissə hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?*

Tədqiqata ayrılmış vaxt bitdikdən sonra təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə təqdimatların fəal dinlənilməsinə, müzakirənin səmərəli keçməsinə nail olur. Əsərin məzmunu üzrə söhbət zamanı oxunmuş hissədə öz əksini tapmış milli-mənəvi dəyərlər barədə fikirlərin aydınlaşdırılması diqqətdə saxlanılır. Şagirdlər əsərdə Vahidin ailəsinin timsalında böyüyə hörmət, sadəlik, təvazökarlıq, haqqa, ədalətə inam, ləyaqət kimi mənəvi dəyərlərdən söz açır, fikirlərini nümunələrlə əsaslandırırlar.

Oxu ilə bağlı aparılmış işə yekun (əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra – ikinci dərs saatında nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması həyata keçirilir) vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mir Cəlal. Açıq kitab (ixtisarla) – 3** saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Romanda əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi yığcam müsahibə ilə aşkara çıxarılır. Romandan ixtisarla verilmiş parçaların məzmununun hansı səviyyədə qavranıldığı müəyyənləşdirilir.

Dərslikdə verilmiş tapşırıqlar *(1. Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın. 2. Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. 3. Oxuduğunuz ikinci hissədə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın)* üzrə iş aparılır. Tapşırıqlar fərdi olaraq yerinə yetirilir və müzakirə olunur.

Araşdırma əsərin məzmunu üzrə suallara cavab hazırlamaqla davam etdirilir.

Qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi təmin edilir. Müzakirədə daha çox şagirdin iştirakına və onun diskussiya səciyyəli olmasına diqqət yetirilir.

Müzakirə zamanı əsərin ikinci hissəsindən aşağıdakı epizodların məzmununa münasibət bildirilir:

– *Vahidin "Yeni Bakı" layihəsi üzrə müsabiqədə iştirak etmək qərarı;*
– *Gəldiyevin Vahidin müsabiqədə iştirakından qorxuya düşməsinin səbəbi;*
– *Vahidlə Rübabənin toyunda Səttarzadənin dilə gətirdiyi arzular;*
– *institut rektoru Verdiyevin komissarlar sovetində məruzə edərkən iç üzünün açılması;*
– *Ağca xanımın verdiyi xəbərdən Gəldiyevin təşvişə düşməsinin səbəbi, onun Vahidin layihəsini oğurlamasının üstünün açılması;*
– *əsərin sonunda "Sədaqət, məhəbbət olan yerdə məğlubiyyət olmaz" fikrinin aydınlaşdırılması.*

Müzakirə zamanı əsərin məzmunu daha dərindən mənimsənilir, qəhrəmanların xarakter və əməlləri barədə şagirdlərdə ilkin təsəvvür yaranır.

Əsərin məzmununun bütövlükdə mənimsənilməsi növbəti dərsdə təhlilin aparılması üçün zəmin yaradır.

**Nəticə çıxarılması və ümumiləşdirmə aparılması** məqsədilə keçirilən müsahibə şagirdlərdə əsərin məzmunu, orada öz əksini tapmış milli- mənəvi dəyərlər barədə dolğun qənaət yaradır. Romanda vətənpərvərlik, sədaqət, məhəbbət, əməksevərlik, mübarizlik kimi mənəvi dəyərlərin bədii əksi barədə ümumi qənaət hasil edilir.

Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mir Cəlal. Açıq kitab (ixtisarla) – 3** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Romandakı obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Romanın mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır . | Romanda dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsini müsahibə və ya bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi yolu ilə aydınlaşdırmaq, real vəziyyəti müəyyənləşdirmək olar. Hər iki halda əsərin tam məzmununun hansı səviyyədə qavranıldığı, tanış olmayan sözlərin mənasının, mənşəyinin, məcazların necə müəyyənləşdirildiyi diqqət mərkəzində saxlanılır.

Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya atalar sözü ilə bağlı suallardan istifadə ilə yaradıla bilər. "Düz əyrini kəsər" atalar sözü barədə şagirdlərin fikirlərini öyrənən müəllim yığcam müsahibənin sonunda tədqiqat sualını formalaşdırır.

**Tədqiqat sualı:** *Yazıçının həyatın sərt həqiqətlərindən bəhs edən roman yazmaqda başlıca niyyəti nə olmuşdur?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqata** dərslikdəki mətnlə tanışlıq, mətnkənarı sualların oxunması və cavab hazırlanması ilə başlanılır. Mətnin fərdi və ya cütlük şəklində oxusu təşkil edilir. Mətnkənarı sualların cavablarının ümumiləşdirilib bir neçə cümlə ilə yazılması, əsərin mövzusunun, konfliktinin, qoyulmuş problemlərin müəyyənləşdirilməsi, Vahid və

Gəldiyev obrazlarının "xarakterlər xəritəsi" əsasında səciyyələndirilməsi, əsərdəki bədii təsvir və ifadə vasitələrinin rolunun izah edilməsi, əsərdəki başlıca fikrin – ideyanın müəyyənləşdirilməsi ilə bağlı tapşırıqların icrası zamanı qənaətlərin, mülahizələrin əsərdən nümunələrlə əsaslandırılması diqqət mərkəzində saxlanılır.

Kiçik qruplara həmçinin tədqiqatçıların əsərlə bağlı dərslikdə verilmiş fikirlərinə əsaslandırılmış münasibət bildirmək tapşırığı verilir.

Şagirdlər kiçik qruplarda fikir mübadiləsi aparır, öyrəndiklərini dəqiqləşdirirlər. Ardınca təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müəllim təqdimatların fəal dinlənilməsinə, müzakirənin diskussiya səciyyəli olmasına nail olur.

**Nəticə və ümumiləşdirmə mərhələsində** qazanılmış bilik və bacarıqlar əsasında tədqiqat sualı üzrə araşdırma və müzakirələr yekunlaşdırılır. Müzakirədə belə bir nəticə çıxarılır ki, yazıçı həyat həqiqətlərini əks etdirməklə cəmiyyətdəki bir sıra nöqsanları, Kərim Gəldiyev kimi insanların xarakterində, davranışındakı mənfi xüsusiyyətləri tənqid hədəfinə çevirmişdir. Onun "əzməsən əziləcəksən, ayaqlamasan ayaqlanacaqsan... Güzəran, mənsəb cəhənnəmin təkində də olsa, enməyi bacar!" deməsi mənəviyyatsızlığını əks etdirir. Cinayətlərinin açılacağından təşvişə düşən Gəldiyevin əsərin sonunda kötüyün üstündə oturub düşüncələrə dalaraq "Bir də göyərsəydim" arzusu ilə yaşaması cəmiyyətə xəbərdarlıq kimi səslənir. Cəmiyyət ayıq olmalıdır, çünki gəldiyevçilik islaholunmazdır, beləlari imkan düşən kimi hər cür fitnəyə, böhtana, şər əməllərə qadirdir. Əsərdə Vahidin, Rübabənin xoşbəxtliyi haqq-ədalətin qələbəsinə inamın ifadəsidir.

Aparılan işlər yekunlaşdırıldıqdan sonra qiymətləndirmə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

# MİLLİ-MƏNƏVİ ÖZÜNÜDƏRK VƏ İSTİQLAL ƏDƏBİYYATI MƏRHƏLƏSİ
# (XX ƏSRİN 60–90-cı İLLƏRİ)

*Mövzu*: **Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Mənbələrdən toplanmış məlumatın məzmununun dərslikdəki materiallarla hansı səviyyədə uzlaşması diqqət mərkəzində saxlanılır.

**Motivasiya** mərhələsində şagirdlərin mövzu ilə bağlı bilikləri üzə çıxarılır. Bu məqsədlə şagirdlərə tapşırıqlar verilir: *1960–1990-cı illərin əvvəllərində Azərbaycan ədəbiyyatı, onun aparıcı nümayəndələrinin yaradıcılığı haqqında ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın. Həmin illərdə ölkənin ictimai-siyasi həyatında, mədəniyyət, ədəbiyyat sahəsində baş verən dəyişikliklər haqqında tarix dərslərində qazandığınız biliklərdən istifadə edin. BİBÖ cədvəlinin ilk iki sütununda qeydlər edin.*

Müzakirə nəticəsində **tədqiqat sualı** müəyyənləşdirilir: *Milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsində ədəbiyyatımızın inkişafı hansı özəllikləri ilə diqqəti cəlb edir?*

Mövzunun problemli səciyyə daşıması tədqiqatın diskussiya metodunun tətbiqi ilə aparılmasını zəruri edir. Eyni zamanda dərsdə qarşıya qoyulan təlim məqsədləri, şagirdlərin hazırlıq səviyyəsi əsas götürülərək müzakirə debat metodundan istifadə ilə təşkil edilə bilər.

**Tədqiqatın aparılmasına** dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən mətnin oxusu ilə başlanılır. Şagirdlər kiçik qruplara ayrılır, hər qrupa iş vərəqlərində suallar təqdim edilir. Kiçik qruplara əlavə mənbə kimi ədəbiyyatşünaslıq lüğətindən, ədəbiyyat ensiklopediyalarından, məktəb kitabxanasındakı latın qrafikası ilə çap olunmuş müvafiq əsərlərdən və s. istifadə imkanı yaradılır.

Kiçik qruplar dərslikdəki mətn üzrə sualların aydınlaşdırılmasına istiqamət verən cavablarla tanış olurlar. Tədqiqatçıların bu ədəbi dövrlə bağlı fikirlərinə də təqdimatlarda münasibət bildirilməsinin vacibliyi diqqətə çatdırılır.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müzakirə diskussiya şəklində həyata keçirilir. Mətn üzrə birinci sual üzrə *(Altmışıncılar ədəbi nəslinin ədəbiyyatımızın yeni istiqamətdə inkişafında rolu nədən ibarətdir?)* müzakirəyə, ilk növbədə, şagirdlərin ədəbiyyat tarixinin milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi barədəki məlumatlarının aşkara çıxarılması ilə başlanılır. Müsahibə əsasında sualla bağlı biliklərin əvvəlki siniflərdə, xüsusən IX sinifdə hansı səviyyədə mənimsənildiyi müəyyənləşdirilir. Cavablarda altmışıncılar ədəbi nəslinin sosialist realizmi ədəbiyyatına fərqli münasibəti, yeni dövrün "kiçik insan"ını ədəbiyyatın ön mövqeyinə çıxarmasını, ideoloji mahiyyətli istehsalat romanları əvəzinə, gerçək həyat hadisələrinin, sadə insanların həyatının, mənəvi axtarışlarının, mənəviyyatda gedən proseslərin bədii əksinə xüsusi diqqət yetirdikləri qeyd edilir.

*"1960-cı illərin sonu 1980-ci illərin əvvəllərində ədəbiyyatımızda hansı dəyişikliklər baş verdi?"* sualı üzrə müzakirədə qeyd edilir ki, bu mərhələdə milli-mənəvi dəyərlərin inkişaf etdirilməsi, soykökünə və tarixi yaddaşa dönüş, milli ədəbiyyatın və mədəniyyətin dövlət səviyyəsində müdafiə olunması xalqın maraqlarına köklənmiş ədəbiyyatın meydanını daha da genişləndirmişdir.

*"Milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsində hansı ümummilli ideallar ön plana çıxdı?"* sualının müzakirəsi zamanı şagirdlərin söylədiyi mülahizələrin əsaslandırılmasına ciddi diqqət yetirilir. Qeyd edilir ki, sovet imperiyasının siyasi və iqtisadi qüdrətinin sarsıldığı bu dövrdə ədəbiyyatımızda milli - azadlıq ideyaları, vətəndaşlıq motivləri ön plana çıxmışdır. Milli özünüdərkə qayıdış mərhələsində ədəbiyyatda başlanan və qüvvətlənən ümummilli ideallar Azərbaycanda dövlət müstəqilliyinin bərpası ilə məqsədinə çatmışdır.

Diskussiya zamanı söylənilən mülahizələr **nəticə** və **ümumiləşdirmə** mərhələsində ümumiləşdirilir, qoyulmuş problemlə bağlı müəyyən qənaət hasil edilir.

Müzakirənin sonunda BİBÖ cədvəlinin "Öyrəndik" sütununda qeydlər aparılır. Şagirdlərdə icmal mövzusu üzrə sinifdə öyrəndiklərinə müstəqil tədqiqat zamanı nələri əlavə edəcəkləri ilə bağlı tövsiyələr verilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu*: **İlyas Əfəndiyevin həyatı, yaradıcılıq yolu – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının *(1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. 2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını geniş əhatə edin: a) 60-cı illərdə yaranan ədəbiyyatımız hansı xüsusiyyətləri ilə fərqlənir? b) Hansı sənətkarların yaradıcılığında həyatdakı müsbət meyillərin tədqiq edilməsindən çox, həyat həqiqətlərinin göstərilməsinə üstünlük verilmişdir?)* yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Seçmə yolla dinlənilən təqdimatlarda şagirdlərin mövzu ilə bağlı əlavə mənbələrdən istifadə bacarığına, mülahizələrin əsaslandırılmasına xüsusi diqqət yetirilir. Eyni zamanda söylənilən mülahizələrə münasibət bildirilir, tövsiyələr verilir. BİBÖ cədvəlində müvafiq qeydlər aparılır.

**Motivasiya** yaradılarkən şagirdlərin mövzu ilə bağlı mövcud bilikləri aşkara çıxarılır. Bunun üçün, ilk növbədə, dərslikdəki tapşırığın *(İlyas Əfəndiyev barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* yerinə yetirilməsinə vaxt ayrılır.

Motivasiyanın digər variantı İlyas Əfəndiyevin anadan olmasının 100 illik yubiley gecəsinin video çəkilişindən bir parçanın nümayiş etdirilməsi ***(https://www.youtube.com/watch?v=S-umNvGZ_tQ)*** və fikir mübadiləsi aparılmasıdır.

Müzakirə zamanı şagirdlərin İlyas Əfəndiyevin əvvəlki siniflərdə öyrəndikləri əsərləri ilə bağlı mülahizələri dinlənilir, müzakirə aparılır. Qazanılmış biliklərə əsaslanmaqla şagirdlərin fəal iştirakı ilə **tədqiqat sualı** müəyyənləşdirilir*: İlyas Əfəndiyevin həyat və yaradıcılıq yolunda hansı amillər bir sənətkar kimi böyük uğur qazanmasına səbəb olmuşdur?*

Mətn üzrə iş zamanı mətnkənarı sualların sayı qədər kiçik qruplar yaradılır. Dərslikdəki mətnkənarı sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə araşdırmaya başlanılır. Qruplar onlara təklif edilmiş sualın cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər:

a) *İlk mətnkənarı sualın cavabını əhatə edən mətni qrupun üzvü ucadan və aydın şəkildə oxuyur.*

b) *Mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.*

c) *Mətnə aid bir neçə sual verir. Cavablandırmada qrup üzvləri ilə yanaşı, bütün sinif iştirak edir.*

d) *Səthi qavranılmış çətin məqamlara aydınlıq gətirməyə çalışır.*

e) *Mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.*

Sonrakı mətnkənarı sualların cavablarını da digər qrupların şagirdləri bu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatları əsasında **fikir mübadiləsi və müzakirə aparılır.**

**Təqdimatların müzakirəsi** zamanı müəllim birinci sualla bağlı şagirdlərin ədibin kənddə müəllimlik fəaliyyəti, ali təhsil almaq həvəsi, ədəbi yaradıcılığa böyük maraq göstərməsi kimi faktlara münasibət bildirməsinə diqqət yetirir. Şagirdlərə aydın olmalıdır ki, İ.Əfəndiyev hələ uşaqlıq, gənclik illərindən qarşısına böyük məqsədlər qoymuş, bu məqsədə çatmaq üçün səylə çalışmışdır. Bakı ədəbi mühiti, ədəbi jurnallarla sıx əməkdaşlıq, həyat hadisələrinin canlı müşahidəsi ədibə böyük oxucu rəğbəti qazandıran hekayə, povest və romanlar yazmaq imkanı vermişdir.

*"Yazıçının nəsr əsərləri hansı özəllikləri ilə seçilir?"* sualı ilə bağlı müzakirə zamanı Azərbaycan nəsrinin aktual mövzular, yaddaqalan bədii obrazlar, dil-üslub vasitələri ilə zənginləşməsində İ.Əfəndiyevin rolu dəyərləndirilməlidir. Ədəbiyyatımızda sənətkarın lirik-psixoloji üslubunun özünəməxsusluğu nəsr əsərlərindən nümunələr gətirilməklə əsaslandırılır. Ədibin nəsr əsərləri üçün yeni insanın, onun daxili aləminin təsviri, həyati konfliktlər, mənəvi təmizlik problemi, zəngin bədii təsvir və ifadə vasitələrindən məharətlə istifadənin səciyyəvi olduğu qeyd edilir.

*"Ədibin dram əsərləri hansı cəhətləri ilə seçilir?"* sualı ilə əlaqədar müzakirədə sənətkarın Azərbaycan teatrının inkişafında böyük rolu olduğu qeyd edilməlidir. İ.Əfəndiyevin dram əsərlərinin fəal həyat mövqeyi tutan, saf mənəviyyatlı qəhrəmanları cəmiyyətin inkişafına mane olan, yaşamağın mənasını var-dövlət toplamaqda, meşşan həyat tərzində görən insanlarla mübarizə aparır.

*"Sənətkarın tarixi mövzuda dramlarını səciyyələndirən cəhətlər hansılardır ?"* sualının müzakirəsi zamanı qeyd edilir ki, müəllif tarixi

dramlarında mürəkkəb tarixi hadisələri, ziddiyyətləri, xarakterləri, fikir toqquşmalarını, həqiqət axtarışlarını əks etdirmiş, keçmişdəki hadisələrin fonunda bu gün də xalqımızı düşündürən problemlərdən söz açmışdır.

Müzakirənin şagirdlərin fəal iştirakı ilə keçməsi **nəticənin çıxarılması və ümumiləşdirmənin aparılması** üçün zəmin yaradır. Müzakirə nəticəsində şagirdlərdə belə bir qənaət formalaşdırılır ki, İ.Əfəndiyev aktual mənəvi problemləri həyati konfliktlər, fəal həyat mövqeyi tutan qəhrəmanların mübarizəsi zəminində əks etdirmişdir. O, həmişə həyat həqiqətlərinə sadiq qalmış, hekayə, povest, roman və dramlarında öz sənətkar idealını ifadə etmişdir.

BİBÖ cədvəlində "Öyrəndik" sütununda qeydlər aparılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İ.Əfəndiyev. Xurşidbanu Natəvan *(ixtisarla)* – 3** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Dramdan seçilmiş hissələrin məzmununu yaradıcı nağıl edir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Təqdimatların seçmə yolla dinlənilməsi və müzakirəsi daha məqsədəuyğundur. Bütün hallarda şagirdlərin mənbələrdən necə bəhrələndikləri, öyrəndiklərini dərslikdəki məlumatlarla necə əlaqələndirdikləri diqqət mərkəzində saxlanılır. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya** mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür. Şagirdlərə suallar üzərində *("Vətənpərvərlik" sözünün mənasını necə başa düşürsünüz? Sizcə, insanın vətənpərvərliyi hansı məqamlarda daha qabarıq üzə çıxır? Vətənpərvər insanda hansı keyfiyyətlər olmalıdır?)* düşünmək, cavabları cədvəldə qeyd etmək tapşırılır. Sonra fikir mübadiləsi və müzakirə aparılır.

*"İnsan öz xalqının birliyi, azadlığı uğrunda hansı yollarla mübarizə apara bilər?"* sualından, *"Azadlıq gözəl yaşamaq üçündür"* atalar sözündən istifadə yolu ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim şagirdlərə öz fikirlərini söyləməyi təklif edə bilər.

Motivasiya yaradılmasının digər yolu "Xurşidbanu Natəvan" tamaşasından bir parçanın videoyazısına baxış *(https://www.youtube.com /watch?v=8dkYsvrFRaA)* və yığcam müzakirə ola bilər.

Müzakirənin sonunda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Tarixi mövzuya müraciəti sənətkara hansı mühüm mətləblərdən söz açmağa imkan yaratmışdır?*

Fərziyyələr dinlənilir və qeyd edilir. Əsərdən verilmiş parçanın oxusu aşağıdakı qaydada təşkil olunur:

1. *Bir səhifə həcmində mətn rollar üzrə oxunur.*
2. *Müəyyənləşdirilmiş cütlər mətni oxuyanlara növbə ilə suallar verir. Cavablar cütləri qane etməsə, digər şagirdlərin cavabları dinlənilir.*
3. *Cütlər və mətni oxuyanlar əvəz edilir, sonrakı səhifələrin oxusu da bu qayda ilə davam etdirilir.*
4. *Nəzərdə tutulan parçanın oxusu başa çatdırıldıqdan sonra seçilmiş hissələrin məzmununu bir neçə şagird yaradıcı nağıl edir.*

Tədqiqata ayrılmış vaxt bitdikdən sonra təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə təqdimatların fəal dinlənilməsinə, müzakirənin səmərəli keçməsinə nail olur.

**Nəticənin çıxarılması və ümumiləşdirmənin aparılması** növbəti dərsdə əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İ.Əfəndiyev. Xurşidbanu Natəvan** ***(ixtisarla)*** **– 3** saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Təqdimatların seçmə yolla dinlənilməsi və müzakirəsi daha məqsədəuyğundur. Bütün hallarda oxunmuş hissədəki mühüm fikirlərin müəyyənləşdirilməsi, tanış olmayan sözlərin mənasının, mənşəyinin aydınlaşdırılması, seçilən məcazlarla bağlı təqdimatların dəyərləndirilməsi, müvafiq qiymətləndirmə meyarlarına müraciət məqsədəuyğundur.

**Tədqiqatın aparılmasına** dərslikdə təklif edilmiş tapşırıqların fərdi olaraq yerinə yetirilməsi ilə başlanılır:

*1. Əsərin 5–8-ci şəkillərində ifadə olunmuş mühüm fikirləri cədvəldə qeyd edin.*

*2. Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?*

Əsərin məzmunu üzrə aşağıdakı suallara cavabların hazırlanması ilə tədqiqat davam etdirilir:

*a) Şairlərin məclisində nə barədə mübahisə gedirdi? Mübahisə nə ilə nəticələnir?*

*b) Xurşidbanunun Şuşaya su çəkdirməsi insanlarda necə əhvali-ruhiyyə yaratdı?*

*c) Knyaz Xasayın kədərlənməsinə səbəb nə idi?*

*ç) Qoca knyazın gəlişində məqsəd nə idi? O, knyaz Xasayı nədə ittiham edirdi?*

*d) Knyaz Xasayın Dağıstana qayıtmaq niyyətini Xurşidbanu necə qarşıladı?*

*e) Xurşibanu nə üçün şahzadəni ikiüzlü, cəllad adlandırır?*

*ə) Məliküldövlənin Xurşidbanunun yanına gəlməsi nə ilə əlaqədar idi?*

*f) Mirzə Ruhullahla söhbəti Xurşidbanunu hansı qərara gəlməyə sövq etdi?*

*g) Əsər hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?*

Qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi təmin edilir. Müzakirədə daha çox şagirdin iştirakına və onun diskussiya səciyyəli olmasına diqqət yetirilir. Müəllimin istiqamətverici sualları şagirdləri Natəvanın xalqımızın görkəmli sənətkarı olması, mürəkkəb bir şəraitdə haqsızlığa qarşı barışmaz mübarizə aparması, ətrafında olan, eləcə də ona ümid çırağı kimi baxan insanlara xoşbəxtlik gətirməyə çalışması ilə bağlı fikir söyləməyə sövq edir. Onlar qeyd edir ki, xalq arasında "Xan qızı" kimi tanınan Natəvan Azərbaycanın birliyi, azadlığı uğrunda əzmlə mübarizə aparmış, çar hakimiyyəti nümayəndələrinin, yerli fitnəkarların layiqli cavabını vermişdir.

**Nəticənin çıxarılması və ümumiləşdirmənin aparılması** zamanı müəllimin istiqamətləndirici suallardan istifadə etməsi məqsədəuyğundur. Müsahizə zamanı şagirdlərdə belə qənaət yaradılır ki, İ.Əfəndiyevin bu mövzuya müraciət etməsi, Natəvanı əsərin baş qəhrəmanı seçməsi təsadüfi olmamışdır. Natəvanın şəxsiyyəti, mübarizə əzmi, daim öz xalqının taleyini düşünməsi, onun xoşbəxtliyi üçün çalışması sənətkarın diqqətini cəlb etmiş, bu dramın meydana gəlməsinə səbəb olmuşdur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İ.Əfəndiyev. Xurşidbanu Natəvan** ***(ixtisarla)*** **– 3** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Dramdakı obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Dramın mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır . | Dramın dil və üslub xüsusiyyətlərinə istinad edərək dramaturqun mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsini müsahibə və ya bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi yolu ilə aydınlaşdırmaq, real vəziyyəti müəyyənləşdirmək olar. Hər iki halda əsərin bütövlükdə necə qavranıldığı, geniş nağıletmə, mənəvi dəyərlərin müəyyənləşdirilməsi ilə bağlı təqdimatların dəyərləndirilməsi zamanı müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya atalar sözündən istifadə ilə yaradıla bilər. Şagirdlərə “El ilə bir ağla, el ilə bir gül” atalar sözünə münasibət bildirmək tapşırılır. Yığcam müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Xurşidbanu Natəvan haqqında əsər yazmaqda müəllifin niyyəti nə olmuşdur?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Dərslikdəki mətnkənarı suallar və onların araşdırılmasına istiqamət verən cavabların oxusu ilə tədqiqata başlanılır. Kiçik qruplar araşdırma apararaq təqdimat hazırlayırlar. Araşdırma zamanı tədqiqatçıların dərslikdə verilmiş fikirlərinin də müzakirə olunması, onlara əsaslandırılmış münasibət bildirilməsi tövsiyə edilir.

Tədqiqata ayrılmış vaxt bitdikdən sonra təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müəllim təqdimatların fəal dinlənilməsinə, müzakirənin diskussiya səciyyəli olmasına nail olur.

Təqdimatların müzakirəsi zamanı qeyd edilir ki, Natəvan çətin, ziddiyyətli bir şəraitdə öz amalına sadiq qalır, xalqın müdrikliyinə, azadlıq mübarizəsində qələbə çalacağına inanır. Natəvan öz nəcibliyi, mənəvi saflığı, əxlaqi keyfiyyətləri ilə Azərbaycan qadınının parlaq obrazını göz önündə canlandırır. Nəcib ideallarla, işıqlı duyğularla yaşayan Natəvan üçün Vətən müqəddəs anlayışdır. O, öz Vətəninin, xalqının mənafeyini qoruyur, doğma yurdun işğalı, ikiyə bölünməsi ilə barışmır, çətinliklərdən sarsılmadan mübarizə aparır, tutduğu yoldan dönmür.

**Nəticə və ümumiləşdirmə mərhələsində** tədqiqat sualı üzrə araşdırma və müzakirələr yekunlaşdırılır. Müzakirədə belə bir nəticə çıxarılır ki, dramaturq xalqın xoşbəxtliyinin onun azadlığı və milli birliyi ilə bağlı olduğu qənaətindədir. İkiyə bölünmüş vətəni birləşdirmək üçün möhkəm iradə, xalqın milli - azadlıq mübarizəsi lazımdır.

Aparılan işlər yekunlaşdırıldıqdan sonra qiymətləndirmə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İsmayıl Şıxlının həyatı, yaradıcılıq yolu – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının *(1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumatlar əsasında zənginləşdirin və tamamlayın. 2. Mövzulardan birini seçib işləyin: a) "Natəvan obrazı haqqında düşüncələrim" mövzusunda esse yazın; b) İlyas Əfəndiyev yara-*

*dıcılığında Qarabağ" mövzusunda məqalə yazın)* yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər.

**Motivasiya** yaradılması məqsədilə dərslikdəki tapşırığın (*İ.Şıxlı barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* yerinə yetirilməsinə vaxt ayrılır. Şagirdlər İ.Şıxlının "Namərd gülləsi" hekayəsini IX sinifdə öyrənmiş, tövsiyə olunmuş "Sapı özümüzdəndir", "Mənim rəqibim" əsərlərini müstəqil mütaliə etmişlər. Onlar ədibin eyniadlı romanı üzrə çəkilmiş "Dəli Kür" filmi ilə də tanışdırlar. Dərsdə İNSERT-dən istifadə etməklə şagirdlərin mövzu ilə bağlı əvvəlki biliklərinin, öyrənmək istədiklərinin qeydə alınması məqsədəuyğundur.

Motivasiyanın digər variantı İ.Şıxlı haqqında "Kürə qovuşan ömür" filmindən *(https://www.youtube. com/watch?v=OIh-GpYSoRQ)* bir epizodun nümayiş etdirilməsi və yığcam fikir mübadiləsi aparılmasıdır.

Şagirdlərin fəal iştirakı ilə **tədqiqat sualı** müəyyənləşdirilir: *İsmayıl Şıxlının həyatı və yaradıcılığı üçün daha səciyyəvi olanlar nədir?*

Dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə **araşdırmaya** başlanılır. Mətnin oxusunu fərqli formalarda (fərdi, cütlük şəklində) həyata keçirmək mümkündür. Kiçik qruplar yaradılması, hər qrupa bir suala cavab hazırlanmasının tapşırılması vaxta qənaət baxımından məqsədəuyğundur. Kiçik qruplar dərslikdəki sual və tapşırıqlar üzrə təqdimat hazırlayarkən tədqiqatçıların əsər barədə dərslikdə verilmiş fikirlərinə də münasibət bildirir, öz fikirlərini əsaslandırırlar.

Kiçik qrupların araşdırmasına ayrılan vaxt başa çatdıqdan sonra təqdimatların **mübadiləsi** və **müzakirəsi** aparılır. Birinci sualla (*İ.Şıxlının həyat yolu üçün daha səciyyəvi olanlar nədir?)* bağlı mənbələrdən istifadə edən şagirdlər, ilk növbədə, ədibin şeir, sənət ocağı Qazaxda anadan olmasını, orta və ali təhsil almasını qeyd edirlər. "*Yazıçının bədii yaradıcılığında müharibə mövzusu necə əks olunmuşdur?*" sualı ilə əlaqədar əlavə mənbələrdən bəhrələnən şagirdlər qeyd edirlər ki, müharibə başlayanda İ.Şıxlı pedaqoji ali məktəbdə təhsilini yarımçıq qoyub 1942-ci ildə cəbhəyə getmişdir. Cəbhədə amansız ölüm-dirim döyüşlərinin iştirakçısı olması, müharibənin məhrumiyyətləri, faciələri ədibin sonrakı hekayələrində, "Kerç sularında" povestində, "Cəbhə gündəlikləri"ndə, "Odlu çarpazlar" kinossenarisində öz əksini tapmışdır.

"*Ayrılan yollar" romanında hansı problemlərin bədii həlli verilmişdir?*sualının müzakirəsi zamanı bu əsərin ədibin yaradıcılığının ilk mərhələsinin məhsulu olduğu qeyd edilir. Kəndə, kolxoz həyatına həsr olunan bu roman müəllifin bir sənətkar kimi püxtələşdiyini göstərirdi.

*“Yazıçının sonrakı illərdə yazdığı nəsr əsərlərində hansı problemlər diqqət mərkəzinə çəkilmişdir?”* sualı üzrə müzakirədə ədibin hekayə və romanlarının ideya-məzmunu ilə bağlı fikir söylənilir. Həmin əsərlərdə həyati problemlər, milli-mənəvi dəyərlər, cəmiyyətdə, insan davranışında olan ziddiyyətli məqamların əks olunduğu qeyd edilir.

Müəllimin istiqamətləndirici sualları əsasında **nəticənin çıxarılması və ümumiləşdirmənin aparılmasına** vaxt ayrılır. Şagirdlərdə belə qənaət möhkəmlənir ki, İ.Şıxlının ibrətamiz həyat yolu, zəngin yaradıcılığı onu ədəbiyyatımızın görkəmli simalarından birinə çevirmişdir. O, xalq ruhunun, davranış və düşüncə mədəniyyətinin daşıyıcısı kimi bu gün də gənc nəsil üçün örnəkdir. Yazıçının bədii əsərləri üçün realizm, aktuallıq, müasirlik baxımından problem seçimində dəqiqlik, həyat həqiqətlərinin bədii əksi səciyyəvidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İ.Şıxlı. Dəli Kür *(ixtisarla)* – 4** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Romanda əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Təqdimatların seçmə yolla dinlənilməsi və müzakirəsi daha məqsədəuyğundur. Bütün hallarda şagirdlərin mənbələrdən necə bəhrələndikləri, öyrəndiklərini dərslikdəki məlumatlarla necə əlaqələndirdikləri diqqət mərkəzində saxlanılır. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür. Mehdi Hüseynin bu əsərlə bağlı İ.Şıxlıya yazdığı məktubu oxumaqla şagirdlərdə əsərə maraq oyatmaq olar: "*Əzizim İsmayıl! "Dəli Kür" əsərini dünən gecə oxuyub qurtardım. Düzünü deyim ki, mən səndən yaxşı əsər gözləyirdim, amma bu cür qüvvətli və təsirli bir əsər yazmağını gözləmirdim. Əhsən, bərəkallah! Son on ildə bizim ədəbiyyatımızdan oxuduğum heç bir əsər məni bu cür sarsıtmamışdı*".

Şagirdlərə bu məktub barədə öz fikirlərini söyləmək təklif edilir. Dərslikdəki "*Güclü xarakter dedikdə nə başa düşürsünüz? Güclü xarakterli insan olmaq üçün nə etmək lazımdır? Sizcə, güclü xarakter hansı hallarda daha önəmli olur?*" sualları üzrə müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır.

Motivasiyanın digər variantı "Dəli Kür" bədii filmindən *(https://www.youtube. com/watch?v=3m GX3RiZ4lE&t=26s)* bir epizodun nümayiş etdirilməsi və fikir mübadiləsi aparılmasıdır.

**Tədqiqat sualı:** *Romanda təsvir edilən hansı hadisələr onu "qüvvətli və təsirli əsər" adlandırmağa əsas vermişdir?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Romanın ixtisarla verilmiş birinci hissəsinin oxusu ilə **tədqiqata** başlanılır.

Oxunu fərqli formalarda həyata keçirmək mümkündür. Şagirdlərin marağı nəzərə alınaraq fərdi oxunun tətbiqi faydalıdır. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra tapşırıqlar fərdi olaraq yerinə yetirilir: mənası aydınlaşdırılmış sözlərin alınma, yaxud dilimizə aid olduğu əsaslandırılır; məcazların növü dəqiqləşdirilir, maraqlı hesab olunmasının səbəbi açıqlanır; ikihissəli gündəlik və suallara (*Anasının sözləri Şamxala necə təsir etdi? O hansı qərara gəldi? Cahandar ağanın silahdan atəş açması evdəkilərə necə təsir etdi?* və s.) cavab hazırlanır. Sonda test tapşırığı üzrə işin təşkili faydalıdır.

Kiçik qruplarda birləşən şagirdlər cavablarını dəqiqləşdirir və ümumiləşdirirlər. Təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə təqdimatların fəal dinlənilməsinə, müzakirənin səmərəli keçməsinə nail olur.

Oxu ilə bağlı aparılmış işə yekun *(əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra – ikinci dərs saatında nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması həyata keçirilir)* vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İ.Şıxlı. Dəli Kür *(ixtisarla)*** – 4 saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Romanda əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi yığcam müsahibə ilə aşkara çıxarılır. Romandan ixtisarla verilmiş parçaların məzmununun hansı səviyyədə qavranıldığı, oradakı mühüm fikirlərin, tanış olmayan sözlərin mənasının, mənşəyinin, məcazların necə müəyyənləşdirildiyi aydınlaşdırılır.

Şagirdlər oxuduqları pərdələrdəki başlıca fikirlər, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərini kiçik qruplarda bölüşür, fikir mübadiləsi aparırlar. Bu, mənimsənilənlərin dəqiqləşdirilməsinə, zənginləşdirilməsinə imkan yaradır. Qruplar daha sonra dərslikdə təklif edilmiş suallara cavab hazırlayırlar.

Qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, məcazların müəyyənləşdirilməsi və növünün dəqiqləşdirilməsi, ikihissəli gündəlikdə qeydlərin aparılması, eləcə də əsərin məzmunu üzrə suallara *(1. Rus Əhmədin və Aleksey Osipoviçin qarşıya qoyduğu məqsəd nə idi? 2. Cahandar ağadan qisas almaq istəyən Allahyar başqa cür hərəkət edə bilərdimi? 3. Hücum edənin Allahyar olduğunu biləndə Cahandar ağa nə düşündü? 4. Oxuduğunuz parçalar hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?)* cavabların verilməsi təqdimatlarda əhatə edilən başlıca məsələlər olur. Eləcə də ikinci hissənin məzmununun yığcam nağıl edilməsi səviyyəsi dəyərləndirilir.

Təqdimatların fəal dinlənilməsi təmin edilir. Müzakirədə daha çox şagirdin iştirakına və onun diskussiya səciyyəli olmasına diqqət yetirilir. **Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılmasında** müəllim istiqamətləndirici suallardan istifadə edir. Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İsmayıl Şıxlı. Dəli Kür** ***(ixtisarla)*** **– 4** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Romandakı obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir. | Romanda məcazların obrazlılığın yaradılmasındakı roluna əsaslandırılmış münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Romanın mövzusuna, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |

| | |
|---|---|
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Romanda yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsini müsahibə və ya bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi yolu ilə aydınlaşdırmaq, real vəziyyəti müəyyənləşdirmək olar. Hər iki halda əsərin müstəqil oxunmuş hissələrinin məzmununun hansı səviyyədə qavranıldığı diqqət mərkəzində saxlanılır.

Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya** suallardan istifadə ilə yaradıla bilər. Şagirdlərə "Dəyişməyə doğru gedən zəmanədə insan öz ideallarını, həyat tərzini qoruyub saxlaya bilərmi?" sualı ilə müraciət edən müəllim yığcam müsahibənin sonunda tədqiqat sualını formalaşdırır.

**Tədqiqat sualı:** *Mürəkkəb tarixi şəraitdə Azərbaycan kəndində baş verən hadisələrdən bəhs etməkdə yazıçının məqsədi nədir?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqata** dərslikdəki mətnlə tanışlıq, mətnkənarı sualların *(Əsər hansı mövzuda yazılmışdır? Romanda hansı problemlər, konflikt, milli-mənəvi dəyərlər öz əksini tapıb? Cahandar ağa obrazını səciyyələndirən başlıca xüsusiyyətlər hansılardır?)* müzakirə edilməsi və onlara cavabların hazırlanması ilə başlanılır. Mətnin fərdi və ya cütlük şəklində oxusunu təşkil etmək məqsədəuyğundur.

Şagirdlərə izah edilir ki, mənbələr üzrə qazanılmış biliklər əsasında mətnə yenidən müraciət etməklə əsəri daha ətraflı təhlil etmək mümkündür.

Tədqiqat kiçik qruplarda tapşırıqların yerinə yetirilməsi və təqdimatların hazırlanması ilə davam etdirilir. Romanda işlənilmiş bədii təsvir və ifadə vasitələrinin fikrin təsir gücünün artırılmasında rolunun izah edilməsi, tədqiqatçıların dərslikdə verilmiş fikirlərinə münasibət bildirilməsi və s. tapşırıqlar üzrə cavablar hazırlanır.

"Xarakterlər xəritəsi"ndən istifadə edərək Cahandar ağa obrazını səciyyələndirən qruplara qəhrəmanın xarakteri, əməlləri, nitqi, başqalarına münasibəti barədə fikirlərini əsərdən seçdikləri nümunələrlə əsaslandırmaq tövsiyə edilir.

Şagirdlər kiçik qruplarda fikir mübadiləsi aparır, öyrəndiklərini dəqiqləşdirirlər. Ardınca təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müəllim təqdimatların fəal dinlənilməsinə, müzakirənin diskussiya səciyyəli olmasına nail olur.

Əsərin təhlili üzrə iş dördüncü dərs saatında davam etdiyi üçün **nəticə və ümumiləşdirmənin** həmin dərsdə aparılması məqsədəuyğundur. Aparılan işlər yekunlaşdırıldıqdan sonra qiymətləndirmə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İ.Şıxlı. Dəli Kür *(ixtisarla)* – 4** saat

*Dördüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Romandakı obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir. | Romanda məcazların obrazlılığın yaradılmasındakı roluna əsaslandırılmış münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Romanın ideyasına dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Romanda dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

## Dərsin gedişi

Ev tapşırığının (*Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumatlar əsasında zənginləşdirin və tamamlayın*) yerinə yetirilməsi səviyyəsini müsahibə və ya bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi yolu ilə aydınlaşdırmaq, real vəziyyəti müəyyənləşdirmək olar. Hər iki halda sinifdə öyrənilənlərin digər mənbələrdən istifadə ilə hansı səviyyədə zənginləşdirildiyi diqqət mərkəzində saxlanılır.

Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Tədqiqata** kiçik qruplarda başlayan şagirdlər mətnkənarı sualların cavablarını oxuyub ümumiləşdirir, qısaca qeydlər edirlər. Dərslikdə təklif edilmiş tapşırıqlar ("xarakterlər xəritəsi"ndən istifadə ilə obrazlardan birinin səciyyələndirilməsi, məcazların rolunun aydınlaşdırılması, əsərin ideyası ilə bağlı mühüm fikirlərə aid nümunələrin seçilməsi və onlara münasibət bildirilməsi) fərdi, yaxud cütlük şəklində yerinə yetirilir.

Şagirdlər kiçik qruplarda birləşir, fikir mübadiləsi aparır, qənaətlərini dəqiqləşdirirlər. Ardınca təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müəllim təqdimatların fəal dinlənilməsinə, müzakirənin diskussiya səciyyəli olmasına nail olur.

**Nəticə çıxarılması və ümumiləşdirmənin aparılması** zamanı qazanılmış biliklərə bir daha nəzər salınaraq qeyd edilir ki, dəyişən, müstəqil yaşam şərtləri get-gedə məhdudlaşdırılan zəmanədə təklənmiş Cahandar ağa bütün qüsurlarına baxmayaraq, oxucuda rəğbət doğuran faciəvi obrazdır.

Cahandar ağa çar məmurları ilə qarşılaşmada əyilməzliyi ilə xalqımıza xas olan mənəvi dəyərləri təcəssüm etdirir. O başa düşür ki, artıq əvvəlki həyat tərzinin sonu çatmışdır, onun üçün ölən dünyada yaşamağın bir mənası qalmamışdır. Cahandar ağanın faciəsinin əsl səbəbi də bundadır. İ. Şıxlı XIX əsrin ikinci yarısında Azərbaycan kəndində gedən ziddiyyətli prosesləri, Cahandar ağanın faciəli taleyini qələmə almaqla milli ruhla aşılanmış, milli dəyərləri əks etdirən qiymətli bir roman yaratmışdır.

Aparılan işlər yekunlaşdırıldıqdan sonra qiymətləndirmə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Nigar Rəfibəylinin*
*"Sevirəm, sevmirəm" şeiri üzrə aparıla bilər.*

**Sevirəm, sevmirəm**

İnsanda qüruru, ləyaqəti sevirəm.
Lovğalığı, kobudluğu sevmirəm.
Ali hissləri, yüksək niyyəti sevirəm,
sevirəm insan təbiətində
dağlar ehtişamını:
Gəncliyin coşqun səhərini,
Qocalığın müdrik axşamını.
Kişidə kişi sifətini sevirəm,
Qadında qadın incəliyini,
Bir də ana məhəbbətini sevirəm...
Kin-küdurət yuvası
ürəkləri sevmirəm.
Qara arzu, diləkləri sevmirəm.
Kobudu, tərsi sevmirəm,
Xoşqılığı sevirəm.
Qaranlığı sevmirəm,
Aydınlığı sevirəm.
Acgözləri, hərisləri sevmirəm.
Yüksəlmək ehtirasıyla
Diz çöküb, əl açanları sevmirəm.
Alın təriylə çörək qazanıb,
gecələri rahat yata bilənləri
sevirəm.
İnsanların üzündən
Göz yaşını silənləri sevirəm.
Axşam qaranlığını sevmirəm,
Sübhü, danı sevirəm.
Dar gündə
kömək əli uzadanı sevirəm.
Çöllərin ətirli küləklərini
sevirəm.
Vətənimin zərif çiçəklərini
sevirəm.
Dağlardan duman çəkiləndə sevirəm.

Göydən yerə nur töküləndə sevirəm.
Dənizdə açıq maviliyi,
İnsanda mərifəti, biliyi,
Vətənə fayda verənləri sevirəm,
İnsanı insana qardaş bilənləri,
Ağır gündə qəmlənib
şad gündə gülənləri sevirəm.
Qızıl taxıl zəmiləri
ləpələndikcə vüqarlanıram.
Pambıq çöllərini sərvətim sanıram.
Vətənimin qüdrətini, sərvətini sevirəm.
Vətən oğullarının şücaətini,
Vətən qızlarının məharətini sevirəm.
Havası təmiz, göyləri şəffaf,
üfüqləri parlaq baharı sevirəm.
Azadlıq bayraqları vüqarla dalğalanan
diyarı sevirəm.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Bədii təsvir və ifadə vasitələrini və onların növünü müəyyənləşdirin.

| Bədii təsvir və ifadə vasitələrinə nümunələr | Bədii və ifadə vasitələrinin növü |
|---|---|
| | |

2. "Ali hisləri, yüksək niyyəti sevirəm" dedikdə şair nəyi nəzərdə tutur?

______________________________________________________________

______________________________________________________________

3. Əsərdə hansı mənəvi dəyərlər öz əksini tapmışdır? Fikrinizi əsaslandırın.

______________________________________________________________

______________________________________________________________

4. Əsərin mövzusunu, qoyulmuş problemi müəyyənləşdirin.

| Mövzu | Problem |
|---|---|
| | |

5. Şeirin lirik qəhrəmanını səciyyələndirin.

| İnsanlara münasibəti | Öz vətəninə münasibəti |
|---|---|
| | |

6. Fikrin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırın.

| Bədii təsvir və ifadə vasitələrinə nümunələr. | Fikrin təsir gücünün artırılmasında rolu |
|---|---|
| | |

7. Şərti işarələrdən istifadə etməklə misralarda fasilələrin yerini, məntiqi vurğulu sözləri göstərin.

Vətənimin qüdrətini, sərvətini sevirəm.
Vətən oğullarının şücaətini,
Vətən qızlarının məharətini sevirəm.
Havası təmiz, göyləri şəffaf,
üfüqləri parlaq baharı sevirəm.

8. Əsərdəki fikirlərə uyğun bir neçə atalar sözü yazın.

| Əsərdən nümunələr | Atalar sözləri |
|---|---|
| | |

9. Şeirdə başlıca fikir–ideya nədir?

________________________________________________________________

________________________________________________________________

10. Şeirin sizdə doğurduğu hisləri, düşüncələri qısaca yazın.

________________________________________________________________

________________________________________________________________

# MÜSTƏQİLLİK DÖVRÜ ÇOXMETODLU AZƏRBAYCAN ƏDƏBİYYATI (1991-ci ildən bu günə qədər)

*Mövzu*: **Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

## Dərsin gedişi

Ev tapşırığının *(Mövzulardan birini seçib işləyin: a) "İ.Şıxlının "Dəli Kür" romanında həyat həqiqətləri" mövzusunda məqalə yazın; b) "Cahandar ağa obrazına münasibətim" mövzusunda esse yazın*) yerinə yetirilməsi səviyyəsi bir neçə təqdimatın dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Təqdimatlarda mövzuya müstəqil münasibətin hansı səviyyədə olmasına, mülahizələrin əsaslandırılmasına xüsusi diqqət yetirilir. Müzakirə zamanı yaradıcı yazıların dil, üslub xüsusiyyətlərinə münasibət bildirilir, tövsiyələr verilir.

**Motivasiya** mərhələsində yeni mövzunun öyrənilməsinə zəmin yaratmaq məqsədilə dərslikdəki tapşırıq əsasında *(Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın. BİBÖ-dən istifadə edin)* təşkil edilən müsahibədə şagirdlərin müstəqillik dövrü ədəbiyyatımız haqqında biliklərinin aşkara çıxarılması ilə başlanılır. Xüsusən IX sinifdə bu mövzu ilə bağlı biliklərin hansı səviyyədə mənimsənildiyi müəyyənləşdirilir. Şagirdlərin müasir sənətkarlarımızın yaradıcılığı barədə hansı məlumata malik olduğu üzə çıxarılır. Cavabların ümumiləşdirilərək qeyd edilməsi üçün BİBÖ-dən istifadə edilir.

Müsahibə nəticəsində **tədqiqat sualı** müəyyənləşdirilir: *Müstəqillik dövrü ədəbiyyatımızın hansı xüsusiyyətləri onu yeni mərhələ adlandırmağa əsas verir?*

**Tədqiqatın aparılması** mərhələsində araşdırma dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların – mətnlərin oxusu ilə davam etdirilir. Kiçik qruplar dərslikdəki mətn üzrə sualların *(Müstəqillik dövrü ədəbiyyatımızın birinci mərhələsi üçün daha çox səciyyəvi olanlar nədir? Müstəqillik dövrü Azərbaycan poeziyasını səciyyələndirən əsas cəhətlər hansılardır? Müstəqillik dövrü Azərbaycan nəsri hansı özəllikləri ilə diqqəti cəlb edir? Müstəqillik dövrü ədəbiyyatında çoxmetodluluq özünü necə büruzə verir?)* aydınlaşdırılmasına istiqamət verən cavablarla tanış olurlar.

Şagirdlərin istifadəsində əlavə məlumat mənbələrinin (dərslikdə göstərilənlərdən bəziləri, ədəbiyyatşünaslıq lüğətləri, müəllimin məqsədəuyğun saydıqları və s.) olması vacibdir. Araşdırma zamanı kiçik qruplar dərslikdəki tapşırıqları *(Mətnkənarı sualların cavablarını ümumiləşdirib yazın; Oxu zamanı sizi düşündürən sualları qeyd edin; Venn diaqramından istifadə etməklə sovet dövrü və müstəqillik dövrü ədəbiyyatımızın başlıca xüsusiyyətlərini müqayisə edin)* yerinə yetirirlər.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Diskussiya zamanı müstəqillik dövrü Azərbaycan ədəbiyyatının milli ədəbiyyatın böyük örnəklərini meydana qoyması, dünya təcrübəsinə və ölkə reallıqlarına əsaslanmaqla çoxəsrlik ədəbiyyatımızı yeni mövzular, cəlbedici bədii formalar, fərqli obrazlarla daha da zənginləşdirdiyi qeyd edilir.

Müstəqillik dövrü ədəbiyyatımızın çoxmetodlu səciyyə daşıması ilə bağlı fərqli mülahizələr dinlənilir və onlara əsaslandırılmış münasibət bildirilir. Müzakirədə sərbəst fikir mübadiləsinə, söylənilən mülahizələrin diqqətlə dinlənilməsinə şərait yaradılır, hər bir tənqidi fikrin, fərqli mülahizənin əsaslandırılmasına nail olunur.

**Nəticə** və **ümumiləşdirmə** müəllimin istiqamətləndirici suallarının tətbiqi ilə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılıq yolu** – **1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının – müstəqillik dövrü ədəbiyyatımızla bağlı araşdırmanın nəticələri təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Təqdimatlarda mövzuya müstəqil münasibətin hansı səviyyədə olmasına, əsaslandırılmasına, məqalələrin müqayisəsinə xüsusi diqqət yetirilir.

**Motivasiyanın** yaradılmasında şagirdlərin mövzu ilə bağlı mövcud bilikləri aşkara çıxarılır. Bunun üçün, ilk növbədə, dərslikdəki tapşırığın *(B.Vahabzadə haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* yerinə yetirilməsinə vaxt ayrılır. Motivasiyanın digər variantı "Bəxtiyarlı dünya" filmindən bir epizoda baxış keçirilməsidir *(https://www.youtube.com/watch?v= iSwtpI4PL2I)*.

Müzakirə zamanı şagirdlər əvvəlki siniflərdə öyrəndikləri "Vətəndaş" şeiri, "İstiqlal" poeması ilə bağlı mülahizələr söyləyir, müzakirə aparırlar. Şagirdlərin fəal iştirakı ilə **tədqiqat sualı** müəyyənləşdirilir: *Bəxtiyar Vahabzadənin həyatı və yaradıcılığındakı hansı məqamlar onun istiqlal şairi kimi yetişməsinə səbəb olmuşdur?*

Dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə araşdırmaya başlanılır. Mətnin oxusunu fərqli formalarda (fərdi, cütlük şəklində) həyata keçirmək mümkündür. Şagirdlərə mətnin məzmunu ilə bağlı yaranan sualları dəftərlərində, yaxud iş vərəqində yazmaq, onlara cavab hazırlamaq, bu zaman qısa qeydlər etmək təklif olunur.

Sonrakı mərhələdə kiçik qruplar yaratmaq, hər qrupa bir sual həvalə etmək vaxta qənaət baxımından məqsədəuyğundur. Araşdırma zamanı tədqiqatçıların dərslikdə qeyd edilmiş fikirlərinə də münasibət bildirilməsinə diqqət yetirilir.

Kiçik qrupların araşdırmasına ayrılan vaxt başa çatdıqdan sonra təqdimatların **mübadiləsi** və **müzakirəsi** aparılır. Bu mərhələdə müəllimin üzərinə ciddi vəzifə düşür. O, hər sualla bağlı mənbələrdən hansı məlumatların əldə edilməsinin əhəmiyyətli olması barədə şagirdlərdə aydın təsəvvür yaratmağa çalışır. Məsələn, birinci sualla *(B.Vahabzadənin həyat yolu və yaradıcılığı hansı cəhətləri ilə diqqəti cəlb edir? )* bağlı mənbələrdən istifadə edən şagirdlər B.Vahabzadənin həyat yolundakı mühüm məqamlara toxunurlar. Müzakirədə uşaqlıq illərində Şəkidə baş verən kollektivləşmə əleyhinə xalq üsyanı, rus ordusunun igid soydaşlarımızı qətlə yetirməsi, atasının, əmilərinin həbsi onun bütün sonrakı həyatında dərin iz buraxması, sovet rejiminin mahiyyətini başa düşməsi qeyd edilir.

İkinci sual üzrə *(Şairin lirikasında hansı problemlərə önəm verilmişdir? )* müzakirə zamanı qeyd edilir ki, şairin lirik şeirlərində vətən, ana dili, azadlıq, lirik qəhrəmanın həyat, məhəbbətlə bağlı hiss və düşüncələrinin tərənnümü mühüm yer tutmuşdur. Ədibin lirik şeirlərinin qəhrəmanı öz həyat mövqeyi, mənəvi aləmi olan çağdaş insandır. Şair beynəlxalq mövzuda əsərlərində də xalqımızın azadlıq idealından söz açmışdır.

Ana dilinin təəssübkeşi, doğma dilini böyük məhəbbətlə sevən B.Vahabzadə yaradıcılığında bu mövzuya dönə-dönə müraciət etmiş, dilimizin müqəddəsliyini, əvəzedilməzliyini yüksək sənətkarlıqla vəsf etmişdir. Şair ana dilinə biganə yanaşan, bu dildə danışmağı özünə ar bilən ədabazları nankor adlandırır, öz doğma dilini qoruyub saxlamağın hər bir insan üçün vətəndaşlıq borcu olduğunu bir daha xatırladır.

Üçüncü sual üzrə *(Şairin poemalarının mövzu-problem özəllikləri hansılardır? )* müzakirədə B.Vahabzadənin istiqlal şairi, insanın, xalqın azadlığı ideyasının ən böyük tərənnümçüsü olması vurğulanır. Sovet imperiyasının xalqımıza öz qəhrəmanlıq keçmişini, tarixini unutdurmaq cəhdlərinə cavab olaraq şair məşhur “Gülüstan” poemasını qələmə almışdır. Bu mövzunun davamı kimi yazdığı “İstiqlal” poemasında artıq müstəqilliyinə qovuşmuş xalqın qələbəsindən söz açılır. Sənətkar “Şəhidlər” poeması ilə imperiya cəlladlarının silahından qorxmayan, azadlıq uğrunda canını qurban vermiş şəhidlərin ruhuna əbədi heykəl ucaltmışdır.

Dördüncü sualla *(Ədibin dramaturgiyasını mövzu-problem baxımından səciyyələndirən başlıca cəhətlər hansılardır? )* bağlı müzakirədə şagirdlərin diqqəti daha əhəmiyyətli, ən zəruri fakt və nümunələrə yönəldilməlidir. Araşdırma şagirdləri bu qənaətə gətirir ki, B.Vahabzadə dramaturgiyamızı milli özünüdərk ideyasını qabardan dram əsərləri ilə zənginləşdirmişdir. Sənətkar xalqımızın tarixinə müraciət etməklə, milli istiqlal mübarizəsində böyük rol oynamış şəxsiyyətlərin obrazlarını

yaratmaqla oxucunu öz keçmişinə yeni nəzərlərlə baxmağa, ondan ibrət dərsi almağa səsləyir. Son dövrlərin yaradıcılıq məhsulu olan, uğurla tamaşaya qoyulmuş "Özümüzü kəsən qılınc" pyesi tarixi mövzuda yazılsa da, müasir dərdlərimizlə səsləşir.

Müəllimin istiqamətləndirici sualları əsasında **nəticənin çıxarılması və ümumiləşdirmənin aparılmasına** vaxt ayrılır. Şagirdlərdə belə qənaət yaradılır ki, B.Vahabzadənin yaradıcılığında istiqlal mövzusunun aparıcı yer tutması təsadüfi deyildir. Azadlıq, milli istiqlal, müstəqil, bütöv Azərbaycan idealı şairin yaradıcılığından qırmızı xətt kimi keçir. O, xalqının azadlıq, müstəqillik arzularını öz əsərlərində yüksək sənətkarlıqla əks etdirmiş, milli azadlıq hərəkatının yetişməsində və qələbəsində böyük rol oynamışdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **B.Vahabzadə. Şəhidlər *(ixtisarla)* – 3** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. | Poemada əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının *(a. B.Vahabzadənin tarixi mövzuda yazdığı əsərlər hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir? b. Ədibin dramatik əsərlərində hansı siyasi və mənəvi problemlər qoyulub?)* yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Təqdimatların seçmə yolla dinlənilməsi və müzakirəsi zamanı şagirdlərin mənbələrdən necə bəhrələndiyinə diqqət yetirilir. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya** mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür. Dərslikdəki suallar *(Şəhid kimə deyilir? "Şəhidlik zirvəsi", "Şəhidlər ölməz" ifadələrinin mənasını necə başa düşürsünüz? Şəhidlərin nümunəsi bizə nəyi öyrədir?)* üzrə cavablar müzakirə olunur. Şagirdlərin öz cavablarında ədəbiyyat və tarix dərslərində qazanılmış biliklərdən istifadə etmələrinə diqqət yetirilir. Müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır. Motivasiya yaradılmasının bir yolu da B.Vahabzadənin sözlərinə bəstələnmiş "Şəhidlər" mahnısının *(https://www.youtube. com / watch?v =SOHGqXvHz1M)* səsləndirilməsi və yığcam müzakirəsi ola bilər.

**Tədqiqat sualı:** *Şəhidlərin qəhrəmanlığı poemada necə əks olunmuşdur?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Poemadan dərslikdə ixtisarla verilmiş birinci hissənin oxusu ilə **tədqiqata** başlanılır.

Oxunu fərqli formalarda həyata keçirmək mümkündür. Şagirdlərin şeirin oxusuna marağı nəzərə alınaraq fərdi oxunun tətbiqi məqsədəuyğundur. Oxuda tanış olmayan sözlərin mənası və məcazlar müəyyənləşdirilir.

Təcrübə göstərir ki, əsərin məzmununun mənimsədilməsi zamanı müəyyən məsələlərə münasibət bildirilməsinə, ayrı-ayrı misralarda ifadə olunan fikirlərin aydınlaşdırılmasına ehtiyac vardır.

Kiçik qruplarda əsərdən parçaların məzmunu ilə bağlı fikir mübadiləsi aparılır, aşağıdakı tövsiyələrdən bəhrələnməklə suallar və onlara cavab hazırlanır:

*a)* məzmunun necə mənimsənildiyini aşkara çıxarmağa xidmət edənlər *(Kim? Nə? Harada?)*;

*b)* əsərin məzmununu şərh etməyə istiqamətləndirənlər *(Bu əlaqələr hansılardır? Bunun baş verəcəyi gözlənilirdimi? Hansı nəticəyə gəlmək olar? )*;

*c)* dəyərləndirməyə yönəldənlər *(Nə üçün belə oldu? Başqa cür ola bilərdimi? Hansı düşüncəyə səbəb olur?)*;

*d)* münasibət bildirməyə imkan yaradanlar *(Ədalətlidirmi? Haqlı saymaq olarmı? Bu səhvi bağışlamaq mümkündürmü?)*.

Araşdırma zamanı əsərdən oxunmuş parçada hansı milli-mənəvi dəyərlərin əks olunduğu da müəyyənləşdirilir.

Tədqiqata ayrılmış vaxt bitdikdən sonra təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə təqdimatların fəal dinlənilməsinə, müzakirənin səmərəli keçməsinə nail olur. Müzakirə zamanı kiçik qrupların

aşağıdakı suallar üzrə cavablarına da münasibət bildirilməsi məqsədəuyğundur:

*a) Xalqın meydanlara çıxmasının səbəbini şair nədə görür?*

*b) Sovet Ordusunun dinc insanları qətlə yetirməsinə səbəb nə idi?*

*c) Şənbə gecəsi baş verən qırğının dəhşətləri hansı misralarda daha təsirli əks etdirilib?*

*ç) Şəhidlərin qəhrəmanlığı şairdə hansı hisslər, duyğular yaradır?*

*d) Əsərdə xalqın azadlıq əldə etməsi ilə bağlı hansı fikirlər söylənilir?*

*e) Oxuduğunuz əsər hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?*

Növbəti dərsdə əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra **nəticənin çıxarılması və ümumiləşdirmənin aparılması** həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **B.Vahabzadə. Şəhidlər** ***(ixtisarla)*** **– 3** saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir. | İfadəli oxudan poemanı emosional-obrazlı qavramaq, təhlil etmək və qiymətləndirmək məqsədilə istifadə edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Poemada əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |

## Dərsin gedişi

Ev tapşırığının *(1. Əsərin ikinci hissəsini (burada parçalar verilmişdir) nəzərdən keçirin. 2. Oxuduğunuz parçalarda ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın. 3. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın. 4. Daha maraqlı hesab etdiyiniz məcazları yazın. 5. "Eşq olsun sizə" hissəsindən kiçik bir parçanın ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin)* yerinə yetirilmə səviyyəsi müsahibə yolu

ilə aydınlaşdırılır. Şagirdlər müəllifin kədər və qürur dolu hislərini, düşüncələrini necə ifadə etdiyinə müzakirə zamanı xüsusi diqqət yetirir, müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

**Tədqiqatın aparılması** mərhələsində tapşırıqlar fərdi olaraq yerinə yetirilir:

*1. Mənasını aydınlaşdırdığınız sözlərlə bağlı işi davam etdirin. Onların mənasını, öz sözümüz və ya alınma söz olduğunu əsaslandırın.*

*2. Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?*

*3. Əsərdə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.*

4. Suallara cavab hazırlayın:

*a) Şəhidlərin matəm mərasimi əsərdə necə təsvir olunub? Bu, bildiklərinizə nə əlavə etdi?*

*b) Xalq öz igid övladlarının qəhrəmanlığına münasibətini necə ifadə edir?*

*c) Oxuduğunuz hissə hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?*

Kiçik qruplarda birləşən şagirdlər sual və tapşırıqlar üzrə qənaətlərini bölüşür, fikir mübadiləsi apararaq təqdimat hazırlayırlar. Bu, mənimsənilənlərin dəqiqləşdirilməsinə imkan yaradır.

Qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi təmin edilir. Müzakirədə daha çox şagirdin iştirakı və onun diskussiya səciyyəli olması məqsədəuyğundur. Müzakirə zamanı şagirdlərin şəhidlərin qəhrəmanlığı haqqında fikirlərini əsərdən, həyatdan gətirilən nümunələrlə əsaslandırmalarına diqqət yetirilir. Şəhid qəhrəmanlar haqqında oxunmuş əsərlərə də müraciət edilməsi faydalıdır.

**Nəticənin çıxarılması və ümumiləşdirmənin aparılması** zamanı şagirdlərdə belə bir fikir formalaşdırılır ki, xalqımız öz müstəqilliyinə şəhidlərimizin – vətənimizin ləyaqətli, igid övladlarının qanı bahasına nail olmuşdur. Şəhidlərin xatirəsini əziz tutmaq, onların qaldırdığı azadlıq bayrağını bir daha enməyə qoymamaq hamımızın müqəddəs vəzifəsidir.

Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

### *Mövzu:* **B.Vahabzadə. Şəhidlər *(ixtisarla)* – 3** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir. | İfadəli oxudan poemanı emosional-obrazlı qavramaq, təhlil etmək və qiymətləndirmək məqsədilə istifadə edir. |
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Poemadakı obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Poemanın mövzusuna, ideyasına, başlıca probleminə, dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Poemanın dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

**Dərsin gedişi**

Ev tapşırığının *(1. "Şəhidlər – Vətənin azadlığı uğrunda canından keçmiş qəhrəmanlardır" mövzusunda şifahi təqdimata hazırlaşın. 2. Poemanın "Şəhidlər"hissəsindən seçdiyiniz parçanın ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin)* yerinə yetirilmə səviyyəsi bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi yolu ilə müəyyənləşdirilir. Şagirdlərin ifadəli oxusu qiymətləndirilərkən ifaçılıq vəzifəsinin, fasilələrin yerinin, məntiqi vurğulu sözlərin, oxuda səs çalarlarının və s. necə müəyyənləşdirildiyinə diqqət yetirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya müxtəlif yollarla yaradıla bilər. Söz assosiasiyasından istifadə edib şagirdlərdə "şəhid" sözünün yaratdığı düşüncəni öyrənmək faydalıdır. Söylənilən fikirlərin yığcam müzakirəsindən sonra tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *"Şəhidlər" haqqında poemanı yazmaqda şairin başlıca niyyəti nə olmuşdur?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Dərslikdəki suallar *(Poema hansı mövzuda yazılmışdır? Şairin bu mövzuya müraciət etməsinin səbəbini necə izah edərsiniz? Poemada şəhidlərin bədii obrazı necə yaradılmışdır? Poema bədii sənətkarlıq baxımından hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir? Poemanın başlıca ideyası nədir?)* və onların araşdırılmasına istiqamət verən cavabların oxusu ilə tədqiqata başlanılır.

**Aşağıdakı qaydalara əməl etməklə mətn üzərində iş təşkil olunur:**

1. *Mətni parta yoldaşınızla birlikdə oxuyun. İlk mətnkənarı sualın cavabını biriniz ucadan oxuyun. Bu parça ilə bağlı bir neçə açar sözü, yaxud termini ikilikdə müəyyənləşdirib yazın. Hansınız mətni oxumamışsınızsa, həmin açar sözlərdən, yaxud terminlərdən istifadə ilə bir neçə sual hazırlayın.*
2. *Mətni hansınız ucadan oxumusunuzsa, onu bir daha nəzərdən keçirib suallara cavab verin. İkinci şagird – dinləyən cavabla razılaşarsa, onu qeyd edir.*
3. *Növbəti mətnkənarı sualın cavabı oxunarkən rollarınızı dəyişin. Mətn oxunandan sonra onunla bağlı açar söz, yaxud terminləri hər ikiniz müəyyənləşdirin. Mətni hansınız oxumamışsınızsa, həmin söz, yaxud terminlərdən istifadə ilə suallar hazırlayıb cavablandırmağı yoldaşınıza təklif edin. Cavabları təsdiq edirsinizsə, onları qeyd edin.*
4. *Mətn bu qayda ilə sona kimi oxunduqdan sonra hazırlanmış suallar və onların cavabları ilə bağlı bütün siniflə fikir mübadiləsi və müzakirə aparın.*

Tədqiqatçıların dərslikdə verilmiş fikirlərinə də təqdimatlarda münasibət bildirilməsi tövsiyə edilir.

Tədqiqata ayrılmış vaxt bitdikdən sonra **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların müzakirəsi zamanı qeyd edilir ki, poema dağılmaqda olan imperiyanın əli ilə bütün dünyanın gözü qarşısında baş vermiş böyük bir faciənin poetik əks-sədasıdır. Əsrlər boyu xalqımızın başına gətirilmiş faciələrin davamı 1990-cı ilin qanlı yanvarında günahsız insanların qırğını olmuşdur. Lakin xalqın Qarabağı işğal etmək istəyən Ermənistana etirazını, azadlıq, müstəqillik tələbini tankların, avtomatların gücü ilə susdurmaq istəyi baş tutmadı. Bakının küçə və meydanlarında soyqırımına məruz qalmış, qanına qəltan edilmiş şəhidlərimizin yerini yüz minlərlə qeyrətli vətən övladı tutdu. Qanlı yanvar günlərində insanlar işə çıxmayaraq, şəhidlərimizin dəfn mərasimini keçirdi.

**Nəticə və ümumiləşdirmə mərhələsində** şagirdlərin fəal iştirakı ilə əsərin təhlili üzrə aparılan işlər yekunlaşdırılır. Söylənilən mülahizələr

ümumiləşdirilərək belə bir nəticə çıxarılır ki, şair şəhidlərin misilsiz qəhrəmanlığını xalqımızın azadlıq, müstəqillik uğrunda apardığı tarixi mübarizənin məntiqi davamı kimi görür. Əsərdə şəhidlik Vətən naminə qəhrəmanlığın zirvəsi kimi dəyərləndirilir. Şair şəhidlərin xatirəsinin əbədi yaşayacağını, qədirbilən xalqımızın onları heç zaman unutmayacağını poetik bir dillə bəyan edir.

*Aparılan işlər yekunlaşdırıldıqdan sonra qiymətləndirmə həyata keçirilir.*

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## DÜNYA ƏDƏBİYYATINDAN SEÇMƏ

*Mövzu:* **Çingiz Aytmatovun həyatı, yaradıcılıq yolu – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

### Dərsin gedişi

Ev tapşırığının *(1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. 2. Mövzulardan birini seçib yığcam məqalə yazın: a) B.Vahabzadənin yaradıcılığında ana dili mövzusu; b) B.Vahabzadənin əsərlərində xalqımızın azadlıq mübarizəsinin bədii əksi)* yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Mənbələrdən əldə olunmuş məlumatların məzmunu, dərslikdəki materiallarla necə

səsləşməsi diqqət mərkəzində saxlanılır. Seçmə yolla dinlənilən məqalələrdə mövzuya müstəqil münasibətin hansı səviyyədə olması, fikirlərin necə əsaslandırılması ön plana çəkilir.

**Motivasiya** yaratmaq məqsədilə şagirdlərin mövzu ilə bağlı mövcud bilikləri aşkara çıxarılır. Bunun üçün, ilk növbədə, dərslikdəki tapşırığın *(Ç.Aytmatovun yaradıcılığı haqqında nə bilirsiniz? Bu barədə bildiklərinizi xatırlayın, yığcam müzakirə aparın)* yerinə yetirilməsinə vaxt ayrılır. BİBÖ üzrə cədvəl çəkilir. Müsahibə əsasında "Bilirik" və "Bilmək istəyirik" sütunlarında müvafiq qeydlər aparılır.

Motivasiyanın digər variantı "Türk dünyasından izlər: Cingiz Aytmatov" videoyazısından bir epizoda *(https://www.youtube.com/watch?v=0WxmxAf21os)* baxış keçirilməsidir.

Şagirdlərin Ç.Aytmatovun VII sinifdə öyrəndikləri "Manqurt" əsəri *("Gün var əsrə bərabər" romanından parça)* ilə bağlı mülahizələri dinlənilir və yığcam müzakirə edilir.

Müzakirə nəticəsində **tədqiqat sualı** müəyyənləşdirilir: *Ç.Aytmatovun həyat və yaradıcılığındakı hansı məqamlar onun dünya şöhrətli sənətkara çevrilməsinə zəmin yaratmışdır?*

Tədqiqata dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə başlanılır. Kiçik qruplara mətnkənarı suallarla bağlı cavabları oxumaq, məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazmaq, digər qruplara vermək üçün sual müəyyənləşdirmək tapşırığı verilir. Eləcə də şagirdlərə tədqiqatçıların dərslikdə verilmiş fikirlərinə münasibət bildirmələri tövsiyə olunur.

Araşdırmaya ayrılan vaxt başa çatdıqdan sonra **fikir mübadiləsi** və **müzakirə** aparılır. Məsələn, birinci sualla (*Yazıçının həyat yolu üçün səciyyəvi olan cəhətlər hansılardır?*) bağlı mənbələrdən istifadə edən şagirdlər müzakirədə Ç.Aytmatovun zəmanəmizin görkəmli yazıçılarından biri olduğunu, öz yaradıcılığında müasir insanı düşündürən həyati problemləri, milli və ümumbəşəri mənəvi dəyərləri əks etdirdiyini əsaslandırmağa çalışırlar. Ədibin uşaqlıq illərindən doğma ana dili ilə yanaşı, rus dilini dərindən bilməsi, bədii ədəbiyyatı geniş mütaliə etməsi barədə fikirlər də qoyulmuş sualın cavabının aydınlaşdırılmasına imkan yaradır.

İkinci sualla bağlı təqdimatlarda *(Yazıçının nəsr əsərlərində diqqəti daha çox hansı problemlər çəkir?)* qeyd edilir ki, qırğız xalqının həyatı, mədəniyyəti və mübarizəsini əks etdirən "Manas" eposunun motivləri yazıçının nəsr əsərlərində özünü qabarıq göstərir. Ç.Aytmatovun nəsr əsərləri müəllifin həyat, insan taleyi haqqında düşüncələri, yeni ideyalarla zəngindir. "Qırmızı yaylıqlı qovağım mənim", "Köşək gözü", "İlk müəllim" povestlərinin mərkəzində insanları düşündürən həyati

problemlər, insanın mənəvi aləmi, həyat mövqeyi, tale yollarının mürəkkəbliyi və çətinliyi durur. Fəlsəfi mahiyyətli "Gün var əsrə bərabər", "Qiyamət" romanlarında sovet cəmiyyətindəki nöqsanlardan, mənəvi problemlərdən söz açılmışdır.

Üçüncü sualla *(Yazıçının əsərlərinin qəhrəmanları hansı xüsusiyyətləri ilə seçilir?)* yazıçı povest və romanlarında qəhrəmanların işini, əməyə münasibətini göstərməklə məhdudlaşmır, onların hiss-həyəcanlarını, mənəvi aləmini, həyatını, xarakterdəki incəlikləri inandırıcı və təbii şəkildə açıqlayır. Bu qəhrəmanlar mürəkkəb həyati konfliktlərdən keçir, milli olduğu qədər də ümumbəşəri səciyyə daşıyır.

Müəllimin istiqamətləndirici sualları əsasında ilkin **nəticənin çıxarılması və ümumiləşdirmənin aparılmasına** vaxt ayrılır. BİBÖ cədvəlinin "Öyrəndik" sütununda qeydlər aparılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Ç.Aytmatov. Gün var əsrə bərabər *(ixtisarla)* – 3** saat
*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Mətni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Romanda əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |

## Dərsin gedişi

Ev tapşırığının *(1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. 2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın: a) Ç. Aytmatovun nəsr əsərlərində hansı mənəvi dəyərlər öz əksini tapıb? b)Yazıçının romanlarında çağdaş dövrün hansı problemlərinə*

*diqqət yetirilmişdir?)* yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Təqdimatların seçmə yolla dinlənilməsi və müzakirəsi daha məqsədəuyğundur. Bütün hallarda şagirdlərin mənbələrdən necə bəhrələndiklərinə diqqət yetirilir. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür. *"Keçmişinə daş atanı gələcək topa tutacaq"* aforizmindən, *"Manqurt kimə deyilir?", "İnsanın manqurt edilməsində məqsəd nə olur?", "İnsan manqurta çevrilməmək üçün nə etməlidir?"* suallarından istifadə yolu ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim şagirdlərə öz fikirlərini söyləməyi təklif edir.

Motivasiya yaradılmasının bir yolu da "Manqurt" filmindən *(https://www.youtube.com/watch?v=texnkLqTzEk)* bir epizodun nümayiş etdirilməsi və müzakirəsi ola bilər.

Müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *İnsanın "yaddaşsızlığı", öz keçmişini unutması hansı sonluqla nəticələnə bilər?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqat** mərhələsində şagirdlər əsərdən verilmiş parçanı nəzərdən keçirir, aşağıdakı tapşırıqları fərdi olaraq yerinə yetirirlər:

*a) Tanış olmayan sözləri seçin və onların mənasını lüğətlərdən aydınlaşdırın.*

*b) Seçdiyiniz məcazların növünü dəqiqləşdirin.*

*c) Oxuduğunuz hissədə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.*

*ç) Suallara cavab hazırlayın.*

*d) Yedigeyin və Ukubalanın Qazanqapın ölümü ilə bağlı düşüncələri onların mənəvi aləmi haqqında hansı fikirləri söyləməyə əsas verir?*

*e) Əsərdə Nayman-Ana əfsanəsi haqqında nə deyilir?*

*ə) Ana-Beyit qəbiristanlığının tikanlı məftillərə alınması insanlarda hansı hislər doğurur?*

*f) Oxuduğunuz parçalar hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?*

*g) Əsərdən bitkin bir parça seçin, hissələrə ayırın, plan tərtib edin, məzmununu yığcam nağıletməyə hazırlaşın.*

Tədqiqata ayrılmış vaxt bitdikdən sonra təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə təqdimatların fəal dinlənilməsinə, müzakirənin səmərəli keçməsinə nail olur.

Növbəti dərsdə əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Ç.Aytmatov. Gün var əsrə bərabər** (ixtisarla) – **3** saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | Mətni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Romanda əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi yığcam müsahibə ilə aşkara çıxarılır. Romandan ixtisarla verilmiş parçaların məzmununun hansı səviyyədə qavranıldığı, tanış olmayan sözlərin, məcazların necə müəyyənləşdirildiyi aydınlaşdırılır.

Şagirdlər dərslikdə təklif olunmuş tapşırığı fərdi olaraq yerinə yetirirlər:

*1. Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.*

*2. Seçdiyiniz məcazları daha maraqlı hesab etməyinizə səbəb nədir?*

*3. Suallara cavab hazırlayın:*

*a) Yedigey Qazanqapın nə üçün Sarı-Özək çölündə dəfn olunmasını istəyirdi?*

*b) Yedigey nə üçün Sabitcanı manqurt adlandırır?*

*c) Oxuduğunuz parçalar hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?*

*4. Oxuduğunuz parçalardan birini hissələrə ayırın, hər hissəyə ad verməklə birinin məzmununa aid plan tərtib edin. Onun məzmununu plan əsasında yığcam nağıletməyə hazırlaşın.*

Qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi təmin edilir. Müzakirədə daha çox şagirdin iştirakına və onun diskussiya səciyyəli olmasına diqqət yetirilir.

**Nəticənin çıxarılması və ümumiləşdirmənin aparılmasında** müəllim istiqamətləndirici suallardan istifadə edir. Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

Müzakirə nəticəsində şagirdlərdə belə bir qənaət yaradılır ki, yazıçı sadə bir insanın, namuslu həyat sürmüş Qazanqapın dəfn mərasimi ilə bağlı qarşıya çıxan çətinliklərdən danışarkən cəmiyyətin sağlam olmadığını, əsrlərdən bəri qorunub gələn adət-ənənələrin unudulduğunu, mənəvi dəyərlərə sayğısızlıq göstərildiyini üzə çıxarır. Yazıçı cəmiyyətin mənəvi problemlərini, bəlalarını bir dəmiryolçunun vəfat etdiyi kiçik stansiyada və Ana-Beyit qəbiristanlığında baş verən hadisələr fonunda açıb göstərmişdir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Ç.Aytmatov. Gün var əsrə bərabər *(ixtisarla)* – 3** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir. | İfadəli oxudan romanı emosional-obrazlı qavramaq, təhlil etmək və qiymətləndirmək məqsədilə istifadə edir. |
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Romandakı obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Romanın mövzusuna, ideyasına, başlıca probleminə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır . | Romanın dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsini müsahibə və ya bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi yolu ilə aydınlaşdırmaq, real vəziyyəti müəyyənləşdirmək olar. Hər iki halda əsərin bütövlükdə oxusu və "Manqurt" əfsanəsinin məzmununun geniş nağıl edilməsi ilə bağlı tapşırığın necə yerinə yetirildiyinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılır.

Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya suallardan istifadə ilə yaradıla bilər. Şagirdlərə çağdaş həyatımızda kimə manqurt deyildiyini müəyyənləşdirməyi təklif edən müəllim yığcam müsahibənin sonunda tədqiqat sualını formalaşdırır.

**Tədqiqat sualı:** *Cəmiyyətdəki manqurtluqdan söz açmaqda yazıçının başlıca niyyəti nədir?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Dərslikdəki suallar *(Əsər hansı mövzuda yazılmışdır? Romanda hansı problemlər qoyulmuşdur? Boranlı Yedigey obrazını səciyyələndirən*

*başlıca cəhətlər hansılardır? Bu obraz vasitəsilə hansı milli mənəvi dəyərlər ön plana çəkilmişdir? Romanda tarixi yaddaşsızlığı – manqurtluğu hansı obrazlar təmsil edir? Romanın başlıca ideyası nədir?)* və onların araşdırılmasına istiqamət verən cavabların oxusu ilə tədqiqata başlanılır. Həcmi böyük olmayan mətnin fərdi və ya cütlük şəklində oxusunu təşkil etmək məqsədəuyğundur. Romandan oxunmuş parçaların məzmunu üzrə qazanılmış biliklər əsərin mövzusu, ideyası barədə müzakirə aparmağa, fikir yürütməyə imkan verir.

Romanın sonundakı parçanın *("Elə bu vaxt havaya nəsə oldu, getdikcə güclənən vulkan gurultusuyla boşluqda nəsə hərəkətə gəldi" cümləsindən axıradək)* ifadəli oxusu üzrə iş təşkil edilir. Şagirdlərin şərti işarələrdən istifadə etməsi diqqətdə saxlanılır.

Şagirdlər kiçik qruplarda fikir mübadiləsi aparır, öyrəndiklərini dəqiqləşdirirlər. Tədqiqata ayrılmış vaxt bitdikdən sonra təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müəllim təqdimatların fəal dinlənilməsinə, müzakirənin diskussiya səciyyəli olmasına xüsusi diqqət yetirir.

Təqdimatların müzakirəsi zamanı qeyd edilir ki, sovet dövründə cəmiyyətdə dərin kök salmış ciddi mənəvi problemlər yazıçını düşündürmüş, "Gün var əsrə bərabər" romanının yazılmasına səbəb olmuşdur. Yazıçı manqurtluğu, tarixi yaddaşsızlığı cəmiyyəti sarmış problem kimi görür və onun həlli yollarını göstərir.

Ana-Beyit qəbiristanlığının kosmosa uçuş meydanı olması, xalqın öz ölülərini müqəddəs sayılan bu yerdə dəfn edə bilməməsinin təsviri ilə yazıçı oxucunun diqqətini kosmos əsrinin gətirdiyi bəlalara, qlobal problemlərə yönəldir.

Əsərdəki Yedigey obrazı xarakterinin bütövlüyü, möhkəmliyi, mənəvi yüksəkliyi ilə diqqəti cəlb edir. Adi bir dəmiryolçu olan Yedigey xalqın ən yaxşı mənəvi keyfiyyətlərini özündə cəmləşdirmişdir. O, cəmiyyətdəki ədalətsizlikləri, insan taleyinə laqeyd münasibəti böyük bəla sayır, bunların səbəbləri barədə düşünür. Əsərdə bir günün hadisələri təsvir olunsa da, yazıçı qəhrəmanın – Boranlı Yedigeyin bütün həyatını onun tarixi yaddaşa, keçmişə qayıdışı, xatirələr, düşüncələri vasitəsilə dramatik, hadisələrlə zəngin bir günə sığışdıra bilmişdir. Romanın "Gün var əsrə bərabər" adlandırılması da məhz bununla əlaqədardır.

**Nəticə və ümumiləşdirmə** mərhələsində qazanılmış bilik və bacarıqlar əsasında tədqiqat sualı üzrə araşdırma və müzakirələr yekunlaşdırılır. Müzakirədə belə bir nəticə çıxarılır ki, yazıçı sovet cəmiyyətində xalqın milli mənlik şüurundan məhrum edilməsinə, tarixi yaddaşsızlığa qarşı çıxmış, Boranlı Yedigey obrazı vasitəsilə müasir manqurtlara nifrətini ifadə etmişdir.

Aparılan işlər yekunlaşdırıldıqdan sonra qiymətləndirmə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 31–38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Xəlil Rza Ulutürkün "Ağ çələngli Azərbaycan" şeiri üzrə aparıla bilər.*

### Ağ çələngli Azərbaycan

*(ixtisarla)*

Bu bir qədim əfsanədir: əsir düşən bir cavanı
Qara zindan, zülmətxana lapdan çəkir öz kamına.
Əli qanlı, gözü qanlı, ağzı qanlı neçə cani
Məhkəmədə qərar verir, qol çəkilir edamına.

– Son məqamda əhdin nədir? – soruşurlar o cavandan.
– Anam gəlsin, anam! – deyir, – görməliyəm mən anamı.
Ana gəlir, işıqlanır birdən-birə qara zindan,
Övladına bəxş eləyir süddən gələn bir inamı.

Deyir: – Qəbul edəsidir şəxsən məni kral özü.
Çağırtdırıb özü, oğlum, bəlkə müjdə verəsidir.
Aman-zaman tək balamsan, varım-yoxum, canım-gözüm,
Səni mənə bağışlasın, bu olacaq bircə sözüm.

Edam günü ağ geyinsəm, gəlib dursam ağ eyvanda,
Bil ki, sənə zaval yoxdu, ölüm yoxdu bu cahanda
Boğazına sabunlanmış kəndir-ilgək salınsa da,
İnan, tilsim qırılacaq əvvəl-axır, lap son anda.

Qara geysəm, demək, kral rədd eləmiş diləkçəmi,
Demək, qanlı fələk özü bəxtimizi qara yazmış.
Gəlib çatır edam günü zəhərlənmiş qılınc kimi,
Min-min yolçu qabağında bircə nəfər o "yolazmış".

Göz yetirir: ana durmuş ağ geyimdə, ağ eyvanda,
Başında ağ çələngi var, görkəmində bir əzəmət.
Anlayır ki, daha ona ölüm yoxdur bu cahanda,
Varlığına qüvvət axır, yerdən-göydən gələn qüvvət.

Gözlərinə görünmür heç neçə-neçə qansız fərraş,
Sabunlu ip, ilan təki omba durmuş dar ağacı.
Azad ruhu al günəşdə addımlayır yavaş-yavaş,
Buluddamı məğrur başı, qızıl quşmu qızıl saçı?

Bu əfsanə, bu həqiqət görün harda düşdü yada?
Moskvada, alatoran, kəmnəfəs bir kamerada.
Həmən cavan mən özüməm, amma, heyif, anam yoxdur.
Doğma xalqım, anam sənsən, atam sənsən bu dünyada.

Mən onsuz da əbədiyəm, cahangirlər gəldi-gedər;
Bir gün edam meydanında başım getsə, versəm də can,
Sən yadların qarşısında heç bir zaman qara geymə,
Ey ağ donlu anam mənim, ağ çələngli Azərbaycan!

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın, alınma, yaxud öz sözlərimiz olduğunu əsaslandırın.

________________________________________________________________
________________________________________________________________
________________________________________________________________

2. Bədii təsvir və ifadə vasitələrinin növünü müəyyənləşdirib cədvəldə qeyd edin.

| Bədii təsvir və ifadə vasitələrinə nümunələr | Bədii təsvir və ifadə vasitələrinin növü |
|---|---|
| | |

3. Əsərdə hansı mənəvi dəyərlər öz əksini tapmışdır? Fikrinizi əsaslandırın.

________________________________________________________________
________________________________________________________________
________________________________________________________________

4. Əsərin mövzusunu, qoyulmuş problemi müəyyənləşdirin.

| Mövzu | Problem |
|---|---|
| | |

5. Şeirdəki ana, oğul, şair obrazlarını səciyyələndirin.

| Obrazlar | Xarakteri | Azadlıq arzuları | Vətəninə münasibəti |
|---|---|---|---|
| Ana | | | |
| Oğul | | | |
| Həbsdə olan şair | | | |

6. “Ağ çələngli Azərbaycan” dedikdə şair nəyi nəzərdə tutur?

________________________________________________________________
________________________________________________________________
________________________________________________________________

7. Fikrin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırın.

| Bədii təsvir və ifadə vasitələrinə nümunələr | Fikrin təsir gücünün artırılmasında rolu |
|---|---|
| | |

8. Şərti işarələrdən istifadə etməklə misralarda fasilələrin yerini, məntiqi vurğulu sözləri göstərin.

Mən onsuz da əbədiyəm, cahangirlər gəldi-gedər;
Bir gün edam meydanında başım getsə, versəm də can,
Sən yadların qarşısında heç bir zaman qara geymə,
Ey ağ donlu anam mənim, ağ çələngli Azərbaycan!

9. Şeirdə başlıca fikir – ideya nədir?

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

10. Şeirin sizdə yaratdığı hiss və düşüncələri qısaca yazın.

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

## GÜNDƏLİK PLANLAŞDIRMAYA AİD NÜMUNƏ

*Mövzu:* **Hüseyn Cavidin həyatı, yaradıcılıq yolu – 1** saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |
| **3.1.3.** 3,5-4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | Təhlil xarakterli məqalə, məruzə yazır. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması:** fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, BİBÖ, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d.1.2.2. X.d. 2.1.2. Az.tar. 5.1.1.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, "Cavid ömrü" sənədli filminin videoyazısı, şairin həyat və yaradıcılığı ilə bağlı kitablar.

### Dərsin gedişi

Ev tapşırığının *("Sabir satiralarının tənqid hədəfləri" mövzusunda yığcam məqalə yazın. "Sabirin yaradıcılığında qadın əsarətinin tənqidi" mövzusunda məruzə mətni hazırlayın)* yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Məqalə və məruzə mətni ilə bağlı təqdimatlarda mövzuya müstəqil münasibətin hansı səviyyədə olmasına, əsaslandırılmasına xüsusi diqqət yetirilir. Eyni zamanda mətnlərin dil, üslub xüsusiyyətləri baxımından nə dərəcədə uğurlu olması ön plana çəkilir.

**Motivasiya** yaradılarkən şagirdlərin mövzu ilə bağlı mövcud bilikləri aşkara çıxarılır. Bunun üçün, ilk növbədə, dərslikdəki tapşırığın *(H.Cavidin həyatı, yaradıcılığı və yaşadığı dövrlə bağlı nə bilirsiniz?*

*Ədəbiyyat, tarix, coğrafiya dərslərində qazandığınız bilikləri xatırlayın, yığcam müzakirə aparın)* yerinə yetirilməsinə vaxt ayrılır.

BİBÖ üzrə cədvəl çəkilir. Müsahibə əsasında "Bilirik" və "Bilmək istəyirik" sütunlarında müvafiq qeydlər aparılır.

Motivasiyanın digər variantı "Cavid ömrü" filmindən bir epizoda baxış keçirilməsidir *(https://www.youtube.com/watch?v=fgge 3Oi7yGk).*

Müzakirə zamanı şagirdlər H.Cavidin V sinifdə oxuduqları "Qız məktəbində" şeiri, IX sinifdə öyrəndikləri "Ana" mənzum dramı ilə bağlı mülahizələr söyləyir, müzakirə aparırlar.

Şagirdlərin fəal iştirakı ilə **tədqiqat sualı** müəyyənləşdirilir:

*– Hüseyn Cavidin həyatı, yaradıcılığı üçün daha önəmli olanlar hansılardır?*

**Tədqiqatın aparılmasının** ilk mərhələsində dərslikdəki mətnin oxusu həyata keçirilir. Mətndə H.Cavidin həyatı, yaradıcılığı üçün daha səciyyəvi olanların aydınlaşdırılmasına istiqamət verilmişdir. Şairin həyatı ilə bağlı elm aləminə məlum olan ən mühüm mətləblərə yığcam toxunulmuş, geniş araşdırma aparılmasının vacibliyi barədə şagirdlərdə təsəvvür yaradılmışdır.

Həcmi kiçik olan mətnin fərdi olaraq oxunması məqsədəuyğundur. Şairin sadə, təvazökar həyat yaşaması, dini idarədə xidmət etməsi, müasirlərinin onu bir insan, alim, sənətkar kimi yüksək dəyərləndirməsi, zəmanəsinin eyiblərinə obyektiv, ədalətli münasibət bildirməsi və s. barədə deyilənlər şagirdlərdə güclü maraq yaradır, onları araşdırmaya sövq edir.

Dərsdə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı əsasında H.Cavidin məktəb və rayon kitabxanalarına verilmiş 5 cildlik əsərləri nümayiş etdirilir. Şagirdlərə həmin kitablardan əlavə mənbə kimi necə istifadə edəcəkləri ilə bağlı tövsiyələr verilir.

Dərslikdəki mətnkənarı sualların *(Yazıçının həyat və yaradıcılığında İstanbul, Tiflis və Naxçıvan ədəbi mühitlərinin hansı rolu olmuşdur? Hüseyn Cavidin sovet dövründəki fəaliyyəti hansı cəhətləri ilə səciyyələnir? Sənətkarın poeziyasını səciyyələndirən başlıca xüsusiyyətlər hansılardır? Sənətkarın poeziyası hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir? Sənətkarın dramatik əsərlərinin mövzu, problem, konflikt özəlliyi hansılardır?)* və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə araşdırmaya başlanılır. Mətnin oxusunu fərqli formalarda (fərdi, cütlük şəklində) həyata keçirmək mümkündür. Kiçik qruplar yaratmaq, hər qrupa bir sual həvalə etmək vaxta qənaət baxımından məqsədəuyğundur. Kiçik qruplara təqdimat zamanı tədqiqatçıların aşağıdakı fikirlərinə də münasibət bildirmək, mülahizələrini əsaslandırmaq təklif edilir:

*a) Hüseyn Cavidin bütün yaradıcılığı ümumbəşəri məsələlərə həsr edilmişdir. O, məişət təsvirçisi deyil, o, filosof şairdir. (Əziz Şərif)*

*b) Hüseyn Cavidin həyatın mənasını, insanın mənəvi-ruhi aləmini daim pak və gözəl görməyi arzulaması, qüdrətli insan idealının real*

*aləmdəki fənalıqlara qələbə çalacağına bəslədiyi tükənməz inamını ifadə edir. (Məsud Əlioğlu)*

Kiçik qruplarda aparılan fikir mübadiləsi cavabların dəqiqləşdirilməsinə, zənginləşdirilməsinə, əhatəli təqdimatların hazırlanmasına səbəb olur. Araşdırmaya ayrılan vaxt başa çatdıqdan sonra **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Bu mərhələdə müəllimin üzərinə ciddi vəzifə düşür; o hər sualla bağlı mənbələrdən hansı məlumatların əldə edilməsinin əhəmiyyətli olması barədə şagirdlərdə aydın təsəvvür yaratmağa çalışır. Məsələn, birinci sualla (*Ədibin həyat və yaradıcılığında İstanbul, Tiflis və Naxçıvan ədəbi mühitlərinin hansı rolu olmuşdur?*) bağlı mənbələrdən istifadə edən şagirdlər H.Cavidin bir şəxsiyyət, sənətkar kimi formalaşmasında üç fərqli mühitin əhəmiyyətini qeyd edirlər. Bu məsələ ilə əlaqədar tarix və coğrafiya fənlərinə müraciət edilərək ədibin yaşayıb-yaratdığı dövr, ölkələr və şəhərlər haqqında şagirdlərin bilikləri xatırladılır.

Aydınlaşdırılır ki, ayrı-ayrı ədəbi mühitlər ədibin mürəkkəb həyat hadisələrinə özünəməxsus baxışın formalaşmasına, çoxcəhətli yaradıcılığına, süni tələblərlə yox, öz qəlbinin səsinə qulaq asan filosof sənətkar kimi yetişməsinə öz töhfəsini vermişdi. Müzakirə zamanı qeyd edilir ki, görkəmli şair, dramaturq Hüseyn Cavid Rasizadə Naxçıvanda ruhani ailəsində anadan olmuşdur. O, ibtidai təhsilini mollaxanada almış, burada klassik Şərq şeirinin görkəmli nümayəndələrinin – Sədinin, Hafizin əsərləri ilə tanış olmuş, şeirə, sənətə həvəs göstərmişdir. Mollaxana təhsili ilə kifayətlənməyən Hüseyn yeni tipli təhsil ocağı olan «Məktəbi - tərbiyə»də təhsil almışdır. Bu məktəbdə təhsil aldığı illərdə Hüseyn Cavidin bədii istedadı üzə çıxmış, o, "Gülçin" təxəllüsü ilə Azərbaycan və fars dillərində şeirlər yazmağa başlamışdır. H.Cavid müalicə üçün Cənubi Azərbaycana, Təbrizə getmiş, orada təhsil almış, sonra İstanbulda universitetin ədəbiyyat fakültəsində oxumuş, doğma yurda döndükdən sonra Naxçıvanda, Tiflisdə, Bakıda müəllimlik etmişdir.

Mənbələr üzrə araşdırmalar zamanı əldə edilən məlumatlardan aydın olur ki, H.Cavidin müəllim kimi fəaliyyəti də ibrətamizdir. Cavidin şagirdi olmuş tanınmış maarif xadimi Lətif Hüseynzadə yazır: "H.Cavid ensiklopedik biliyə malik idi. O, dilimizin, ədəbiyyatımızın qədimliyindən, zənginliyindən, şifahi xalq yaradıcılığımızın gözəlliyindən, rəngarəngliyindən hərarətlə bəhs edərdi. Ədəbiyyat dərslərində M.Ə.Sabirdən böyük hörmət və məhəbbətlə danışardı. H.Cavid: "Sabir Qafqazda misli-bərabəri olmayan böyük şairdir. O, qaranlıqları işıqlandıran bir günəşdir", – deyə onun şeirlərindən nümunələr oxuyardı. C.Məmədquluzadəni "Böyük ədib» adlandırıb onun "Ölülər" əsərindən danışarkən "Ölülər"dəki hər bir gülüş bir faciədir" deyərdi. Şair A.Şaiqi çox sevərdi. Onun şeirlərini əzbərdən söylər və təhlil edərdi".

Mənbələrlə iş zamanı şagirdlər məşhur aktyor, rejissor Mehdi Məmmədovun böyük sənətkar haqqında xatirələrinə diqqət yetirirlər: "Mən Hüseyn Cavidi onun şöhrətinin gur şölə saçdığı günlərdə ilk dəfə dərs otaqlarında gördüm. Gördüm, amma gözlərimə inanmadım. Çünki mənim təsəvvürümdəki Cavidlə, əsərlərini oxuya-oxuya xəyalımda nəhəng surətini yaratdığım o qiyabi şəxsiyyətlə indi burada gördüyüm

gerçək şəxsiyyət arasında kəskin təzad vardı. Təsəvvürümdəki qeyri-adi, heç kəsə bənzəməyən ecazkar sənətkar, gerçəklikdə gördüyüm isə heç kəsdən seçilməyən adi bir şəxs idi. Nə mən, nə də tələbə yoldaşlarım onun görkəmində, geyimində, davranışında, rəftarında başqalarından, o biri müəllimlərdən fərqli bir əlamət görmədik.

Onu adiləşdirən, sadələşdirən bir də onun danışıq tərzi idi. Əsərlərindəki yüksək poeziyaya, nadir lirika və incə şeiriyyətə, axıcı misralara, gözəl və gözlənilməz qafiyələrə, mürəkkəb, bəzən də qəliz ifadələrə alışanlar elə bil həyatda, məişətdə onun mürəkkəb bir dillə, yaxud şeirlə, nəzmlə danışacağını gözləyirdilər. Amma o, sadə, adi bir tərzdə, hamının danışdığı və başa düşdüyü dildə danışırdı. Mən onun tanınmış ədiblər haqqında şirin, maraqlı söhbətlərini yaxşı xatırlayıram. Biz Cavid müəllimi şən, şux, həlim təbiətli, ciddi mövzuda danışdığı zaman belə yeri gəldikcə lətifədən, zarafatdan, yumordan çəkinməyən xoşxasiyyət bir müəllim kimi tanıdıq. Tanıdıqca ona alışdıq, gündən-günə daha çox sevdik.

O, həyatda, məişətdə, iclasda, məclisdə son dərəcə təvazökar və iddiasız dolanardı. Bir dəfə mən bir iş üçün evə, onun yanına getdim. İçəri girəndə onu dərin xəyala dalmış, yarı uzanmış vəziyyətdə yazan gördüm. Otağa nəzər saldım, heyrətləndim. O, çox sadə və kasıb şəraitdə yaşayırdı.

Hüseyn Cavid bizim üçün qiymətlidir, əzizdir. Çünki o, insan və həyat haqqında ürək ağrısı, can yanğısı ilə danışmışdır. Bəşəriyyətin işıqlı gələcəyinə ümid və inam bəsləmişdir. Xatirələrim yenidən mənə xatırladır və təsdiq edir ki, Cavid acı fəryadlar, şirin arzular, böyük diləklər, böyük ümidlər şairidir".

Şagirdlərdə belə bir qənaət yaranır ki, H.Cavidin yaradıcılığı xəlqi, bəşəri və milli səciyyə daşıyır, əhatə etdiyi mövzular, problemlər baxımından geniş və rəngarəngdir. O öz əsərlərində xalqın maariflənməsi, müasirləşməsi yolunda maneəyə çevrilən mürtəce qüvvələrə qarşı çıxır, bərabərliyi, sülhü, qadın azadlığını, millətlərin qardaşlığını tərənnüm edirdi. Şair yaradıcılığında öz əsrinin qabaqcıl ideyalarını əks etdirir, ilk növbədə, bəşərin fəlakətinə ədalətsiz ictimai quruluşun səbəb olması fikrini irəli sürürdü.

İkinci sualın *(Hüseyn Cavid sovet dövründəki fəaliyyəti hansı cəhətləri ilə səciyyələnir?)* cavabını da şagirdlər mənbələrdən istifadə yolu ilə zənginləşdirir, tamamlayırlar. Mənbələrdən istifadə şagirdlərdə bu qənaəti yaratmalıdır ki, şair sovet dövründə öz yaradıcılıq amalına, qəlbinin səsinə sadiq qalmış, sovet hakimiyyətini tərənnüm edən əsərlər yazmamışdır. Bütün bunlara görə hakimiyyətin mətbuat orqanlarında, xüsusi təşkil olunmuş yığıncaqlarda H.Cavidə qarşı burjua yazıçısı, idealist qəhrəmanlar yaradan sənətkar kimi qondarma ittihamlar irəli sürülmüş, nəhayət, o, xalq düşməni kimi repressiyaya məruz qalmışdır. Bütün bunlara baxmayaraq, həmin dövrdə ədib ədəbiyyatımızı yeni əsərlərlə zənginləşdirmişdir.

Üçüncü sual üzrə *(Sənətkarın poeziyasını səciyyələndirən başlıca xüsusiyyətlər hansıdır?)* mənbələrlə iş zamanı H.Cavidin yaradıcılığının

ilk mərhələsindən başlayaraq yazdığı şeirlərin ideya-mövzu istiqamətləri, ictimai motivlərin mühüm yer tutması ilə bağlı mülahizələr faktlarla, nümunələrlə əsaslandırılmalıdır. Humanist, işıqlı duyğular, nəcib amalla yaşayıb-yaradan H.Cavid "Mənim tanrım gözəllikdir, sevgidir" deyirdi. Bu qayə onun poema və dram əsərləri ilə yanaşı, təsirli fəlsəfi lirik şeirlərində də öz əksini tapmışdır. Sənətkarın "Kiçik sərsəri", "Çoban türküsü", "İlk bahar" kimi şeirləri nikbinliyi, xeyirxahlığı, insana məhəbbət ruhu, yüksək sənətkarlığı ilə seçilir.

Qadının taleyi, onun mövhumatdan, cəhalətdən uzaqlaşması, qəflət yuxusundan ayılıb, azad, bəxtiyar bir insan kimi ömür sürməsi şairi daim düşündürən ictimai problemlərdən olmuşdur. Üsyankar ruhda yazılmış "Qadın" şeirində o, Şərq qadınını çadranın qara kölgəsindən sıyrılıb çıxmağa, öz haqqı uğrunda mübarizəyə səsləyir.

Şairin poeziyası ilə bağlı fikirlərini bölüşən şagirdlərə aydın olur ki, H.Cavid bəşəriyyətin qadına münasibətini onun mənəviyyatının, mədəniyyətinin məhək daşı sayır. "Qız məktəbində" şeiri müəllimlə məktəbli qızın dialoqu şəklində yazılmışdır. Bu kiçik lirik əsərdəki müəllim obrazı səmimiliyi, xeyirxah təbiəti, həssaslığı ilə seçilir. Məktəbli qızın sadə geyindiyini, bər-bəzəyə aludə olmadığını görən müəllim bunun səbəbini öyrənmək istəyir. Şagirdini ata məhəbbəti ilə sevən müəllim sanki öz zənnində yanılmadığını, həqiqətən də, bu sadə qızcığazın saf mənəviyyat, gözəl əxlaq sahibi olduğunu özü üçün bir daha dəqiqləşdirmək istəyir. Kiçik dialoq vasitəsilə şair oxucunun gözləri önündə sadə, təvazökar, məktəbdə biliklə yanaşı, mərifət, mənəviyyat dərsi alan məktəbli qızın obrazını yaratmışdır.

Humanist şair "Hərb və fəlakət" əsərində bəşəriyyətin sağalmaz xəstəliyinə çevrilmiş müharibələrin insanlara gətirdiyi faciələrdən söz açır, minlərlə insanın bir-birinə qənim kəsilməsini, zorakılığı, insan qanı tökülməsini vəhşilik adlandırırdı. Əsərin adından göründüyü kimi, sənətkar hərb yolunu tutanların bəşəriyyəti fəlakətə sürüklədiyini göstərir.

Dördüncü sualla *(Sənətkarın dramatik əsərlərinin mövzu, problem, konflikt özəlliyi hansılardır?)* bağlı mənbələrdə zəngin məlumat olduğu üçün şagirdlərin diqqəti daha əhəmiyyətli, ən zəruri fakt və nümunələrə yönəldilməlidir. Cavidin dramaturgiyası üçün kəskin həyati konfliktlərin, dövrün çağırışlarından doğan, bu gün də öz aktuallığını saxlayan mövzuların, canlı insan surətlərinin səciyyəvi olduğu aydınlaşdırılmalıdır.

Qeyd edilməlidir ki, Azərbaycan ədəbiyyatında mənzum faciənin ilk nümunəsini Hüseyn Cavid yaratmışdır. 1910-cu ildə yazdığı birpərdəli "Ana" dramı, 1914-cü ildə qələmə aldığı "Şeyx Sənan" faciəsi böyük müvəffəqiyyət qazanmış, onu dramaturq kimi şöhrətləndirmişdir. O, "Maral", "Şeyx Sənan", "İblis", "Uçurum", "Şeyda", "Afət", "Telli saz", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş". "Xəyyam" kimi mənzum və mənsur faciələr, "Azər" poemasını yazmışdır. Tarixi mövzuda yazdığı

faciələrdə H.Cavid Şərq tarixində baş vermiş hadisələrə, tarixi şəxsiyyətlərə müraciət edir, cəsarətlə, uzaqgörənliklə türkçülük ideyalarını ön plana çəkir, milli və ümumbəşəri mənəvi dəyərləri təbliğ edir.

H.Cavidin romantizm üslubunda yazdığı mənzum faciələri Azərbaycan səhnəsində böyük müvəffəqiyyət qazanmışdı. “Şeyx Sənan”, “İblis” faciələri ilə ədib yaradıcılığının ən yüksək zirvəsinə qalxmışdır.

“Şeyx Sənan” mənzum faciəsində dini çərçivələrə sığmayan, ehkamlarla yaşamaqdan imtina edən azad fikirli bir şəxsiyyətin – Şeyx Sənanla gürcü qızı Xumarın saf məhəbbətindən söz açılır. Şair əsərdə bu gənclərin insanpərvərliyini, mənəvi azadlığını, dini sədləri, fanatizmi qırıb dağıdan məhəbbətinin qüdrətini tərənnüm edir. Əsərdə ideal səviyyəsinə qaldırılmış məhəbbət insanın azadlığa, mənəvi ucalığa, səadətə qovuşmasının yeganə vasitəsi kimi qiymətləndirilir.

Müzakirə nəticəsində şagirdlər sənətkarın humanist ideallarını əks etdirən, ayrıca öyrəniləcək “İblis” faciəsi barədə də ilkin biliklərə yiyələnirlər. Müharibə əleyhinə yazılmış bu əsərdə rəmzi İblis obrazı yaradılmışdır. İblis obrazı dünya ədəbiyyatı üçün yeni deyildir. Azərbaycan ədəbiyyatı üçün yeni olan bu mövzunu qələmə alan dramaturq XX əsrin İblisinin müdhiş obrazını yaratmışdır. Bu İblis dünyaya o vaxtadək görünməmiş müharibələr, kütləvi qırğınlar gətirən, zülm üzərində qurulmuş hakimiyyətin rəmzidir.

**Məlumat mübadiləsi** və **müzakirə** kiçik qrupların təqdimatları əsasında aparılır. Təqdimatlarda və müzakirədə şagirdlərin dərslikdəki mətndən öyrəndiklərindən əlavə, daha hansı məlumatlara malik olduqlarının aşkara çıxarılmasına xüsusi diqqət yetirilir.

Müəllimin istiqamətləndirici sualları əsasında ilkin **nəticənin çıxarılması və ümumiləşdirmənin aparılmasına** vaxt ayrılır. Ədibin lirik və epik poeziyasında, mənzum dramaturgiyasında milli və ümumbəşəri mənəvi dəyərlərin yüksək sənətkarlıqla canlandırıldığı barədə ümumi qənaət yaradılır. Yekunlaşdırıcı müsahibə nəticəsində şagirdlər bu qənaətə gəlir ki, şairin yaradıcılığı barədə mətndə əks olunanlar yığcam olsa da, onun lirikası, poemaları, nəsri, tərcümələri barədə müəyyən təsəvvür yaradır. Lakin araşdırma apararaq, mənbələrdən sənətkarın həyat yolu, yaradıcılığı barədə bilikləri dərinləşdirmək və zənginləşdirmək mümkündür. Başlıcası isə şagirdlərdə bu zəngin irsə maraq və heyranlıq hissi yaranır. Onlara aydın olur ki, mütəfəkkir sənətkarın bütün əsərlərində bədii sənətkarlıqla yanaşı, dərin hikmət, fəlsəfi düşüncələr diqqəti cəlb edir.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **H.Cavid. İblis *(ixtisarla)* – 4** saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Faciədə əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması:** fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d.1.2.2. 2.1.1; X.d.1.1.1. 3.1.1; Az.tar.5.1.2.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, “İblis” faciəsindən İblisin monoloqunun video və ya səs yazısı, şairin əsərləri, yaradıcılığı ilə bağlı monoqrafiyalar.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Təqdimatların seçmə yolla dinlənilməsi və müzakirəsi daha məqsədəuyğundur. Bütün hallarda şagirdlərin mənbələrdən necə bəhrələndikləri diqqət mərkəzində saxlanılır. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür. “Allah şeytana lənət eləsin”, “Tamahkar öz nəfsinin quludur” kimi ifadələrdən, atalar sözlərindən istifadə yolu ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim şagirdlərə öz fikirlərini söyləməyi təklif edir. Müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır.

Motivasiya yaradılmasının bir yolu da “Cavid ömrü” filmindən “İblis” faciəsi ilə bağlı epizodun *(https://www.youtube.com/ watch?v= YVposIXvXVI)* səsləndirilməsi və yığcam müzakirəsi ola bilər.

**Tədqiqat sualı:** *İnsanlar uğursuzluğun, şər əməllərin səbəbini daha çox nə ilə izah edirlər?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Faciədən dərslikdə verilmiş birinci pərdədən parçaların oxusu ilə **tədqiqata** başlanılır.

Oxunu fərqli formalarda həyata keçirmək mümkündür. Şagirdlərin marağı nəzərə alınaraq rollar üzrə oxunun tətbiqi faydalıdır. Oxuda tanış olmayan sözlərin mənası və məcazlar müəyyənləşdirilir. Ədibin qızı Turan Cavidin qeydləri şagirdlərin diqqətinə çatdırılır. O, yazırdı ki, H. Cavid öz əsərlərinin “imlasına toxunmamağı” vəsiyyət etmişdir. Odur ki, yeni nərdə əsərin dil-üslubuna toxunulmamışdır.

Təcrübə göstərir ki, əsərin məzmununun mənimsədilməsi zamanı müəllimin istiqamətləndirici suallarına ehtiyac vardır. Şagirdlərin diqqəti əsərin əvvəlində müharibə dəhşətlərinin təsvirinə yönəldilir: “Pərdə açıldıqda Arif bir tərəfdə, taxta bir karyola üzərində əlinə təkyə edərək, uzanıb düşüncəyə dalmış, səhnə qaranlıq, ətrafda göy gurultusu, şimşək çaxışı, tranpet sədaları, top, tüfəng, bomba partlayışları... Qarşıda, səhnənin nihayətində iki böyük göz (pəncərə) atəşlər, alevlər içində dəhşətli bir müharibə təsvir edər. Bir qaç zabit əldə durbin müharibə komandasilə məşğul... Gözlərin birində İblis, digərində Mələk görünür. Gurultudan sonra sükut...”

Əsərin başlanğıcı ilə bağlı müsahibə təhlil dərsində şairin müharibəni nə üçün ən böyük şər adlandırması, tədqiqatçıların faciəni müharibə əleyhinə yazılması fikrinin dərindən qavranılması üçün zəmin yaradır. Bu baxımdan İblisin dili ilə müharibə dəhşətlərini təsvirinin müzakirəsi də faydalıdır.

İ b l i s *(məmnun qəhqəhələrlə)*
Dəryalərə hökm etmədə tufan,
Səhraları sarsıtmada vulkan,
Sellər kibi aqmaqda qızıl qan,
Canlar yaqar, evlər yıqar insan...*(qəhqəhə)*
M ə l ə k
Ya Rəb, bu nə dəhşət, nə fəlakət?
Ya Rəb, bu nə vəhşət, nə zəlalət?
Yoq kimsədə insafü mürüvvət,
İblisəmi uymuş bəşəriyyət!?

*İblisin sürəkli qəhqəhələrilə bərabər, yenə göy gurultusu, top, mitralyoz sədaları başlar. Sonra sükut...*

İblis
*(çılğın qəhqəhələrlə)*
Toplar veriyor aləmə dəhşət,
Dəhşət!.. Qopuyor sanki qiyamət,
Yağmur kibi göydən yağar atəş!..
Atəş!.. Qaralar, dalğalar atəş!..

Müzakirə şagirdlərdə dramaturqun əsəri müharibə səhnələrinin təsviri ilə başlamasının təsadüfi olmaması fikrini yaradır.

İblislə Mələyin müharibə səhnəsinə fərqli münasibətinin müqayisəsi şagirdlərdə bu obrazların xarakterini düzgün dərk etməyə imkan verir:

Ya Rəb, bu nə dəhşət, nə fəlakət?
Ya Rəb, bu nə vəhşət, nə zəlalət?
Yoq kimsədə insafü mürüvvət,
İblisəmi uymuş bəşəriyyət!?

İblisin müstəhzi və sürəkli qəhqəhələrilə bərabər yenə göy gurultusu, top, mitralyoz sədaları başlar. Sonra sükut...

İb l i s

*(çılğın qəhqəhələrlə)*

Toplar veriyor aləmə dəhşət,
Dəhşət!.. Qopuyor sanki qiyamət,
Yağmur kibi göydən yağar atəş!..
Atəş!.. Qaralar, dalğalar atəş!..

M ə l ə k

Ya Rəb, azacıq lütfü inayət!
Qəhr olmada artıq bəşəriyyət.
Başdan-başa həp yer yüzü vəhşət.

Şagirdlərin diqqəti pərdədəki digər epizoda dəhşətli səhnədən sarsılan Arifin hiss və düşüncələrinə yönəldilir:

A r i f

*(Uyqudan oyanır kibi alnını və gözlərini ovuşdurur. Yerindən qalqar, göyə doğru)*

Dünyaları yoqdan yaratan, ey ulu Tanrı!
Ey xaliqi-hikmət!
Duyduqca, düşündükcə olur qəlbimə tarı
Bin şübhəli illət.
...Yerlərdə süründüm, yetişir, göylərə qaldır,
Dindir qucağında,
Qaldır bəni, bir seyr edəyim xoşmu, gözəlmi Cənnətdə mələklər?
Qaldır bəni, ta görməyim insandakı zülmi,
Baq, yer üzü inlər.
Ya Rəb, bu cinayət, bu xəyanət, bu səfalət
Bulmazmı nihayət?
İnsanları xəlq etmədə var bəlkə də hikmət,
İblisə nə hacət!?

Pərdənin məzmununu ardıcıllıqla mənimsəyən şagirdlər İblisin, Mələyin, Arifin xarakteri, düşüncələri ilə bağlı ilkin biliklərə yiyələnirlər. Onlarda həmçinin digər obrazlar – İxtiyar, Xavər, Rəna, İbn Yəmin barədə müəyyən təsəvvür yaranır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda parçaların məzmunu ilə bağlı fikir mübadiləsi aparır, sual və tapşırıqlar əsasında təqdimat hazırlayırlar.

Tədqiqata ayrılmış vaxt bitdikdən sonra təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə təqdimatların fəal dinlənilməsinə, müzakirənin səmərəli keçməsinə nail olur.

Müzakirə zamanı aşağıdakı məsələlərə diqqət yetirilir:

– *hadisələrin Bağdad civarında baş verməsi;*
– *müharibənin dəhşətlərinin təsviri;*
– *müharibənin törətdiyi faciələrə İblisin sevinməsi, Mələyin kədərlənməsi;*
– *Arifin Allaha müraciəti;*
– *İxtiyar şeyxin Arifə qəlbindəki qəzəbi, nifrəti unutmağı məsləhət görməsi;*
– *İblisin Ariflə dialoqunun məzmunu və s.*

Növbəti dərsdə əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** həyata keçirilir.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **H.Cavid. İblis *(ixtisarla)* – 4** saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Faciədə əksini tapmış mühüm milli-mənəvi, bəşəri dəyərləri müəyyənləşdirir. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Mənbələrə əsaslanmaqla mövzu, problemlə bağlı çıxışlarında bədii-emosional ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Mövzuya, problemə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.

**İş forması:** fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d.1.2.2. 2.1.1.; X.d.1.1.1. 3.1.1.; Az.tar.5.1.3.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, İblisin monoloqunun video və ya səs yazısı, şairin əsərləri, həyat və yaradıcılığı ilə bağlı monoqrafiyalar.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi yığcam müsahibə ilə aşkara çıxarılır. Faciədən ixtisarla verilmiş pərdələrin məzmununun hansı səviyyədə qavranıldığı, tanış olmayan sözlərin, məcazların necə müəyyənləşdirildiyi aydınlaşdırılır.

Şagirdlər kiçik qruplarda oxuduqları pərdələrdəki mühüm fikirlər, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərini bölüşür, fikir mübadiləsi aparırlar. Bu, mənimsənilənlərin dəqiqləşdirilməsinə, zənginləşdirilməsinə imkan yaradır. Qruplar daha sonra dərslikdə təklif edilmiş suallara cavab hazırlayırlar.

Qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi təmin edilir. Müzakirədə daha çox şagirdin iştirakına və onun diskussiya səciyyəli olmasına diqqət yetirilir. Əsərin məzmunu üzrə müzakirə zamanı ikinci pərdədə İblislə Arifin söhbətinin məzmununa xüsusi diqqət yetirilir. Şagirdlərə aydın olur ki, bu pərdədə Arifin İblisin fitnəsinə uyması, insanın öz arzusuna çatmaq üçün altun, silah əldə etməsinin zəruriliyinə inanması, şərab içməsi gələcək faciələrin əsasını qoyur. Üçüncü pərdədə Arifin günahsız Xavəri qətlə yetirməsi onun artıq iblisə çevrilməsi kimi mənalandırılır. Digər pərdələrin məzmunu üzərində iş bu qayda ilə davam etdirilir.

Arifin artıq İblisə uyaraq şərab içməyə başlamasını və bu yolla da içkiyə qurşandığını göstərən parçanın məzmunu üzrə işə xüsusi diqqət yetirilir. Hadisələrin gedişinin izlənilməsi və müzakirəsi cinayət yolu ilə altun və silah əldə edən, qatilə çevrilən Arifin mənəvi cəhətdən tam iflası barədə təsəvvür yaradır:

A r i f

*(laübali qəhqəhə ilə cibindən bir revolver çıqarır)*
Hiç qorqma, yanımda həm silah var,
Həm altın... Əvət, nasıl da parlar!..

*Bir avuc altın çıqarır, əlində oynatıb cibinə qoyar. H a y d u t l a r arqa tərəfdə, ağaclar arasında görünür. Heyrətlə onları dinlərlər.*

R ə n a

Nerdən sana anlamam şu sərvət?

A r i f

*(məğrur qəhqəhə ilə)*

Bir arqadaşımdan oldu qismət,
Yoldaşdı bənimlə bir yəhudi,
Pəncəmdə həlak olub boğuldu,
Sərraf idi, həm də xeyli zəngin...

*Kənardan İblisin mənalı və istehzalı qəhqəhələri eşidilir.*

R ə n a

Sus, bir ləkədir bu söz səninçin;
Beş altına qarşı bunca vəhşət!?

Şagirdlərin diqqəti son pərdədə İblislə qardaş qatilinə çevrilmiş Arifin dialoquna yönəldilir. İblisin monoloqunun məzmunu barədə şagirdlərin fikirləri öyrənilir.

Bensiz də əmin ol, sizə rəhbərlik edən var:
Qan püskürən, atəş savuran kinli krallar,
Şahlar, ulu xaqanlar, o çılğın dərəbəglər,
Altın və qadın düşkünü divanə bəbəklər,
Bin hiylə quran, tülki siyasilər, o hər an
Məzhəb çıqaran, yol ayıran xadimi ədyan;
Onlarda bütün fitnəvü-şər, zülmü xəyanət,
Onlar duruyorkən bəni təhqirə hə hacət?!
...İblis nədir?
– Cümlə xəyanətlərə bais!
Ya hər kəsə xain olan insan nədir?
– İblis!

**Nəticənin çıxarılması və ümumiləşdirmənin aparılmasında** müəllim istiqamətləndirici suallardan istifadə edir. Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **H.Cavid. İblis *(ixtisarla)* – 4** saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir. | İfadəli oxudan faciənin emosional-obrazlı qavranılması məqsədilə istifadə edir. |
| **1.2.2.** Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Faciədəki obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Faciənin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. |
| **2.1.2.** Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır | Faciənin dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d. 1.2.2.1.2.4 ; X.d. 2.1.1.2.1.2. 3.1.4.; Az.tar.5.1.3.
**Təchizat:** dərslik, iş vərəqləri, "İblis" faciəsi üzrə tamaşanın video və ya səs yazısı, şairin əsərləri, yaradıcılığı ilə bağlı monoqrafiyalar.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsini müsahibə və ya bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi yolu ilə aydınlaşdırmaq, real vəziyyəti müəyyənləşdirmək olar. Hər iki halda əsərdən İblisin son monoloqunun ifadəli oxusu ilə bağlı şagirdlərin rəyi dinlənilməli, ifaçılıq vəzifəsi, nitq texnikası, ifaçının qarşıya qoyduğu məqsədə necə nail olduğu aydınlaşdırılmalıdır.

Nağıletmə ilə bağlı dinlənilən nümunələrin müzakirəsinə vaxt ayrılır.

Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya suallardan istifadə ilə yaradıla bilər. Şagirdlərə həyatda kimə iblis, şeytan deyildiyini müəyyənləşdirməyi təklif edən müəllim yığcam müsahibənin sonunda tədqiqat sualını formalaşdırır.

**Tədqiqat sualı:** *Faciəli hadisələrdən bəhs edən əsər yazması dramaturqa hansı niyyətini ifadə etməyə imkan yaratmışdır?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Dərslikdəki suallar və onların araşdırılmasına istiqamət verən cavabların oxusu ilə tədqiqata başlanılır. Həcmi böyük olmayan mətnin fərdi və ya cütlük şəklində oxusunu təşkil etmək məqsədəuyğundur. Faciədən oxunmuş pərdələrin məzmunu üzrə qazanılmış biliklər əsərin mövzusu, ideyası barədə fikir yürütməyə imkan verir.

Kiçik qruplar oxuduqları mətn və dərslikdəki tapşırıqlarla bağlı fikir mübadiləsi aparır, təqdimata hazırlaşırlar.

**Tədqiqatın aparılması**

Şagirdlər kiçik qruplara ayrılır, iş vərəqlərindəki sual və tapşırıqlar üzərində işləyirlər.

**I qrup**

*a) "İblis nə üçün insanları ittiham edərək, "canlar yaqar, evlər yıqar insan" deyir?*
*b) İblis surətinin təsviri ilə müəllif hansı həqiqəti ifadə etmək istəyir?*
*c) Müharibə faciəsinin səbəbkarı kimi İblisi seçməkdə müəllifin niyyəti nədir?*
*ç) İblis onu lənətləyən insanların yanına bir əlində "altun", bir əlində "qurşun" gəlməklə nə demək istəyir?*

**II qrup**

*a) Arifi həqiqət axtarıcısı saymaq olarmı?*
*b) Arifin qəlbində hansı hisslərin, düşüncələrin mübarizəsi gedir?*
*c) Arifin çağırışına İblisin səs verməsi nə ilə bağlıdır?*
*d) Əsərin əvvəlində Allahdan imdad diləyən Arifin qatilə çevrilməsinin səbəbi nədir?*

**III qrup**

*a) Ədib nəyi ən böyük şər hesab etdiyi müharibənin əsas səbəbi sayır?*
*b) Dramaturq faciəvi konfliktin həlli yolunu nədə görür?*
*c) H.Cavidin insanın qüsurunu ən sərt boyalarla tənqid etməkdə məqsədi nədir?*
*d) İnsanlar birləşib İblisi öz aralarından qovmaqla şərdən azad ola bilirlərmi?*

**IV qrup**

a) *Əsərin əvvəlində sevinc içində olan İblisin və Allaha yalvaran Mələyin təsviri ilə ədib nə demək istəyir?*

b) *Əsərin sonunda bütün şər işlərdə İblisi günahkar sayan insanlar haqlıdırmı?*

c) *İblisin Arifə müraciətlə dediyi bu sözlərin mənasını şərh edin.*

*Get, lakin o hörmət və məhəbbət*
*Bir gün doğurar qanlı ədavət.*
*Get, bəllidir insandakı xislət;*
*Sizlərdəki ülfət; sonu vəhşət,*
*Sizlərdəki şəfqət; sonu nifrət,*
*Sizlərdəki rəhmət; sonu lənət.*

d) *Əsərin sonundakı monoloqunda İblisin söylədikləri hansı həqiqəti əks etdirir?*

**V qrup**

H.Cavid bəşəriyyətin çıxış yolunu nədə görürdü? Aşağıdakı parçalardan istifadə etməklə fikrinizi əsaslandırın.

a) *Turana qılıcdan daha kəskin ulu qüvvət,*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət.*

b) *Kəssə hər kimsə tökülən qan izini*
*Qurtaran dahi odur yer üzünü.*

c) *Hər qulun cihanda bir pənahı var,*
*Hər əhli-halın bir qibləgahı var.*
*Hər kəsin bir eşqi, bir ilahı var;*
*Bənim Tanrım gözəllikdir, sevgidir.*

Müəllim qrupdaxili müzakirələrə nəzarət edir, zəruri hallarda şagirdlərin tədqiqatını məsləhətləri ilə istiqamətləndirir.

**Qazanılmış biliklərin mübadiləsi və müzakirəsi.** Ayrılmış vaxt bitdikdən sonra qrup sözçülərinin təqdimatları dinlənilir. Müəllim hər sözçünün çıxışından sonra həmin qrupun digər üzvlərinə müraciət edərək təqdimatla bağlı əlavələrinin olub-olmadığını soruşur. Sonra digər qrupların üzvlərinin sözçüyə sualları cavablandırılır, fikir mübadiləsi aparılır.

Müzakirə zamanı qeyd edilir ki, əsərin ilk pərdəsində qaranlıq səhnədə, uzanıb düşüncələrə dalmış Arifin təsviri, İblislə Mələyin gəlişi rəmzi məna daşıyır. İblis bəşər övladının törətdiyi fəlakətlərdən məmnun qalaraq bütün əsər boyu insanları təqib edir, onları öz qurbanına çevirməyincə sakitləşmir. İnsanların Allahdan, haqqın nurundan uzaq düşməsindən, faciəli əməllərindən dəhşətə gələn Mələk isə onları tərk edir.

Şagirdlər qarşısında dəqiqləşdirici problemli sual qoyulur: *Necə oldu ki, əvvəlcə Allahdan imdad istəyən, həqiqət axtaran Arif axırda qatilə*

*çevrildi? Arifin mənəvi iflasında, faciəsində günahkar kimdir?*

Şagirdlərin diqqəti ilk səhnədə İblisin və Mələyin qanlı səhnələrə münasibətindəki fərqlərə yönəldilir. Müzakirə zamanı belə qənaət yaradılır ki, ilk səhnədə İblis və Mələyin sözlərində, gördükləri dəhşətlərə münasibətdə həyatda iki qütbün – xeyirlə şərin mübarizəsi, qarşılaşdırılması öz əksini tapır. Bu qarşılaşmada iki qüvvənin bir-birinə zidd mövqeyi üzə çıxır. İnsanlar baş verən şər işlərdə İblisi günahlandırır, lənətləyir, İblis isə insanların törətdiyi cinayətləri onların öz əməllərinin nəticəsi sayır. Əsərdəki konflikt də bu qarşılaşmadan doğur: Arifin təbiətində, taleyində özünü büruzə verən bu qarşılaşmada kim qalib gələcək: Mələk, yoxsa İblis? Ondakı humanizm, məhəbbət, mədəniyyət, yoxsa nəfs, mənfi ehtiraslar?

Şagirdlər həyatdakı real iblislərin – şərə uymuş, öz nəfsinin quluna çevrilmiş kinli krallar, şahlar, ulu xaqanlar, tülkü siyasilər, məzhəb çıxaran, yol ayıran xadimi-ədyanların iç üzünü açan bu monoloqu, eləcə də əsərdəki digər obrazları təhlil edir, onlara əsaslandırılmış münasibət bildirirlər.

Qeyd edilir ki, Arifin dünyadakı zülmü görməmək üçün göylərə qaldırılmaq istəyi, yalvarış sədaları cavabsız qalır, çünki o, hələ Allahın eşidə biləcəyi mənəvi kamillik səviyyəsinə çatmamışdır. Bunu onun sonrakı əməlləri də sübut edir. Arif yaşadığı mühitin, altun, şərab, silahın pozucu təsiri ilə dəyişir, həqiqət axtaran, bəşərin səadəti haqqında xəyallara dalan romantik ruhlu bir gəncdən qardaşı Vasifin və bir zamanlar sevdiyi Xavərin qatilinə çevrilir.

Əsərdə Ariflə yanaşı, şəri təmsil edən digər obrazlar da diqqəti cəlb edir. Vaxtilə müqəddəs kitab – "İncil" adı ilə Ermənistana qurşun, silah-sursat daşımış erməni keşişi, Ərəbistanı qarışdıran, Dəccala uymuş fransız casusu, nəfsinə uyub ingilis dəllalına çevrilmiş İran şeyxi, qatil və soyğunçuya çevrilmiş ərəb zabiti İbn Yəmin obrazları ilə dramaturq şərin miqyasını, bəşəriyyətin bəlasına çevrildiyini göstərmək istəmişdir. İnsanların səadətini arzulayan Mələklə yanaşı, qeyrətli zabit olan Vasif, ədalət məhkəməsi qurub xainləri, qatilləri cəzalandıran Elxan xeyiri təmsil edən obrazlardır.

İnsanlığın çıxış yolunu H.Cavidin nədə gördüyünü aydınlaşdıran şagirdlər qeyd edir ki, şair nicatı humanizmdə, insana məhəbbət və mədəniyyətdə, maarifdə görürdü. Digər sual əsərin ideyasını, müəllif mövqeyini dəqiqləşdirməyə xidmət edir: "Dramaturqun insan xislətindəki qüsurlardan söz açmaqda niyyəti nədir?"

Müzakirə zamanı şagirdlərə aydın olur ki, müəllif bu qüsurları acı təəssüf hissi ilə göstərməklə onların insana yabançı, dağıdıcı mahiyyətini açmaq, oxucunu, tamaşaçını ayıltmaq, düşündürmək istəmişdir. Sənətkarın fikrincə, xeyirxahlığın da, şərin də mənbəyini göylərdə deyil, cəmiyyətdə, insanların daxilində, mənəviyyatında axtarmaq lazımdır.

**Yaradıcı tətbiqetmə** mərhələsində şagirdlər qazandıqları bilik və bacarıqları tətbiq etməklə belə bir sual üzrə mülahizələrini bildirirlər: "Əsərin yazıldığı dövrdən yüz ilə yaxın bir vaxt keçir. Dramaturqun qaldırdığı problemlər müasir dövrdə öz aktuallığını saxlayırmı?" Şagirdlər bildirirlər ki, yaşadığımız dövrdə də insanın qarşısında xeyirə

tapınmaq, öz təbiətindəki şərdən xilas olmaq vəzifəsi durur. Şər qüvvələrin törətdiyi, bəşəriyyətin sağalmaz xəstəliyinə çevrilmiş ədalətsiz müharibələr, torpaqların işğalı, "altun və qurşuna" güvənmək bu gün də dünyanın acı reallığıdır. İnsanın "nuri-həqiqət" axtarışları hələ də davam edir. Öz idrakının gücü ilə kosmosu fəth edən, ən yeni texnologiyaları kəşf edən insan xislətindəki şərlə bacarmır, ondan xilas olmaqda hələ də acizdir.

**Nəticə və ümumiləşdirmə** mərhələsində qazanılmış bilik və bacarıqlar əsasında tədqiqat sualı üzrə araşdırma və müzakirələr yekunlaşdırılır. Müzakirədə belə bir nəticə çıxarılır ki, müəllifin niyyəti bəşəriyyətə faciələr gətirən müharibə quzğunlarını ifşa etməklə yanaşı, bəd əməllərin, xəyanətlərin, rəzalətlərin, ədalətsizliklərin mənbəyinin insanların şərə uymasında, altun və rəyasət düşkünlüyündə, öz ehtiraslarının quluna çevrilməsində olduğunu açıb göstərməkdir. Əsər müharibə əleyhinə yazılsa da, hərbin dəhşətlərinə, insanlara gətirdiyi faciələrə münasibət bildirilsə də, sənətkarın fikrincə, müharibə səbəb deyil, nəticədir.

Aparılan işlər yekunlaşdırıldıqdan sonra qiymətləndirmə həyata keçirilir.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **H.Cavid. İblis** ***(ixtisarla)*** **– 4** saat

*Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş.**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir. | İnşanın (essenin) məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratından istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla faciənin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3,5-4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | Təhlil xarakterli inşa, esse yazır. |

**Dərsin tipi**: induktiv, nitq inkişafı.
**İş forması**: fərdi iş, böyük qrupda (ütün siniflə) iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d. 3.1.1. 3.1.2. 3.1.3.; X.d. 4.1.1. 4.1.2. 4.1.3.; Az.tar.5.1.3.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, faciə üzrə tamaşadan bir parçanın video və ya səs yazısı, şairin əsərləri, yaradıcılığı ilə bağlı monoqrafiyalar.

**Dərsin gedişi**

**Motivasiya, problemin qoyuluşu.** Dərsdə vaxtın çoxu yazı işinin yerinə yetirilməsinə ayrılır. Şagirdlərin diqqəti dərslikdə təklif olunmuş mövzulara yönəldilir: *a) "Arifin faciəsinin səbəbini nədə görürəm" mövzusunda inşa yazın; b )"Çağdaş şər qüvvələr haqqında düşüncələrim" mövzusunda esse yazın.*

Şagirdlərin inşa və esse ilə bağlı bilik və bacarıqlarının yada salınması məqsədilə yığcam müsahibə aparılır. Bu, tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

**Tədqiqat sualı:** *Faciə üzrə təhlil xarakterli inşa və essenin başlıca xüsusiyyətləri hansılardır?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Yazı işlərinin yerinə yetirilməsi **tədqiqatın aparılması** mərhələsi kimi qəbul olunur.

İşə başlamazdan əvvəl yığcam müsahibə aparılır. Müxtəlif mənbələrdən seçilmiş faktlardan inşada necə istifadə ediləcəyinə aydınlıq gətirilir. Eləcə də faciədə ifadə edilmiş ideyalara, problemlərə, obrazlara münasibət bildirərkən şəxsi təəssürat və əlavə məlumatlara əsaslanmağın, müasir dövrlə əlaqələndirməyin yolları müəyyənləşdirilir.

Şagirdlərə inşa, essenin yazılmasında fikrin ifadə tərzinin, üslubun müəyyənləşdirilməsi ilə bağlı tövsiyələr verilir. Şəxsi hislərin, düşüncələrin, müstəqil dəyərləndirmənin yer aldığı essedən fərqli olaraq, inşada elmi üslubun aparıcı olduğu xatırladılır.

Müxtəlif mənbələrdən əldə olunmuş məlumatların saf-çürük edilməsi, daha tutarlı, inandırıcı olanlardan istifadə edilməsi inşada elmi üslubun çalarlarını xeyli zənginləşdirir. Essedə obrazlılığa, məcazlardan gen-bol istifadəyə, fikrin sərbəst ifadəsinə, şəxsi hiss və təəssüratın çatdırılmasına daha geniş yer verilməsi isə üslubda bədii çalarların güclənməsinə səbəb olur.

Müsahibədə faciədə qaldırılmış problemlərin müasir dövrlə əlaqələndirilməsinin zəruriliyi diqqətə çatdırılır. Yığcam müsahibədə şagirdlər qeyd edir ki, əsərin yazıldığı dövrdən yüz ilə yaxın bir vaxt keçir. Dramaturqun qaldırdığı problemlər müasir dövrdə öz aktuallığını saxlayır. Yaşadığımız dövrdə də insanın qarşısında xeyirə tapınmaq, öz təbiətindəki şərdən xilas olmaq vəzifəsi durur. Şər qüvvələrin törətdiyi, ədalətsiz müharibələr bu gün də dünyanın acı reallığıdır. Yaşadığımız dövrdə şəri təmsil edən erməni işğalçılarının öz havadarlarının köməyi ilə torpaqlarımızı işğal etməsi ilə barışmayan xalqımız bu ədalətsizliyi tezliklə aradan qaldıracaq, vətənimizi düşməndən azad edəcəkdir.

Yazının yerinə yetirilməsi prosesini diqqətlə müşahidə edən müəllim, yeri gəldikcə, şagirdlərə istiqamətləndirici tövsiyələr verir.

Yazı işinin və müzakirənin hansı formada təşkilindən asılı olmayaraq, şagirdlərin fərdi qiymətləndirilməsi həyata keçirilə bilər. Bu, dərsdə reallaşdırılmış məzmun standartlarına müvafiq olaraq müəyyənləşdirilən meyarlar əsasında həyata keçirilir.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## Mənbələr


1. Heydər Əliyev və mədəniyyət. 3 cilddə. Bakı: Nurlar, 2008.
2. Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi: müasir baxış və konseptual yanaşmalar.// Azərbaycan məktəbi, 2007 N 4.
3. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2009.
4. Azərbaycan Respublikasında ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası.// Kurikulum, 2009, N 2.
5. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan müəllimi qəzeti.25 okt 2013. N 41 (8558).
6. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu. 2006.
7. Arif M. Seçilmiş əsərləri. I-III cild. Bakı, 1967.
8. Aslanov Y. Ədəbiyyat tədrisi: ənənə və müasirlik. Bakı: APU-nun nəşri, 2011.
9. Bəylərov E. Formativ qiymətləndirmə. Kurikulum, 2009 N 2.
10. Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu.Bakı: Elm, 1977.
11. Cəfərov M.C. Sənət yollarında. Bakı: Gənclik, 1975.
12. Cəfərov N. Klassiklərdən müasirlərə. Bakı: Çaşıoğlu, 2004.
13. Энциклопедия интерактивного обучения. Е.Пометун. Киев, 2007.
14. Əlişanoğlu T.Azərbaycan "yeni nəsr"i. Bakı: Elm, 1999.
15. Ərəb-fars sözləri lüğəti. I-II cild. Bakı: Şərq-Qərb, 2005.
16. Əsgərli Z. Poetika. İzahlı sözlük.Bakı:Elm, 2014, 262 s.
17. İnnovativ təlim metodları və texnologiyaların tezaurusu. Bakı: XXI Əsr Təhsil Mərkəzi, 2014.
18. Krouford A., Vendi Soul E., Metyu S., Makinster C. Düşünən sinif üçün öyrətmə və öyrənmə üsulları. Bakı, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, 2012.
19. Qarayev Y. Azərbaycan ədəbiyyatı. XIX və XX yüzillər. Bakı: Elm, 2002. Bakı: EA-nın nəşriyyatı, 1965.
20. Методика преподавания литературы. В 2-х частях. Под ред. О.Ю.Богдановой, В.Г.Маранцмана.М.:Просвещение, 1995.
21. Mikayılov Ş.,Bəkirova A., Əliyeva Ş. V-XI siniflərin ədəbiyyat dərslərində təlim texnologiyalarından kompleks şəkildə istifadə. Bakı:Çaşıoğlu, 2008.
22. Mir Cəlal, P.Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1988.
23. Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. Bakı:Maarif, 1992.
24. Müasir Azərbaycan ədəbiyyatı. I-II cild.Bakı:Bakı Universiteti. 2007.
25. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. I-II cild. Bakı: Elm və təhsil. 2016.
26. Müəllim hazırlığının və orta təhsilin perspektivləri. (Qərb təhsil sisteminin təcrübəsi əsasında). Müəllim üçün vəsait. Bakı,İREX, 2005.
27. Osmanlı V. Azərbaycan romantikləri. Bakı: Yazıçı, 1985.
28. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Müəllim üçün vəsait. Bakı, İREX, 2005.
29. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 1996.

30. Hacıyev T. Yazıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979.
31. Həbibbəyli İ. Ədəbi şəxsiyyət və zaman.Bakı: Elm və təhsil. 2017.
32. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı:Elm, 2019.
33. Həsənli B.A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016.
34. Həsənli B., Abdullazadə. N. İfadəli oxu. Bakı:Müəllim, 2015.
35. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009.
36. Hüseynoğlu S. İfadəli oxunun əsasları. Bakı: ADPU-nun nəşri, 2009.
37. Hüseynov A. Nəsr və zaman. Bakı: Yazıçı, 1980.
38. Salamoğlu T. Müasir Azərbaycan ədəbiyyatı. Bakı, 2012.
39. Salamoğlu T. Azərbaycan ədəbiyyatının müasir problemləri. Bakı:EL NPŞ. 2014.
40. Ümumi təhsilin fənn standartları. (I-XI siniflər)Bakı :Mütərcim. 2012.
41. Veysova Z.A. Fəal/interaktiv təlim. Bakı, 2007.
42. Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. Bakı: Elm, 1999.
43. Yusifov F. A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: ADPU-nun nəşri. 2010.

*BURAXILIŞ MƏLUMATLARI*

**Ədəbiyyat – 11**
*Ümumi təhsil müəssisələrinin 11-ci sinifləri üçün ədəbiyyat fənni üzrə dərsliyin (qrif nömrəsi: 2023-052) metodik vəsaiti*

**Tərtibçi heyət:**

Müəlliflər: **Soltan Hüseyn oğlu Əliyev**
**Bilal Ağabala oğlu Həsənov**
**Aynur Cəfər qızı Mustafayeva**

Nəşriyyat redaktoru **Kəmalə Abbasova**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Pərviz Məmmədov**
Korrektor **Aqşin Məsimov**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2023**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 11,6. Fiziki çap vərəqi13.
Şriftin adı və ölçüsü: School qarnituru 10-12 pt. Səhifə sayı: 208.
Kağız formatı: 70×1001/16. Kəsimdən sonra ölçüsü 16,5×24,0
Sifariş __ . Pulsuz. Bakı – 2023.

Nəşr məhsulunu hazırlayan:
**“Bakı” nəşriyyatı** (Bakı, H.Seyidbəyli küç., 30)